United Nations

HUMAN RIGHTS
OFFICE OF THE HIGH COMMISSIONER

in cooperation with the

International Bar Association

the global voice of the legal profession



# Human Rights in the Administration of Justice

## A Facilitator's Guide on Human Rights for Judges, Prosecutors and Lawyers

United Nations

UNITED NATIONS
HUMAN RIGHTS
OFFICE OF THE HIGH COMMISSIONER

in cooperation with the

International Bar Association

the global voice of the legal profession

# ƏDALƏT MÜHAKİMƏSİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ İNSAN HÜQUQLARI

## Hakimlər, Prokurorlar və Vəkillər üçün İnsan Hüquqları üzrə Fasilitator Bələdçisi

Peşəkar təlim seriyaları № 9/Add.1

Birləşmiş Millətlər
Təşkilatı
Nyu York və Cenevrə, 2011

**QEYD**

Bu nəşrdə diqqətə yetirilən materiallar Birləşmiş Millətlər Təşkilatı Katibliyinin hər hansı ölkə və ərazinin, şəhər və məkanın və ya onun hakimiyyət orqanlarının hüquqi statusu, yaxud onun sərhədlərinin təyini ilə bağlı mövqeyini əks etdirmir.

HR/P/PT/9/Add.1

© 2011 Birləşmiş Millətlər Təşkilatı
Bütün dünya üzrə hüquqlar qorunur

# Mündəricat


Fasilitator Bələdçisinin məqsədi və istifadəsi.....................................v

Kursun açılışı: giriş sessiyası........................................................vii

**1-ci fəsil**
BEYNƏLXALQ İNSAN HÜQUQLARI HÜQUQU VƏ HÜQUQ PEŞƏLƏRİNİN ROLU: ÜMUMİ TANIŞLIQ.........................................1

**2-ci fəsil**
ƏSAS UNİVERSAL İNSAN HÜQUQLARI MEXANİZMLƏRİ VƏ ONLARIN TƏTBİQİ FORMASI
və
**3-cü fəsil**
ƏSAS REGİONAL İNSAN HÜQUQLARI MEXANİZMLƏRİ VƏ ONLARIN TƏTBİQİ FORMASI...........................................................................9

**4-cü fəsil**
HAKİMLƏRİN, PROKURORLARIN VƏ VƏKİLLƏRİN MÜSTƏQİLLİYİ VƏ QƏRƏZSİZLİYİ..........................................................19

**5-ci fəsil**
İNSAN HÜQUQLARI VƏ TUTULMA, HƏBS, İNZİBATİ HƏBS...........................................................................29

**6-cı fəsil**
ƏDALƏTLİ MƏHKƏMƏ ARAŞDIRMASI HÜQUQU
I HİSSƏ: İBTİDAİ ARAŞDIRMADAN MƏHKƏMƏYƏ QƏDƏR..........................................................................43

**7-ci fəsil**
ƏDALƏTLİ MƏHKƏMƏ ARAŞDIRMASI HÜQUQU
II HİSSƏ: MƏHKƏMƏDƏN YEKUN QƏRARA QƏDƏR..........................................................................57

**8-ci fəsil**
AZADLIQDAN MƏHRUM EDİLƏN ŞƏXSLƏRİN MÜDAFİƏSİNİN BEYNƏLXALQ HÜQUQİ STANDARTLARI.......................................73

**9-cu fəsil**
ƏDALƏT MÜHAKİMƏSİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ HƏBSLƏ BAĞLI OLMAYAN QƏTİMKAN TƏDBİRLƏRİNDƏN İSTİFADƏ...........................85

**10-cu fəsil**
ƏDALƏT MÜHAKİMƏSİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ UŞAQ HÜQUQLARI..........................................................................93

**11-ci fəsil**
ƏDALƏT MÜHAKİMƏSİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ QADIN HÜQUQLARI……………………………………………………….......105

**12-ci fəsil**
DİGƏR ƏSAS HÜQUQLAR:
DÜŞÜNCƏ, VİCDAN, DİN, ETİQAD, İFADƏ, BİRLƏŞMƏK VƏ TOPLAŞMAQ HÜQUQLARI……………………………………….........117

**13-cü fəsil**
ƏDALƏT MÜHAKİMƏSİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ BƏRABƏRLİK VƏ QEYRİ-AYRISEÇKİLİK HÜQUQU.........................................137

**14-cü fəsil**
İQTİSADİ, SOSİAL VƏ MƏDƏNİ HÜQUQLARIN QORUNMASINDA MƏHKƏMƏLƏRİN ROLU …………...........................................149

**15-ci fəsil**
CİNAYƏT VƏ İNSAN HÜQUQLARI POZUNTULARININ QURBANLARININ MÜDAFİƏSİ VƏ DƏYMİŞ ZİYANIN ÖDƏNİLMƏSİ.......................................................................161

**16-cı fəsil**
FÖVQƏLADƏ VƏZİYYƏT ZAMANI ƏDALƏT MÜHAKİMƏSİNİN HƏYATA KEÇİRİLMƏSİ……..............................................................177

# Fasilitator Bələdçisinin məqsədi və istifadəsi

Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığı (OHCHR) tərəfindən Beynəlxalq Vəkillər Assosiasiyası ilə əməkdaşlıq çərçivəsində hazırlanan *Ədalət Mühakiməsinin həyata keçirilməsində İnsan Hüquqları* üzrə təlim materialları *Vəsaitdən* və hazırki *Fasilitator Bələdçisindən* ibarətdir. Bu qurumlar birlikdə insan hüquqları prinsiplərini və normalarını peşə fəaliyyətində tətbiq etmək məqsədilə peşəkar hüquqşünaslar üçün insan hüquqları sahəsində kursların təşkilinə dəstək verir. Bu tədris resurslarının və görülən tədbirlərin əsas məqsədi yerli hüquqi prosedurların gedişində və onlar vasitəsilə insan hüquqlarının müdafiəsini gücləndirməkdir.

*Vəsait* beynəlxalq insan hüquqları hüququ, universal və regional orqanlar, eləcə də milli məhkəmələrin təcrübəsi barədə ümumi məlumat verir. Hər bir fəsil spesifik insan hüquqları sahəsinə ünvanlanır. Kursun davamiyyətindən, xarakterindən və iştirakçıların növlərindən asılı olaraq ən uyğun sahələrin və materialların seçilməsi zəruri ola bilər.

Hazırki *Fasilitatorun Bələdçisi Vəsaitə* əsaslanmaqla seminar və kursların təşkilinə cəlb edilən təlim menecerlərinə və resurs işlərinə məsul şəxslərə yardım etməyi hədəfləyir. Bu, iştirakçıları öz peşə bilgilərini beynəlxalq insan hüquqları standartlarının səmərəli tətbiqi ilə bağlı birgə təhsilə yönləndirməklə fəal rol oynamağa stimullaşdıran təlim metodologiyasına əsaslanır.

Kursun gedişində auditoriyanı idarə etmək və iştirakçıların ehtiyaclarını qiymətləndirmək və yenidən qiymətləndirmək üçün öz təcrübə və bacarığından yararlanmaq hər zamankı kimi fasilitatorun özündən asılıdır. Bu mənada təklif edilən material bir qədər sərbəstliklə istifadə edilməlidir. Fasilitatorlar və təlim menecerləri ən uyğun materialı seçə bilərlər. Təqdimatlar, nümunələr, kazuslar və rol oyunları müvafiq hüquq sistemlərini özündə əks etdirmək və xüsusilə maraqlı məsələləri hədəfləmək üçün uyğunlaşdırılmalıdır.

*Fasilitatorun Bələdçisinin* strukturu *Vəsaitin* strukturunu yaxından davam etdirir. Kursun açılış sessiyasının təşkilini müəyyən edən birinci moduldan sonra *Bələdçi* müzakirə üçün suallar, planlaşdırma cədvəlləri, çalışmalar, kazusla iş və rol oyunları şəklində olan tədris vasitələri, eləcə də *Vəsaitin* hər fəsli üçün nümunəvi slayd-təqdimatlar təklif edir. Bu vasitələr müxtəlif sessiyaların öyrənmə məqsədlərinə cavab verməyi hədəfləməli, heç bir halda fasilitatorun digər faydalı və düşündürücü sual və çalışmalar təqdim etmək azadlığını məhdudlaşdırmamalıdır.

Təklif edilən **suallar** sadəcə soruşula bilən sualları göstərir. Bəzən elə hallar ola bilər ki, bəzi fasilitatorlar sualı iştirakçılara birbaşa formada verməkdə çətinlik çəkə bilərlər və eyni nəticə əldə etmək üçün sualların dolayı yolla soruşulması arzuolunandır.

Bundan başqa **planlaşdırma cədvəlləri** sadəcə olaraq mövcud vaxtın necə idarə edilməsinin göstəricisidir. Hər sessiyaya sərf edilən zaman kursun davamiyyətindən asılı olacaq. Bu mənada cədvəllərə görülə biləcək işlər nümunəsi kimi baxıla bilər və kursu təşkil etmək qalan vaxtdan və auditoriyanın ehtiyaclarından asılı olaraq təşkilatçıların üzərinə düşür.

Hər fəsildə yer alan ilkin sadə çalışmalar istisna olmaqla, *Bələdçi*də təqdim edilən **kazuslar və rol oyunları** bəzi hallarda çox çətin ola bilər. Bu, məsələn, müharibə və ya münaqişədən yenicə çıxan və təkcə siyasi və sosial strukturlarını deyil, həmçinin məhkəmə və hüquq peşələrini yenidən qurmalı olan ölkə üçün xarakterik ola bilər. Belə durumlarda fasilitatorun vəzifəsi iştirakçıların ehtiyaclarını dəyərləndirmək və materialları adekvatlıq və faydalılıq baxımdan mövcud duruma uyğunlaşdırmaqdan ibarətdir.

Bu *Bələdçi* İnsan Hüquqları üzrə Ali Komissarlıq tərəfindən dərc edilən iki metodoloji təlim vasitəsi ilə tamamlanıb və birgə götürülməklə istifadə edilməldir.:

- *İnsan Hüquqları Təlimi: İnsan Hüquqları Təlimi Metodologiyası barədə Vəsait* (Peşəkar Təlim Seriyaları №6) peşəkar auditoriya üçün insan hüquqları təliminə, eləcə də təlimçilər üçün səmərəli texnika və məsləhətlərə dair ümumi rəhbər prinsipləri vurğulayır; və
- *İnsan Hüquqları Təlimi Fəaliyyəti: İnsan Hüquqları Tədrisçiləri üçün* (Peşəkar Təlim Seriyaları №18) EQUITAS- İnsan Hüquqları Təhsili üzrə Beynəlxalq Mərkəzi ilə birgə dərc edilib. Bu bələdçi təhsilin qiymətləndirilməsində müvafiq araşdırma və təcrübəni bölüşür, vasitələr və texnika nümunələri ilə insan hüquqları təlimi prosesi vasitəsilə dizayn, çatdırılma və davamlılıq da daxil olmaqla qiymətləndirməni həyata keçirmək sahəsində addımbaaddım yol göstərir.

Hər iki nəşr İnsan Hüquqları üzrə Ali Komissarlığın internet səhifəsində elektron formada yerləşdirilib: **www.ohchr.org**

Bundan başqa, *İnsan Hüquqları: Beynəlxalq Mexanizmlər Toplusu* (I cild, Universal mexanizmlər və II cild, Regional mexanizmlər) peşəkar hüquqşünaslar üçün seminar və təlimlər zamanı istinad materialları kimi istifadə edilə bilər. İnkişaf edən beynəlxalq insan hüquqları hüququ barədə yenilənmiş məlumat da  Komissarlığın internet səhifəsində hamıya açıqdır.

# Kursun açılışı
# Giriş sessiyası

## MÜNDƏRİCAT

I. KURSUN ÜMUMİ MƏQSƏDLƏRİ ......................................viii

II. GİRİŞ SESSİYASININ XÜSUSİ MƏQSƏDLƏRİ........................viii

III. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ
MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR...........................ix

IV. GİRİŞ SESSİYASI ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI
CƏDVƏLİ...................................................................ix

V. TƏLİM
MATERİALLARI.........................................................x

A. Kompüter
slaydları...................................................................x

B. Paylama
materialları.........................................................................x

# I. KURSUN ÜMUMİ MƏQSƏDLƏRİ

Hakimlər, prokurorlar və vəkillər üçün kursun ***ümumi məqsədləri odur ki***, hər bir iştirakçı:

- Hüquq peşələri və onların vəzifələrinə dair beynəlxalq insan hüquqları standartlarını başa düşməlidir;
- Bu yeni bilgini öz hüquq düşüncəsinə tətbiq etməli və insan hüquqları standartlarının öz peşə fəaliyyətinə aidliyini qəbul etməlidir;
- Həmin bilgilərin praktik fəaliyyətə keçməsi üçün zəruri bacarıqları inkişaf etdirməlidir;
- İnsan hüquqlarının qorunmasında özünün konkret rolunu və imkanlarını görməlidir;
- Kursun qiymətləndirilməsi və təkmilləşdirilməsinə qatqılar verməlidir.

# II. GİRİŞ SESSİYASININ SPESİFİK MƏQSƏDLƏRİ

Giriş sessiyasının *spesifik məqsədlərinə* daxildir:

- İştirakçılara rahatlıq hissi vermək və birgə iş mühiti yaratmaq;
- Kursun məqsədləri barədə iştirakçıları məlumatlandırmaq;
- Təqdimat komandasını iştirakçılara tanıtmaq;
- İştirakçıları təqdim etmək;
- Əhatə ediləcək mövzuların icmalını vermək;
- İstifadə ediləcək metodologiyanın icmalını vermək;
- İştirakçıların kursda fəal iştirakının önəmini vurğulamaq;
- İştirakçılardan, məsələn, kursdan hansı gözləntilərinin olmalarını öyrənməklə ilkin rəy almaq.

# III. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ ÜÇÜN BAŞLICA MƏSƏLƏLƏR

Yuxarıda qeyd edilən məsələlərə əlavə olaraq, giriş sessiyasında toxunulacaq əsas məqamlar aşağıdakılardır:

- Danışılacaq spesifik mövzular və zamanlama;
- Mövcud resurs materialı, məsələn, vəsait və kitablar və s.;
- Metodologiya: təqdimatlar, çalışmalar, kazusla iş, rol oyunları və hər bir metodu qısa təsvir edən və s. (metodologiya barədə istinad materialı olaraq yararlana bilərsiniz: *İnsan Hüquqları Təlimi: İnsan Hüquqları Təlimi Metodologiyası barədə Vəsait*, Peşəkar Təlim Seriyaları №6);
- Kursun gedişi zamanı formalaşan qiymətləndirmə komponenti; iştirakçılara kursu öz ehtiyaclarına müvafiq istiqamətləndirməyin önəmini izah edin (qiymətləndirmə barədə istinad materialı olaraq yararlana bilərsiniz: İnsan Hüquqları Təlimi sahəsində Fəaliyyətin qiymətləndirilməsi: *İnsan Hüquqları Tədrisçiləri üçün Bələdçi*, Peşəkar Təlim Seriyaları №18)

# IV. GİRİŞ SESSİYASI ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ

| Əsas məqamlar/fəaliyyət | Metod | Media | Zaman |
|---|---|---|---|
| 1. İştirakçıların salamlanması və təqdimat komandasının təqdim edilməsi | Təqdimat | | 15 dəqiqə |
| 2. İştirakçıların təqdimatı | Təqdimat: iştirakçıların fəaliyyəti də daxil olmaqla | | 15 dəqiqə |
| 3. Giriş sessiyası:<br>a. kursun məqsədləri;<br>b. spesifik mövzular;<br>c. metodologiya, iştirak, kazusla iş, rol oyunu və s.;<br>d. materialların və sessiyanın nəzərdən keçirilməsi;<br>e. qiymətləndirmə və rəylərin bildirilməsi. | Təqdimat və müzakirə | Kağız lövhə (flip chart) | 20 dəqiqə |
| 4. İştirakçıların gözləntiləri:<br>a. onlar kursdan nə əldə etməyi gözləyirlər;<br>b. onlar kursa nə verə bilərlər;<br>c. insan hüquqları ilə bağlı yeni hadisə/işlərindən bir element və s. | • Təqdimat və müzakirə;<br>• Təqdimatçı və ya iştirakçı kağız lövhədə yazır və sonda əsas məqamları cəmləşdirir;<br>• Sual-cavab üçün zaman ayrılmalıdır. | Kağız lövhə, özüyapışan kağız (sticker) | 20 dəqiqə |

| | |
|---|---|
| | **Ümumi vaxt: 1 saat 10 dəq.** |

# V. TƏLİM MATERİALLARI

## A. Kompüter slaydları (CD-ROM-a baxın)

1. Öyrənmə məqsədləri

2.–4. Ədalət mühakiməsinin həyata keçirilməsi kursu ilə əhatə edilən mövzular I–III

5. Kursun gedişində istifadə edilən metodologiya

6. Giriş sualları

## B. Paylama materialları (fasilitator tərəfindən hər bir kurs üçün hazırlanır)

1. Təlim komandasının üzvlərinin adlarını və qısa CV-lərini qeyd edin
2. İştirakçıların adlarını və ünvanlarını qeyd edin.

# 1-ci fəsil
# BEYNƏLXALQ İNSAN HÜQUQLARI HÜQUQU VƏ HÜQUQ PEŞƏLƏRİNİN ROLU: ÜMUMİ TANIŞLIQ

## Mündəricat


I. FASİLİTATORLAR ÜÇÜN QEYD..........................................2

II. FƏSLİN/SESSİYANIN MƏQSƏDLƏRİ ................................2

III. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR ..........................................................................3

IV. 1-Cİ FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ.....................................................................................4

V. TƏLİM MATERİALLARI .................................................5

A. Kompüter slaydları ..................................................................5

B. Çalışmalar.............................................................................6

# I. FASİLİTATORLAR ÜÇÜN QEYD

Bu Bələdçinin 1-ci fəsli beynəlxalq insan hüquqları hüququnun strukturunu, onun Birləşmiş Millətlər Təşkilatının nizamnaməsindəki əsaslarını, etik əsaslarını və mənbələrini, eləcə də dövlətin öhdəliklərinin təbiətini təsvir edir. Burada beynəlxalq insan hüquqları hüququnun milli hüquq sisteminə necə təsir etməsi araşdırılır və insan hüquqlarının qorunmasında hüquq peşələrinin rolu qısa olaraq nəzərdən keçirilir.

İştirakçılar 1-ci fəsildə müəyyən edilən məsələlərlə çox və ya az dərəcədə tanış ola bilərlər və bu mənada fasilitatorlar fəslin təqdimatı və müzakirəsi üçün sərf olunacaq zamanı qiymətləndirməlidirlər. Bununla belə, iştirakçıların 1-ci fəsildə nəzərdə tutulan məsələlərlə tanış olması önəmlidir, çünki həmin məsələlər növbəti fəsillərdə müzakirə ediləcək suallar üçün çərçivə rolunu oynayır.

# II. FƏSLİN/SESSİYANIN MƏQSƏDLƏRİ

1-ci fəslin məqsədləri onu təmin etməkdən ibarətdir ki, hər bir iştirakçı:

- Beynəlxalq insan hüquqları hüququnun mənbəyi, mənası və əhatə dairəsini anlasın;
- Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi və onun insan hüquqları ilə bağlı müddəaları ilə tanış olsun;
- İnsan hüquqlarının etik ölçülərini anlasın;
- İnsan hüquqlarının səmərəli müdafiəsi ilə yerli və beynəlxalq sülh və təhlükəsizlik arasında əlaqəni anlasın;
- Beynəlxalq hüququn əsas mənbələri ilə tanış olsun;
- Beynəlxalq insan hüquqları hüququ ilə humanitar hüquq arasında oxşar və fərqli cəhətləri tanısın;
- Beynəlxalq insan hüquqları ilə dövlətlərin vəzifələrini anlasın;
- Müqaviləni ratifikasiya edərkən dövlətlərin öz öhdəliklərini necə məhdudlaşdıra bilməsini anlasın;
- İnsan hüquqlarının həyata keçirilməsi zamanı məhdudiyyətlərin və beynəlxalq insan hüquqları öhdəliklərindən geriçəkilmələrin məqsədini ümumi olaraq anlasın;
- İnsan hüquqlarının pozuntusu anlayışını başa düşsün;
- Beynəlxalq insan hüquqları hüququnun yerli qanunvericiliyə daxil edilməsinin müxtəlif formalarını, eləcə də bunun yerli məhkəmələr tərəfindən tətbiqini dərk etsin;
- İnsan hüquqlarının qorunmasında hüquq peşələrinin oynamalı olduğu vacib rolu və beynəlxalq insan hüquqları hüququnun ona və milli müstəvidə onun ölkəsinə necə aid olmasını qiymətləndirsin.

# III. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR

Toxunulacaq əsas məqamlar və müzakirə ediləcək başlıca məsələlər, əsasən, hər bir kursun auditoriyasının bilik və təcrübəsindən asılı olacaq. Bununla belə, 1-ci fəslin nəzərdən keçirilməsi zamanı ümumilikdə aşağıdakı məqamlara aydınlıq gətiriləcək:

- Mənşəyi, anlayışı, əhatə dairəsi və məqsədi də daxil olmaqla insan hüquqları konsepsiyası;
- Milli və beynəlxalq səviyyədə insan hüquqlarının bu dərəcədə önəmli olmasının səbəbi;
- İştirakçıların peşə fəaliyyətini həyata keçirdikləri ölkələrdə insan hüquqlarının hüquqi mənbələri;
- İştirakçıların peşə fəaliyyətini həyata keçirdikləri ölkələrdə beynəlxalq insan hüquqları hüququnun tribunallar və digər qurumlar qarşısında tətbiqi yolları;
- Beynəlxalq insan hüquqlarının həyata keçirilməsi zamanı tətbiq edilən məhdudiyyətlər, onların məqsədi və hüdudları;
- Beynəlxalq insan hüquqları öhdəliklərindən geriçəkilmələrin məqsədi və məhdudiyyətləri;
- Beynəlxalq insan hüquqları hüququ və beynəlxalq humanitar hüquq arasında oxşarlıq və fərqlər;
- İştirakçıların öz peşə vəzifələrini həyata keçirməsi zamanı insan hüquqlarını təbliğ və müdafiə üsulları;
- Yerli məhkəmələrdə beynəlxalq insan hüquqları normalarına istinad edilməsinin, yaxud onların tətbiqinin qarşısını ala biləcək spesifik problemlər.

# IV. 1-Cİ FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ

| Başlıca məqamlar/fəaliyyət | Metod | Media | Zaman |
|---|---|---|---|
| 1. Nizamnamənin məqsədləri | Təqdimat | Kağız lövhə | 5 dəqiqə |
| 2. Vəsaitin 1-ci fəslinə və yuxarıdakı III məqama əsasən, aşağıdakılarla bağlı əsas məqamları təqdim edin:<br>a. beynəlxalq insan hüquqlarının mənşəyi, anlayışı, əhatə dairəsi;<br>b. yerli səviyyədə beynəlxalq insan hüquqları;<br>c. insan hüquqlarının tətbiqində hüquq peşələrinin rolu. | a. Komanda üzvləri tərəfindən təqdimat;<br>b. İştirakçıların (kursdan öncə 1-3-cü fəsilləri əldə edən və fəal təqdimatın mümkünlüyü barədə xəbərdarlıq edilənlər) təqdimatı;<br>c. Təqdimat komandası maddi qanunu xülasə edir və dəqiqləşdirir/düzəliş edir. | Kompüter slaydları, kağız lövhə, özüyapışan kağız | 40 dəqiqə |
| 3. Dincəliş və qruplara bölünmə; Iştirakçılardan xahiş edin ki, növbəti çalışma üçün hər biri 3/5 nəfər olmaqla qrup yaratsınlar | | | 5 dəqiqə |
| 4. Tədris çalışması. Qruplardan xahiş edin ki, aşağıdakı mövzularda bütün qrup qarşısında təqdimat üçün əsas məqamları hazırlasınlar:<br>a. onların hüquq sistemində beynəlxalq hüquq necə müəyyən edilir;<br>b. onların ölkələrində beynəlxalq insan hüquqları hüququnun hakimlər, vəkillər və prokurorlar tərəfindən tətbiqinin nümunələri;<br>c. beynəlxalq hüquqdan istifadəni artırmaq üçün aşılmalı olan maneələr | Qruplarda iş: Müzakirə, əsas məqamların hazırlanması | kağız lövhə, özüyapışan kağız | 30 dəqiqə |
| 5. Qrupların təqdimatı və müzakirə; sual-cavab imkanı | a. Hər qrupdan bir nəfər işin nəticəsinin təqdimatını edir, kağız lövhə üzərində qeydlər edir və ya yazır;<br>b. Bütün qrup müzakirə edir;<br>c. Təqdimat komandası xülasə edir və məzmunu dəqiqləşdirir/düzəliş edir. | özüyapışan kağız, qələmlər, kağız lövhə | 20 dəqiqə |
| 6. Komanda yuxarıdakı III məqamda sadalananları nəzərdən keçirir və iştirakçıların işinə əsasən, növbəti müzakirələr üçün bəzi hissələri vurğulayır (daha sonra toxunmaq üçün) | Təqdimat | kağız lövhə, özüyapışan kağız, paylama materiallar ı | 15 dəqiqə |

| | |
|---|---|
| | **Ümumi vaxt: 1 saat 55 dəq.** |

# V. TƏLİM MATERİALLARI

## A. Kompüter slaydları (CD-ROM-a baxın)

1. Öyrənmə məqsədləri
2. Suallar I
3. Suallar II
4. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi I
5. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi II
6. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi III
7. İnsan hüquqlarının qorunması ilə bağlı müasir beynəlxalq narahatlığın mənbəyi
8. İnsan hüquqları konsepsiyası: Onun özəlliyi I
9. İnsan hüquqları konsepsiyası: Onun özəlliyi II
10. İnsan hüquqları və milli və beynəlxalq sülh, təhlükəsizlik və inkişaf
11. Hüququn mənbələri
12. Beynəlxalq müqavilələr I
13. Beynəlxalq müqavilələr II
14. Beynəlxalq insan hüquqları hüququ və beynəlxalq humanitar hüquq
15. İnsan hüquqları müqavilələrinə qeyd-şərtlər I
16. İnsan hüquqları müqavilələrinə qeyd-şərtlər II
17. İnsan hüquqlarının həyata keçirilməsinə məhdudiyyətlər I
18. İnsan hüquqlarının həyata keçirilməsinə məhdudiyyətlər II
19. Beynəlxalq insan hüquqları öhdəliklərindən geriçəkilmələr I
20. Beynəlxalq insan hüquqları öhdəliklərindən geriçəkilmələr II

21. İnsan hüquqları pozuntularına dövlətin məsuliyyəti I

22. İnsan hüquqları pozuntularına dövlətin məsuliyyəti II

23. Biznes korporasiyaları və insan hüquqları

24. Milli hüquq və beynəlxalq hüquq

## B. Çalışmalar

### Çalışma 1

*Beynəlxalq insan hüquqları hüququnun yerli tətbiqi*

Vaxtdan və iştirakçıların ehtiyac və bilik səviyyələrindən asılı olaraq onlara aşağıdakı çalışmanı yerinə yetirmək tapşırıla bilər. İştirakçılardan xahiş edilir ki, 3-5 nəfərlik qrupların tərkibində plenar qruplar qarşısında təqdimat etmək üçün aşağıdakılar barədə qısa qeydlər hazırlasınlar:

- Onların hüquq sistemində beynəlxalq hüququn yeri;
- Beynəlxalq insan hüquqları hüququnun hakimlər, prokurorlar və vəkillər tərəfindən onların peşə vəzifələrini həyata keçirdikləri ölkələrdə tətbiqinin nümunələri;
- Beynəlxalq hüququn yerli səviyyədə tətbiqini artırmaq üçün aşılmalı olan maneələr, əgər varsa.

d **_Çalışma 2_**

*Beynəlxalq insan hüquqları normalarının yerli tətbiqinin nümunəsi* [1]

Bu çalışma həm fərdi, həm də qruplarda iş zamanı istifadə edilə bilər.

**Faktlar**: Avstraliyanın kompensasiya məhkəməsində bir lal şəxs mülki icraat zamanı ifadə verir. Həmin sübuta hüquqi əsaslarla etiraz edilir. Lal şəxsin işəgötürəninin vəkili bildirir ki, bu, tamamilə hüquqi məsələ və faktiki olaraq hakim və vəkillər arasında fikir mübadiləsi olduğundan, tərcüməçinin etirazı tərcümə etməsinə ehtiyac yoxdur. Hakim razılaşır və tərcüməçiyə hüquqi arqumentləri tərcümə etməməsi barədə göstəriş verir. Bununla belə, tərcüməçi tərcüməsinə davam edir. Hakim isə məhkəmə gedişatına nəzarət çərçivəsində tərcüməçinin prosedur tələbə əməl etməməsini əsas gətirərək, icraatı dayandırır.

Tərəflər şikayət edirlər. Konkret olaraq bu məsələni tənzimləyən hər hansı konstitusion müddəa və ya Parlament aktı yoxdur. Məhkəmə prosesini nizamlayan ümumi qanun isə hakimə tərcüməçilərdən istifadə məsələsi də daxil olmaqla geniş mülahizə və təlimat sərbəstliyi verir. Sonda apellyasiya məhkəməsinin hakimləri *Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın* 14 (1) və 14 (3) (a) və (f) maddələrində cinayət prosesi üçün müəyyən edilən prinsipi *analogiya* qaydasında tətbiq edərək, lal şahidin açıq məhkəmə iclasında bütün baş verənləri anlamaq üçün tərcümə hüququnun olmasını təsdiq edir.

**Müzakirə üçün məsələlər:**

a. Sizin fikrinizcə, apellyasiya məhkəməsinin hakimi prosesin gedişində konkret problemi həll etmək üçün beynəlxalq insan hüquqları hüququna istinad etməkdə haqlı idi?

b. Sizin fikrinizcə, mülki icraatın səmərəli aparılması və lal şəxsin hüquqları arasında düzgün balansa nail olundu?

c. Sizin fikrinizcə, bu qərar sizin ölkənizdə məhkəmələrin üzərinə aşırı yük qoymuş olardı?

---

[1] Bu çalışma bu qərara əsaslanıb: *Gradidge* v. *Grace Bros* (1988) 93 *Federal Law Reports* 414 (Avstraliya).

# 2-ci fəsil
# ƏSAS UNİVERSAL İNSAN HÜQUQLARI MEXANİZMLƏRİ VƏ ONLARIN TƏTBİQİ FORMASI
# və
# 3-cü fəsil
# ƏSAS REGİONAL İNSAN HÜQUQLARI MEXANİZMLƏRİ VƏ ONLARIN TƏTBİQİ FORMASI

## Mündəricat


I. FASİLİTATORLARA QEYD..................................................10

II. FƏSLİN/SESSİYANIN MƏQSƏDİ .......................................11

III. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR..........................................11

IV. 2-Cİ VƏ 3-CÜ FƏSİLLƏR ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ……… … … … … … … … . ......12

V. TƏLİM MATERİALLARI ........................................................14

A. Kompüter slaydları: 2-ci fəsil ............................................14

B. Kompüter slaydları: 3-cü fəsil ............................................15

C. Çalışma .........................................................................17

D. Paylama materialı...............................................................17

# I. FASİLİTATORLAR ÜÇÜN QEYD

**2-ci fəsil** Birləşmiş Millətlər Təşkilatı çərçivəsində bağlanan aşağıdakı əsas ***universal*** insan hüquqları müqavilələrini əhatə edir:

- Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt;
- İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt;
- Uşaq Hüquqları haqqında Konvensiya;
- Bütün Miqrant İşçilərin və Onların Ailə Üzvlərinin Hüquqlarının Müdafiəsi haqqında Beynəlxalq Konvensiya;
- Soyqırım Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması haqqında Konvensiya;
- İrqi Ayrıseçkiliyin Bütün Formalarının Ləğvi haqqında Beynəlxalq Konvensiya;
- İşgəncə və Digər Qəddar, Qeyri-insani və ya Ləyaqəti Alçaldan Rəftar və ya Cəza əleyhinə Konvensiya;
- Qadınlara qarşı Ayrıseçkiliyin Bütün Formalarının Ləğvi haqqında Konvensiya;
- Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiya;
- Bütün İnsanların Məcburi Yoxaçıxmalardan Müdafiəsi haqqında Beynəlxalq Konvensiya.

Bu fəsil qeyd edilən müqavilələrin icrasının əhatə dairəsi, eləcə də üzv dövlətlərin öhdəlikləri də daxil olmaqla, ümumi formada hər bir müqavilənin icra mexanizmindən danışır.

Daha sonra 2-ci fəsildə həm Baş Assambleyanın, həm də Birləşmiş Millətlər Konqresinin Cinayətin Qarşısının Alınması və Cinayətkarların İslahı barədə qəbul etdiyi bir sıra önəmli insan hüquqları mexanizmləri qısaca təsvir edilib.
Ən sonda 2-ci fəsil BMT-nin insan hüquqları monitorinqi üçün konvensiyadankənar mexanizmlər, məsələn, İnsan Hüquqları Şurasının tematik və ölkə mandatlarından bəhs edir.

**3-cü fəsil** aşağıdakı əsas ***regional*** insan hüquqları müqavilələrini təsvir edir:

- İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyası;
- Uşaq Hüquqları və Rifahı haqqında Afrika Xartiyası;
- Amerika İnsan Hüquqları Konvensiyası;
- İşgəncənin Qarşısının Alınması və Cəzalandırılması haqqında İnter-Amerika Konvensiyası;
- İnsanların Məcburi Yoxaçıxmaları haqqında İnter-Amerika Konvensiyası;
- Qadınlara qarşı Zorakılığın Qarşısının Alınması, Cəzalandırılması və Aradan Qaldırılması haqqında İnter-Amerika Konvensiyası;
- İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi haqqında Avropa Konvensiyası;
- Avropa Sosial Xartiyası;
- İşgəncə və digər Qəddar, Qeyri-insani və ya Ləyaqəti Alçaldan Rəftar və ya Cəza əleyhinə Konvensiya;

1 Milli Azlıqların Müdafiəsi haqqında Çərçivə Konvensiyası.

Bu fəsil eyni zamanda bu müqavilələrin icra mexanizmlərini ümumən izah edir.

2-ci və 3-cü fəsildə qeyd edilən müqavilələr bir kursda keçirilməməlidir. ***Fasilitator auditoriyanın ehtiyaclarından asılı olaraq nəzərdən keçirəcəkləri universal və/və ya regional müqavilə və ya müqavilələri seçməlidir.*** Məsələn, Afrikalı iştirakçılar üçün universal müqavilə öhdəliklərini regional müqavilə öhdəliklərinə qatmaq lazımdır. Latın Amerika və ya Avropalı iştirakçılar üçün də eyni yanaşma keçərlidir. Fasilitatorlar doğru seçim etmək üçün iştirakçıların milliyyətini və onların peşə fəaliyyətini həyata keçirdikləri ölkələri və həmin dövlətlərin hansı beynəlxalq və/və ya regional insan hüquqları müqavilələri üzrə öhdəlik daşıdıqlarını öncədən öyrənməlidir.

Auditoriyanın tərkibindən asılı olaraq, fasilitatorların insan hüquqları pozuntuları ilə bağlı universal və regional monitorinq orqanlarına şikayətlər göndərməsində vəkillərin rolu barədə ümumi məlumat verməsi də faydalı olar.

## II. FƏSLİN/SESSİYANIN MƏQSƏDİ

2-ci və 3-cü fəslin məqsədləri bunlardır:

- İştirakçıları əsas universal və/və ya regional insan hüquqları müqavilələri və onların tətbiqi ilə tanış etmək və bəzi digər müvafiq hüquqi mexanizmlərin məzmununu vurğulamaq;
- Bu hüquqi resurslardan praktik hüquqşünaslar tərəfindən yerli, eləcə də müəyyən dərəcədə beynəlxalq səviyyədə yararlanmaq barədə ümumi fikir yaratmaq.

## III. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR

Fasilitatorlar 2-ci və 3-cü fəsli nəzərdən keçirərkən aşağıda sadalanan məqamlara aydınlıq gətirə və qeyd edilən başlıca məsələlər barədə müzakirə aça bilərlər:

- İştirakçılar hakim, prokuror və/və ya vəkil qismində peşə fəaliyyətini həyata keçirərkən hüquqlarının pozulmasını iddia edən təqsirləndirilən şəxs, cavabdeh və ya müştəri ilə qarşılaşıblarmı və əgər qarşılaşıblarsa, onların cavabı nə olub;
- Konkret iştirakçı və ya iştirakçılar həmin problemin həll edilməsində beynəlxalq insan hüquqları hüququnun yardımından yararlana biləcəyindən məlumatlıdır(lar)mı;
- Konkret iştirakçı və ya iştirakçılar iddia edilən qurbanın (zərərçəkmiş şəxsin) öz şikayətini beynəlxalq monitorinq orqanının diqqətinə çatdırma imkanından məlumatlıdır(lar)mı;
- Əgər məlumatlı deyillərsə, bu bilginin olması onun iddia edilən insan hüquqları pozuntuları ilə bağlı davranışını dəyişərdimi.

- İştirakçılardam hər hansı biri öz ölkəsinə qarşı nə zamansa beynəlxalq monitorinq orqanı qarşısında iş qaldırıbmı və əgər qaldırıbsa, işin nəticəsi necə olub;
- Sonda: Konkret iştirakçının beynəlxalq və ya regional səviyyədə şikayətetmə təcrübəsi ümumən necədir

# IV. 2-Cİ VƏ 3-CÜ FƏSİLLƏR ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ

| Başlıca məqamlar/fəaliyyət | Metod | Media | Zaman |
|---|---|---|---|
| 1. Fəsillərin ümumi və xüsusi məqsədi | Təqdimat | Kompüter slaydları, kağız lövhə | 10 dəqiqə |
| 2. Vəsaitin 2-ci fəslinə və yuxarıdakı III məqama əsasən, təqdim edin:<br>a. BMT-nin əsas müqavilələri;<br>b. onların tətbiqi;<br>c. BMT-nin digər sənədləri;<br>d. Konvensiyadankənar mexanizmlər. | Təqdimatlar:<br>- iştirakçıları cəlb etmək üçün sual-cavabdan istifadə edin<br>- iştirakçılardan konkret bu və ya digər aspektin təqdimatını keçirməsini xahiş edin (öncədən təşkil edin). | Kompüter slaydları, kağız lövhə, özüyapışan kağız, paylama materialları (universal mexanizmləri, hüquqları, ratifikasiya statusunu v s. sadalayın) | 40 dəqiqə |
| 3. dincəliş | | | 5 dəqiqə |
| 4. 2-ci fəsil barədə sual-cavab | Komanda tərəfindən sualların fəal yığımı | kağız lövhə, özüyapışan kağız (əgər | 10 dəqiqə |
| | | | **Ümumi zaman: 1 saat 5 dəq.** |
| 5. Vəsaitin 3-cü fəslinə və yuxarıdakı III məqama əsasən, təqdim edin:<br>a. regional sistemlərin icmalı;<br>b. əgər iştirakçılar funksional regional sistemi olan regionlardan gəlirlərsə, zamanı həmin sistemə ayırın;<br>c. regional sistemin hətta region xaricində belə yaxşı hüquq mənbəyi olmasını qeyd edin. | Komanda üzvlərinin təqdimatı:<br>- iştirakçıları cəlb etmək üçün sual-cavabdan istifadə edin;<br>- iştirakçıların təqdimatı; iştirakçılardan konkret bu və digər aspektin təqdimatını keçirməsini xahiş edin (öncədən təşkil edin). | Kompüter slaydları, kağız lövhə, paylama materialları (regional mexanizmləri, hüquqları, ratifikasiya statusunu və s. sadalayın) | 40 dəq |
| 6. Kofe-çay fasiləsi, qruplara bölünmə | | | 15 dəq |

| Başlıca məqamlar/fəaliyyət | Metod | Media | Zaman |
|---|---|---|---|
| 7. Qrup müzakirələri və məqamların hazırlanması | 3/5 nəfərlik qruplarda iştirakçılar hazırlayırlar:<br>a. aydın olmayan məsələlərin siyahısı;<br>b. beynəlxalq və regional sistemlərin onların peşə fəaliyyətinə necə aid olması;<br>c. universal və regional sistemlərin daxili qanunvericiliyə və təcrübəyə təsirini artırmaq üçün nə edilə bilər;<br>d. beynəlxalq normalar milli konstitusiya və qanunvericiliklə necə müqayisə edilir. | kağız lövhə, özüyapışan kağız | 20 dəqiqə |
| 8. Qrupların suallarla bağlı təqdimatı. Daha sonra müzakirələr komandanın suallara cavab verməsi, dəqiqləşdirmələr etməsi və məzmuna düzəlişlər etməsi ilə davam edir. | Hər qrupdan bir nəfər üç sualın müzakirəsinin nəticələri barədə kağız lövhə üzərində qeyd edir və ya özüyapışan kağız yapışdırır. | kağız lövhə, özüyapışan kağız | 20 dəqiqə |
| 9. Ümumiləşdirmə: komanda 2-ci və 3-cü fəsillərdəki əsas məqamlara yenidən nəzər salır və suallar vasitəsilə məqsədlərə nail olunub-olunmamasını müəyyən edir. | Təqdimat və sual-cavab | Kompüter slaydları, kağız lövhə, özüyapışan kağız | 10 dəqiqə |
| 10. Növbəti sessiya üçün qiymətləndirmə və hazırlıq | İştirakçılardan xahiş edilir ki, təqdimat və müzakirələr barədə tənqidi qeydlər etsinlər.<br>Komanda növbəti sessiya barədə məlumat verir və qabaqcadan tapşırıq verir (lazım olsa) və könüllülər axtarır. | kağız lövhə | 10 dəqiqə |
| | | | **Ümumi zaman: 1 saat 55 dəq.** |
| | | | **2-ci və 3-cü fəsillər üçün ümumi zaman: 3 saat** |

# V. TƏLİM MATERİALLARI

## A. Kompüter slaydları, 2-ci fəsil (CD-ROM-a baxın)

1. Öyrənmə məqsədləri

2. Suallar I

3. Suallar II

4. Əsas universal insan hüquqları müqavilələri I

5. Əsas universal insan hüquqları müqavilələri II

6. Müqavilə əsaslı beynəlxalq nəzarət mexanizmləri I

7. Müqavilə əsaslı beynəlxalq nəzarət mexanizmləri II

8. Mülki və siyasi hüquqları təmin etmək üçün pozitiv tədbirlərə ehtiyac

9. İnsan hüquqları müqavilələrinə əsasən, üzv dövlətlərin öhdəlikləri

10. Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt ilə müəyyən edilən hüquqların həyata keçirilməsində yol verilən məhdudiyyətlər I

11. Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt ilə müəyyən edilən hüquqların həyata keçirilməsində yol verilən məhdudiyyətlər II

12. Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakta əsasən, hüquqi öhdəliklərdən yol verilən geriçəkilmələr

13. Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakta əsasən, icra mexanizmləri

14. İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktla təminat verilən hüquqların həyata keçirilməsinə yol verilən məhdudiyyətlər

15. İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktın icra mexanizmi

16. Uşaq Hüquqları haqqında Konvensiyaya əsasən, üzv dövlətlərin öhdəlikləri

17. Uşaq Hüquqları haqqında Konvensiyaya əsasən, hüquqların həyata keçirilməsinə məhdudiyyətlər

18. Bütün Miqrant İşçilərin və Onların Ailə Üzvlərinin Müdafiəsi haqqında Beynəlxalq Konvensiyaya əsasən, hüquqların həyata keçirilməsinə məhdudiyyətlər

19. Bütün Miqrant İşçilərin və Onların Ailə Üzvlərinin Müdafiəsi haqqında Beynəlxalq Konvensiyaya əsasən, icra mexanizmləri

20. Soyqırım Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması haqqında Konvensiya

21. Beynəlxalq Cinayət Məhkəməsi

22. İrqi Ayrıseçkiliyin bütün Formalarının Ləğvi haqqında Beynəlxalq Konvensiya I

23. İrqi Ayrıseçkiliyin bütün Formalarının Ləğvi haqqında Beynəlxalq Konvensiya II

24. İşgəncə və digər Qəddar, Qeyri-insani və ya Ləyaqəti Alçaldan Rəftar və ya Cəza əleyhinə Konvensiya I

25. İşgəncə və digər Qəddar, Qeyri-insani və ya Ləyaqəti Alçaldan Rəftar və ya Cəza əleyhinə Konvensiya II

26. Qadınlara qarşı Ayrıseçkiliyin Bütün Formalarının Ləğvi haqqında Konvensiya

27. Baş Assambleya tərəfindən qəbul edilən əsas qərardadlar I

28. Baş Assambleya tərəfindən qəbul edilən əsas qərardadlar II

29. Baş Assambleya tərəfindən qəbul edilən əsas qərardadlar III

30. Cinayətin Qarşısının Alınması və Cinayətkarların İslah Olunması haqqında BMT Konqresinin qəbul etdiyi vasitələr

31. İnsan hüquqlarının monitorinqinin konvensiyadankənar mexanizmləri I

32. İnsan hüquqlarının monitorinqinin konvensiyadankənar mexanizmləri II

## B. Kompüter slaydları, 3-cü fəsil (bax:CD-ROM)

33. Öyrənmə məqsədləri

34. Suallar I

35. Suallar II

36. Əsas regional insan hüquqları müqavilələri I

37. Əsas regional insan hüquqları müqavilələri II

38. İnsan və Xalqların Hüquqlarının Müdafiəsi haqqında Afrika Xartiyası I: Xartiyanın özəlliyi

39. İnsan və Xalqların Hüquqlarının Müdafiəsi haqqında Afrika Xartiyası II: Məhdudiyyətlər

**40.** İnsan və Xalqların Hüquqlarının Müdafiəsi haqqında Afrika Xartiyası III: Komissiyanın səlahiyyəti

**41.** Uşaq Hüquqları və Rifahı haqqında Afrika Xartiyası

**42.** Amerika İnsan Hüquqları Konvensiyası I: Hüquq və azadlıqları təmin etmək vəzifəsi

**43.** Amerika İnsan Hüquqları Konvensiyası II: Hüquqların həyata keçirilməsinə yol verilən məhdudiyyətlər

**44.** Amerika İnsan Hüquqları Konvensiyası III: Hüquqi öhdəliklərdən yol verilən geriçəkilmələr

**45.** Amerika İnsan Hüquqları Konvensiyası IV: İcra mexanizmi (1)

**46.** Amerika İnsan Hüquqları Konvensiyası V: İcra mexanizmi (2)

**47.** İşgəncənin Qarşısının Alınması və Cəzalandırılması haqqında İnter-Amerika Konvensiyası

**48.** İnsanların Məcburi Yoxaçıxmaları haqqında İnter-Amerika Konvensiyası

**49.** Qadınlara qarşı Zorakılığın Qarşısının Alınması, Cəzalandırılması və Aradan Qaldırılması haqqında İnter-Amerika Konvensiyası I

**50.** Qadınlara qarşı Zorakılığın Qarşısının Alınması, Cəzalandırılması və Aradan Qaldırılması haqqında İnter-Amerika Konvensiyası II

**51.** Avropa İnsan Hüquqları Konvensiyası I: Hüquqların həyata keçirilməsinə yol verilən məhdudiyyətlər

**52.** Avropa İnsan Hüquqları Konvensiyası II: Hüquqi öhdəliklərdən yol verilən geriçəkilmələr

**53.** Avropa İnsan Hüquqları Konvensiyası III: İcra mexanizmi (1)

**54.** Avropa İnsan Hüquqları Konvensiyası IV: İcra mexanizmi (2)

**55.** Avropa Sosial Xartiyası, 1961 (I)

**56.** Avropa Sosial Xartiyası, 1961 (II)

**57.** Avropa Sosial Xartiyası, 1961 (III)

**58.** Avropa Sosial Xartiyası (yenilənmiş), 1996

**59.** İşgəncənin, Qeyri-insani və ya Ləyaqəti Alçaldan Rəftar və ya Cəzanın Qarşısının Alınması haqqında Avropa Konvensiyası I

**60.** İşgəncənin, Qeyri-insani və ya Ləyaqəti Alçaldan Rəftar və ya Cəzanın Qarşısının Alınması haqqında Avropa Konvensiyası II

**61.** Azlıqların Müdafiəsi üzrə Çərçivə Konvensiyası

## C. Çalışma

### d*Çalışma 1*

Aşağıdakı qrup çalışmasında auditoriya bu məsələləri müzakirə etmək məqsədilə 3-5 iştirakçıdan ibarət qruplara bölünür:

- Aydın olmayan məsələlərin siyahısının hazırlanması;
- Beynəlxalq və regional sistemin onların peşə fəaliyyətinə aidlik dərəcəsi;
- Universal və regional sistemlərin yerli qanunvericilik və təcrübəyə təsirini artırmaq üçün hansı tədbirlərin görülməsi; və
- Beynəlxalq normaların milli konstitusiyalar və qanunlarla müqayisəsi.

Təxminən 20 dəqiqə davam edəcək iş üçün qrupların kağız lövhələri və/və ya özüyapışan kağızları olmalıdır.

## D. Paylama materialı (bax: CD-ROM)

1. Resurs siyahısı

**4-cü fəsil**

# HAKİMLƏRİN, PROKURORLARIN VƏ VƏKİLLƏRİN MÜSTƏQİLLİYİ VƏ QƏRƏZSİZLİYİ

## Mündəricat


I. FASİLİTATORLAR ÜÇÜN QEYD.........................................20

II. ƏSAS HÜQUQİ MƏNBƏLƏR.........................................20

A. Universal mexanizmlər.........................................................20

B. Regional mexanizmlər .....................................................21

III. FƏSLİN/SESSİYANIN MƏQSƏDLƏRİ ............................21

IV. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR...........................................22

V. 4-CÜ FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ.....................................................................23

VI. TƏLİM MATERİALLARI .......................................................24

A. Kompüter slaydları ...............................................................24

B. Çalışmalar.......................................................................25

C. Müzakirə mövzuları ........................................................27

D. Kazusla iş/rol oyunu .........................................................27

E. Paylama materialları ..............................................................28

# I. FASİLİTATORLAR ÜÇÜN QEYD

Vəsaitin 4-cü fəsli hakimlərin, prokurorların və vəkillərin hüququn aliliyinin, insan hüquqları standartlarının qorunmasında rolunu müəyyən edir və bu hüquq peşələrinin müstəqilliyi və qərəzsizliyi ilə bağlı problemlərə qısaca aydınlıq gətirir.

4-cü fəsil mövcud beynəlxalq hüquq çərçivəsində hakimlərin, prokurorların müstəqilliyi və qərəzsizliyi, eləcə də vəkillərin müstəqilliyi məsələlərini detalları ilə araşdırır.

Aşağıda IV hissədə sadalanan **TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR**, eləcə də **V** hissədə qeyd edilən **SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ** digər bütün fəsillərdə olduğu kimi, fasilitatorların təlimatlandırılmasına yardım etmək üçün təkliflərdir, amma ciddi şəkildə əməl edilməsi məcburi deyil. Odur ki, iştirakçılar tərəfindən kurs-öncəsi sual vərəqəsində və ya kursun gedişində qaldırıla bilən hər hansı məsələyə fokuslaşmaq lazım gələcək. Bu fəslə sərf ediləcək zaman kursun bütün proqramı üçün ayrılan vaxtdan asılı olacaq. Bununla belə, 4-cü fəsildə müəyyən edilən mövzuların önəmini və yaranan marağı nəzərə alaraq, təşkilatçılara məsləhət görülür ki, bu fəsildə əhatə edilən məsələlərə ən azı 2 saat sərf etsinlər.

Dağıdıcı müharibədən sonra yenidənqurma prosesində olan ölkələrdə hüquq peşələrinin təşkilati quruluşu mövcud olmaya və peşəkar təcrübəsi olan hakimlərin, prokurorların və vəkillərin sayı çox az ola bilər. Belə durumlarda fasilitator hüquq peşələrinə ***ümumi*** yardım etmək və onları gələcəkdə özlərinin peşə birliklərində təşkilatlanmaları və davamlı təlimlər keçmələrinin təmini də daxil olmaqla təlimatlandırmaq üçün 4-cü fəsildə qeyd edilən materialı uyğunlaşdırmağa çalışmalıdır.

# II. ƏSAS HÜQUQİ MƏNBƏLƏR

4-cü fəsil, əsasən, aşağıdakı hüquqi sənədlərə əsaslanır:

## A. Universal mexanizmlər

- Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, 1966

*****

- Məhkəmə Müstəqilliyinin Əsas Prinsipləri, 1985
- Prokurorların Rolu haqqında Rəhbər Qaydalar, 1990
- Vəkillərin Rolu haqqında Əsas Prinsiplər, 1990

## B. Regional mexanizmlər

- İnsan və Xalqların Hüquqlarının Müdafiəsi haqqında Afrika Xartiyası, 1981
- Amerika İnsan Hüquqları Konvensiyası, 1969
- Avropa İnsan Hüquqları Konvensiyası, 1950

*****

- Afrikada ədalətli məhkəmə araşdırması hüququ və hüquqi yardım hüququ haqqında prinsip və rəhbər qaydalar, 2003
- Avropa Şurası Nazirlər Komitəsinin 13 oktyabr 1994-cü ildə qəbul etdiyi hakimlərin müstəqilliyi, səmərəliliyi və rolu haqqında R (94) 12 saylı Tövsiyələri
- Avropa Şurası Nazirlər Komitəsinin 25 oktyabr 2000-ci ildə qəbul etdiyi vəkillik peşəsi ilə məşğul olma azadlığı haqqında R (2000) 21 saylı Tövsiyələri
- Avropa Şurası Nazirlər Komitəsinin 6 oktyabr 2000-ci ildə qəbul etdiyi cinayət mühakimə icraatında dövlət ittihamının rolu haqqında R (2000) 19 saylı Tövsiyələri

# III. FƏSLİN/SESSİYANIN MƏQSƏDLƏRİ

4-cü fəslin məqsədləri bunlardır:

- Hüququn aliliyini təmin etmək və şəxslərin əsas hüquq və azadlıqlarını səmərəli qorumaq üçün müstəqil və qərəzsiz məhkəmə, müstəqil və qərəzsiz prokurorluq və müstəqil vəkillik barədə iştirakçıların bilik və qavramlarını artırmaq;
- İştirakçıları hakimlər, prokurorlar və vəkillər üçün mövcud beynəlxalq və regional hüquqi standartlar və prinsiplərlə, o cümlədən müvafiq nümunələrlə tanış etmək.

# IV. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR

4-cü fəsillə əlaqədar toxunulacaq əsas məqamlar və müzakirə ediləcək başlıca məsələlər aşağıdakılardır:

- Hakim, prokuror və ya vəkil qismində çıxış edən iştirakçılar hakimiyyətlər bölgüsü prinsipini necə qavrayırlar;
- Bu prinsip onların fəaliyyət göstərdiyi ölkədə necə təmin edilir;
- Onların peşə vəzifələrini həyata keçirdiyi ölkələrdə hakimlərin və prokurorların müstəqilliyi və qərəzsizliyi, eləcə də vəkillərin müstəqilliyi necə təmin edilir;
- Öz peşə vəzifələrini müstəqil və qərəzsiz həyata keçirən zaman iştirakçılar hər hansı çətinliklə üzləşiblərmi və əgər üzləşiblərsə, bu çətinliklər nə olub və onlar necə həll edilib;
- Hakim, prokuror və ya vəkil qismində çıxış edən iştirakçılara nə zamansa korrupsiya təklifi edilibmi və əgər edilibsə, bu məsələ necə həll edilib;
- Qadın hakimlər, prokurorlar və ya vəkillər fəaliyyəti zamanı məhz genderdən irəli gələ bilən xüsusi problem, çətinlik və ya qısnamaya məruz qalıblarmı və əgər qalıblarsa, bu problemlər, çətinliklər və ya qısnama ilə bağlı nə edilib;
- Yuxarıda sadalanan hallarla üzləşən iştirakçılar məhkəmə hakimiyyətinin və ümumilikdə hüquq peşələrinin gücləndirilməsini hədəfləyən, icra, qanunvericilik və ya dövlətin tapşırığı ilə və ya olmadan fəaliyyət göstərən digər qrup və şəxslərlə münasibətdə yararlı ola bilən beynəlxalq standartların mövcudluğundan xəbərdar idilərmi?
- İştirakçıların çalışdığı ölkələrdə hakimin təfsir yolu ilə repressiv qanunları yumşaltmaq (cəzanı yüngülləşdirmək) hüququ varmı və ya olmalıdırmı?

# V. 4-CÜ FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ

| Başlıca məqamlar/fəaliyyət | Metod | Media | Zaman |
|---|---|---|---|
| 1. 4-cü fəslin məqsədləri | Təqdimat | Kompüter slaydları, kağız lövhə, özüyapışan kağız | 10 dəqiqə |
| 2. Vəsaitin 4-cü fəslinə və yuxarıdakı III bölməyə əsasən, komanda aşağıdakı əsas məqamların təqdimatını edir:<br>a. hüquq peşələrinin ***müstəqilliyi*** və ***qərəzsizliyi*** ilə bağlı çətinliklər;<br>b. məhkəmənin ***müstəqilliyi*** və ***qərəzsizliyinin*** beynəlxalq hüquqi aspektləri;<br>c. prokurorların müstəqilliyinin beynəlxalq hüquqi aspektləri;<br>d. vəkillərin müstəqilliyinin beynəlxalq hüquqi aspektləri;<br>e. qruplarda işin izahı. | Təqdimatlar;<br><br>“hüquq peşələrinin ***müstəqilliyi*** və ***qərəzsizliyi*** ilə bağlı çətinliklər”lə əlaqədar: təqdimatçılar iştirakçılardan əlavə nümunələr istəyə bilərlər. | Kompüter slaydları, kağız lövhə, paylama materiallar ı (normalar siyahısı/mə tni) | 40 dəqiqə |
| 3. Dincəliş və qruplara bölmə; qrupların tərkibinin dəyişilməsi mümkündür | | | 10 dəqiqə |
| 4. Qruplarda iş | | | 40 dəqiqə |
| 5. Qrupların təqdimatı və müzakirə | Hər qrupdan bir iştirakçı işin nəticəsini təqdim edir. Bütün iştirakçılar müzakirə edirlər, komanda ümumiləşdirir və məzmunda müvafiq dəqiqləşdirmələr/düzəlişlər aparır. | kağız lövhə və s. | 30 dəqiqə |
| 6. Kofe-çay fasiləsi | | | 15 dəqiqə |
| | | | **İş üçün ayrılan ümumi vaxt: 2 saat 10 dəq.** |

# VI. TƏLİM MATERİALLARI

## A. Kompüter slaydları (CD-ROM-a baxın)

1. Öyrənmə məqsədləri I
2. Öyrənmə məqsədləri II
3. Suallar I
4. Suallar II
5. Suallar III
6. Suallar IV
7. Suallar V
8. Əsas hüquqi sənədlər I: Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, maddə 14 (1)
9. Əsas hüquqi sənədlər II: İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyası, maddə 7 (1) (b) and (d)
10. Əsas hüquqi sənədlər III: İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyası, maddə 26
11. Əsas hüquqi sənədlər IV: Amerika İnsan Hüquqları Konvensiyası, maddə 8 (1)
12. Əsas hüquqi sənədlər V: Avropa İnsan Hüquqları Konvensiyası, maddə 6 (1)
13. Əsas hüquqi sənədlər VI: Birləşmiş Millətlər Təşkilatının seçmə prinsipləri və rəhbər qaydaları
14. Əsas hüquqi sənədlər VII: Məhkəmələrin Müstəqilliyinin Əsas Prinsipləri (1)
15. Əsas hüquqi sənədlər VIII: Məhkəmələrin Müstəqilliyinin Əsas Prinsipləri (2)
16. Məhkəmələrin müstəqilliyi anlayışı: Bu nə deməkdir I
17. Məhkəmələrin müstəqilliyi anlayışı: Bu nə deməkdir II
18. Məhkəmələrin müstəqilliyi anlayışı: Bu nə deməkdir III
19. Məhkəmələrin müstəqilliyi anlayışı: Bu nə deməkdir IV
20. Məhkəmələrin müstəqilliyi anlayışı: Bu nə deməkdir V

21. Məhkəmələrin qərəzsizliyi anlayışı

22. Xüsusi məhkəmələr və tribunallar

23. Hərbi tribunallar I

24. Hərbi tribunallar II

25. Beynəlxalq hüquq və prokurorların müstəqilliyi I

26. Beynəlxalq hüquq və prokurorların müstəqilliyi II

27. Beynəlxalq hüquq və vəkillərin müstəqilliyi I

28. Beynəlxalq hüquq və vəkillərin müstəqilliyi II

29. Beynəlxalq hüquq və vəkillərin müstəqilliyi III

## B. Çalışmalar

### d*Çalışma 1*

Aşağıdakı çalışma ilk növbədə 4 və ya 5 nəfərdən ibarət kiçik qruplarda işləmək üçün nəzərdə tutulub. Qruplardan bu məsələlər barədə qısa qeydlər hazırlamaq xahiş edilir:

- Hüquq peşələrinin müstəqilliyi və qərəzsizliyi onların ölkələrinin milli qanunvericiliyində necə təmin olunur;
- Qeyd edilən məsələ ilə bağlı milli normalar beynəlxalq standartlarla necə müqayisə edilir;
- Hüquq peşələrinin müstəqilliyi və qərəzsizliyi onların ölkələrinin ümumi siyasi/hüquq sisteminin hissəsini necə təşkil edir;
- Müstəqillik və qərəzsizliyin qorunmasına son zamanlar olan təhlükələr barədə nümunələr;
- Zərurət olarsa, iştirakçıların çalışdığı ölkələrdə hüquq peşəsinin müstəqilliyi və qərəzsizliyi necə möhkəmləndirilə bilər.

### d *Çalışma 2*

Siz hamınız icraedici hakimiyyətdən həm inzibati, həm də maliyyə anlamında müstəqil olan Eksland Vəkillər Kollegiyasının üzvlərisiniz. Kollegiya üzvlərinin çoxu öz bacarıq və cəsarətliliyinə görə tanınır. [2]

Eksland Parlamentinə aşağıdakı təklifləri özündə əks etdirən yeni Qanun daxil olub:

- Vəkillər Kollegiyasına üzv olmaq istəyən namizədlərin peşə biliklərini yoxlamaq və iddia edilən intizam xətaları ilə bağlı məsələləri həll etmək üçün **İxtisas Palatası** və **İntizam Palatası** yaradılır;
- İxtisas Palatasının 11 üzvü bunlardır: 4 vəkil, Ədliyyə Nazirliyini təmsil edən 4 hakim və 1 Parlament üzvü; namizədə vəkil kimi çalışmaq üçün şəhadətnamələr çoxluğun qərarı ilə razılaşdırılmaqla açıq səsvermə yolu ilə verilir;
- **İntizam Palatasının** 9 üzvü bunlardır: 5 vəkil, Ədliyyə Nazirliyini təmsil edən 2 hakim və 2 Parlament üzvü; vəkil barədə intizam qərarı açıq səsvermə yolu ilə və 2/3 səs çoxluğu ilə qəbul edilir;
- Hər iki Palatanın qərarlarından Ekslandın hakimiyyət orqanlarına tabe olan **Vəkillər Kollegiyasının Ali Komissiyasına** şikayət etmək olar; Komissiya yalnız dövlət tərəfindən maliyyələşir.

Təklif olunan Qanunu müzakirə edin. Bu, Eksland Vəkillər Kollegiyasının işini və ya vəziyyətini necə dəyişə bilər? Parlamentin bu Qanunu qəbul etməməsi üçün hansı arqumentləri irəli sürərdiniz? Yardım almaq üçün hər hansı başqa orqanlara, məsələn, beynəlxalq qurumlara müraciət edə bilərsiniz?

### d *Çalışma 3*

*Hakimlərin qərəzsizliyi*

Siz Şərqi Eksland Apellyasiya Məhkəməsinin hakimisiniz. Ağır narkotik cinayətinə görə birinci instansiya məhkəməsi tərəfindən 15 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum olunan bir kişi barəsində apellyasiya icraatına qədər həbsdə saxlanıb-saxlanmama barəsində qərar verməlisiniz. Qeyd edək ki, məhkəmə prosesi çox uzun davam edib və şəxs artıq 3 il yarımdır ki, həbsdə saxlanıb və apellyasiya icraatının bundan hələ bir neçə ay sonra başlanacağı gözlənilir. Siz onun həbsdən azad edilməsi barədə qərar qəbul edirsiniz və öncədən də bu təhlükənin gözlənildiyi kimi həmin şəxs qaçır. Bu şəxs Eksland Polisinin uzun zamandır tapmaqda çətinlik çəkdiyi qatı cinayətkar idi və indi o, sadəcə aradan çıxıb. Hazırda ölkədə gərginlik yaşanır və siz intizam icraatına qədər hakimlik fəaliyyətinizdən uzaqlaşdırılmısınız və üçüncü tərəfin qanunsuz təsiri ilə qərar qəbul etməkdə şübhəli bilinirsiniz.

İşi müzakirə edin. Həll yolları təklif edin.

---

[2] **Fasilitatora məsləhət: Bu çalışma 2000-ci ildə Ukrayna Parlamentinə daxil olan qanunvericilik təklifinə əsasən hazırlanıb**

## C. Müzakirə mövzusu

**Məhkəmə hakimiyyətinin tərkibi onun müstəqilliyinə və qərəzsizliyinə təsir edirmi?**

və ya

**Ədalət mühakiməsinin müstəqil və qərəzsiz həyata keçirilməsinin təmini üçün gender və azlıq müstəvisində yanaşma zəruridirmi?**

Bu suallar barədə az sayda qadın və azlıqların hüquq peşələrində çalışdığı ölkələrdə qısa müzakirə aparmaq xüsusilə maraqlı olar. Moderator təlim kursunda iştirak edən qadınlar və azlıq nümayəndələri də daxil olmaqla ən müxtəlif fikirlərin eşidilməsini təmin etməlidir.

## D. Kazusla iş/rol oyunu[3]

**Yerli quruluş:** Puritaniya uzun sürən müstəqillik uğrunda müharibə nəticəsində dağılıb və bu illər ərzində özünü xarici ölkənin müstəmləkəliyindən azad etməyə çalışıb. Hazırda məhkəmə sistemi də daxil olmaqla bütün ölkə yenidənbərpa mərhələsindədir. Əksər hakimlər, prokurorlar və vəkillər keçmiş müstəmləkə hakimiyyətinə mənsub olduqlarından, ölkəni tərk etməyə məcbur olublar. Hakimlərin, prokurorların və vəkillərin yeni nəsli yenicə müstəqillik əldə edən dövlətdə ədalət mühakiməsini həyata keçirilmək üçün təlimatlandırılırlar. Məhdud təlim keçirilməsinə əlavə olaraq, hüquq peşələrinin yeni üzvləri hüquq-mühafizə orqanları tərəfindən uzun illər davam edən, insan hüquqları normalarına aşağı diqqətin göstərildiyi repressiya dövründən qalan yerli əhalinin şübhələri ilə də mübarizə aparmalıdırlar. Həmçinin, yerli adətlər hələ də insanların beynində ciddi kök salmaqda davam edir.

**Cinayət:** İqor və İvan yaxın dostdurlar və hər ikisinin 20 yaşı var. Polis hesab edir ki, onlar şənbə günü axşam dostları ilə şənlik keçirmək məqsədilə içki və yemək əldə etmək üçün ərzaq mağazasına daxil olublar. Kəndin ağsaqqal kişisi əmindir ki, o, hər iki məşhur oğlanı həmin axşam qaranlıqda mağazadan qaçan görüb. İqor və İvan yerli həbsxanaya salınıblar, amma cinayət etdiklərini tamamilə inkar edirlər.

**İcraat:**

1. Siz İqor və İvanı müdafiə etmək üçün tutulan **vəkilsiniz**:

   - Hər iki oğlan oğurluq etdiyini inkar edir; siz məhkəmə çıxışları etməkdə geniş təcrübəniz olmadığından narahatsınız və sizin üçün daha asan yol təqsiri etiraf etməklə işi bitirməkdir;
   - Siz nə etməlisiniz?

2. Siz **prokurorsunuz** və polis işi sizə göndərib.:

   - İşin materialları arasında siz bir kişinin ifadəsinə rast gəlirsiniz və həmin ifadəyə əsasən, o, əminliklə bildirir ki, oğurluğun baş verdiyi vaxt İqor və İvanı mağazadan qaçan görüb; kişi kənddə son zamanlar artan sayda baş verən xırda oğurluqdan təngə gələn çoxsaylı sakinlərdəndir; siz bu kəndlilərin hamısını çox yaxşı tanıyırsınız və onlar təqibi davam etdirməkdə sizə təsir edirlər; odur ki,

[3] **Fasilitatora məsləhət:** Bu çalışmadan həm kazus, həm də rol oyunu məqsədilə istifadə edilə bilər. Önəmli element odur ki, iştirakçılar 4-cü fəsildə öyrəndikləri hüquqi prinsipləri tətbiq etməyə çalışmalıdırlar. Bu çalışma Puritaniyadakı vəziyyətə oxşar ölkədə təlim keçən bir hakimdən əldə edilən məlumat əsasında tərtib edilib.

Siz İqor və İvanı ittiham etmək üçün yetərincə sübut olub-olmaması ilə bağlı özünüzə sual verirsiniz; əslində siz onların təqsirliliyinə şübhə edirsiniz;

- Siz nə etməlisiniz?

3. İş nəhayət məhkəməyə gedir və siz iş üzrə qərar verməli olan **hakimsiniz**:

- Gənc oğlanların ataları kəndin vacib şəxsləridir və onlar işə xitam verməyə və ya onların xeyrinə qərar qəbul etməyə inandırmağa çalışmaq məqsədilə sizə müraciət edib və bu işlə bağlı siz çətin durumdasınız;
- Siz nə etməlisiniz?

## E. Paylama materialları (CD-ROM-a baxın)

1. Əsas hüquqi müddəalar
2. Məhkəmələrin Müstəqilliyi haqqında Əsas Prinsiplər, 1985
3. Prokurorların Rolu haqqında Rəhbər Qaydalar, 1990
4. Vəkillərin Rolu haqqında Əsas Prinsiplər, 1990
5. İnsan Hüquqları Komitəsi, 14-cü maddə (məhkəmələr və tribunallar qarşısında bərabərlik və ədalətli məhkəmə araşdırması hüququ) ilə bağlı 32 saylı (2007) ümumi rəy (fasilitator tərəfindən təmin edilməlidir)

# 5-ci fəsil
# İNSAN HÜQUQLARI VƏ TUTULMA, MƏHKƏMƏYƏDƏK HƏBS VƏ İNZİBATİ HƏBS

## Mündəricat


I. FASİLİTATORLAR ÜÇÜN QEYD....................................30

II. ƏSAS HÜQUQİ MƏNBƏLƏR....................................31

A. Universal mexanizmlər ....................................31

B. Regional mexanizmlər ....................................31

III. FƏSLİN/SESSİYANIN MƏQSƏDLƏRİ ............................32

IV. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR....................................32

V. 5-Cİ FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ ....................33

VI. TƏLİM MATERİALLARI ....................................34

A. Kompüter slaydları ....................................34

B. Çalışmalar....................................37

C. Kazusla iş/rol oyunu ....................................39

D. Paylama materialı....................................41

# I. FASİLİTATORLAR ÜÇÜN QEYD

Bu Vəsaitin 5-ci fəsli Mülki və Siyası Hüquqlar haqqında Beynəlxalq Paktın 9-cu maddəsi, İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyasının 6-cı maddəsi, Amerika İnsan Hüquqları Konvensiyasının 7-ci maddəsi və Avropa İnsan Hüquqları Konvensiyasının 5-ci maddəsinin beynəlxalq monitorinq orqanları tərəfindən şərhinə əsaslanır. Bu, ilk öncə əsaslı şübhə olmadan tutulma və həbslə bağlı problemləri, daha sonra isə hər kəsin azadlıq və təhlükəsizlik hüququna hörmət etməsi istiqamətində dövlətlərin universal hüquqi öhdəliklərini həm azadlıqdan məhrumetmə, həm də digər müstəvidə qısaca izah edir.

5-ci fəsil aşağıdakıların detallı təsvirini verir:

- Qanunilik və özbaşınalıq anlayışlarının mənası;
- Gizli saxlama, adam oğurluğu və məcburi yoxaçıxmalar problemi ;
- Azadlıqdan məhrumetməyə haqq qazandıra bilən müxtəlif əsaslar;
- İnzibati həbs;
- Hakimin və ya digər məhkəmə səlahiyyətlisinin qarşısına dərhal gətirilmək hüququ;
- Ağlabatan müddət ərzində məhkəmə araşdırması hüququ və məhkəməyə qədər həbsdən azad edilmək hüququ;
- Həbsin qanuniliyinə təxirəsalınmadan və ya gecikdirmə olmadan məhkəmə tərəfindən baxılması hüququ;
- Vəkilə çatımlılıq və vəkil yardımı hüququ;
- Qanunsuz azadlıqdan məhrumetmə zamanı kompensasiya hüququ; və
- Incommunicado həbs (yazışma və ünsiyyət hüququndan mərhum etməklə həbs) zamanı kompensasiya hüququ.

Bu fəsil seçmə suallardan, kompüter slaydlarından, kazuslardan və təlim zamanı istifadə edilə bilən digər çalışmalardan ibarətdir. Bununla belə, fasilitator konkret auditoriyanın ehtiyaclarından və ya öz təlim metodologiyasından asılı olaraq materiallara əlavə və dəyişiklik edə bilər. Standartların təqdimatı zamanı fasilitatorun öz peşə təcrübəsinə istinad etməsi və auditoriyaya suallar ünvanlaması iştirakçıların marağını artırmış və fəal iştirakını təmin etmiş olardı.

# II. ƏSAS HÜQUQİ MƏNBƏLƏR

5-ci fəsil, əsasən, aşağıdakı hüquqi mənbələrə əsaslanır:

## A. Universal mexanizmlər

- İnsan Hüquqlarına dair Ümumi Bəyannamə, 1948
- Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, 1966

*****

- Bütün İnsanların Həbs və ya Məhkumluğun hər hansı forması zamanı Müdafiəsi üçün Rəhbər Prinsiplər, 1988
- Məhkumlarla Rəftarla bağlı Standart Minimum Qaydalar , 1955
- Qanunsuz, Özbaşına və Kütləvi Edam cəzasının Səmərəli şəkildə Qarşısının Alınması və İstintaqı haqqında Prinsiplər, 1989
- Bütün İnsanların Məcburi Yoxaçıxmadan Müdafiəsi haqqında Bəyannamə, 1992
- Bütün İnsanların Məcburi Yoxaçıxmadan Müdafiəsi haqqında Beynəlxalq Konvensiya, 2006
- Bütün Miqrant İşçilərin və Onların Ailə Üzvlərinin Hüquqlarının Müdafiəsi haqqında Beynəlxalq Konvensiya, 1990

## B. Regional mexanizmlər

- İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyası, 1981 – maddə 6 və 7
- Amerika İnsan Hüquqları Konvensiyası, 1969 – maddə 7
- İnsanların Məcburi Yoxaçıxmaları haqqında İnter-Amerika Konvensiyası, 1994
- Avropa İnsan Hüquqları Konvensiyası, 1950 – maddə 5

*****

- Afrikada ədalətli məhkəmə araşdırması və hüquqi yardım hüququ barədə prinsiplər və rəhbər qaydalar, 2003 – M prinsipi
- Avropa Şurası Nazirlər Komitəsi tərəfindən qəbul edilən insan hüquqları və terrorizmə qarşı mübarizə haqqında rəhbər qaydalar, 2002

# III. FƏSLİN/SESSİYANIN MƏQSƏDLƏRİ

5-ci fəslin məqsədlərinə daxildir:

- İştirakçıları tutulma, həbs və inzibati həbs zamanı azadlıq və toxunulmazlıq hüququ ilə bağlı mövcud beynəlxalq hüquqi standartlarla tanış etmək ;
- Həbsdə olan şəxslərin və onların müdafiəçilərinin hüquqlarını qorumaq üçün müxtəlif hüquqi təminatların təcrübədə necə icra edilməsini canlandırmaq;
- Tutulan və ya həbsdə olan şəxsin hüquqlarının təminatı üçün hakimlər, prokurorlar və vəkillərin həyata keçirməli olduğu hüquqi tədbirləri və/və ya hərəkətləri izah edin.

# IV. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR

Beynəlxalq hüquqi standartlar çərçivəsində 5-ci fəsildə toxunulacaq əsas məqamlar və müzakirə ediləcək başlıca məsələlər aşağıdakılardır:

- İştirakçıların fəaliyyət göstərdikləri ölkələrdə şəxsin tutulması və ya həbsi hansı əsaslarla ola bilər və məhkəməyədək həbsə alternativ hansı qətimkan tədbirləri mövcuddur;
- Sözügedən ölkədə azadlıqdan məhrumetmənin qanuniliyini araşdırmaq məqsədilə hakimin qarşısına gətirilmə tələbindən öncə şəxs hansı müddətə saxlana bilər;
- İştirakçıların çalışdığı ölkənin qanunvericiliyi şəxsi qanunsuz və özbaşına tutulma və ya həbsdən necə qoruyur;
- İştirakçıların öz peşə vəzifələrini həyata keçirdikləri ölkədə qanunsuz və ya özbaşına tutulmalar baş verirmi;
- İştirakçılar qanunsuz və ya özbaşına tutulma və ya həbslə üzləşdikləri təqdirdə hansı addımı atmış olardılar və çalışdıqları ölkənin qanunvericiliyi çərçivəsində bununla bağlı nə edə bilərdilər?
- Qanunsuz və ya özbaşına olaraq azadlıqdan məhrum edildiyini hesab edən şəxslər üçün iştirakçıların çalışdığı ölkədə və ya ölkələrdə mövcud olan hüquqi vasitələr;
- Əgər şəxsin qanunsuz və ya özbaşına olaraq azadlıqdan məhrum edildiyi hakim tərəfindən müəyyən edilərsə, iştirakçıların çalışdığı ölkədə və ya ölkələrdə qanunsuz və ya özbaşına azadlıqdan məhrumetməyə görə şəxsin kompensasiya hüququ nəzərdə tutulubmu?
- Azadlıqdan məhrumetmənin qanuniliyini mübahisələndirmək üçün yerli icraat zamanı beynəlxalq insan hüquqları hüququna istinad etmək mümkündürmü və hansı həddə qədər mümkündür;
- Hansı əsas və şərtlərlə şəxs barəsində ***inzibati həbs*** tətbiq edilə bilər və belə həbsin qanuniliyini mübahisələndirmək üçün mövcud hüquqi vasitələr;
- Şəxsin tutulduğu və həbsə alındığı hansı andan vəkilə çatımlılıq hüququ var;
- İştirakçıların çalışdıqları ölkələrdə şəxsin ***incommunicado*** həbs (yazışma və ünsiyyət hüququndan məhrum etməklə həbs) mümkündürmü və əgər mümkündürsə, hansı müddətə; müzakirəni belə həbsin neqativ və mümkün pozitiv cəhətləri istiqamətində genişləndirin.

# V. 5-Cİ FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ

| Başlıca məqamlar/Fəaliyyət | Metod | Media | Zaman |
|---|---|---|---|
| 1. 5-ci fəslin məqsədləri | Təqdimat | Kompüter slaydları,<br>kağız lövhə | 10 dəqiqə |
| 2. Kursun təqdimatı:<br>Komanda Vəsaitin 5-ci fəslinə və yuxarıdakı III bölmədə təsbit edilən əsas məqamlara istinadən bu məsələlərlə bağlı təqdimat edir:<br>a. fərdi azadlıq, onların məcburi xarakteri və dövlətin hərəkətinə dair tələblə bağlı beynəlxalq standartlar;<br>b. tutulma və həbslə bağlı standartlar;<br>c. tutulmanın/həbsin səbəbləri barədə məlumatlandırılmaq və dərhal hakim qarşısına gətirilmək hüququ | İnteraktiv təqdimatlar | Kompüter slaydları, kağız lövhə, özüyapışan kağız, standart və prinsipləri əks etdirən paylama materialları | 40 dəqiqə |
| 3. Dincəliş | | | 5 dəqiqə |
| 4. Təqdimatların davamı:<br>d. ağlabatan müddət ərzində məhkəmə araşdırması hüququ və ya məhkəməyədək azad edilmək hüququ;<br>e. həbsin qanuniliyinə məhkəmə tərəfindən baxılması hüququ;<br>f. vəkilə çatımlılıq hüququ;<br>g. qanunsuz həbsə görə kompensasiya hüququ;<br>h. incommunicado həbs (yazışma və ünsiyyət hüququndan məhrum etməklə həbs) məsələsi. | İnteraktiv təqdimatlar | Kompüter slaydları və s. yuxarıda qeyd edilənlər | 30 dəqiqə |
| 5. Nahar | | | 60 dəqiqə |
| 6. Qruplara bölünmə və kazusun və ya digər çalışmanın izahı və qrupların təqdimatı proseduru; kazusun/çalışmanın paylanması | | | 10 dəqiqə |
| 7. kazusla iş- qruplarda iş | | kağız lövhə və s. | 50 dəqiqə |
| 8. Dincəliş | | | 5 dəqiqə |

| Başlıca məqamlar/Fəaliyyət | Metod | Media | Zaman |
|---|---|---|---|
| 9. Qrupların təqdimatı | Qruplar kazus və ya çalışmanın təqdimatını edirlər. Təqdimat komandası əmin olmalıdır ki, əsas məqamlar anlaşılıb. | kağız lövhə, özüyapışan kağız və s. | 40 dəqiqə |
| 10. 5-ci fəslin qavranılmasının nəzərdən keçirilməsi | Qruplarla söhbət və mümkün qədər çox sual-cavab yolu ilə əsas məqamların xatırlanması | | 25 dəqiqə |
| | | | **5-ci fəsil üzərində ümumi iş vaxtı: 3 saat 35 dəqiqə** |

# V. TƏLİM MATERİALLARI

## A. Kompüter slaydları (CD-ROM-a baxın)

1. Öyrənmə məqsədləri I
2. Öyrənmə məqsədləri II
3. Suallar I
4. Suallar II
5. Suallar III
6. Suallar IV
7. Suallar V
8. Suallar VI
9. Şəxsin azadlığı və təhlükəsizliyi anlayışı I
10. Şəxsin azadlığı və təhlükəsizliyi anlayışı II
11. Qanuni tutulma və həbs: Əsas hüquqi sənədlər I

12. Qanuni tutulma və həbs: Əsas hüquqi sənədlər II

13. Qanuni tutulma və həbs: Əsas hüquqi sənədlər III

14. Qanuni tutulma və həbs: Əsas hüquqi sənədlər IV

15. Qanuni tutulma və həbs: Əsas hüquqi sənədlər V

16. Qanuni tutulma və həbs: Əsas hüquqi sənədlər VI

17. Qanuni tutulma və həbs: Əsas hüquqi sənədlər VII

18. Qanuni tutulma və həbs: Əsas hüquqi sənədlər VIII

19. Qanuni tutulma və həbs: Əsas hüquqi sənədlər IX

20. Qanuni tutulma: Bu nə deməkdir

21. Qanunsuz həbs: Bu nə deməkdir I

22. Qanunsuz həbs: Bu nə deməkdir II

23. Gizli saxlama, adam oğurluği və məcburi yoxaçıxmalar problemi I

24. Gizli saxlama, adam oğurluği və məcburi yoxaçıxmalar problemi II

25. Tutulma və həbsin qanuni əsasları I

26. Tutulma və həbsin qanuni əsasları II

27. İnzibati həbs I

28. İnzibati həbs II

29. Şəxsin tutulma və həbsin səbəbləri və ona qarşı irəli sürülən hər hansı ittiham barədə məlumatlandırılmaq hüququ: Əsas hüquqi müddəalar I

30. Şəxsin tutulma və həbsin səbəbləri və ona qarşı irəli sürülən hər hansı ittiham barədə məlumatlandırılmaq hüququ: Əsas hüquqi müddəalar II

31. Şəxsin tutulma və həbsin səbəbləri və ona qarşı irəli sürülən hər hansı ittiham barədə məlumatlandırılmaq hüququ: Əsas hüquqi müddəalar III

32. Şəxsin tutulma və həbsin səbəbləri və ona qarşı irəli sürülən hər hansı ittiham barədə məlumatlandırılmaq hüququ: Bu nə deməkdir

33. Hakimin və ya digər məhkəmə səlahiyyətlisinin qarşısına dərhal gətirilmək hüququ: Əsas hüquqi sənədlər I

**34.** Hakimin və ya digər məhkəmə səlahiyyətlisinin qarşısına dərhal gətirilmək hüququ: Əsas hüquqi sənədlər II

**35.** Hakimin və ya digər məhkəmə səlahiyyətlisinin qarşısına dərhal gətirilmək hüququ: Əsas hüquqi sənədlər III

**36.** Hakimin və ya digər məhkəmə səlahiyyətlisinin qarşısına dərhal gətirilmək hüququ: Bu nə deməkdir

**37.** Ağlabatan müddət ərzində məhkəmə araşdırması hüququ və ya məhkəməyəqədər azad edilmək hüququ: Bu nə deməkdir I

**38.** Ağlabatan müddət ərzində məhkəmə araşdırması hüququ və ya məhkəməyəqədər azad edilmək hüququ: Bu nə deməkdir II

**39.** Həbsin qanuniliyinə məhkəmə tərəfindən təxirəsalınmadan və ya gecikdirilmədən baxılması hüququ: Əsas hüquqi sənədlər I

**40.** Həbsin qanuniliyinə məhkəmə tərəfindən təxirəsalınmadan və ya gecikdirilmədən baxılması hüququ: Əsas hüquqi sənədlər II

**41.** Həbsin qanuniliyinə məhkəmə tərəfindən təxirəsalınmadan və ya gecikdirilmədən baxılması hüququ: Əsas hüquqi sənədlər III

**42.** Həbsin qanuniliyinə məhkəmə tərəfindən təxirəsalınmadan və ya gecikdirilmədən baxılması hüququ: Bu nə deməkdir I

**43.** Həbsin qanuniliyinə məhkəmə tərəfindən təxirəsalınmadan və ya gecikdirilmədən baxılması hüququ: Bu nə deməkdir II

**44.** Həbsin qanuniliyinə məhkəmə tərəfindən təxirəsalınmadan və ya gecikdirilmədən baxılması hüququ: Bu nə deməkdir III

**45.** Həbsin qanuniliyinə məhkəmə tərəfindən təxirəsalınmadan və ya gecikdirilmədən baxılması hüququ: Bu nə deməkdir IV

**46.** Həbsin qanuniliyinə məhkəmə tərəfindən təxirəsalınmadan və ya gecikdirilmədən baxılması hüququ: Bu nə deməkdir V

**47.** Həbsin qanuniliyinə məhkəmə tərəfindən təxirəsalınmadan və ya gecikdirilmədən baxılması hüququ: Bu nə deməkdir VI

**48.** Vəkilə çatımlılıq və vəkil yardımı hüququ, eləcə də qanunsuz azadlıqdan məhrumetmə zamanı kompensasiya hüququ

**49.** Incommunicado həbs (yazışma və ünsiyyət hüququndan məhrum etməklə həbs)

## B. Çalışmalar

### d *Çalışma 1*

*İştirakçıların ölkəsində və ya ölkələrində hüquqi durumun ümumi analizi*

5-ci fəsildə müəyyən edilən məsələləri analiz etmək üçün iştirakçıları 4-5 nəfərdən ibarət kiçik qruplara bölməklə, yaxud onların fərdi şəkildə çalışmasını təmin etməklə təxminən 30 dəqiqəlik zaman ayırın.

Bütün məsələlər iştirakçıların çalışdıqları ölkələrin hüquqi və faktiki vəziyyəti çərçivəsində araşdırılmalıdır. ***İştirakçılara tapşırın ki, ən önəmli hesab etdikləri 3-5 məsələni seçsinlər***. Bu məsələlər daha sonra qruplarda müzakirə edilməldir və qruplar tutulan və həbsə alınan şəxslərin hüquqlarının yerli səviyyədə qorunmasını gücləndirmək üçün təkliflərlə çıxış etməlidirlər. Qruplar müzakirələrin davam edəcəyi plenar iclasda təqdimatlarını edirlər.

Çalışdıqları ölkənin durumundan asılı olaraq, iştirakçıların analizi aşağıdakı məsələləri əhatə etməlidir:

- Şəxsi azadlıqdan məhrum etmək üçün mövcud əsaslar;
- Tutulmanın, həbsin və ya hər hansı ittihamın səbəbləri haqqında məlumatlandırılmaq hüququ;
- Azadlıqdan məhrumetmənin qanuniliyinə həm hüquqi, həm də faktiki olaraq məhkəmə tərəfindən təxirəsalınmadan baxılması hüququ;
- Həbs müddətinin uzadılmasına həm hüquqi, həm də faktiki olaraq məhkəmələr tərəfindən baxılmasının mümkünlüyü ;
- Ağlabatan müddət ərzində mühakimə hüququ və ya məhkəmə baxışına qədər azad edilmək hüququ;
- Həbsə alternativ qətimkan tədbirlərinin mövcudluğu;
- Vəkilə çatımlılıq hüququ;
- Qanunsuz olaraq azadlıqdan məhrum etmə zamanı kompensasiya hüququ;
- İncommunicado həbsin (yazışma və ünsiyyət hüququndan məhrum etməklə) mövcudluğu;
- Yerli məhkəmə orqanları qarşısında beynəlxalq insan hüquqları standartlarına istinadın mümkünlüyü.

d ***Çalışma 2***

*Hüquqi standartların tətbiqi və beynəlxalq terrorizm*

5-ci fəsildə öyrənilən qaydaları rəhbər tutaraq, aşağıdakı çalışmada yaranan problemləri analiz etmək üçün iştirakçıların 3-5 nəfərlik kiçik qruplarda 30-40 dəqiqə ərzində çalışmalarını təşkil edin.

Puritaniya şübhəsiz ki, çox çətin dönəm yaşamaqdadır. Yüzlərlə insanın ölümünə və yaralanmasına səbəb olan bir sıra terror aktlarının ardınca bu cinayət aktlarının böyük beynəlxalq nəticələrinin olması aydın oldu. Puritaniyanın əcnəbi mənşəli müxtəlif azlıqlardan ibarət əhalisi var və terror aktlarının törədilməsində məhz bu milli azlıqların bəzilərinin əli olduğu istisna edilmir. Hökumət təşvişə düşmüş əhalinin təsiri ilə sərt tədbirlərin gerçəkləşdirilməsi zərurətini anlayır. Bu baxımdan, hökumət sözügedən cinayətin iştirakçılarının cinayət təqibini aparmaq və oxşar əməllərin gələcəkdə törədilməsinin qarşısını almaq üçün ciddi ölçülər götürmək niyyətindədir. Bu məqsədlə, hökumət Parlament tərəfindən 2009-cu ildə Terrorizm Aktının qəbul edilməsinə nail olub. Aktın əsas müddəaları aşağıdakılardır:

- Akt Ədliyyə Nazirinə əcnəbinin “terror aktları” və ya “milli təhlükəsizliyə hədələr”ə cəlb olunmasını güman etməyə ağlabatan əsaslar olduğunu hesab etdiyi halda əcnəbilərin həbsi üçün geniş səlahiyyət verir; Aktda nə “digər terror aktları”, nə də “milli təhlükəsizliyə hədələr” ifadələrinin anlayışı verilib;
- Akt Ədliyyə Nazirinə terrorçu olmasından şübhələndiyi qeyri-vətəndaşların hər hansı ittiham olmadan və ya məhkəmə qarşısına çıxarılmadan 7 günədək müddətə həbsinə icazə verir;
- “Müstəsna hədə” hallarında Akt Ədliyyə Nazirinə şübhəli əcnəbini “ağlabatan müddət” ərzində məhkəmə qarşısına çıxarmaqdan yan keçməsinə icazə verir.;
- Əcnəbinin davamlı həbsinə hər 6 aydan bir məhkəmə tərəfindən baxılmalıdır;
- Akt hər hansı cinayətə görə ittiham edilməyən şəxsin həbsdən azad edilməsi üçün hər hansı zaman həddi müəyyən etmir;
- Akt qeyri-vətəndaşların bu Aktın təsir dairəsinə düşən icraatdakı hüquqlarını müəyyən etmir. Bu isə ona gətirib çıxarır ki, şübhəli şəxslər bəzi hallarda uzun müddətə vəkil yardımından məhrum edilirlər və onların Ədliyyə Nazirinin bu kimi işlərdə söykəndiyi ittihamedici sübuta çatımlılığı hər zaman olmur;
- Aktda açıqca göstərilir ki, qanunsuz həbsə görə hər hansı məhkəmə iddiası qaldırıla bilməz.

Puritaniya Konstitusiyası ölkə vətəndaşlarına prosessual təminatlar da daxil olmaqla, əsas hüquq və azadlıqlar verir. Puritaniya Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktı onun 9-cu maddəsinə qeyd-şərt etmədən ratifikasiya edib.
Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın və ya digər müvafiq beynəlxalq müqavilənin işığında Puritaniya Terrorizm Aktından doğan problemləri tənqidi analiz edin. İnsan hüquqlarına sayqı duymaq şərtilə terrorizmlə səmərəli mübarizəni müzakirə edin. Həll yollarını təklif edin.

# C. Kazusla iş/rol oyunu[4]

Aşağıda qeyd edilən hekayə uydurma olsa da, əsasən, beynəlxalq monitorinq orqanlarının qərar verdikləri işlərin faktlarına söykənir. Belə tərtibatın səbəbi- iştirakçıların Vəsaitin 5-ci fəslinin əhatə etdiyi bəzi əsas prinsipləri aydınlaşdırmasına və tətbiq etməsinə imkan verməkdir. Kazusu analiz edərkən, iştirakçılar ***həm*** peşə fəaliyyətini həyata keçirdikləri ölkənin yerli qanunvericiliyinə, ***həm də*** Eksland tərəfindən ratifikasiya edildiyi güman edilən Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakta əsaslanmalıdırlar. Bu çalışmadakı hekayə davam edən hipotetik vəziyyətin başlanğıcıdır və növbəti fəsillərdə davam etdiriləcək.

## *Hissə I: FAKTLAR*

**Tutulma və həbs**

1. Bu hadisə cinayətkarlığın səviyyəsinin son illərdə kəskin artdığı Ekslandin Stadtoun şəhərində cərəyan edir. Zorakı və narkotik cinayətləri əhali arasında təhlükəsizliyi ciddi şəkildə pozub. Polis qüvvələrinin sayı az və iş yükü çox olduğundan, cinayətkarlıqla mübarizə sahəsində əhalinin gözləntilərinə cavab verməkdə yetərincə çətinlikləri var.

2. 1 fevral 2011-ci ildə axşam saatlarında Con dostu Tomasın evini tərk edərək, Main Street küçəsi ilə üzüaşağı tələsik addımlayırdı. Birdən o, 3 nəfər polis işçisi tərəfindən mühasirəyə alındı və elə həmin axşam bir az erkən, bir az aralı məsafədə demək olar ki, heç bir küçə fənəri ilə işıqlandırılmayan qonşu məhlədə silahlı soyğunçuluqda iştirak etməkdə şübhəli bilinirək, Stadtoun Baş Polis İdarəsinə aparıldı. Soyğunçuluqdan zərər çəkən yaşlı cütlük xəsarət almasalar da, silahla hədələndikləri zaman böyük məbləğdə pul və zinət əşyalarını verməyə məcbur qalıblar. Polis işçiləri Conun üzərində axtarış apararkən, oğurlanmış zinət əşyalarını tapmırlar. Bununla belə, Conun gödəkçəsində böyük məbləğdə pul aşkarlanır və onun yetərincə gənc və sadə görünüşdə olması nəzərə alınmaqla, bu fakt polislərdə çox şübhə doğurur. Yaşlı cütlüyün təsvirinə görə, Con cins və dəri gödəkcə geymişdi və boyu 1.8 metr hündürlüyündə idi və bu təsvir Conun əlamətlərinə uyğun gəlirdi. O, tutulduğu zaman silahlı deyildi. Polis işçiləri Conun tutulması üçün tutma protokolu tərtib etməyiblər, amma polis maşınında radio vasitəsilə aldıqları mesaja cavab veriblər.

3. Con milliyyətcə Ruritaniyadandır və Ekslandda danışılan dili zəif bilir və bu səbəbdən, polislər tərəfindən tutulduğu zaman verilən izahatları tam başa düşməyib. Tutulma səbəbini anlamadığından, polis idarəsində onun narahatçılığı və gərginliyi daha da artır. Con sonda polis işçilərinə başa salır ki, onun tərcüməçiyə və vəkilə ehtiyacı var. Polislər bu xahişi rədd edərək bildirirlər ki, vəkilin iştirakı soyğunçuluq cinayətinin uğurlu istintaqına mane ola bilər. Onlar son aylarda şəhərdə baş verən silsilə soyğunçuluq cinayətlərinə son qoymaq istəyirdilər. Tərcüməçiyə gəldikdə, polislər bildirirlər ki, axşam olduğundan kimləsə məsləhətləşmək çox gecdir. Con artıq lap qəzəblənir və nəzarəti itirdiyindən polis işçilərindən ikisi onu sakitləşləşdirmək üçün döşəməyə oturmağa məcbur edirlər. O, həmin gecə qəfəsdə bağlı saxlanılır və nə vəkilinə, nə də valideynlərinə zəng edə bilir. Polis işçiləri onun müqavimətini qırmaq üçün arxası üstə uzatdıqlarına görə, Conun sinə hissəsi də ağrıyır. O, təcili surətdə həkimə ehtiyacı olduğunu başa salmaq üçün əlindən gələni etsə də, polislər kameranın qapısını qıfıllayırlar və evlərinə gedirlər. Belə ki, polislər uzun bir günün sonunda çox yorulmuşdular.

[4] **Fasilitatora məsləhət:** Bu kazusdan İnsan Hüquqları Komitəsi və ya hər hansı başqa beynəlxalq monitorinq orqanına göndərilən şikayətlə bağlı rol oyununda da istifadə edilə bilər. Hər bir halda bu kazus iştirakçılara öncədən paylanmalıdır ki, onlara hazırlaşmaq üçün yetərincə zaman qalsın.

4. Növbəti gün Conun təşviş içində olan valideynləri polis idarəsinə gedirlər (yerli hospitalda xəbər almanın ardınca) və bildirirlər ki, onların oğulları dünən gecə evə qayıtmayıb. Valideynlərinə görə, bu hal çox qəribə idi, çünki Con diqqətli övlad olub və harada olması barədə valideynlərinə həmişə xəbər verib. Növbədə olan polis işçisi heç bir əlavə məlumat vermədən Conun tutulduğunu bildirdi, amma oğulları ilə görüşə icazə vermədi. Valideynlərə növbəti gün polis idarəsinə bir daha gəlmək tövsiyə edildi. Bununla belə, bütün növbəti həftə ərzində valideynlərin öz oğullarını görmək üçün gündəlik cəhdləri boşa çıxdı.

5. Con həbsə alındıqdan yalnız 7 gün sonra Ruritaniya dilini səlis bilən Ekslanddan olan vəkillə görüşə bilir. Ona bildirilir ki, o, bir həftə əvvəl silahlı soyğunçuluq törətməkdə şübhəli bilinərək tutulub. Növbəti gün- 8 fevral 2011-ci ildə Con hakim qarşısına gətirilir və onun həbsinin qanuniliyi təsdiqlənir.

6. Conun həbsi Stadtoun Rayon Məhkəməsi tərəfindən hər 3 aydan bir təsdiqlənir. Məhkəmə prokuror tərəfindən irəli sürülən arqumentləri – onun yeni cinayət törətməsi və Vətəni Ruritaniyaya geri dönməklə ədalət mühakiməsindən yayınması təhlükəsini qəbul edir. Con ümumilikdə 18 ay həbsdə qalır. O, məhkumluğunun olmamasını, qayıtmaq arzusunda olduğu yaxşı və stabil işinin olmasını, eləcə də ən qısa zamanda ailə qurmaq arzusunda olduğu Ekslandlı sevgilisinin olduğunu bildirərək, girov müqabilində həbsdən azad edilməsi tələbi ilə məhkəməyə ərizə versə də, nəticəsiz oldu.

## *Hissə II: SUALLAR*

1. (a) Conun ilkin tutulması; və (b) onun davamlı həbsi ilə bağlı Sizin milli qanunvericiliyinin müddəalarına əməl edilibmi?

2. (a) Conun ilkin tutulması; və (b) onun davamlı həbsi (a) milli qanunun və (b) Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın hansı müddəlarına uyğundur?

3. Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın müddəalarına əsasən, tutulma qanuni və qeyri-özbaşına idimi?

4. Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakta əsasən, məhkəməyədək həbsdə saxlanılma müddətinin uzadılması qanuni və qeyri-özbaşına idimi? Əgər deyildisə, həbs müddəti hansı mənada Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın müddəalarını pozur?

5. Conun ailəsinin onun tutulması barədə məlumatlandırılmaması (a) sizin yerli qanunvericiliyə; və (b) Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın müddəalarına ziddirmi?

6. Conun ailəsi və vəkillə ünsiyyətə imkan verilmədən saxlanılması incommunicado həbs (yazışma və ünsiyyət hüququndan məhrum etməklə həbs) anlamına gəlirmi? Buna haqq qazandırmaq olardımı?

7. Conun valideynlərinə tutulmadan sonrakı 1 həftə ərzində oğulları ilə görüşməyə icazə verilməməsinin qanuniliyini iki aspektdə analiz edin: (a) sizin milli qanunvericilik; və (b) Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt.

8. Cona tutulmadan sonrakı 1 həftə ərzində tərcüməçi tutmasına və vəkillə məsləhətləşməsinə icazə verilməsindən imtina edilməsi məsələlərində sizin milli qanunvericiliyin müddəalarına əməl edilibmi? Həkimlə görüşməyə icazə verilməməsi məsələsində necə?

9. Bu imtinalar Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktla uyğunluq təşkil edibmi?

10. Əgər sizin düşüncənizdə milli qanunvericiliyin və /və ya Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın müddəalarına əməl edilməyibsə, belə durumlarda bu Pakta riayət edilməsi üçün nə edilməli idi?

11. Ehtimal edin ki, Con öz tutulması, həbsi, məhkəməsi və həbs zamanı ümumi müalicəsi barədə İnsan Hüquqları Komitəsinə şikayət verir. Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxaq Paktın müddəalarına (a) Conun vəkili; and (b) Hökumət tərəfindən əməl edilib-edilməməsi sahəsində arqumentlərinizi sadalayın.

12. Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın müddəalarından irəli gələn hansı ictimai-siyasi səbəblər bu işə aiddir?

## D. Paylama materialı (CD-ROM-a baxın)

1. Beynəlxalq və regional mexanizmlərin əsas müddəaları

# 6-cı fəsil
# ƏDALƏTLİ MƏHKƏMƏ ARAŞDIRMASI HÜQUQU
# I HİSSƏ: İSTİNTAQDAN MƏHKƏMƏYƏ

## Mündəricat


I. FASİLİTATORLAR ÜÇÜN QEYD ........................................44

II. ƏSAS HÜQUQİ MƏNBƏLƏR....................................................44

A. Universal mexanizmlər ...........................................................44

B. Regional mexanizmlər........................................................45

III. FƏSLİN/SESSİYANIN MƏQSƏDLƏRİ…............................45

IV. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR..........................................46

V. 6-CI FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ……………………………………….....................47

VI. TƏLİM MATERİALLARI......................................................49

A. Kompüter slaydları ...............................................................49

B. Çalışmalar....................................................................................52

C. Müzakirə mövzuları.......................................................53

D. Kazusla iş...................................................................53

E. Rol oyunu ..........................................................................54

F. Paylama materialı.....................................................................55

# I. FASİLİTATORLAR ÜÇÜN QEYD

Bu Vəsaitin 6-cı fəsli ədalətli məhkəmə araşdırması hüququnun səmərəli qorunmasının qlobal çətinliyini qısaca təsvir etməklə başlayır və **qanun qarşısında və qanunla bərabərlik hüququ**, eləcə də **təqsirsizlik prezumpsiyası hüququ** prinsiplərinin önəmini izah etməklə davam edir.

Daha sonra 6-cı fəsil beynəlxalq insan hüquqları ilə müəyyən edildiyi kimi, ibtidai araşdırma zamanı təmin edilməli olan bəzi aşağıdakı əsas insan hüquqlarından bəhs edir::

- Şəxsin özəl həyatına, evinə və yazışmalarına hörmət hüququ;
- İnsani davranılmaq hüququ və işgəncələrdən azad edilmək hüququ;
- Şəxsin başa düşdüyü dildə ittihamın elan olunması hüququ;
- Hüquqi yardım hüququ;
- Şəxsin özünə qarşı ifadə verməyə məcbur edilməmək hüququ/susmaq hüququ;
- Dindirmə protokolunun tərtibi vəzifəsi; və
- Öz müdafiəsinə hazırlaşmaq üçün adekvat vaxt və imkana malik olmaq hüququ.

Fasilitator bu Bələdçidə yer alan materiallar arasında qruplarda iş üçün münasib olan, 5-ci fəsildə başlayan kazusun davamına rast gələcək. İştirakçıların ehtiyaclarından asılı olaraq, başqa kazuslardan da istifadə edilə bilər. Eləcə də, çoxsaylı komputer slaydları hazırlanıb və iştirakçıların ehtiyacları əsasında seçim həyata keçirilməlidir.

# II. ƏSAS HÜQUQİ MƏNBƏLƏR

6-cı fəsil, əsasən, aşağıdakı hüquqi mənbələrə əsaslanır:

## A. Universal mexanizmlər

- İnsan Hüquqlarına dair Ümumi Bəyannamə, 1948
- Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, 1966
- İşgəncə və digər Qəddar, Qeyri-insani və ya Ləyaqəti Alçaldan Rəftar və ya Cəza əleyhinə Konvensiya, 1984
- Bütün Miqrant İşçilərin və onların Ailə Üzvlərinin Hüquqlarının Müdafiəsi haqqında Beynəlxalq Konvensiya, 1990
- Beynəlxalq Cinayət Məhkəməsinin Statutu, 1998

*****

- Hüquq-mühafizə Orqanları üçün Davranış Məcəlləsi, 1979
- Bütün İnsanların həbs və ya məhkumluğun hər hansı forması zamanı Müdafiəsi üçün Rəhbər Prinsiplər, 1988
- Məhbuslarla Rəftarın Standart Minimum Qaydaları, 1955
- Prokurorların Rolu haqqında Rəhbər Qaydalar, 1990
- Vəkillərin Rolu haqqında Əsas Prinsiplər, 1990
- Keçmiş Yuqoslaviya və Rvanda üçün Beynəlxalq Cinayət Tribunallarının Prosedur Qaydaları

## B. Regional mexanizmlər

- İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyası, 1981
- Amerika İnsan Hüquqları Konvensiyası, 1969
- İşgəncənin Qarşısının Alınması və Cəzalandırılması haqqında İnter-Amerika Konvensiyası, 1987
- İnsanların Məcburi Yoxaçıxmaları haqqında İnter-Amerika Konvensiyası, 1994
- Avropa İnsan Hüquqları Konvensiyası, 1950

*****

- Afrikada ədalətli məhkəmə araşdırması və hüquqi yardım hüququ barədə prinsiplər və rəhbər qaydalar, 2003
- Avropa Şurası Nazirlər Komitəsi tərəfindən qəbul edilən insan hüquqları və terrorizmə qarşı mübarizə haqqında rəhbər qaydalar, 2002.

# III. FƏSLİN/SESSİYANIN MƏQSƏDLƏRİ

6-cı fəslin ***ümümi məqsədləri*** bunlardır:

- Kurs iştirakçılarını ibtidai araşdırma zamanı əməl edilməli olan beynəlxalq hüquqi standartlar əsasında müəyyən edilən fərdi hüquqlarla və bu standartların beynəlxalq monitorinq orqanları tərəfindən tətbiq edilməsi ilə tanış etmək;
- Hüququn aliliyinə əsaslanan cəmiyyətdə geniş miqyaslı insan hüquqlarını qorumaq üçün bu hüquqi standartların tətbiqinin önəmi barədə iştirakçıları məlumatlandırmaq;
- Təlimə qatılan hakimlər, prokurorlar və vəkillər arasında ibtidai araşdırma zamanı fərdi hüquqlar da daxil olmaqla hüququn aliliyinin təmin edilməsində onların önəmli rolu ilə bağlı məlumatlılığı artırmaq;
- Ədalətli məhkəmə araşdırmasının təmininin təkcə insan hüquqlarının qorunması deyil, həm də geniş mənada iqtisadi investisiyaların cəlb edilməsi, milli və beynəlxalq sülh və təhlükəsizliyin təbliği ilə nəticələnməsi faktı barədə məlumatlandırmaq.

6-cı fəslin öyrənilməsinin ***xüsusi məqsədi*** iştirakçıların ibtidai araşdırma zamanı aşağıdakı əsas hüquqlar barədə bəzi ümumi bilgilər almasının təminindən ibarətdir.:

- Hər kəsin məhkəməyə bərabər çatımlılıq hüququ da daxil olmaqla, qanun qarşısında bərabərlik hüququ;
- Təqsirsizlik prezumpsiyası hüququ;
- Şəxsin özəl həyatına, evinə və yazışmalarına hörmət etmək hüququ;
- İnsani davranılmaq hüququ və işgəncələrdən azad edilmək hüququ;
- Şəxsin başa düşdüyü dildə ittihamın elan olunması hüququ;
- Hüquqi yardım hüququ;
- Şəxsin özünə qarşı ifadə verməyə məcbur edilməmək hüququ/susmaq hüququ;
- Dindirmə protokolunu tərtib etmək vəzifəsi; və
- Öz müdafiəsinə hazırlaşmaq üçün adekvat vaxt və imkana malik olmaq hüququ.

## IV. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR

Beynəlxalq hüquqi standartlar çərçivəsində 6-cı fəsildə nəzərdə tutulan toxunulacaq əsas məqamlar və müzakirə ediləcək başlıca məsələlər aşağıdakılardır:

- İştirakçıların sessiya zamanı fasilitator tərəfindən cavablandırılmalarını istədikləri hər hansı spesifik məsələnin olub-olmaması (yaxşı olar ki, bu məlumat kursöncəki sual vərəqəsinə əsasən, fasilitatora əvvəlvədən bəlli olsun). Əgər varsa, fasilitator sessiyanın başlanğıcında bu məsələlərin icmalını edə və iştirakçılardan bu siyahi ilə razı olub-olmamaları və ya nəsə əlavə etmək və ya dəyişdirmək istəyində olub-olmadıqlarını soruşa bilər.
- İştirakçılar cinayət işlərinin istintaqı ilə bağlı beynəlxalq hüquqi standartlar və məhkəmə təcrübəsi ilə artıq tanışdırlarmı ;
- Bu beynəlxalq hüquqi standartlar iştirakçıların çalışdığı milli hüquq sistemininin tərkib hissəsidirmi;
- Əgər tərkib hissəsidirsə, iştirakçılardan bu standartların müvafiq yerli hüquq sistemində hüquqi statusu və onların tətbiqi imkanları barədə soruşun;
- Zərurət olarsa, iştirakçılara birbaşa və ya dolayı suallar vermək yolu ilə məhkəməyədək icraat mərhələsində şəxsin hüquqlarının təmini zamanı onların hər hansı spesifik problemlə qarşılaşıb-qarşılaşmamasını öyrənmək;
- Əgər qarşılaşıblarsa, həmin problemlərin nədən ibarət olması və onların çalışdığı hüquqi sistemdə həmin problemlərin həlli yollarını izah etdirin;
- Vəsaitdə izah edildiyi kimi, beynəlxalq insan hüquqları hüququnun müxtəlif qaydaları iştirakçılara məhkəməyədək icraat mərhələsində şübhəli şəxslərin hüquqlarının müdafiəsinin təbliğinə necə yardım edə bilər.

# V. 6-CI FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ

| Başlıca məqamlar/fəaliyyət | Metod | Media | Zaman |
|---|---|---|---|
| 1. Sosial stabillik və iqtisadi inkişaf üçün ədalətli cinayət mühakimə icraatının önəmi də daxil olmaqla, 6-cı fəslin (və 7-ci) məqsədləri | Təqdimat | Kompüter slaydları, kağız lövhə | 10 dəqiqə |
| 2. 6-cı fəslə əsasən,<br>a. əsas hüquqi sənədləri təqdim edin;<br>b. Aşağıdakı əsas prinsipləri təqdim edin:<br>(i) qanun qarşısında bərabərlik və məhkəmələrə bərabər çatımlılıq;<br>(ii) təqsirsizlik prezumpsiyası;<br>c. cinayət istintaqı, telefon danışıqlarına qulaq asma, axtarış və yazışma zamanı özəl həyat hüququnun müdafiəsi və həyata keçirilməsinə məhdudiyyətləri izah edin;<br>d. həbs zamanı rəftar. | Təqdimatlar:<br>ı İştirakçıları fəsildə təsvir edilən kazusların müzakirəsinə cəlb etmək üçün sual-cavabdan istifadə edin;<br>ı həmçinin iştirakçılardan işin bu və ya digər aspektini təqdim etməyi xahiş edin (öncədən təşkil edin). | Kompüter slaydları kağız lövhə, özüyapışan kağız, paylama materialı (müvafiq hüquqi sənəd) | 40 dəqiqə |
| 3. Dincəliş | | | 5 dəqiqə |
| 4. İlk təqdimatın müzakirəsi | | Kompüter slaydları və kağız lövhə, eləcə də özüyapışan kağız varsa, paylama materialı (müvafiq hüquqi sənəd) | 30 dəqiqə |
| 5. Çalışma və kazusların paylanması və səhərə olan ev tapşırıqlarının verilməsi | Təqdimat, suallara cavab | Çalışma və ya kazusla iş, paylama materialı | 10 dəqiqə |
| 6. Növbəti gün/növbəti sessiya | | | |

| | | | |
|---|---|---|---|
| 7. 6-cı fəslin təqdimatı davam edir:<br>a. başadüşülən dildə ittiham barədə dərhal məlumat almaq;<br>b. səmərəli hüquqi yardım/vəkillə ünsiyyət hüququ;<br>c. susmaq hüququ/öz əleyhinə ifadə verməmək hüququ; susmaq təqsirləndirilən şəxsə qarşı istifadə edilə bilərmi?<br>d. dindirmə protokolları;<br>e. müdafiəyə hazırlaşmaq üçün adekvat vaxt/imkan. | Təqdimatlar:<br>ı İştirakçıları fəsildə təsvir edilən kazusların müzakirəsinə cəlb etmək üçün sual-cavabdan istifadə edin;<br>ı həmçinin iştirakçılardan işin bu və ya digər aspektini təqdim etməyi xahiş edin (öncədən təşkil edin). | Kompüter slaydları, kağız lövhə və paylama materialı (müvafiq hüquqi sənədlər) | 40 dəqiqə |

| Əsas məqamlar/fəaliyyət | Metod | Media | Zaman |
|---|---|---|---|
| 8. İkinci təqdimat üzrə müzakirə | Zərurət olarsa, fasilitatorlar suallar vasitəsilə əsas məqamların düzgün qavranılmasına əmin olmaq üçün dəqiqləşdirmələr aparır; Prinsiplərin iştirakçıların milli qanunvericiliyində necə əks olunmasını və hər hansı xüsusi çətinliklə üzləşilmə barədə sual edin | Kağız lövhə,özüy apışan kağız | 20 dəqiqə |
| 9. Dincəliş | | | 5 dəqiqə |
| 10. Kazus və ya çalışma üzərində qrup müzakirəsi və əsas məqamların təqdimatı | 3-5 nəfərlik qruplarda kazusun analizini və ya çalışmaya cavabları hazırlayın | Kağız lövhə,özüy apışan kağız | 35 dəqiqə |
| 11. Qruplar suallarla bağlı təqdimat edir. Müzakirələrdən sonra komanda məzmunla bağlı cavablar, dəqiqləşdirmələr və redaktələr edir | Hər qrupdan bir nəfər kazusun analizinin nəticələrini təqdim edir və ya kağız lövhədə yazır və özüyapışan kağız üzərində çalışma suallarının nəticələrini yerləşdirir | | 30 dəqiqə |
| 12. Çay-kofe fasiləsi | | | 15 dəqiqə |
| 13. Yekunlaşdırma. Komanda 6-cı fəslin əsas məqamlarını yenidən nəzərdən keçirir və suallar vasitəsilə məqsədlərə çatıldığını müəyyən edir | | | 10 dəqiqə |
| 14. Növbəti sessiya üçün qiymətləndirmə və hazırlıq | İştirakçılardan təqdimat və müzakirələrlə bağlı tənqidi fikirlərini söyləmək xahiş edilir; komanda növbəti sessiya barədə məlumat verir, əvvəlcədən görülməli işi tapşırır (arzulanırsa) və könüllülər axtarır | | 10 dəqiqə |
| | | | **6-cı fəsil üçün ümumi vaxt:** **1-ci gün/sessiya:** **1 saat 35 dəq.** **2-ci gün/sessiya:** **2 saat 45 dəq.** **Ümumi vaxt (fasilələr daxil):** **4 saat 20 dəq.** |

# VI. TƏLİM MATERİALLARI

## A. Kompüter slaydları (CD-ROM-a baxın)

1. Öyrənmə məqsədləri I
2. Öyrənmə məqsədləri II
3. Suallar I
4. Suallar II
5. Qanun qarşısında və qanunla bərabərlik: Əsas hüquqi sənədlər I
6. Qanun qarşısında və qanunla bərabərlik: Əsas hüquqi sənədlər II
7. Qanun qarşısında və qanunla bərabərlik: Əsas hüquqi sənədlər III
8. Qanun qarşısında və qanunla bərabərlik: Əsas hüquqi sənədlər IV
9. Qanun qarşısında və qanunla bərabərlik: Bu nə deməkdir I
10. Qanun qarşısında və qanunla bərabərlik: Bu nə deməkdir II
11. Təqsirsizlik prezumpsiyası hüququ: Şübhədən məhkumetməyə və ya bəraətə qədər ümumi təminat: Əsas hüquqi sənədlər I
12. Təqsirsizlik prezumpsiyası hüququ: Şübhədən məhkumetməyə və ya bəraətə qədər ümumi təminat: Əsas hüquqi sənədlər II
13. Təqsirsizlik prezumpsiyası hüququ: Şübhədən məhkumetməyə və ya bəraətə qədər ümumi təminat: Əsas hüquqi sənədlər III
14. Təqsirsizlik prezumpsiyası hüququ: Şübhədən məhkumetməyə və ya bəraətə qədər ümumi təminat: Əsas hüquqi sənədlər IV
15. Təqsirsizlik prezumpsiyası hüququ: Şübhədən məhkumetməyə və ya bəraətə qədər ümumi təminat: Əsas hüquqi sənədlər V
16. Təqsirsizlik prezumpsiyası hüququ: Şübhədən məhkumetməyə və ya bəraətə qədər ümumi təminat: Bu nə deməkdir
17. Şəxsin özəl həyatına, evinə və yazışmalarına hörmət hüququ: Əsas hüquqi sənədlər I
18. Şəxsin özəl həyatına, evinə və yazışmalarına hörmət hüququ: Əsas hüquqi sənədlər II

19. Şəxsin özəl həyatına, evinə və yazışmalarına hörmət hüququ: Əsas hüquqi sənədlər III

20. Şəxsin özəl həyatına, evinə və yazışmalarına hörmət hüququ: Əsas hüquqi sənədlər IV

21. Şəxsin özəl həyatına, evinə və yazışmalarına hörmət hüququ – telefon danışıqlarına qulaq asma, axtarış və yazışmalara nəzarətlə bağlı

22. Şəxsin fiziki və psixoloji bütövlüyünə hörmət hüququ: Əsas hüquqi sənədlər I

23. Şəxsin fiziki və psixoloji bütövlüyünə hörmət hüququ: Əsas hüquqi sənədlər II

24. Şəxsin fiziki və psixoloji bütövlüyünə hörmət hüququ: Əsas hüquqi sənədlər III

25. Şəxsin fiziki və psixoloji bütövlüyünə hörmət hüququ: Əsas hüquqi sənədlər IV

26. Şəxsin fiziki və psixoloji bütövlüyünə hörmət hüququ: Əsas hüquqi sənədlər V

27. Şəxsin fiziki və psixoloji bütövlüyünə hörmət hüququ: Əsas hüquqi sənədlər: Bu nə deməkdir

28. Şəxsin başa düşdüyü dildə ittihamın elan olunması hüququ: Əsas hüquqi sənədlər I

29. Şəxsin başa düşdüyü dildə ittihamın elan olunması hüququ: Əsas hüquqi sənədlər II

30. Şəxsin başa düşdüyü dildə ittihamın elan olunması hüququ: Əsas hüquqi sənədlər III

31. Şəxsin başa düşdüyü dildə ittihamın elan olunması hüququ: Əsas hüquqi sənədlər IV

32. Şəxsin başa düşdüyü dildə ittihamın elan olunması hüququ: Əsas hüquqi sənədlər: Bu nə deməkdir

33. Hüquqi yardım hüququ: Əsas hüquqi sənədlər I

34. Hüquqi yardım hüququ: Əsas hüquqi sənədlər II

35. Hüquqi yardım hüququ: Əsas hüquqi sənədlər III

36. Hüquqi yardım hüququ: Əsas hüquqi sənədlər IV

37. Hüquqi yardım hüququ: Əsas hüquqi sənədlər V

38. Hüquqi yardım hüququ: Əsas hüquqi sənədlər VI

39. Hüquqi yardım hüququ: Əsas hüquqi sənədlər VII

**40.** Hüquqi yardım hüququ: Əsas hüquqi sənədlər VIII

**41.** Hüquqi yardım hüququ: Bu nə deməkdir

**42.** Şəxsin özünə qarşı ifadə verməyə məcbur edilməmək hüququ/susmaq hüququ: Əsas hüquqi sənədlər I

**43.** Şəxsin özünə qarşı ifadə verməyə məcbur edilməmək hüququ/susmaq hüququ: Əsas hüquqi sənədlər II

**44.** Şəxsin özünə qarşı ifadə verməyə məcbur edilməmək hüququ/susmaq hüququ: Əsas hüquqi sənədlər III

**45.** Şəxsin özünə qarşı ifadə verməyə məcbur edilməmək hüququ/susmaq hüququ: Əsas hüquqi sənədlər IV

**46.** Şəxsin özünə qarşı ifadə verməyə məcbur edilməmək hüququ/susmaq hüququ: Bu nə deməkdir

**47.** Dindirmə protokolunu tərtib etmək vəzifəsi I: İnsan Hüquqları Komitəsi, ümumi şərh №. 20

**48.** Dindirmə protokolunu tərtib etmək vəzifəsi II: Bütün insanların həbs və ya məhkumluğun hər hansı forması zamanı Müdafiəsi üçün Rəhbər Prinsiplər, 23-cü prinsip

**49.** Dindirmə protokolunu tərtib etmək vəzifəsi III: Bu nə deməkdir

**50.** Öz müdafiəsini hazırlamaq üçün adekvat vaxt və imkana malik olmaq hüququ: Əsas hüquqi sənədlər I

**51.** Öz müdafiəsini hazırlamaq üçün adekvat vaxt və imkana malik olmaq hüququ: Əsas hüquqi sənədlər II

**52.** Öz müdafiəsini hazırlamaq üçün adekvat vaxt və imkana malik olmaq hüququ: Əsas hüquqi sənədlər III

**53.** Öz müdafiəsini hazırlamaq üçün adekvat vaxt və imkana malik olmaq hüququ: Əsas hüquqi sənədlər IV

**54.** Öz müdafiəsini hazırlamaq üçün adekvat vaxt və imkana malik olmaq hüququ: Bu nə deməkdir

## B. Çalışmalar

d *Çalışma 1*

*Beynəlxalq insan hüquqları normaları və milli hüquq sistemi*[5]

Fərdi, yaxud 3-6 nəfərdən ibarət qruplara bölməklə iştirakçılara təxminən 30 dəqiqə zaman ayırın və bu fəsildə müzakirə edilən sualların müvafiq yerli hüquq sistemləri çərçivəsində analiz edilməsini təmin edin. Onlar 3 və ya 4-dən çox olmayan önəmli məsələ seçməlidirlər və bu mövzuların onların ölkəsində və ya ölkələrində hansı problem doğura biləcəyini müəyyən etməlidirlər. Onlar məhkəməyədək icraat mərhələsində müxtəlif hüquqların təminatının artırılması istiqamətində ideyalar hazırlamaqla öz işlərini tamamlamalıdırlar.

d *Çalışma 2*

*Susmaq hüququ*

Bu çalışma qruplarda, yaxud plenar sessiyalar daxilində müzakirə oluna bilən çox kiçik kazusdan ibarətdir. Bundan rol oyunu məqsədilə də istifadə etmək olar. İştirakçılar Tomun rəmzi vəkilləri, ittihamçılar və Konstitusiya Məhkəməsinin hakimləri şəklində qruplara bölünə bilərlər. Hər bir tərəfin təqdimatı 10 dəqiqədən artıq olmamalıdır.

Eksland Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktı ratifikasiya edib. Ekslandın Konstitusiyasına edilən son dəyişikliyə görə, Cinayət Prosessal Məcəlləyə də müvafiq dəyişiklik edilib. Belə ki, müstəntiqlər tərəfindən dindirilərkən susmaq hüququndan yararlanmayan şəxslər barədə prokurorlar daha aşağı cəza istəməkdə sərbəstdirlər. Qanundakı bu dəyişiklik hakimiyyət orqanlarının cinayətkarlığın səviyyəsindəki kəskin artımla daha səmərəli mübarizə aparmalarını təmin etmə vasitəsi kimi təqdim olunub.

Bir neşə il davam edən şübhəli qanunsuz fəaliyyətlə əlaqədar Erik və Tom Vətənə xəyanətə görə tutulurlar və məhkum edilirlər. Əsasən Erikin susmaq hüququndan imtina etməsindən qaynaqlanaraq, prokurorluq hər iki oğlanın ittiham edilməsinə nail ola bilir. Erik susmaq hüququndan yararlanmadığına görə, Toma nəzərən daha yüngül cəza alır. Məhkəmə prosesi nəticəsində xeyli pis duruma düşən Tom prokurora verilən yeni mülahizə sərbəstliyini Eksland Konstitusiya Məhkəməsində mübahisələndirmək qərarına gəlir.

- **Tomun vəkili** olaraq, ona nə məsləhət görərdiniz? Onun işini Konstitusiya Məhkəməsində necə mübahisələndirərdiniz?
- **Dövlət ittihamçısı** olaraq, Tomun vəkilinin arqumentlərinə necə cavab verərdiniz?
- **Konstitusiya Məhkəməsinin hakimi** olaraq, Tomun ərizəsi üzrə hansı qərar çıxarardınız?
- İştirakçılardan xahiş edin ki, bu faktları həm milli hüquq, həm də beynəlxalq insan hüquqları hüququnun müvafiq müddəaları çərçivəsində analiz etsinlər.

[5] Bu qısa və sadə çalışma vaxtın məhdud olduğu və ağır kazusların müzakirəsi üçün yetərli olmadığı zaman- qısa kurslar üçün (məsələn, seminar) istifadə edilə bilər. Silahlı münaqişədən yenicə çıxan və məhkəmə də daxil olmaqla öz hüquq sistemini qurmalı olan ölkələr üçün də bu çalışma faydalı ola bilər. Belə durumlarda bu kazuslar onların mürəkkəbliyi nəzərə alınmaqla elə də yararlı olmaya bilər. Bu mənada, iştirakçıların həqiqi ehtiyaclarını müəyyən etmə, çalışmaları və kazusları uyğunlaşdırmaq məhz fasilitatordan asılı olacaq.

## C. Müzakirə mövzusu

İstintaqın gedişində özünə qarşı ifadə verməmək və susmaq hüququ ən azı bir Avropa ölkəsində siyasətçilər və polislər tərəfindən mübahisələndirilib. Bu mövzu, həmçinin, terrorizmlə mübarizə sahəsində çoxsaylı ölkələrin həyata keçirdikləri tədbirlər fonunda xüsusilə aktuallıq qazanıb. İştirakçılar aşağıdakıları müzakirə edə bilərlər:

- **Şübhəli şəxsin daimi susmaq hüququ: Bu mütləq hüquq olmalıdırmı?**
- **Ədalət mühakiməsinin ədalətli və obyektiv təşkilinin müsbət və mənfi cəhətləri**

Bu mövzu üzrə müzakirəyə başlamamışdan öncə, moderator əmin olmalıdır ki, iştirakçılar 6-cı fəslin 6.5-ci yarımbölməsində əks edilən məlumatları qavrayıb. O, həmçinin çalışmalıdır ki, bütün iştirakçılar müzakirəyə qoşulub və susmaq hüququnun tətbiqinin təhlükələrini və mümkün üstünlüklərini analiz etməklə, təqsirləndirilən şəxsin susmasından yaranan ***ağlabatan nəticələri*** qeyd ediblər. Bu müzakirə üçün kağız lövhədən istifadə faydalı ola bilər.

## D. Kazusla iş

Bu kazusda nəql edilən hadisə Conun tutulması və həbsi ilə bağlı 5-ci fəsildə qeyd edilən kazusun davamıdır. O kazusda olduğu kimi, auditoriya 5 nəfərdən çox olmayan qruplarda müzakirə etməli və iştirakçılar milli qanunvericilik və beynəlxalq insan hüquqları hüququnun bütün müvafiq standartları çərçivəsində faktları analiz etməlidirlər. Kazus müzakirəsi nəzərdə tutulduğundan hətta bir gün öncədən iştirakçılara paylanıla bilər və bu, iştirakçılara kazusdan irəli gələn müxtəlif məsələləri əhatə etmək və qruplarda və plenar iclaslarda müzakirə üçün suallar və cavablar hazırlamaq üçün yetərincə vaxtla təmin etmiş olar. Qeyd edildiyi kimi, Eksland Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktı ratifikasiya edib.[6]

### *I HİSSƏ: FAKTLAR*

**Cinayət istintaqı**

1. Con davamlı olaraq təqsirsiz olduğunu iddia etsə də, həbsdə saxlanılır. O, mütəmadi olaraq polis və prokurorluq orqanları tərəfindən ağır dindirilməyə məruz qalır və bu dindirmələrdə öz milli mənsubiyyətinə və Eksland dilini bilmədiyinə görə hədə-qorxuya məruz qalır. İstintaq orqanları bəzən Cona əl qaldırır və Conun cinayəti törətməsini etiraf etməsinə və bununla da, istintaqı tamamlamağa çalışır. Tərcüməci müntəzəm olaraq Cona və bu dindirmələr zamanı istintaq orqanlarına yardım edir. Amma dindirmələr zamanı Conun vəkili həmişə iştirak etmir və bəzi dindirmələr protokolda qeyd edilmir.

2. Conun vəkili müntəzəm olaraq oz müştərisini görməyə və onunla gizli ünsiyyətdə olmağa çalışsa da, buna müvəffəq ola bilmir və onun yazışmalarının bir hissəsinə müdaxilə edir və müştərisinə yönləndirmir. Həbsdə olan zaman Cona baş çəkərkən onların söhbətləri daima nəzarətçinin qarşısında baş verir və nəzarətçi qeydlər edir. Conun öz vəkilinə olan məktublarından biri müsadirə edilir. Bu məktubda Con tutulduqdan sonra onunla rəftar barədə səlahiyyətli orqanlara şikayət etmək üçün hüquq məsləhəti istəyirdi. Onun sinəsinin ağrısı bir neçə həftə davam edir və o anlayır ki, təxirəsalınmaz tibbi müalicədən yararlanmalı idi.

[6] **Fasilitatora məsləhət:** Əgər iştirakçıların çalışdığı ölkələr regional insan hüquqları müqavilələrindən hər hansı birini ratifikasiya ediblərsə, iştirakçıların Paktın əvəzinə və ya Pakta əlavə olaraq həmin müqaviləyə istinad etməsi daha faydalı olar.

3. Con öz təqsirsizliyini sübut etmək istəyir və soyğunçuluğun qurbanları, sadəcə olaraq c-b və x-m X şəklində tanıdığı şəxslərlə üzləşdirilməsini xahiş edir. Onun xahişi rədd edilir. Bundan başqa, qurbanlar tanınmaya təqdim etmə istintaq hərəkəti keçirilərkən Conu hücumçu kimi təsdiq edirlər, amma Con onları görmür.

   Cütlük Conu onların üzərinə hücum çəkən mümkün şəxs kimi göstərsə də, digər tərəfdən buna daha tam inanmırlar və bəzi şübhələri var. Çünki həmin gecə küçə çox qaranlıq olub. Bununla belə, onlar şübhələrini ürəklərində saxlayırlar və düşünürlər ki, bu, hamıya sərf edən ən yaxşı variantdır. Conun vəkili ifadələrin mötəbərliyini yoxlamaq üçün Con ilə c-b və x-m X arasında görüşün təşkili barədə prokurorluq orqanlarına yenilənmiş xahişlə müraciət edir. Amma xahiş bu arqumentlə rədd edilir ki, şəhərdə artan cinayətkarlıq və nəticədə insanların təhlükəsizliyi şəraitində intiqam aktlarının baş verməsinin mümkünlüyündən qurbanların anonimliyini saxlamaq zəruridir.

4. Bu uğursuzluqlar nəticəsində Con getdikcə daha da pisləşir və müstəntiqlərlə üzbəüz olarkən susmaq hüququndan istifadə etmək qərarına gəlir.

### *II HİSSƏ: SUALLAR*

1. Conun dindirilmə şəraiti (i) sizin milli qanunvericiliyə; və (ii) Pakta uyğundurmu? Öz analizinizi bu aspektlərdə aparmağınız xahiş olunur:

   (a) Conun məruz qaldığı rəftar;

   (b) Vəkilin iştirakı olmadan dindirmə;

   (c) Dindirmənin protokolda qeyd edilməməsi.

2. Conun oz vəkili ilə görüşmə və məsləhətləşmə şəraiti: (a) sizin milli qanunvericiliyə; (b) Pakta uyğundurmu? Əgər uyğun deyilsə, bu qanunlar hansı yolla pozulub?

3. Cona tibbi yardımdan imtina edilməsi və hüquq məsləhəti almaq məqsədilə vəkilinə göndərdiyi məktuba müdaxilə ilə bağlı: Bu imtina: (a) sizin milli qanunvericiliyə; (b) Pakta uyğundurmu?

4. Nə Cona, nə də onun vəkilinə c-b və x-m X-la üzləşməyə icazə verildi. Bu imtina: (a) sizin milli qanunvericiliyə; (b) Pakta uyğundurmu?

5. Qurbanın anonimliyini qorumağın zəruri olduğu işlərdə bu maraq təqsirləndirilən şəxsin tərəflərin bərabərliyi də daxil olmaqla ədalətli məhkəmə araşdırması hüququna əməl edilməklə necə təmin edilə bilər?

6. (a) Sizin milli qanunvericiliyə; (b) Pakta əsasən, susmaq hüququ və ya təqsirləndirilən şəxsin əməkdaşlıq etməməsinin hansı əhəmiyyəti və nəticələri var ?

# E. Rol oyunu

### *I HİSSƏ: FAKTLAR*

## Ümumi məlumat

Feliks qanuni qumar oyunları ilə məşğul olan qurumun sahibidir. Bununla belə, polis onun marixuana biznesini ört-basdır etmək məqsədilə bu işlə məşğul olduğundan şübhələnir, amma bunu təsdiq edən hər hansı sübutu yoxdur.

Bill məşhur barların birində Fekslə ciddi münaqişə yaşayır və bu münaqişə polis tərəfindən dayandırılır. Bill polis müfəttişi Prettonu kənara çəkərək bildirir ki, Feliksə təxminən 10 gün sonra marixuana göndəriləcək. Müfəttiş də dərhal Feliksin qumar qurumunu, eləcə də mobil telefonu da daxil olmaqla, onun iqamətgahının elektron nəzarətə götürülməsini təşkil edir.

Təyin olunan vaxtda o, 10 polislə birgə Feliksin iqamətgahına daxil olur və həm qumar oynanılan yeri, həm də onun qaldığı yer axtarır. Onlar hər hansı marixuana tapa bilmirlər. Feliks həm qanunsuz nəzarətə, həm də onun xüsusi mülkiyyətinə və biznesinə qanunsuz daxil olmağa görə polisdən şikayət edir.

### *I HİSSƏ: SUALLAR VƏ ARQUMENTLƏR*[7]

1. Siz Feliksin **vəkilisiniz.** Bu işi necə qurardınız? Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın müvafiq maddələrinə söykənməklə bacardığınız qədər çoxsaylı arqumentlər irəli sürün. Arqumentlər aşağıdakı məsələləri əhatə etməlidir:

   (a) Elektron nəzarət və axtarışın qanuniliyi;

   (b) Bu tədbirlərin məqsədi;

   (c) Onların demokratik cəmiyyətdə zərurəti;

   (d) Məqsədəuyğun hesab etdiyiniz digər

   məsələlər.

2. **Polisin vəkili** olaraq, polisin hərəkətlərini necə müdafiə edərdiniz? 1 (a)–(d)-də nəzərdə tutulan eyni məsələlərə toxunmalısınız;

3. **Hakim** olaraq, Sizin qarşısınızda qaldırılan məsələlərlə bağlı hansı qərar qəbul edərdiniz?

4. İştirakçıların fəaliyyət göstərdikləri ölkələrin qanunvericiliyi, eləcə də beynəlxalq insan hüquqları hüququnun müvafiq müddəaları çərçivəsində onların bu işi analiz etmələrinə şərait yaradın.

## F. Paylama materialı (CD-ROM-a baxın)

1. Beynəlxalq və regional mexanizmlərin əsas müddəaları

[7] **Fasilitatora məsləhət:** Digər çalışmalarda olduğu kimi, bu Pakt müvafiq hallarda regional insan hüquqları müqaviləsi ilə əvəzlənə bilər. Rol oyunu da beynəlxalq monitorinq orqanına göndərilən şikayətə uyğun olaraq dəyişilə bilər.

# 7-ci fəsil
# ƏDALƏTLİ MƏHKƏMƏ ARAŞDIRMASI HÜQUQU
# II HISSƏ: MƏHKƏMƏDƏN YEKUN QƏRARA QƏDƏR

## Mündəricat


I. FASİLİTATORLAR ÜÇÜN QEYD........................................58

II. ƏSAS HÜQUQİ MƏNBƏLƏR...............................................58

A. Universal mexanizmlər........................................................58

B. Regional mexanizmlər ..........................................................59

III. FƏSLİN/SESSİYANIN MƏQSƏDLƏRİ ............................59

IV. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR...........................................60

V. 7-Cİ FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ ....................61

VI. TƏLİM MATERİALLARI ....................................................63

A. Kompüter slaydları...............................................................63

B. Çalışmalar.........................................................................66

C. Kazusla iş.......................................................................69

D. Rol oyunu .......................................................................70

E. Paylama materialı...............................................................71

# I. FASİLİTATORLAR ÜÇÜN QEYD

Vəsaitin 7-ci fəsli təqsirləndirilən şəxsin mühakiməsi zamanı təmin edilməli olan əsas insan hüquqlarını - ədalətli məhkəmə araşdırması hüququ, çəkişmə prosesində tərəflərin bərabərliyi, açıq məhkəmə hüququ, pulsuz hüquqi yardım hüququ və s. hüquqları bir qədər dəqiqliklə təsvir edir. 7-ci fəsil daha sonra cəzanın hədləri, apellyasiya hüququ və nisbətən qısa şəkildə xüsusi tribunallarda ədalətli məhkəmə araşdırması hüququ, eləcə də daha detallı şəkildə 16-cı fəsildə nəzərdə tutulan fövqəladə vəziyyətlərdə ədalətli məhkəmə araşdırması hüququndan bəhs edir.

Bu fəsildəki kazus 5-ci fəsildə başlanan və 6-cı fəsildə davam etdirilən hipotetik kazusun 3-cü hissəsidir. Təklif edilən çalışmalar və kazuslar seçmə xarakter daşıyır və eyni kursda hamısından istifadə edilməməlidir. Aşağıda qeyd edilən öyrənmə məqsədlərinə uyğun gəlmək şərtilə, onlar digər çalışmalar və/və ya kazuslarla əvəz edilə bilər.

CD-ROM-da çoxsaylı komputer slaydları ilə tanış olmaq olar və onların arasından ən faydalıları seçilməlidir. Fasilitatorların ehtiyaclarına daha yaxşı cavab verən digər komputer slaydları da hazırlana bilər.

Fasilitatorlardan xahiş edilir ki, 7-ci fəslə əsaslanan təqdimatları öz peşə təcrübələri ilə bağlı məlumat və hekayələrlə birləşdirsinlər.

# II. ƏSAS HÜQUQİ MƏNBƏLƏR

7-ci fəsil, əsasən, aşağıdakı hüquqi sənədlərə əsaslanır:

## A. Universal mexanizmlər

- Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, 1966
- Bütün Miqrant İşçilərin və Onların Ailə Üzvlərinin Hüquqlarının Müdafiəsi haqqında Beynəlxalq Konvensiya, 1990
- Beynəlxalq Cinayət Məhkəməsi, 1998

*****

- Prokurorların Rolu haqqında Rəhbər Qaydalar, 1990
- Vəkillərin Rolu haqqında Əsas Prinsiplər, 1990
- Məhkəmə Müstəqilliyinin Əsas Prinsipləri, 1985

## B. Regional mexanizmlər

- İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyası, 1981
- Amerika İnsan Hüquqları Konvensiyası, 1969
- Avropa İnsan Hüquqları Konvensiyası, 1950

*****

- Afrikada ədalətli məhkəmə araşdırması və hüquqi yardım hüququ barədə prinsiplər və rəhbər qaydalar, 2003
- Avropa Şurası Nazirlər Komitəsi tərəfindən qəbul edilən insan hüquqları və terrorizmə qarşı mübarizə haqqında rəhbər qaydalar, 2002

# III. FƏSLİN/SESSİYANIN MƏQSƏDLƏRİ

7-ci fəslin ***ümumi məqsədlərinə*** aiddir:

- Kurs iştirakçılarını cinayət əməllərində ittiham olunan şəxslərin məhkəmə icraatı zamanı hüquqları ilə bağlı mövcud beynəlxalq standartlarla və beynəlxalq monitorinq orqanları tərəfindən bu standartların tətbiqi ilə tanış etmək;
- Hüququn aliliyinə əsaslanan cəmiyyətdə insan hüquqlarının geniş dairəsini qorumaq üçün bu hüquqi standartların tətbiqinin önəmi barədə iştirakçıları bilgiləndirmək;
- Bütün durumlarda, o cümlədən böhran vəziyyətində ədalətli məhkəmə araşdırması hüququ da daxil olmaqla, hüququn aliliyinin təminində əhəmiyyətli rolu olan iştirakçı hakimlər, prokurorlar və vəkillər arasında maarifləndirmə işi aparmaq.

7-ci fəslin xüsusi məqsədləri- iştirakçıların təqsirləndirilən şəxsin ədalətli məhkəmə araşdırması hüququnun müdafiəsi üçün önəmli olan aşağıdakı insan hüquqları barədə ümumi bilgi əldə etmələrinə nail olmaqdır:

- Qanun əsasında yaradılmış səlahiyyətli, müstəqil və qərəzsiz tribunal tərəfindən mühakimə edilmək hüququ (4-cü fəsil zamanı əldə edilən bilgilərin qısa təkrarı);
- Məhkəməyə və ya tribunala çatımlılıq, çəkişmə prosesi zamanı tərəflərin bərabərliyi də daxil olmaqla ədalətli məhkəmə araşdırması hüququ. Məhkəmələrə çatımlılıq hüququ ilə bağlı gender əsaslı bərabərlik hüququ vurğulanmalıdır;
- Açıq məhkəmə qərarı hüququ da daxil olmaqla, açıq məhkəmə araşdırması hüququ;
- "Əsassız gecikdirmə" olmadan və ya "ağlabatan müddət"də məhkəmə araşdırması hüququ;
- Şəxsin özü tərəfindən və ya öz seçdiyi vəkil tərəfindən müdafiə edilmək hüququ; eləcə də ölüm cəzası ilə bağlı işlərdə səmərəli hüquqi yardım hüququ, pulsuz hüquqi yardım hüququ və öz vəkili ilə konfidensial ünsiyyət hüququna xüsusi diqqət ayrılmaqla;

- Məhkəmə prosesində iştirak hüququ və öz iştirakı olmadan keçirilən məhkəmə prosesində prosessual təminatlar hüququ;
- Özünə qarşı ifadə verməyə və təqsirini etiraf etməyə məcbur edilməmək və qanunsuz yolla/rəftarla əldə edilən sübutların istifadəsinə yol verilməməsi hüququ;
- Şahidlərin çağırılması və dindirilməsi hüququ;
- Tərcüməçinin pulsuz yardımından istifadə hüququ;
- Əsaslandırılmış məhkəmə qərarı hüququ;
- Geriyə qüvvəsi olan qanundan azadlıq hüququ/*nullum crimen sine lege* prinsipi;
- *Ne bis in idem*/İkiqat cəzalandırmanın yolverilməzliyi prinsipi;
- Cəza ilə bağlı mövcud müxtəlif hədlər;
- Apellyasiya hüququ;
- Ədalət mühakiməsinin yanlış həyata keçirilməsi zamanı kompensasiya hüququ; və
- Xüsusi tribunallar qarşısında və fövqəladə vəziyyətlərdə ədalətli məhkəmə araşdırması hüququ.

## IV. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR

Beynəlxalq hüquqi standartların işığında 7-ci fəsildə nəzərdə tutulan toxunulacaq əsas məqamlar və müzakirə ediləcək başlıca məsələlər aşağıdakılardır:

- İştirakçıların ədalətli məhkəmə araşdırması hüququ ilə bağlı beynəlxalq hüquqi standartlarla artıq tanış olub-olmaması;
- Bu standartların iştirakçıların çalışdığı milli hüquq sisteminin tərkib hissəsini təşkil edib-etməməsi və əgər təşkil edirsə, onların hüquqi statusu və iştirakçılar tərəfindən istinad və ya tətbiq edilib-edilməməsi;
- İştirakçıların öz təcrübələrində istintaq və ya məhkəmə mərhələsində təqsirləndirilən şəxsin insan hüquqlarının təmininə çalışarkən, hər hansı narahatlıq və ya problemlə üzləşib-üzləşməməsi;
- Əgər üzləşiblərsə, bu narahatlıq və problemlər nədən ibarət olub və iştirakçıların çalışdığı hüquq sistemi nəzərə alınarsa, onlar necə aradan qaldırılıb;
- İştirakçılar kursun gedişində fasilitatorların konkret olaraq hansı məsələlərə aydınlıq gətirmələrini istərdilər (bu məsələlər yaxşı olar ki, kursöncəsi sorğu vərəqəsinə əsasən, ilkin mərhələdə müəyyən edilsin); onların davam edilməsinin məqsədəmüvafiqliyi kursun gedişində müzakirə edilə və razılaşdırıla bilər);
- İştirakçıların ədalətli məhkəmə araşdırması hüququnun təminində həmkarlarına yardım etmək üçün çətin durumlarda öz peşə vəzifələrini həyata keçirən digər hakimlərə, prokurorlara və vəkillərə hər hansı məsləhətinin olub-olmaması; və
- Yuxarıda III bölmədə sadalanan və bu Vəsaitin 7-ci fəslində izah edilən beynəlxalq insan hüquqları hüququnun müxtəlif qaydaları iştirakçılara məhkəmə prosesi zamanı təqsirləndirilən şəxsin hüquqlarının müdafiəsi istiqamətində necə yardım edə bilər.

# V. 7-Cİ FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ

| Başlıca məqamlar/fəaliyyət | Metod | Media | Zaman |
|---|---|---|---|
| 1. 4-cü və 6-cı fəsillərin əsas məqamlarının təkrarı daxil olmaqla 7-ci fəslin məqsədləri | Təqdimat | Kompüter slaydları, kağız lövhə | 10 dəqiqə |
| 2. Vəsaitin 7-ci fəslinə və yuxarıdakı III and IV bölmələrə əsasən, komanda:<br>a. əsas hüquqi sənədləri təqdim edir;<br>b. bu prinsipləri təqdim edir:<br>(i) ədalətli və açıq məhkəmə araşdırması hüququ;<br>(ii) gecikmə olmadan məhkəmə baxışı hüququ;<br>(iii) Şəxsin özü tərəfindən və ya öz seçdiyi vəkil tərəfindən müdafiə edilmək hüququ; hüquqi yardım;<br>(iv) iştirak etmək hüququ;<br>(v) etiraf etməyə məcbur edilməmək hüququ;<br>(vi) şahidlərin çağırılması hüququ. | Təqdimatlar:<br>• sual-cavab yolu ilə iştirakçıları bu fəsildə təsvir edilən kazusların müzakirəsinə cəlb edin; iştirakçılardan bu və ya digər aspektin təqdimatını etməyi xahiş etmək olar (öncədən təşkil edin) | Kompüter slaydları, kağız lövhə, özüyapışan kağız, paylama materialları (hüquqi sənədlərin müvafiq mətnləri) | 40 dəqiqə |
| 3. Dincəliş | | | 5 dəqiqə |
| 4. Birinci təqdimatın müzakirəsi | | Kompüter slaydları və kağız lövhə. Eləcə də özüyapışan kağız və hüquqi sənədlərin müvafiq mətnlərinin paylama materialları (zərurət olarsa) | 30 dəqiqə |
| 5. Nahar | | | 60 dəqiqə |

| | | | |
|---|---|---|---|
| 6. 7-ci fəslin təqdimatı davam edir:<br>a. tərcüməçinin pulsuz yardımından istifadə etmək hüququ;<br>b. əsaslandırılmış məhkəmə qərarı hüququ;<br>c. Geriyə qüvvəsi olan qanundan azadlıq hüququ və *ne bis in idem* (İkiqat cəzalandırmanın yolverilməzliyi) prinsipi;<br>d. cəzanın hədləri;<br>e. apellyasiya hüququ;<br>f. ədalət mühakiməsinin yanlış həyata keçirilməsi zamanı kompensasiya hüququ;<br>g. xüsusi tribunallar qarşısında və fövqəladə vəziyyətlərdə ədalətli məhkəmə araşdırması hüququ. | Təqdimatlar:<br>- sual-cavab yolu ilə iştirakçıları bu fəsildə təsvir edilən kazusların müzakirəsinə cəlb edin;<br>- iştirakçılardan bu və ya digər aspektin təqdimatını etməyi xahiş etmək olar (öncədən təşkil edin) | Kompüter slaydları, kağız lövhə və paylama materialla rı | 40 dəqiqə |

| Başlıca məqamlar/fəaliyyət | Metod | Media | Zaman |
|---|---|---|---|
| 7. İkinci təqdimatın müzakirəsi | Zərurət olsa, fasilitatorlar suallar yolu ilə əsas məqamları aydınlaşdırırlar və onların qavranılmasından əmin olurlar; prinsiplərin iştirakçıların milli qanunvericiliyində necə ehtiva edilməsi və onların qarşılaşdıqları hər hansı xüsusi çətinlik barədə soruşun | kağız lövhə, özüyapışan kağız | 30 dəqiqə |
| 8. Dincəliş | | | 10 dəqiqə |
| 9. Kazusların və ya çalışmaların qruplarda müzakirəsi və əsas məqamların hazırlanması | 3-5 nəfərlik qruplarda kazusların analizini və ya çalışmalara cavabı hazırlayın. | kağız lövhə, özüyapışan kağız | 40 dəqiqə |
| 10. Qruplar suallarla bağlı cavab verir. Daha sonra müzakirələr komandanın mövzu ilə bağlı suallara cavab verməsi, dəqiqləşdirmələr və düzəlişlər aparması ilə davam edir. | Hər qrupdan bir nəfər kazusların analizinin nəticələrini təqdim edir, kağız lövhədə qeydlər edir və ya çalışma suallarının nəticələri ilə bağlı özüyapışan kağızlardan istifadə edir. | | 30 dəqiqə |
| 11. Kofe-çay fasiləsi | | | 15 dəqiqə |
| 12. Ümumiləşdirmə. Komanda 7-ci fəsildəki əsas məqamları bir daha nəzərdən keçirir və suallar vasitəsilə məqsədlərə nail olunub-olunmamasını müəyyən edir. | | | 20 dəqiqə |
| 13. 4–7-ci fəsillərin qiymətləndirilməsi və növbəti sessiyaya hazırlıq. | İştirakçılardan xahiş edilir ki, təqdimat və müzakirələrlə bağlı tənqidi fikirlərini söyləsinlər;<br>Komanda növbəti sessiya barədə məlumat verir, tapşırığı verir (arzuolunandırsa) və könüllülər axtarır. | | 30 dəqiqə |
| | | | **7-ci fəsil üzrə ümumi vaxt:**<br>**1-ci sessiya: 1 saat 25 dəq.**<br>**2-ci sessiya: 3 saat 35 dəq.**<br>**(4-7-ci fəsillərin qiymətləndirilməsi daxildir)** |

**Fasilitator üçün məlumat: Nəzərə alın ki, bu sessiyanın planlaşdırılması cədvəli 5 günlük kurs proqramının davamıdır. Nəticədə yalnız 1 saat 25 dəqiqəlik işdən sonra nahar fasiləsidir. Bu sessiya zərurət olduğu zaman planlaşdırıla bilər və yuxarıdakı cədvələ uyğun olmağa heç də borclu deyil.**

# VI. TƏLİM MATERİALLARI

## A. Kompüter slaydları (CD-ROM-a baxın)

1. Öyrənmə məqsədləri I
2. Öyrənmə məqsədləri II
3. Suallar I
4. Suallar II
5. Suallar III
6. Ədalətli məhkəmə araşdırması hüququ: Əsas hüquqi sənədlər I
7. Ədalətli məhkəmə araşdırması hüququ: Əsas hüquqi sənədlər II
8. Ədalətli məhkəmə araşdırması hüququ: Əsas hüquqi sənədlər III
9. Ədalətli məhkəmə araşdırması hüququ: Əsas hüquqi sənədlər IV
10. Ədalətli məhkəmə araşdırması hüququ: Əsas hüquqi sənədlər V
11. Ədalətli məhkəmə araşdırması hüququ: Bu ümumən nə deməkdir I
12. Ədalətli məhkəmə araşdırması hüququ: Bu ümumən nə deməkdir II
13. Məhkəməyə çatımlılıq və ədalət hüququ: Bu nə deməkdir
14. Çəkişmə prosesində tərəflərin bərabərliyi hüququ: Bu nə deməkdir
15. Şahidlərin məcburi gətirilməsi
16. Hakimin andlı iclasçılara göstərişi
17. Açıq məhkəmə iclası və açıq məhkəmə qərarı hüququ: Əsas hüquqi sənədlər I
18. Açıq məhkəmə iclası və açıq məhkəmə qərarı hüququ: Əsas hüquqi sənədlər II
19. Açıq məhkəmə iclası və açıq məhkəmə qərarı hüququ: Əsas hüquqi sənədlər III
20. Açıq məhkəmə iclası və açıq məhkəmə qərarı hüququ: Əsas hüquqi sənədlər IV

21. Açıq məhkəmə iclası və açıq məhkəmə qərarı hüququ: Əsas hüquqi sənədlər V

22. Açıq məhkəmə iclası və açıq məhkəmə qərarı hüququ: Bu nə deməkdir

23. “Əsassız gecikdirmə” olmadan və ya “ağlabatan müddət”də məhkəmə araşdırması hüququ : Əsas hüquqi sənədlər

24. “Əsassız gecikdirmə” olmadan və ya “ağlabatan müddət”də məhkəmə araşdırması hüququ : Bu nə deməkdir

25. Şəxsin özü tərəfindən və ya öz seçdiyi vəkil tərəfindən müdafiə edilmək hüququ, pulsuz hüquqi yardım hüququ və öz vəkili ilə konfidensial ünsiyyət hüququ: Əsas hüquqi sənədlər I

26. Şəxsin özü tərəfindən və ya öz seçdiyi vəkil tərəfindən müdafiə edilmək hüququ, pulsuz hüquqi yardım hüququ və öz vəkili ilə konfidensial ünsiyyət hüququ: Əsas hüquqi sənədlər II

27. Şəxsin özü tərəfindən və ya öz seçdiyi vəkil tərəfindən müdafiə edilmək hüququ, pulsuz hüquqi yardım hüququ və öz vəkili ilə konfidensial ünsiyyət hüququ: Əsas hüquqi sənədlər III

28. Şəxsin özü tərəfindən və ya öz seçdiyi vəkil tərəfindən müdafiə edilmək hüququ, pulsuz hüquqi yardım hüququ və öz vəkili ilə konfidensial ünsiyyət hüququ: Əsas hüquqi sənədlər IV

29. Şəxsin özü tərəfindən və ya öz seçdiyi vəkil tərəfindən müdafiə edilmək hüququ, pulsuz hüquqi yardım hüququ və öz vəkili ilə konfidensial ünsiyyət hüququ: Əsas hüquqi sənədlər V

30. Şəxsin özü tərəfindən və ya öz seçdiyi vəkil tərəfindən müdafiə edilmək hüququ, pulsuz hüquqi yardım hüququ və öz vəkili ilə konfidensial ünsiyyət hüququ: Bu nə deməkdir I

31. Şəxsin özü tərəfindən və ya öz seçdiyi vəkil tərəfindən müdafiə edilmək hüququ, pulsuz hüquqi yardım hüququ və öz vəkili ilə konfidensial ünsiyyət hüququ: Bu nə deməkdir II

32. Öz məhkəmə iclasında iştirak etmək hüququ: Əsas hüquqi sənədlər

33. Öz məhkəmə iclasında iştirak etmək hüququ: Bu nə deməkdir

34. Özünə qarşı ifadə verməyə məcbur edilməmək hüququ, susmaq hüququ və qanunsuz yollarla əldə edilən sübutların istifadəsinə yol verilməməsi hüququ: Əsas hüquqi sənədlər I

35. Özünə qarşı ifadə verməyə məcbur edilməmək hüququ, susmaq hüququ və qanunsuz yollarla əldə edilən sübutların istifadəsinə yol verilməməsi hüququ: Əsas hüquqi sənədlər II

**36.** Özünə qarşı ifadə verməyə məcbur edilməmək hüququ, susmaq hüququ və qanunsuz yollarla əldə edilən sübutların istifadəsinə yol verilməməsi hüququ: Əsas hüquqi sənədlər III

**37.** Özünə qarşı ifadə verməyə məcbur edilməmək hüququ, susmaq hüququ və qanunsuz yollarla əldə edilən sübutların istifadəsinə yol verilməməsi hüququ: Əsas hüquqi sənədlər IV

**38.** Özünə qarşı ifadə verməyə məcbur edilməmək hüququ, susmaq hüququ və qanunsuz yollarla əldə edilən sübutların istifadəsinə yol verilməməsi hüququ: Bu nə deməkdir I

**39.** Özünə qarşı ifadə verməyə məcbur edilməmək hüququ, susmaq hüququ və qanunsuz yollarla əldə edilən sübutların istifadəsinə yol verilməməsi hüququ: Bu nə deməkdir II

**40.** Şahidlərin çağırılması və dindirilməsi hüququ: Əsas hüquqi sənədlər I

**41.** Şahidlərin çağırılması və dindirilməsi hüququ: Əsas hüquqi sənədlər II

**42.** Şahidlərin çağırılması və dindirilməsi hüququ: Əsas hüquqi sənədlər III

**43.** Şahidlərin çağırılması və dindirilməsi hüququ: Əsas hüquqi sənədlər IV

**44.** Şahidlərin çağırılması və dindirilməsi hüququ: Bu nə deməkdir I

**45.** Şahidlərin çağırılması və dindirilməsi hüququ: Bu nə deməkdir II

**46.** Şahidlərin çağırılması və dindirilməsi hüququ: anonim şahidlərə üz tutma – bu qanunidir?

**47.** Tərcüməçinin pulsuz yardımından istifadə hüququ: Əsas hüquqi sənədlər I

**48.** Tərcüməçinin pulsuz yardımından istifadə hüququ: Əsas hüquqi sənədlər II

**49.** Tərcüməçinin pulsuz yardımından istifadə hüququ: Əsas hüquqi sənədlər III

**50.** Tərcüməçinin pulsuz yardımından istifadə hüququ: Əsas hüquqi sənədlər IV

**51.** Tərcüməçinin pulsuz yardımından istifadə hüququ: Bu nə deməkdir

**52.** Əsaslandırılmış məhkəmə qərarı hüququ: Bu nə deməkdir

**53.** Geriyə qüvvəsi olan qanundan azadlıq: Bu nə deməkdir

**54.** *Ne bis in idem* prinsipi: Bu nə deməkdir

**55.** Cəzanın hədləri I

**56.** Cəzanın hədləri II

**57.** Apellyasiya hüququ: Əsas hüquqi sənədlər I

58. Apellyasiya hüququ: Əsas hüquqi sənədlər II

59. Apellyasiya hüququ: Bu nə deməkdir I

60. Apellyasiya hüququ: Bu nə deməkdir II

61. Ədalət mühakiməsinin yanlış həyata keçirilməsi zamanı kompensasiya hüququ: Bu nə deməkdir

62. Ədalətli məhkəmə araşdırması və xüsusi tribunal hüququ

63. Fövqəladə vəziyyətlərdə ədalətli məhkəmə araşdırması hüququ: Bu nə deməkdir

## B. Çalışmalar

### d *Çalışma 1*

Fərdi, yaxud 4-6 nəfərdən ibarət qruplara bölməklə iştirakçılara təxminən 20-30 dəqiqə ayırın və 7-ci fəsildə müzakirə edilən sualların müvafiq yerli hüquq sistemi və ya sistemi çərçivəsində analiz edilməsini təmin edin. Onlar 3 və ya 4-dən çox olmayan önəmli məsələ seçməlidirlər və bu mövzuların onların ölkəsində və ya ölkələrində hansı problem doğura biləcəyini müəyyən etməlidirlər. Onlar məhkəmə icraatı mərhələsində müxtəlif hüquqların təminatının artırılması istiqamətində ideyalar hazırlamaqla öz işlərini tamamlamalıdırlar.
Belə sadə çalışma, məsələn, vaxtın az olduğu və daha detallı kazus hazırlamağa yetərincə zaman olmadığı qısa kurslar zamanı istifadə edilə bilər.

d **Çalışma 2**

## *Vəkilə çatımlılıq hüququ, təqsirsizlik prezumpsiyası hüququ və ağlabatan müddətdə məhkəmə araşdırması da daxil olmaqla, ədalətli məhkəmə araşdırması hüququ*[8]

Bu çalışma qruplarda, yaxud plenar sessiyada müzakirə edilə bilən ikinci qısa kazusdur. Hər bir qrupun təqdimatı 10 dəqiqədən artıq çəkməməlidir. Bu çalışmanın məqsədi genişşaxəli insan hüququ olaraq, ədalətli məhkəmə araşdırması hüququ barədə müzakirə açmaqdan ibarətdir.

Sonia 12 iyun 2008-ci ildə axşam saatlarda hüquqşünas kimi çalışdığı Stadtoun hüquq firmasından evə qayıdarkən Eksland Milli Polisi tərəfindən tutulur. Sonia uzun zamandır ki, önəmli insan hüquqları təşkilatının fəalıdır və tutulmamışdan bir neçə həftə öncə insan hüquqları fəaliyyətini dayandırması ilə bağlı hədələrə məruz qalıb. O, Eksland hökumətini xüsusilə Eksland həbsxanalarında və başqa həbsdə saxlanılma yerlərində geniş miqyasda tətbiq edilən işgəncəyə məcburi son qoymasına çağırır (amma hər zaman sakit formada). O, hökuməti inandırmağa çalışır ki, azadlıqdan məhrum edilmiş uşaq və qadınların müdafiəsini gücləndirsin, belə ki, həbs zamanı onların vəziyyəti xüsusilə təhlükəlidir.

Sonia həmin gün qəbul edilən 008 saylı Hökumət Sərəncamına əsasən, "hakimiyyət əleyhinə fəaliyyət göstərməklə dövlətin təhlükəsizliyinə təhlükə yaratmaq"da şübhəli bilinərək tutulur. Tutulduqdan sonrakı 40 gün ərzində Sonia yazışma və ünsiyyət hüququndan məhrum edilməklə incommunicado həbsdə saxlanılır. Nəhayət, 2011-ci ilin sentyabrında o, təxribatda təqsirli bilinərək, 3 il müddətinə azadlıqdan məhrum edilir. Bu vaxt ərzində o, 3 ildən çox məhkəməyədək həbsdə qalır, halbuki Ekslandda həmin hüquq pozuntusuna görə maksimum müddət 2 ildir. Sonia cinayət ittihamına baxılmamasının xüsusilə hüquqşünas kimi onun işinə xoşagəlməz təsiri səbəbindən işinə məhkəmə tərəfindən tez baxılmasına çalışsa da, buna nail ola bilmir.

Müzakirə üçün bəzi məsələlər:

1 Sonianın yazışma və ünsiyyət hüququndan məhrum edilməklə incommunicado həbsi onun ədalətli məhkəmə araşdırması hüququna necə təsir edib?

1 Onun 3 illik həbsi ədalətli məhkəmə araşdırması hüququnu həyata keçirməsinə mane olubmu? Əgər olubsa, hansı yolla?

1 Sonia barəsində ağlabatan müddətdə/gecikdirmə olmadan məhkəmə araşdırması aparılıbmı?

1 Sonianın məhkum edilməsinin Hökumətin 008 saylı sərəncamına əsasən həyata keçirilməsi beynəlxalq insan hüquqları hüququna uyğundurmu? Zəhmət olmasa, fikrinizi izah edin.

1 Ekslandda işgəncənin qadağan olunması ilə bağlı Sonianın işi barədə fikriniz nədir? Cinayət prosesinin bu fəaliyyətə necə təsir göstərdiyini düşünürsünüz? Soniaya qarşı qaldırılan cinayət işində prosessual hüquqlardan başqa hər hansı insan hüququ pozuntusunu müəyyən edə bilərsiniz?

1 Əgər Siz bu iş üzrə hakim olsaydınız, Fərdlərin, Qrupların və Cəmiyyət üzvlərinin Ümumqəbuledilən İnsan Hüquqları və Əsas Azadlıqlarının Təbliğatı və Müdafiəsi ilə bağlı Hüquq və Vəzifələri Bəyannaməsini faydalı sayardınızmı? Hansı müddəalarını rəhbər tutardınız və hansı səbəblərdən?

[8] **Fasilitatora məsləhət:** Fasilitatorun/auditoriyanın ehtiyaclarından asılı olaraq, bu çalışma/kazus əsasında işə baxan rəmzi vəkilləri, prokurorları və hakimləri olan rol oyunları təşkil edilə bilər. İnsan hüquqları müdafiəçilərinin hüquqları ilə bağlı Baş Assambleyanın 53/144 saylı qətnaməsinə baxın.

d **Çalışma 3**

*Ne bis in idem (ikiqat cəzalandırmanın yolverilməzliyi prinsipi)*[9]

Bill Ekslandda dənizkənarı kiçik şəhərdə yaşayan uğurlu balıqçıdır. Onun işinə balıq ixracı və idxalı daxildir və dünyanın bir çox yerlərində balıq qiymətinin kəskin artımı şəraitində bu, artıq böyük biznesə çevrilib. Bill hesab edir ki, bütün qazancından yüksək gəlir vergisi ödəmək yorucudur və bu səbəbdən, gəlirlərinin bir hissəsini xarici banklarda gizlədir və sənədləri saxtalaşdırmaqla mühasibatlıq uçotunu aldadır. Bununla belə, hakimiyyət orqanları şübhələnirlər və araşdırmanın ardınca Billə qarşı cinayət işi qaldırılır və o, 2002-2008-ci illər ərzində 1.5 milyon dollar gəlirini, eləcə də 2.8 milyon dollar vergitutma obyekti olan əmlakını vergidən gizlətməkdə ittiham olunur. Buna görə, Bill 5 yanvar 2010-cu ildə Stadtoun Rayon Məhkəməsi tərəfindən 18 ay müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilir və cəzasının 2/3-sini Ekslanddakı qaydalara əsasən tamamilə çəkir. Bu hökm 19 yanvar 2010-cu ildə qüvvəyə minir və bundan sonra Bill apellyasiya şikayəti verməmək qərarına gəlir.

Bununla belə, cinayət icraatı hələ davam edərkən, Eksland Vergi İdarəsi xəbərdarlıq edir ki, Bill əslində ilkin şübhələndiyindən daha çox gəlirini gizlədib. 2 dekabr 2011-ci ildə Billə rəsmi şəkildə bildirilir ki, onun gizlədilmiş gəliri 5.5 milyon dollar və vergitutma obyekti olan əmlakı isə 4.6 milyon dollar olmalıdır. Eksland Vergi Qanununa əsasən, buna görə Billin üzərinə 60 % əlavə vergi qoyulur. Qeyd etmək lazımdır ki, bu Qanuna görə, vergi orqanlarına yanlış və ya tamamlanmamış məlumat verən şəxs Eksland Cinayət Məcəlləsinə əsasən cəzalandırıla və üzərinə əlavə vergi qoyula bilər.

Bill əsəbidir. O hesab edir ki, əlavə vergitutma ədalətsizdir, çünki o, artıq ağır cəza alıb. Odur ki, Bill Sizdən bir vəkil olaraq nə etməli olması barədə məsləhət alır. İşin hallarını müzakirə edin və yollar təklif edin. Öz arqumentlərinizi (a) milli qanunvericiliyinizə; və (b) Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın müvafiq müddəalarına və ya hər hansı müvafiq regional insan hüquqları müqaviləsinə söykəyin.

---

9 **Fasilitatora məsləhət:** Bu çalışma Norveç Ali Məhkəməsinin 3 may 2002-ci il qərarı ilə baxılan işlərə əsaslanır. Avropa İnsan Hüquqları Konvensiyasının 7 saylı Protokolunun 4-cü maddəsinə istinad edərək, Ali Məhkəmə qərara aldı ki, əlavə vergi qoyulan zaman cinayət mühakimə icraatı rədd edilməlidir və əksinə. Bu işlərdə məhkumluğun və əlavə vergilərin əsaslandığı mənbə eyni aktlar idi. Bundan başqa, cəza məqsədi ilə aktın obyektiv təsviri, eləcə də cəzanın verilməsinin və vergi artımının subyektiv şərtləri eyniyyət təşkil edirdi.

# C. Kazusla iş[10]

Bu, 5-ci fəsildə başlayan və 6-cı fəsildə davam edən kazusun 3-cü hissəsidir. Bu hissə məhkəmə icraatından bəhs edir. Burada 4-cü fəsildən irəli gələn məsələlər olsa da, əsasən, 7-ci fəslə aiddir. İştirakçıların hipotetik işi diqqətlə oxumalarını və analiz etmələrini təmin etmək üçün kazusun onlara bir gün öncədən paylanılması təklif edilir. Eksland Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt üzrə tərəfdir və iki Əlavə Protokolunu ratifikasiya edib.

## *I HİSSƏ: FAKTLAR*

1. Con 18 ay həbsdə saxlanılandan sonra onun məhkəməsi başlayır. İşə andlı iclasçılar tərəfindən baxılır. Onun maliyyə ehtiyatları tükənib və vəkil tutmağa pulu yoxdur. Con dövlət hesabına hüquqi yardım üçün müraciət edir və proses başlamamışdan bir qədər öncə məhkəmə ona vəkil təyin edir. Con və onun yeni vəkili ilk dəfə məhkəmənin hazırlıq iclasından bir gün əvvəl görüşürlər. Con təqsirsiz olduğunu bildirir və c-b X. və x-m X.-nin şahid kimi məhkəməyə çağırılmaları barədə vəsatət verməsini vəkildən xahiş edir. Bununla belə, Con prosesdə onsuz da heç kimin ona qulaq asmadığını görüb, susmaq hüququndan istifadə etmək qərarına gəlir.

2. Prosesin əvvəlində Conun vəkili məhkəməyə rəsmi vəsatət verərək, c-b X. və x-m X.-dən ifadə alınması, onların çarpaz dindirilməsinin zərurətini bildirir. Vəsatət rədd edilir və əsas kimi gətirilir ki, c-b X. və x-m X.-nin polisə verdiyi və məhkəmədə elan edilməli olan yazılı ifadələrində soyğunçuluqla bağlı hallar yetərincə əks olunub, eləcə də şahidlərin şəxsi təhlükəsizliyinin qorunmasına ehtiyac var. Bununla belə, Cona həmin axşam birlikdə olduğu dostu Toması şahid kimi çağırmasına icazə verilir. Tomas isə ifadə verir ki, həmin axşam onlar şam yeməyinə çıxıblar və daha sonra söhbətlərini davam etmək üçün onun evinə qayıdıblar.

3. İş nisbətən sadə olduğundan məhkəmə prosesi tez bitir. Məhkəmə iclasında sədrlik edən hakim andlı iclasçılara təlimatında müvafiq qanunvericiliyi izah edir, Cona qarşı mövcud olan sübutları göstərir və təqsirləndirilən şəxsin həm istintaqın əsas hissəsində, həm də məhkəmə prosesində susmaq hüququndan istifadə etməsini vurğuyır. Con ağırlaşdırıcı hallarda soyğunçuluqda təqsirli bilinərək, 4 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilir. Məhkəmə iclasının fasiləsində sədrlik edən hakimə məlumat verilir ki, andlılardan biri bütövlükdə əcnəbilər barədə, xüsusilə də Ruritaniyadan olan insanlar barədə təhqiredici fikir bildirib. Proses bundan sonra sədrlik edən hakimin andlı iclasçılara hər kəsin qanun qarşısında və qanunla bərabərlik hüququnun olması barədə ümumi təlimatı ilə başa çatır.

4. Con vəkilinin köməyi ilə ittiham hökmündən apellyasiya şikayəti verir və istintaq və məhkəmə prosesi boyu baş verən pozuntuları qeyd edir. O, Apellyasiya Məhkəməsindən hökmün ləğvini xahiş edir. Bundan 11 ay sonra Apellyasiya Məhkəməsi yalnız Con və prokurorun yazılı arqumentlərinə əsaslanmaqla, hüquq və faktlar üzrə araşdırma apararaq şikayəti rədd edir. Prokurorun Conun bütün müraciətlərinə çatımlılığı olsa da, prokurorun Apellyasiya Məhkəməsinə göndərdiyi müraciətlər nə Cona, nə də onun vəkilinə göndərilir. Qısa davam edən açıq iclasda Apellyasiya Məhkəməsinin qərarının ancaq nəticə hissi elan edilir, əsaslandırma hissəsi isə bir qədər sonra yazılı formada çatdırılmalı idi. Eksland Konstitusiya Məhkəməsinə şikayət üçün qanunla müəyyən edilən vaxt çoxdan bitsə də, Con 8 ay ərzində Apellyasiya Məhkəməsindən hər hansı yazılı və əsaslandırılmış qərar almır.

10 **Fasilitatora məsləhət:** Pakt iştirakçıların çalışdıqları ölkənin ratifikasiya etdiyi regional insan hüquqları müqaviləsi ilə əvəz edilə və ya birgə nəzərdən keçirilə bilər.

## *II HİSSƏ: SUALLAR*

1. Conunun yeni təyin edilən vəkilinin onun müdafiəsini hazırlamaq üçün yetərincə vaxtı var idi? Bu durumu: (a) milli qanunvericiliyiniz; (b) Pakt əsasında qiymətləndirin.
2. Əgər vaxt kifayət qədər olmayıbsa, Conun vəkili kimi bu vəziyyəti həll etmək üçün nə edərdiniz?
3. C-b X. və x-m X.-nin dindirilmələrindən imtina edilməsi barədə: Bu imtina məhkəməyə necə təsir edir? İmtina (a) milli qanunvericiliyinizə; (b) Pakta uyğundurmu? Uyğun deyilsə, səbəbini izah edin.
4. Ədalətli məhkəmə araşdırması anlayışı altında hakimin andlı iclasçılara təlimatını analiz edin: Bu təlimat qeyd edilən anlayışa tam uyğun idimi? Əgər deyildisə, səbəbini izah edin.
5. Müstəqil və qərəzsiz məhkəmə və ya tribunal tərəfindən işə baxılma kimi əsas hüquq çərçivəsində analiz edilməli məhkəmə prosesinin hər hansı aspekti varmı? Əgər varsa, bunu qeyd edin və sizin fikrinizcə, hakim bu məsələni necə həll etməli idi?
6. Conun susması və əməkdaşlıq etməməsi bu iş üzrə andlı iclasçılara təsir edib? Əgər təsir edibsə, bu təsir: (a) milli qanunvericiliyinizə; (a) Pakta əsasən qanuni idimi?
7. Siz hakim/prokuror/vəkil kimi suallarınıza cavab verməkdən və cinayətin açılması məqsədilə əməkdaşlıq etməkdən inadkarcasına imtina edən təqsirləndirilən şəxsə necə reaksiya verərdiniz?
8. Siz (a) Apellyasiya Məhkəməsindəki icraatda; (b) həmin məhkəmənin qərarında hər hansı pozuntular müəyyən edə bilərsiniz?
9. Prosesə tam nəzər saldıqda, siz Conun ağlabatan müddətdə müstəqil və qərəzsiz məhkəmə qarşısında ədalətli məhkəmə araşdırması hüququ ilə təmin olunduğunu düşünürsünüz?

# D. Rol oyunu

## *I HİSSƏ: FAKTLAR*

### Ümumi məlumat

*Ədalətli məhkəmə araşdırması hüququ, təqsirsizlik prezumpsiyası hüququ, ifadə/mətbuat azadlığı hüququ*

*The New Exland Times* Ekslandda nəşr olunan ən məşhur qəzetdir və c-b X.-yə qarşı məhkəmənin getdiyi Stadtoun şəhərində xüsusilə geniş dövriyyəsi var. C-b X. Stadtoundankənar meşələrdə məşqlər zamanı özəl polis qvardiyasının üzvü olan həmkarına atəş açma və ağır yaralamaqla adam öldürməyə cəhddə ittiham edilir. *The New Exland Times* qəzeti ön səhifəsində təqsirləndirilən şəxsin müntəzəm olaraq narkotikdən istifadə etdiyini, daha sonra şəhərə çıxaraq, atəş açdığını və qonşuluqda yaşayan insanları qorxutduğunu, amma ondan qorxmalarından dolayı heç kəsin polisə şikayət etməyə cəsarəti çatmadığını xəbərləyir. İctimai rəy sorğusu göstərir ki, Stadtoun məhkəmə ərazisində yaşayan sakinlərin 80%-i *The New Exland Times* qəzetinin müsbət reputasiyasına görə hadisənin doğru olduğuna inanır. Prokuror mətbuat konfransı keçirir və təklif edir ki, *The New Exland Times* qəzetinin ciddi jurnalist araşdırmalarına görə yaxşı reputasiyası olduğundan təqsirləndirilən şəxs qəzetdə dərc olunan hadisə barədə şübhələrindən imtina etməlidir. Məqaləyə, eləcə də Prokurorun mətbuat konfransına əsaslanaraq, vəkil məhkəmə araşdırmasının yanlış elan edilməsini məhkəmədən xahiş edir.

*II HİSSƏ: SUALLAR VƏ CAVABLAR*

1. Siz c-b X.-nin **vəkilisiniz**: Məhkəmə araşdırmasının yanlış elan edilməsinin xeyrinə hansı arqumentləri irəli sürərdiniz? Arqumentlərinizi: (a) milli qanunvericiliyinizlə: və (b) beynəlxalq insan hüquqları hüququ ilə əlaqələndirin.

2. Siz **dövlət ittihamçısısınız**: Vəkil tərəfindən verilən vəsatətə necə cavab verərdiniz? Arqumentlərinizi: (a) milli qanunvericiliklə; və (b) beynəlxalq insan hüquqları hüququ ilə əlaqələndirin.

3. Bu işdə **sədrlik edən hakim** olaraq necə qərar çıxarardınız? Arqumentlərinizi: (a) milli qanunvericiliklə; və (b) beynəlxalq insan hüquqları hüququ ilə əlaqələndirin.

4. C-b X.-nin qəribə və hədələyici davranışı barədə məqalə yazmamışdan öncə ciddi araşdırma aparan bir **jurnalist** kimi bu işdə yaranan müxtəlif məsələləri necə görürsünüz?

## E. Paylama materialı (CD-ROM-a baxın)

1. Beynəlxalq və regional mexanizmlər

# 8-ci fəsil
# AZADLIQDAN MƏHRUM EDİLƏN ŞƏXSLƏRİN MÜDAFİƏSİNİN BEYNƏLXALQ HÜQUQİ STANDARTLARI

## Mündəricat


I. FASİLİTATORLAR ÜÇÜN QEYD..........................................74

II. ƏSAS HÜQUQİ MƏNBƏLƏR..........................................74

A. Universal mexanizmlər......................................................74

B. Regional mexanizmlər ..........................................................75

III. FƏSLİN/SESSİYANIN MƏQSƏDLƏRİ ........................................76

IV. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR ...........................................76

V. 8-Cİ FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ.............................................................................77

VI. TƏLİM MATERİALLARI.......................................................79

A. Kompüter slaydları ................................................................79

B. Çalışma.........................................................................................81

C. Kazus……. ..................................................................................82

D. Paylama materialları .............................................................84

# I. FASİLİTATORLAR ÜÇÜN QEYD

Vəsaitin 8-ci fəsli tutulmasından, həbsə alınmasından, məhkəmə hökmü ilə azadlıqdan məhrum edilməsindən və ya inzibati həbsdə olmasından asılı olmayaraq, azadlıqdan məhrum edilən ***bütün*** şəxslərin bir sıra əsas insan hüquqlarını tam olmasa da, təsvir edir.

Beləliklə, 8-ci fəsil ilk növbədə həbsə alınan və məhkum edilən şəxslərin fiziki və əqli toxunulmazlığına hörmət hüququ, başqa sözlə, işgəncədən, qeyri-insani və insan ləyaqətini alçaldan rəftar və ya cəzanın qadağan olunması azadlığını müəyyən edir. Bu bölmə dövlətlərin işgəncə aktlarının qarşısını almaq və cəzalandırmaq sahəsində hüquqi öhdəliklərini, eləcə də müvafiq hüquqi anlayışların tərifini və beynəlxalq monitorinq orqanları tərəfindən təcrübədə onların tətbiqini qısa olaraq təsvir edir.

8-ci fəsil daha sonra həbsdə saxlanılma yerlərinə olan hüquqi tələbləri və həbsdə saxlanılan şəxslərin və məhkumların qeydiyyatını, eləcə də həbsdə saxlanılan şəxslərin və məhkumların ətrafla əlaqəsi də daxil olmaqla, həbs və cəzaçəkmə şəraitinin bəzi ən önəmli aspektlərini müzakirə edir.

Daha sonra 8-ci fəsil dövlətlərin həbsdə saxlanılma və cəzaçəkmə yerlərində həm müstəqil yoxlamalar keçirmək, həm də insan hüquqları pozuntularının qurbanlarını səmərəli şikayət proseduru ilə təmin etmək öhdəliyini qısaca təsvir edir.

Ən sonda 8-ci fəsil azadlıqdan məhrum edilən şəxslərlə qanunsuz davranışın qarşısını almaq və aradan qaldırmaq sahəsində hakimlər, prokurorlar və vəkillərin əhəmiyyətli rolunu vurğulayır.

# II. ƏSAS HÜQUQİ MƏNBƏLƏR

8-ci fəsil aşağıdakı hüquqi sənədlərə əsaslanıb:

## A. Universal mexanizmlər

- Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, 1966
- İşgəncə və digər Qəddar, Qeyri-insani və ya Ləyaqəti Alçaldan Rəftar və ya Cəza əleyhinə Konvensiya, 1984
- Uşaq Hüquqları haqqında Konvensiya, 1989
- Bütün Miqrant İşçilərin və onların Ailə Üzvlərinin Hüquqlarının Müdafiəsi haqqında Beynəlxalq Konvensiya, 1990
- 1949-cu il Cenevrə Konvensiyaları və 1977-ci il iki Əlavə Protokolları
- Beynəlxalq Cinayət Məhkəməsinin Nizamnaməsi, 1998
- İnsan Hüquqlarına dair Ümumi Bəyannamə, 1948

- Konsulluq Əlaqələri haqqında Vyana Konvensiyası, 1963
- Bütün İnsanların Məcburi Yoxaçıxmadan Müdafiəsi haqqında Bəyannamə, 1992
- Bütün İnsanların Məcburi Yoxaçıxmadan Müdafiəsi haqqında Beynəlxalq Konvensiya, 2006

*****

- Məhkumlarla Rəftarla bağlı Standart Minimum Qaydalar, 1955
- Məhkumlarla Rəftarla bağlı Əsas Prinsiplər, 1990
- Bütün İnsanların Həbs və ya Məhkumluğun hər hansı Forması zamanı Müdafiəsi üçün Rəhbər Prinsiplər, 1988
- Səhiyyə personalının, xüsusilə can həkimlərinin məhkum olunan və həbsdə saxlanılan şəxsləri işgəncə və digər qəddar və ləyaqət alçaldan davranış və cəzadan qorumasında tibbi etika prinsipləri, 1982
- Qanunsuz, Özbaşına və Kütləvi Edam cəzasının Səmərəli şəkildə Qarşısının Alınması və İstintaqı haqqında Prinsiplər, 1989
- Hüquq- mühafizə Orqanlarının Vəzifəli Şəxslərinin Davranış Məcəlləsi, 1979
- Vəkillərin Rolu haqqında Əsas Prinsiplər, 1990
- Prokurorların Rolu haqqında Rəhbər Qaydalar, 1990

## B. Regional mexanizmlər

- İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyası
- Amerika İnsan Hüquqları Konvensiyası
- İşgəncənin Qarşısının Alınması və Cəzalandırılması haqqında İnter-Amerika Konvensiyası
- İnsanların Məcburi Yoxaçıxmaları haqqında İnter-Amerika Konvensiyası
- Avropa İnsan Hüquqları Konvensiyası
- İşgəncənin, Qeyri-insani və ya Ləyaqəti Alçaldan Rəftar və ya Cəzanın Qarşısının Alınması haqqında Avropa Konvensiyası

# III. FƏSLİN/SESSİYANIN MƏQSƏDLƏRİ

8-ci fəslin məqsədləri aşağıdakılardır:

- İştirakçıları azadlıqdan məhrum edilən şəxslərlə davranışı nizamlayan bir sıra ən önəmli beynəlxalq insan hüquqları standartları ilə, eləcə də dövlətlərin bu standartların pozulmasının qarşısının alınması, cəzalandırılması və aradan qaldırılması sahəsində hüquqi öhdəlikləri ilə tanış etmək;
- Azadlıqdan məhrum edilən şəxslərin hüquqlarının müdafiəsi üçün çoxşaxəli hüquqi qaydaların təcrübədə tətbiqini təsvir etmək;
- Azadlıqdan məhrum edilən şəxslərin hüquqlarının təmini üçün hakimlər, prokurorlar və vəkillərin hansı hüquqi addımlar, tədbirlər və/və ya hərəkətlər həyata keçirməli olduqlarını izah etmək.

# IV. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR

8-ci fəsildə beynəlxalq hüquq qaydaları çərçivəsində toxunulacaq əsas məqamlar və iştirakçılarla müzakirə ediləcək başlıca məsələlər aşağıdakılardır:

- İştirakçılar həbs olunan şəxsin işi ilə məşğul olarkən, milli qanunvericiliyin hansı müddəaları həbs olunan şəxsin həbsin qanuniliyini və ya həbs şəraitini mübahisələndirməyə imkan verir? Onlar hüquqi və faktiki olaraq hansı maneələrlə üzləşirlər, məsələn, vəkilə çatımlılıq, məhkəmə prosesinin təbiəti, fövqəladə hallarda məhdudiyyətlər?
- İştirakçılar pis rəftardan şikayətlənən azadlıqdan məhrum edilən şəxslərlə qarşılaşıblarmı?
- Əgər qarşılaşıblarsa, iddia edilən pis rəftar nə zaman, necə və hansı məqsədlə həyata keçirilib?
- Bu vəziyyəti həll etmək üçün hansı tədbirlər görülüb və hansı nəticələr olub, əgər olubsa?
- İştirakçların çalışdığı ölkədə və ya ölkələrdə həbs yerlərinin tanınması və azadlıqdan məhrum edilən şəxslərin qeydiyatı ilə bağlı hansı qaydalar var?
- İştirakçıların çalışdığı ölkədə və ya ölkələrdə təknəfərlik kamerada saxlanılmaq üçün hansı qaydalar var? Məsələn, hansı səbəblərdən, hansı müddətə və hansı şərtlərlə bu tətbiq edilə bilər?
- Yazışma və ünsiyyət hüququndan məhrum edilməklə ***incommunicado*** həbs iştirakçıların ölkəsi/ölkələrində icazəlidirmi və əgər icazəlidirsə, hansı müddətə? Belə həbsə məruz qalan şəxsin hansı hüquqi vasitələri var? Hakimiyyət orqanları həbsdə olan şəxs və ya məhkumun ***incommunicado*** həbs zamanı fiziki və ya psixi sui-istifadəyə məruz qalmamasından necə əmin olurlar?
- İştirakçılar vəkil olaraq həbsdə olan müştəriləri ilə azad və konfidensial görüş keçirən zaman hər hansı problemlə üzləşiblərmi? Öz müştərilərini ziyarət edərkən və ya yazışmalar apararkən, hər hansı problemləri olubmu? Əgər olubsa, onlar bununla bağlı nə ediblər?

- İştirakçıların ölkəsində/ölkələrində qadınların və uşaqların həbs şəraitinin hər hansı spesifik problemləri varmı və əgər varsa, bu problemlər nədir və onları aradan qaldırmaq üçün hansı tədbirlər həyata keçirilib, əgər keçirilibsə?
- İştirakçıların ölkəsində/ölkələrində həbsdə saxlanılma yerlərində işgəncənin və pis rəftarın başqa formalarının qarşısını almaq üçün hansı tədbirlər görülüb? Müstəqil qruplar tərəfindən müntəzəm ziyarət sistemi varmı?
- Onların milli qanunvericiliyi zorakılıq nəticəsində əldə edilən etirafı necə tənzimləyir?
- Cəzaçəkmə müəssisələrinin ümumi şəraiti necədir? Yerləşmə, sanitariya, istirahət, təhsil, təlim və s. ilə əlaqədar hər hansı xüsusi problem varmı?
- İştirakçıların ölkəsində/ölkələrində (a) həbs olunan və məhkum olunan şəxslərin iddia edilən pis rəftarı ilə bağlı; (b) yazışmalara müdaxilə və ziyarət qəbul etməkdən imtina da daxil olmaqla cəzaçəkmə müəssisələrinin ümumi şəraiti ilə bağlı şikayət proseduru nədir?
- İştirakçılar öz peşə vəzifələrini həyata keçirərkən, işgəncənin və pis rəftarın başqa formalarının qarşısının alınmasında və insan hüquqları pozuntularının aradan qaldırılmasında qurbanlara necə yardım edə bilərlər? Bu sahədə onların hansı təcrübəsi var? Onlar gələcəyi necə görürlər?

# V. 8-Cİ FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ

| Başlıca məqamlar/Fəaliyyət | Metod | Media | Zaman |
|---|---|---|---|
| 1. 8-ci fəslin məqsədi | Təqdimat | Kompüter slaydları, kağız lövhə | 5 dəqiqə |
| 2. Kursun təqdimatı: Vəsaitin 8-ci fəslinə və yuxarıdakı IV bölmədəki əsas məqamlara söykənməklə, komanda aşağıdakı məsələlərlə bağlı təqdimat edir:<br>a. özbaşına həbsin qadağan olunması;<br>b. azadlıqdan məhrumetmənin qanuniliyinin mübahisələndirilməsi üçün məhkəmə vasitələri;<br>c. qarşısını almaq, araşdırmaq, cəzalandırmaq və aradan qaldırmaq sahəsində dövlətlərin vəzifəsi də daxil olmaqla, işgəncənin, qəddar, qeyri-insani və ləyaqəti alçaldan rəftar və cəzanın qadağan olunması;<br>d. həbsdə saxlanılma yerlərinə hüquqi tələblər və həbsdə olan şəxslərin və məhkumların qeydiyyatı; | İnteraktiv təqdimatlar | Kompüter slaydları, kağız lövhə, standart və prinsipləri özündə əks etdirən paylama materialları | 30 dəqiqə |
| e. həbs və ya cəzaçəkmə şəraiti. | | | |

| | | | |
|---|---|---|---|
| 3. Dincəliş | | | 5 dəqiqə |

| Başlıca məqamlar/fəaliyyət | Metod | Media | Zaman |
|---|---|---|---|
| 4. Təqdimatlar davam edir:<br>f. ətrafla əlaqə;<br>g. həbs yerlərinin və şikayət prosedurlarının yoxlanılması;<br>h. azadlıqdan məhrum edilən şəxslərlə qanunsuz rəftarın qarşısının alınmasında və aradan qaldırılmasında hakimlərin, prokurorların və vəkillərin rolu. | İnteraktiv təqdimatlar | Kompüter slaydları və yuxarıda qeyd edilən paylama materialları | 30 dəqiqə |
| 5. Qruplara bölünmə və qruplarda iş üçün çalışmanın izahı və təqdimat proseduru; kazusun paylanılması. | | Kazusla iş və ya çalışma | 10 dəqiqə |
| 6. Kazuslarla bağlı qruplarda iş və s. | Kiçik qruplarda iş | Kazusla iş | 40 dəqiqə |
| 7. Kofe-çay fasiləsi | | | 20 dəqiqə |
| 8. Təqdimat | Qruplar kazusla bağlı təqdimat edir;<br>Təqdimat komandası əmin olur ki, əsas məqamlar başa düşülüb. | Kağız lövhə, özüyapışan kağız və s. | 40 dəqiqə |
| 9. 8-ci fəslin qavranılmasının yenidən nəzərdən keçirilməsi | Qruplarla dialoq və mümkün qədər çox sual-cavab yolu ilə əsas məqamların xatırladılması | | 15 dəqiqə |
| | | | **Cəmi: 3 saat 15 dəq.** |

# VI. TƏLİM MATERİALLARI

## A. Kompüter slaydları (CD-ROM-a baxın)

1. Öyrənmə məqsədləri I
2. Öyrənmə məqsədləri II
3. Suallar I
4. Suallar II
5. Suallar III
6. Suallar IV
7. İşgəncənin, qəddar, qeyri-insani və ləyaqəti alçaldan rəftar və ya cəzanın qadağan edilməsi: Əsas hüquqi sənədlər I
8. İşgəncənin, qəddar, qeyri-insani və ləyaqəti alçaldan rəftar və ya cəzanın qadağan edilməsi: Əsas hüquqi sənədlər II
9. İşgəncənin, qəddar, qeyri-insani və ləyaqəti alçaldan rəftar və ya cəzanın qadağan edilməsi: Əsas hüquqi sənədlər III
10. İşgəncənin, qəddar, qeyri-insani və ləyaqəti alçaldan rəftar və ya cəzanın qadağan edilməsi: Əsas hüquqi sənədlər IV
11. İşgəncənin, qəddar, qeyri-insani və ləyaqəti alçaldan rəftar və ya cəzanın qadağan edilməsi: Əsas hüquqi sənədlər V
12. İşgəncənin, qəddar, qeyri-insani və ləyaqəti alçaldan rəftar və ya cəzanın qadağan edilməsi: Dövlətlərin hüquqi məsuliyyəti
13. İşgəncənin, qəddar, qeyri-insani və ləyaqəti alçaldan rəftar və ya cəzanın qadağan edilməsi: Bu nə deməkdir I
14. İşgəncənin, qəddar, qeyri-insani və ləyaqəti alçaldan rəftar və ya cəzanın qadağan edilməsi: Bu nə deməkdir II
15. İşgəncənin, qəddar, qeyri-insani və ləyaqəti alçaldan rəftar və ya cəzanın qadağan edilməsi: Bu nə deməkdir III
16. İşgəncənin, qəddar, qeyri-insani və ləyaqəti alçaldan rəftar və ya cəzanın qadağan edilməsi: Bu nə deməkdir IV

17. İşgəncənin, qəddar, qeyri-insani və ləyaqəti alçaldan rəftar və ya cəzanın qadağan edilməsi: Bu nə deməkdir V

18. Həbsdə saxlanılma yerlərinə hüquqi tələblər və həbsdə olan şəxslərin və məhkumların qeydiyyatı I

19. Həbsdə saxlanılma yerlərinə hüquqi tələblər və həbsdə olan şəxslərin və məhkumların qeydiyyatı II

20. Həbs və azadlıqdan məhrumetməni tənzimləyən əsas prinsiplər I

21. Həbs və azadlıqdan məhrumetməni tənzimləyən əsas prinsiplər II

22. Saxlama yerləri və kateqoriyaların bölgüsü

23. Şəxsi gigiyena, ərzaq, sağlamlıq və tibbi xidmətlər I

24. Şəxsi gigiyena, ərzaq, sağlamlıq və tibbi xidmətlər II

25. Şəxsi gigiyena, ərzaq, sağlamlıq və tibbi xidmətlər III

26. Din

27. İstirahət fəaliyyəti

28. Təkadamlıq kamera

29. Incommunicado həbs (yazışma və ünsiyyət hüququndan məhrum etməklə həbs)

30. Ətrafla əlaqə: Ailə və dostların ziyarəti və onlarla yazışma I

31. Ətrafla əlaqə: Ailə və dostların ziyarəti və onlarla yazışma II

32. Ətrafla əlaqə: Vəkillərin ziyarəti və onlarla yazışma

33. Ətrafla əlaqə: Şikayətlərin verilməsi məqsədilə yazışma

34. Həbsdə saxlanılma yerlərinin yoxlanılması

35. Şikayət prosedurları və səmərəli müdafiə vasitələri

36. Səmərəli şikayət prosedurları = səmərəli qarşısını alma

37. Hakimlərin, prokurorların və vəkillərin rolu

38. Yeni doğulan uşaqlarının həbs yerlərində qayğısına qalan hamilə qadınlar və analar

## B. Çalışmalar

### *Çalışma 1*

Fərdi, yaxud 4-6 nəfərdən ibarət qruplara bölməklə iştirakçılara təxminən 25 dəqiqə zaman ayırın və 8-ci fəsildə müzakirə edilən sual və məsələləri onların müvafiq milli penitensiar və hüquq sistemləri çərçivəsində analiz etmələrini təmin edin. İştirakçılar 3 və ya 4-dən çox olmayan önəmli məsələ seçməlidirlər və bu mövzuların onların ölkəsində və ya ölkələrində hansı narahatlıq və/və ya problem doğura biləcəyini müəyyən etməlidirlər. Onlar azadlıqdan mərhum edilən şəxslərin hüquqlarının təminatının artırılması və o cümlədən həbs və ya azadlıqdan məhrumetmə zamanı işgəncə və pis rəftarın başqa formalarının qarşısının alınmasında hansı tədbirlərin həyata keçirilməli olmasını müəyyən etmək üçün ideyalar hazırlamaqla öz işlərini tamamlamalıdırlar.

### *Çalışma 2*[11]

Ekslandda həbsdəsaxlama yerlərinin vəziyyəti problem doğurur. Sıxlıq həddi aşılıb və həbs şəraiti ümumən çox pisdir. Beynəlxalq qaydalara zidd olaraq, təqsirləndirilən şəxslər ayrıca kameralarda deyil, böyük yataqxana kimi yerlərdə saxlanılırlar. Həbsxana rəhbərliyi ilə məsləhət nəticəsində Eksland hökuməti həbsxanalara yönələn beynəlxalq tənqidi susdurmaq qərarına gəlir. Bu məqsədlə hökumət yataqxanalardan istifadəyə son qoymaq və məhkumları heç də həmişə ayrıca kameralar olmasa da, ən azı 2 və ya 3 məhkumun kiçik qruplar şəklində birgə yaşaya biləcəyi kameralarla təmin etmək qərarına gəlir.

Təəccüb doğuran hal odur ki, məhkumlar yeni qərarı alqışlamırlar və hesab edirlər ki, bu tədbir onların şəxsi təhlükəsizlik hüquqlarına hədədir. Belə ki, Eksland Polisi, təhlükəsizlik qüvvələri və həbsxana rəsmiləri müntəzəm olaraq həbs olunan şəxsləri və azadlıqdan məhrum edilən məhkumları işgəncə və pis rəftara məruz qoymaqla tanınıblar və bu səbəbdən, onların kameralarda kiçik qruplarla və ya tək qalmaqdan daha çox böyük qruplarla özlərini daha təhlükəsiz hiss etmələri anlaşılandır.

Bundan başqa, yeni rejimə əsasən, təqsirləndirilən şəxslərin bir neçə gün digər təqsirləndirilən şəxslərlə görüşməsinə, eləcə də idmanla məşğul olmasına icazə verilmir. Bunu görən təqsirləndirilən şəxslər həbsxana rəhbərliyini yeni rejimi dəyişməyə məcbur etmək üçün aclıq aksiyasına başlamaq qərarına gəlirlər. İmtina çox aydın və qəti şəkildə olur. Bununla belə, təqsirləndirilən şəxslər təslim olmamaq və sonadək aclıq aksiyasını davam etməkdə israrlıdırlar.

- ***Aclıq edən təqsirləndirilən şəxslərin vəkili*** olaraq, həbsxana rəhbərliyini və Eksland hökumətini yeni qərarlarını dəyişdirməyə inandırmaq üçün hansı arqumentləri irəli sürərdiniz?
- ***Eksland hökumətinin və həbsxananın vəkili olaraq,*** həbsdə saxlanılan şəxslərin tələblərinə əməl etməməklə bağlı mövqeyinizə haqq qazandırmaq üçün hansı arqumentlərə söykənərdiniz?
- Siz ***müstəqil ekspertlər qrupunun*** üzvüsünüz. Bu qrupa Eksland hökuməti ilə uzun və çox gərgin müzakirələrdən sonra mübahisəli həbsxanalardakı durumu qiymətləndirmək üçün yerində araşdırma aparmasına nəhayət ki icazə verildi. Siz nə edərdiniz? Hökumətə, həbsxana rəhbərliyinə və aclıq edənlərə hansı təkliflər verərdiniz? Həbsdə saxlanılan şəxslərin təhlükəsizliyinin qorunmasının ən yaxşı yolu nədir?

[11] **Fasilitatora məsləhət:** Bu çalışmadan rol oyunu kimi də istifadə edilə bilər.

# C. Kazusla iş[12]

Bu kazus beynəlxalq monitorinq orqanlarından biri tərəfindən araşdırılan işin müvafiq faktları əsasında hazırlanıb və psixi problemi olan şəxslərin həbsi və tibbi müalicəsi ilə bağlı yarana biləcək spesifik problemlərdən bəhs edir. İddia edilən qurbanın, onun həbs olunduğu hospitalın, dövlətin adı və s. detallar uydurmadır.

## *I HİSSƏ: FAKTLAR*

1. George dələduzluq üstündə tutulur və ona qarşı ittiham irəli sürülür. O, dələduzluğun 18 ittihamı üzrə öz təqsirini etiraf edir və 738 bənzər hüquq pozuntusunun nəzərə alınmasını xahiş edir. Bu pozuntular Georgenin futbol totalizatorları və ya at yarışı mərclərini udmaq üçün uğurlu sistemlər işləyib hazırlaması barədə saxta iddialarından ibarətdir. O, ictimaiyyət üzvlərini bu sistemlər barədə məlumatı pulla almağa inandırıb. Qurbanlara dəyən ziyanın böyük hissəsi George tərəfindən ödənilir.

2. Məhkəmə prosesindən öncə George iki psixiatr tərəfindən yoxlanılır və onlar belə qənaətə gəlirlər ki, George paranoid şizofreniyadan əziyyət çəkir. Psixiatr A. müalicə ilə bağlı hər hansı xüsusi tövsiyə verməsə də, psixiatr B. ambulator müalicənin mümkünlüyünü qeyd edir və bildirir ki, ən yaxşı həll yolu Georgeni 3 ilə qədər ambulator və ya stasionar müalicə almasını təmin etməklə şərti məhkum etməkdir. Stadtoun həbsxanasında həbsdə olarkən George daha iki psixiatr tərəfindən müayinə edilir və onlar da paranoid şizofreniya diaqnozunu təsdiqləyirlər və eyni zamanda bildirirər ki, psixi pozuntunun təbiəti və ya dərəcəsi Georgenin psixi xəstəxanada həbsini şərtləndirir.

3. Stadtoun Rayon Məhkəməsi qərara alır ki, George Narrovmore Hospitalında həbsdə saxlanılmalıdır və onun həbsdən azad edilməsi Eksland Psixi Sağlamlıq Aktı ilə müddətsiz məhdudlaşdırılmalıdır. Məhkəmənin bu qərarından Georgenin şikayətləri heç bir fayda vermir. Məhkəmə azadlıqdan məhrumetməni əmələ görə cəza olaraq müəyyən etmir, belə ki, əsas məqsəd- Georgeni psixi xəstəliyinə görə müalicə etməkdir. Apellyasiya Məhkəməsi bildirir ki, zorakılıq tarixçəsi barədə etibarlı məlumat olmaması ilə razi olsa da, hər bir halda qərarın əsaslı olması qənaətinə gəlir, belə ki, George zorakılıq potensialı olan şəxs təsiri bağışlayıb.

4. Buna uyğun olaraq, George Narrovmore Hospitalına qəbul edilir. Bu hospital təhlükəli, zorakı və ya cinayətkar meylləri olan və xüsusi təhlükəsizlik şərtləri altında müalicəni şərtləndirən şəxslər üçün nəzərdə tutulub. George məmnun deyil, üstəlik onu başa düşən heç kəsi də tapmır. Müəyyən müddət hospitalda qaldıqdan sonra George öz işini beynəlxalq monitorinq orqanının diqqətinə yönəltmək qərarına gəlir. Qeyd edilən faktlar Georgenin həbsdə saxlanılma şərtləri ilə bağlı iddiaları barədədir. O, xüsusi olaraq iddia edir ki, tibbi müalicəsi onun işgəncədən, qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara məruz qalmamaq hüququnu pozub.

5. George təxminən 21 ay yatdığı yataqxanadakı dəhşətli sıxlıqdan şikayətlənir, belə ki, yataqxana basabas və soyuqdur. Bu müddətin 7 ayında yataqxanadakı vəziyyət xüsusilə pis olub. George özəl həyatının olmamasına və digər məhkumlar tərəfindən hücum qorxusuna görə məyusdur. Ən sonda ona tək otaq verilir.

12 **Fasilitatora məsləhət: Bu kazus iştirakçılara xeyli əvvəlcədən verilməlidir ki, onların cavab hazırlamaq üçün yetərincə zamanı olsun. Kazus, həmçinin, rol oyunu kimi hazırlana bilər.**

6. George hesab edir ki, Narrovmore-da olduğu əksər vaxt anlaqlı olub və buna görə də, ona təklif edilən müalicədən daima imtina edib. O şikayət edib ki, müalicəyə ehtiyacının olması səbəbləri, hansı müalicəni almalı olması (dəqiq şəkildə) və belə müalicənin mümkün fəsadları barədə ona nəsə deyilməyib. George bildirir ki, müalicə təklifi onun müalicəyə ehtiyacının olmasını göstərməklə psixiatrlar tərəfindən öz reputasiyalarını qorumaq üçün sadəcə bir cəhd idi.

7. Georgenin ona məsul can həkimi ilə çox pis münasibəti var, eləcə də valideynləri ilə uzun müddətdir ki, münasibətləri pozulub. Digər tərəfdən də, Georgenin məsul psixiatrı və Narrovmore-ın heyəti ilə münasibətləri pisdir. George həbsinə görə psixiatrını günahkar sayır, çünki onun məhkəmədə verdiyi ifadə Georgenin əleyhinə işləyir. Belə olduğu təqdirdə könüllü əsasla hər hansı xüsusi müalicənin aparılması mümkün deyil. Məsul psixiatr George ilə danışmaq üçün çox az zaman sərf edir və Narrovmore rəhbərliyi ona yeni psixiatr təyin etməyə və onların əməkdaşlığına nail olmağa hər hansı cəhd göstərmir.

8. Beynəlxalq monitorinq orqanları qarşısında icraatlarla əlaqədar olaraq, George yenidən iki psixiatr tərəfindən müayinə edilir. Həkim V. bildirir ki, Georgenin hospitalda davranışını və dərman müalicəsində olmamasını nəzərə alaraq, onun paranoid şizofreniyadan əziyyət çəkməsi az ehtimaldır; o, xüsusi hospitaldan kənarda uyğun müalicə ilə sağaldılan şəxsiyyət pozğunluğundan əziyyət çəkir. Digər tərəfdən, həkim S. hesab edir ki, George ən yaxşı müalicəni ənənəvi psixiatrik hospitalda ala bilər. Narrovmore Hospitalında pis şərtlər altında təxminən 4 ilini keçirəndən sonra George Broun Hospitalına köçürülür. Orada George onu bir neçə il öncə müayinə edən həkim B.-nin nəzarətinə verilir. Georgeyə hospitaldan uzadılmış məzuniyyət verilir və o, evinə qayıdır. Həkim B. psixi xəstəliyin hər hansı əlamətini tapmır və onun rəyinə görə, George evə qayıtdıqdan sonra yaxşılaşır və xeyli şən və gümrah görünür.

## *II HİSSƏ: SUALLAR*

9. Siz ***Georgenin vəkillərisiniz***: Georgenin işini, xüsusilə də tibbi müalicəsinin onun beynəlxalq hüquqla müəyyən edilən işgəncəyə və ya qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və cəzaya məruz qalmamaq hüququnun pozulmasına gətirib çıxarması iddiasını beynəlxalq monitorinq orqanları qarşısında necə mübahisələndirərdiniz?

10. Georgenin Narrowmore-da azadlıqdan məhrum edilməsi, təkadamlıq kameraya salınması, onun müalicəsi və ya müalicənin aparılması hansı mənada onun insan huquqlarını pozur, əgər pozursa?

11. Siz ***cavabdeh Dövləti təmsil edirsiniz***: Georgenin həbsini və ya Narrowmore-da məruz qaldığı rəftarı müdafiə etmək üçün hansı arqumentlərə söykənərdiniz?

12. Siz işə baxan yerli hakimsiniz: Necə qərara çıxarardınız? İzah edin.

13. İşgəncəyə və ya qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və cəzaya məruz qalmamaq hüququ təkcə fiziki zorakılığı deyil, həmçinin rəftarın başqa növlərini, yaxud rəftarın olmamasını, məsələn, səhlənkarlıq və ya problemin həll edilməməsini əhatə etməklə genişləndirilə bilərmi?

14. Psixi sağlamlıq problemi olan xəstə öz şəraitini anlamamağa görə məsuliyyət daşıya bilərmi? Əgər xəstə ehtiyac duyduğu müalicədən inadkarcasına imtina edirsə, müvafiq can həkimi bu hala görə məsuliyyət daşıyırmı?

15. Georgenin 21 ay yatmaq məcburiyyətində olduğu və heç bir özəl həyatının olmadığı və digər xəstələr tərəfindən hücum qorxusu yaşadığı dar yataqxana barədə şikayətinə münasibətiniz necədir? Bu şərait Sizin düşüncənizdə qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya Georgenin özəl həyatına hörmət hüququnun pozuntusunu təşkil edirmi?

16. Georgenin işi ilə məşğul olan beynəlxalq monitorinq orqanının üzvü kimi Sizin qərarınız necə olardı? Arqumentlərinizi təqdim edin.

## D. Paylama materialları (CD-ROM-a baxın)

1. Məhkumlarla Rəftara dair Standart Minimum Qaydalar, 1955 (fasilitator tərəfindən təmin ediləcək)

2. Məhkumlarla Rəftarın Əsas Prinsipləri, 1990

3. Bütün İnsanların Həbs və ya Məhkumluğun hər hansı forması zamanı Müdafiəsi üçün Rəhbər Prinsiplər, 1988

4. Psixi Xəstəlikləri olan Şəxslərin Müdafiəsi və Psixi Sağlamlığın Gücləndirilməsi Prinsipləri, 1991

# 9-cu fəsil
# ƏDALƏT MÜHAKİMƏSİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ HƏBSLƏ BAĞLI OLMAYAN QƏTİMKAN TƏDBİRLƏRİNİN TƏTBİQİ

## Mündəricat


I. FASİLİTATORLAR ÜÇÜN QEYD..........................................86

II. ƏSAS HÜQUQİ MƏNBƏ................................................86

III. FƏSLİN/SESSİYANIN MƏQSƏDİ…………….. ............................87

IV. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR...........................................87

V. 9-CU FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ………………………………………………………...........88

VI. TƏLİM MATERİALLARI .........................................................89

- A. Kompüter slaydları...................................................................89
- B. Çalışma ............................................................................................90
- C. Rol oyunu .........................................................................................90
- D. Paylama materialları...............................................................91

# I. FASİLİTATORLAR ÜÇÜN QEYD

Vəsaitin 9-cu fəsli əsas etibarilə Baş Assambleya tərəfindən 1990-cı ildə qəbul edilmiş Tokio Qaydaları adlanan Birləşmiş Millətlər Təşkilatının Həbslə bağlı olmayan Qətimkan tədbirləri üçün Standart Minimum Qaydalarında müəyyən edilən həbslə bağlı olmayan qətimkan tədbirlərinin həbsə alternativ tətbiqindən bəhs edir. Bu fəsil həbslə bağlı olmayan qətimkan tədbirlərinin məqsədini və Tokio qaydalarını izah edən qısa girişin ardınca istifadə edilən terminologiyaya və həbslə bağlı olmayan qətimkan tədbirləri ilə bağlı ümumi prinsiplərə, eləcə də məhkəmə prosesinin müxtəlif mərhələlərində olan qeyri-həbs imkanlarına və belə tədbirlərin icrasına aydınlıq gətirir. Bu, hakimlərin, prokurorların və vəkillərin azadlıqdan məhrumetməyə adekvat alternativləri tapmasında önəmli rollarını vurğulayır. Qeyd etmək lazımdır ki, həbslə bağlı olmayan qətimkan tədbirlərinin uşaqlara münasibətdə tətbiqi 10-cu fəsildə nəzərdə tutulub və orada uşaqlarla bağlı spesifik qaydalar göstərilib.

Məhkəməyədək icraat mərhələsində həbslə bağlı olmayan qətimkan tədbirlərinin Tokio Qaydalarında müəyyən edilməsinə baxmayaraq, İnsan Hüquqları Komitəsi əlavə olaraq qeyd edib ki, "…məhkəməsini gözləyən şəxslərin həbsə salınması ümumi qayda olmamalıdır… məhkəməyədək həbs istisna olmalıdır və... təqsirləndirilən şəxsin qaçması və ya sübutları məhv etməsi, eləcə də şahidlərə təsir etmə və ya üzv dövlətin yurizdiksiyasından qaçma ehtimalı olan hallar istisna olmaqla, girovun tətbiqi təmin edilməlidir. Təqsirləndirilən şəxsin əcnəbi olması faktı özlüyündə onun məhkəməyə qədər həbsdə saxlanılmasının zərurəti anlamına gəlməməlidir."[13]

# II. ƏSAS HÜQUQİ MƏNBƏLƏR

9-cu fəsil aşağıdakı hüquqi sənədlərə əsaslanır:

- Birləşmiş Millətlər Təşkilatının Həbslə bağlı olmayan Qətimkan tədbirləri üçün Standart Minimum Qaydaları (Tokio Qaydaları), 1990
- Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, 1966
- Cinayət və Hakimiyyətdən Sui-istifadə Qurbanları üçün Ədalət Mühakiməsinin Əsas Prinsipləri Bəyannaməsi, 1985

[13] Views of 2 April 1997, Communication No. 526/1993, *Michael and Brian Hill* v. *Spain*, para. 12.3.

# III. FƏSLİN/SESSİYANIN MƏQSƏDLƏRİ

9-cu fəslin məqsədləri aşağıdakılardır:

- İştirakçıları həbslə bağlı olmayan qətimkan tədbirlərinin tətbiqini təbliğ edən mövcud beynəlxalq standartlarla tanış etmək;
- Həbslə bağlı olmayan qətimkan tədbirlərinin məqsədini və ədalət mühakiməsinin həyata keçirilməsinin müxtəlif mərhələlərində onların tətbiqini izah etmək;
- Həbslə bağlı olmayan hansı qətimkan tədbirlərinin peşə məsuliyyəti kontekstində faydalı ola biləcəyini müəyyən etməkdə iştirakçılara yardım etmək;
- İştirakçıları həbslə bağlı olmayan qətimkan tədbirlərinin tətbiqi ilə əlaqədar hüquqi müdafiə ilə tanış etmək;
- İştirakçıları həbslə bağlı olmayan qətimkan tədbirlərinin şərtləri ilə uyğunsuzluğun nəticələri ilə tanış etmək;
- İştirakçıları təqsirkarların ehtiyaclarını və problemlərini, eləcə də onları cəzalandırmanın ən adekvat yolunu müəyyənləşdirmədə önəmli rolları barədə məlumatlandırmaq.

# IV. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR

9-cu fəsildə beynəlxalq hüquq qaydalarının işığında toxunulacaq əsas məqamlar və iştirakçılarla müzakirə ediləcək başlıca məsələlər aşağıdakılardır:

- İştirakçıların çalışdığı ölkədə həbsə alternativlər və tətbiq olunduğu cinayət əməllərinin dairəsi;
- İştirakçılar hakim, prokuror və ya vəkil kimi həbslə bağlı olmayan qətimkan tədbirləri barədə məsləhətləşiblərmi və ya tətbiq ediblərmi;
- İştirakçılar hansı durumlarda bunun edilməsini xüsusilə faydalı sayırlar;
- İştirakçıların fikrincə, həbslə bağlı olmayan qətimkan tədbirlərinin tətbiqindən daha çox yararlanan şəxslər və ya şəxslər qrupu varmı?
- Əgər varsa, iştirakçılardan xahiş edin ki, bu şəxsləri və ya şəxslər qrupunu müəyyən etsinlər və nə üçün məhz onların azadlıqdan məhrumetməyə alternativ qətimkan tədbirlərindən yararlandıqlarını izah etsinlər;
- İştirakçıların çalışdığı ölkədə həbslə bağlı olmayan qətimkan tədbirlərlərinin tətbiqi ilə bağlı mövcud hüquqi təminatlar;
- İştirakçıların çalışdığı ölkədə həbslə bağlı olmayan qətimkan tədbirlərinin şərtlərinin pozulmasına görə sanksiyalar;
- İştirakçıların öz peşə vəzifələrini həyata keçirdikləri ölkələrdə həbslə bağlı olmayan qətimkan tədbirlərinin tətbiqinə təsiri və bunun inkişaf yolu;
- Cinayət əməllərinə görə tətbiq edilən həbslə bağlı və həbslə bağlı olmayan qətimkan tədbirlərinin tətbiqinin müsbət və mənfi cəhətləri.

# V. 9-CU FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ

| Başlıca məqamlar/fəaliyyət | Metod | Media | Zaman |
|---|---|---|---|
| 1. 9-cu fəslin məqsədləri | Təqdimatlar | Kompüter slaydları, kağız lövhə | 5 dəqiqə |
| 2. Kursun təqdimatı: Vəsaitin 9-cu fəslinə və yuxarıdakı III and IV bölmələrdəki əsas məqamlara əsasən, komanda aşağıdakı məsələlərlə bağlı təqdimat edir:<br>a. həbslə bağlı olmayan qətimkan tədbirləri ilə əlaqədar ümumi prinsiplər;<br>b. məhkəmə prosesinin müxtəlif mərhələlərində həbslə bağlı olmayan qətimkan tədbirləri;<br>c. həbslə bağlı olmayan qətimkan tədbirlərinin icrası;<br>d. azadlıqdan məhrumetməyə alternativin seçilməsində hüquq peşələrinin rolu;<br>e. qruplarda işin bölüşdürülməsi. | İnteraktiv təqdimatlar | Kompüter slaydları, kağız lövhə, özüyapışan kağız, standart və prinsipləri özündə ehtiva edən paylama materialları | 30 dəqiqə |
| 3. Kazus və ya çalışma üzərində qruplarda iş | | kağız lövhə, özüyapışan kağız və s. | 25 dəqiqə |
| 4. Qruplar kazus və ya çalışma ilə bağlı təqdimat edirlər | | Kağız lövhə və s. zəruri vəsait | 25 dəqiqə |
| | | | **Ümumi: 1 saat 25 dəq.** |

# VI. TƏLİM MATERİALLARI

## A. Kompüter slaydları (CD-ROM-a baxın)

1. Öyrənmə məqsədləri I
2. Öyrənmə məqsədləri II
3. Suallar I
4. Suallar II
5. Suallar III
6. Müvafiq hüquqi standartlar və qaydalar
7. Ümumi prinsiplər I: Həbslə bağlı olmayan qətimkan tədbirlərinin əsas məqsədləri (1)
8. Ümumi prinsiplər II: Həbslə bağlı olmayan qətimkan tədbirlərinin əsas məqsədləri (2)
9. Ümumi prinsiplər III: Həbslə bağlı olmayan qətimkan tədbirlərinin əhatə dairəsi (1)
10. Ümumi prinsiplər IV: Həbslə bağlı olmayan qətimkan tədbirlərinin əhatə dairəsi (2)
11. Ümumi prinsiplər V: Həbslə bağlı olmayan qətimkan tədbirlərinin əhatə dairəsi (3)
12. Ümumi prinsiplər VI: Hüquqi təminatlar (1)
13. Ümumi prinsiplər VII: Hüquqi təminatlar (2)
14. Ümumi prinsiplər VIII: Hüquqi təminatlar (3)
15. Həbslə bağlı olmayan qətimkan tədbirlərinin tətbiqi
16. Məhkəməyədək icraat zamanı həbslə bağlı olmayan qətimkan tədbirləri
17. Məhkəmə və cəza təyini mərhələsində həbslə bağlı olmayan qətimkan tədbirləri I
18. Məhkəmə və cəzanın verilməsi mərhələsində həbslə bağlı olmayan qətimkan tədbirləri II
19. Məhkəmə və cəzanın verilməsi mərhələsində həbslə bağlı olmayan qətimkan tədbirləri III
20. Cəza təyinindən sonrakı mərhələdə həbslə bağlı olmayan qətimkan tədbirləri I

21. Cəza təyinindən sonrakı mərhələdə həbslə bağlı olmayan qətimkan tədbirləri II

22. Həbslə bağlı olmayan qətimkan tədbirlərinin icrası I: Nəzarət (1)

23. Həbslə bağlı olmayan qətimkan tədbirlərinin icrası II: Nəzarət (2)

24. Həbslə bağlı olmayan qətimkan tədbirlərinin icrası III: Müddət

25. Həbslə bağlı olmayan qətimkan tədbirlərinin icrası IV: Şərtlər (1)

26. Həbslə bağlı olmayan qətimkan tədbirlərinin icrası V: Şərtlər (2)

## B. Çalışma

d ***Çalışma 1***

Fərdi, yaxud təxminən 5 nəfərdən ibarət kiçik qruplara bölməklə iştirakçılara təxminən 20-30 dəqiqə zaman ayırın və 9-cu fəsildə müzakirə edilən həbsə alternativ qətimkan tədbirləri və onların fəaliyyət göstərdiyi hüquq sistemində həmin alternativlərin tətbiqi mövzusunun müzakirəsini təmin edin. İştirakçılar daha yaxşı olardı ki, aşağıdakı mövzuları əhatə etsinlər:

- Həbslə bağlı olmayan qətimkan tədbirlərinin ümumi müsbət və mənfi cəhətləri;
- İştirakçıların peşə vəzifələrini yerinə yetirdikləri ölkələrdə belə tədbirlərin (əgər varsa) müsbət və mənfi cəhətləri;
- İştirakçıların çalışdıqları ölkədə həbslə bağlı olmayan qətimkan tədbirlərindən istifadə necə inkişaf etdirilə bilər və/və ya ümumiyyətlə onların tətbiqi necə daha çox səmərə verə bilər;
- Həbs əvəzinə həbslə bağlı olmayan qətimkan tədbirlərinin və ya hər ikisinin seçilməsi yolu ilə xüsusilə qatı cinayətkara necə yardım etmək olar.

## C. Rol oyunu (eləcə də 10-cu fəsillə bağlı istifadə edilə bilər)[14]

Antoninin 19 yaşı var, Stadtounun kasıb ərazisində dağılmış bina evində anası və kiçik qardaşı ilə yaşayır. Onun yaşadığı binanın pilləkənlərində narkotik satan alverçilərə rast gəlmək qeyri-adi hal deyil. Yayda Antoni bir neçə dəfə Stadtoun supermarketindən CD və elektron oyunlar oğurlayaraq aradan çıxmağa müvəffəq olub. Bununla belə, o, ödəniş etmədən supermarketi tərk etmək istəyərkən bir gün yaxalanır;

[14] **Fasilitatora məsləhət:** Bu rol oyunu qeyd edilən işə əsaslanır: Eva Joly öz kitabında *Notre affaire à tous* (Paris, Éditions les Arènes, 2000), s. 74. Bu, müxtəlif formalarda dəyişdirilə bilər. İştirakçılar yaxşı olar ki, işin nəticəsini özləri tapsınlar: (1) Antoninin oğurluq və yüngül narkotik cinayətlərinə görə məhkumluğu var idi; yaxud (2) Antoninin ağır cinayətə görə məhkumluğu var idi.

supermarketin direktoru ilə uzun və qızmar mübarizədən sonra Antonini polisə vermək qərara alınır. Qeyd edək ki, Antoninin əvvəllər qanunla hər hansı problemi olmayıb.

Antoninin anası bu xəbərdən çox sarsılır. Çətin duruma baxmayaraq, oğluna yaxşı həyat vermək cəhdləri boşuna gedib.

Prokuror cinayətin qarşısını almaq və hüquqa hörməti təbliğ etmək zərurətinə əsaslanaraq, işi davam etməyə qərar verir. Rayon məhkəməsində dinləmə üçün təyin olunan vaxt nəhayət ki yetişir. Antoni çox üzülmüş formada məhkəməyə gəlir. Onun anası göz yaşları içindədir.

1. Siz Antoninin ***vəkilisiniz***:

   - Antoninin adından arqumentlər irəli sürün; tətbiq edilməli olan müvafiq standartlara istinad edin.
   - Antoniyə münasibətdə hansı həbslə bağlı olmayan qətimkan tədbir(lər)inin uyğun və faydalı olması ilə bağlı konstruktiv təkliflər edin və nəzarətin necə təşkil edilməli olmasını izah edin; ehtimal edin ki, siz belə alternativləri artıq öz müştərinizlə (və onun anası ilə) müzakirə etmisiniz.

2. Siz işin istintaqını aparan ***prokurorsunuz***:

   - ***Ssenari 1:*** Siz bütün növ cinayətkar fəaliyyətə son qoymaq üçün əlinizdən gələni etməkdə və insanları qanunu pozmaqdan çəkindirməkdə qərarlısınız; cinayət hüququnun sərt tətbiqi baxımından bu işi mübahisələndirin;
   - ***Ssenari 2:*** Siz bütün növ cinayətkar fəaliyyətə son qoymaq üçün əlinizdən gələni etməkdə və insanları qanunu pozmaqdan çəkindirməkdə qərarlısınız; ən nəhayət, bu, sizin vəzifənizdir! Siz vəziyyətin həm Antoniyə, həm də onun anasına təsirini görürsünüz və anlayırsınız ki, işi məhkəməyə göndərsəniz, səhvə yol vermiş ola bilərsiniz; sizin hələ də hərəkət seçiminiz var: nə edə biləcəyinizi təsəvvür edin və mümkünsə, müvafiq beynəlxalq standartlara istinad edin;

3. Siz ***məhkəmə iclasında sədrlik edən hakimsiniz***:

   - ***Prokurorun*** iş üzrə yanaşmasından və ***vəkilin*** müdafiə arqumentlərindən asılı olaraq, öz fikrinizi/qərarınızı/mühakimənizi irəli sürün; əsaslandırın və beynəlxalq standartlara istinad edin.

## D. Paylama materialları (CD-ROM-a baxın)

1. Birləşmiş Millətlər Təşkilatının Həbslə bağlı olmayan Qətimkan tədbirləri üçün Standart Minimum Qaydaları (Tokio qaydaları), 1990
2. Mülki və Siyasi Hüquqlar haqqında Beynəxlaq Pakt, 1966 (fasilitator tərəfindən təmin edilir)
3. Cinayət və Hakimiyyətdən Sui-istifadə Qurbanları üçün Ədalət Mühakiməsinin Əsas Prinsipləri Bəyannaməsi, 1985.

# 10-CU FƏSİL
## ƏDALƏT MÜHAKİMƏSİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ UŞAQ HÜQUQLARI

## Mündəricat


I. FASİLİTATORLAR ÜÇÜN QEYD ........................................94

II. ƏSAS HÜQUQİ MƏNBƏLƏR........................................94

A. Universal mexanizmlər ..................................................94

B. Regional mexanizmlər........................................................95

III. FƏSLİN/SESSİYANIN MƏQSƏDLƏRİ........... ............................95

IV. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR..........................................96

V. 10-CU FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ..........................................................97

VI. TƏLİM MATERİALLARI ......................................................98

A. Kompüter slaydları ..............................................................98

B. Çalışma .....................................................................100

C. Müzakirə mövzusu..............................................................100

D. Rol oyunu........................................................................100

E. Kazusla iş ........................................................................101

F. Paylama materialları ..........................................................103

# I. FASİLİTATORLAR ÜÇÜN QEYD

Vəsaitin 10-cu fəsli geniş mənada ədalət mühakiməsinin həyata keçirilməsində uşaq hüquqları ilə bağlı bəzi beynəlxalq hüquqi standartları izah edir. Bu səbəbdən, bu fəsil təkcə yuvenal (cinayət) ədliyyəni deyil, eləcə də ayırma və övladlığa götürmə ilə bağlı məhkəmə icraatını da əhatə edir.

Ədalət mühakiməsinin həyata keçirilməsində uşaqlarla bağlı narahatçılıqların qısa izahından sonra 10-cu fəsil Uşaq Hüquqları haqqında Konvensiyanın nəzərdə tutduğu mənada "uşaq" anlayışını və geniş mənada ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsiplərini müəyyən edir. Burada, həmçinin, yuvenal ədliyyənin məqsədləri və yuvenal ədliyyə sistemi yaratmaq öhdəliyindən müzakirə edilir.

10-cu fəsil ədalət mühakiməsinin həyata keçirilməsi gedişində təqsirləndirilən, azadlıqdan məhrum edilən uşağın hüquqlarını, yetkinlik yaşına çatmayan şəxslərə tətbiq edilən cəzalara məhdudiyyətləri, tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiqi məsələsini təsvir edir. Burada məhkəmə icraatında uşağın qurban və ya şahid kimi vəziyyətindən bəhs edilir- uşaqların həssas təbəqə olması nəzərə alındığından, son zamanlar bu məsələyə diqqət artıb.

Nəhayət, 10-cu fəsil uşağın valideynlərindən ayrılması və övladlığa götürmə prosesində uşaq hüquqları məsələlərini qısaca təsvir edir. Bu fəsil ədalət mühakiməsinin gedişi zamanı uşaq hüquqlarının təmin edilməsində hakimlərin, prokurorların və vəkillərin rolu barədə qısa bölmə ilə tamamlanır.

# II. ƏSAS HÜQUQİ MƏNBƏLƏR

10-cu fəsil aşağıdakı hüquqi sənədlərə əsaslanır:

## A. Universal mexanizmlər

- Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, 1966
- Uşaq hüquqları haqqında Konvensiya, 1989
- Uşaq Hüquqları haqqında Konvensiyaya Uşaq Ticarəti, Uşaq Fahişəliyi və Uşaq Pornoqrafiyası barədə Əlavə Protokol, 2000
- Uşaq Hüquqları haqqında Konvensiyaya Uşaqların Silahlı Münaqişələrə Cəlb Edilməsi barədə Əlavə Protokol, 2000

*****

- Uşaq Hüquqları haqqında Bəyannamə, 1959
- Beynəlxalq Uşaq Oğurluğunun Mülki Aspektləri haqqında Haaqa Konvensiyası, 1980
- Bütün İnsanların Məcburi Yoxaçıxmadan Müdafiəsi haqqında Bəyannamə, 1992
- Bütün İnsanların Məcburi Yoxaçıxmadan Müdafiəsi haqqında Beynəlxalq Konvensiya, 2006
- Birləşmiş Millətlər Təşkilatının Yetkinlik Yaşına Çatmayanların Ədalət Mühakiməsinin həyata keçirilməsi barədə Standart Minimum Davranış Qaydaları (Pekin Qaydaları), 1985
- Birləşmiş Millətlər Təşkilatının Azadlıqdan Məhrum edilmiş Yetkinlik Yaşına Çatmayanların Müdafiəsi üzrə Qaydaları, 1990
- Birləşmiş Millətlər Təşkilatının Yetkinlik Yaşına Çatmayanlar tərəfindən törədilən hüquq pozuntularının qarşısının alınması barədə Rəhbər Qaydaları (Riyad Qaydaları), 1990
- Uşaqların xüsusilə tərbiyəyə verilməsi, eləcə də milli və beynəlxalq səviyyədə övladlığa götürülməsi zamanı Uşaqların Müdafiəsi və Rifahı ilə bağlı Sosial və Hüquqi Prinsiplər barədə Bəyannamə, 1986
- Cinayət Mühakimə icraatında Uşaqlarla bağlı Fəaliyyət barədə Rəhbər Müddəalar, İqtisadi və Sosial Şuranın yuvenal ədliyyənin həyata keçirilməsi haqqında 1997/30 saylı qərardadına əlavə (Vyana Rəhbər Qaydaları)
- Bütün İnsanların Həbs və ya Məhkumluğun hər hansı Forması zamanı Müdafiəsi üçün Rəhbər Prinsiplər, 1988

## B. Regional mexanizmlər

- İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyası, 1981
- Uşaq Hüquqları və Rifahı haqqında Afrika Xartiyası, 1990
- Amerika İnsan Hüquqları Konvensiyası, 1969
- İnsanların Məcburi Yoxaçıxmaları haqqında İnter-Amerika Konvensiyası, 1994
- Uşaqların Beynəlxalq Qaytarılması haqqında İnter-Amerika Konvensiyası, 1989
- Avropa İnsan Hüquqları Konvensiyası, 1950
- Avropa Şurasının Nazirlər Komitəsinin Yetkinlik Yaşına Çatmayanlar tərəfindən törədilən Hüquq Pozuntularına Sosial Reaksiyalar barədə Üzv Dövlətlərə R (87) 20 saylı Tövsiyəsi

# III. FƏSLİN/SESSİYANIN MƏQSƏDLƏRİ

10-cu fəslin məqsədləri aşağıdakılardır:

- İştirakçıları ədalət mühakiməsinin həyata keçirilməsində uşaq hüquqları ilə bağlı beynəlxalq hüquqi qaydalarla və onların əsas məqsədləri ilə tanış etmək;
- Ədalət mühakiməsinin həyata keçirilməsində yetkinlik yaşına çatmayan şəxslərə verilməli olan prosedur təminatları müəyyən etmək;
- İştirakçıları uşaqlara münasibətdə ədalət mühakiməsinin həyata keçirilməsi zamanı bu hüquq və təminatları müntəzəm olaraq tətbiq etmələrinə həvəsləndirmək.

# IV. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR

10-cu fəsildə müəyyən edilən beynəlxalq hüquqi qaydaların işığında toxunulacaq əsas məqamlar və iştirakçılarla müzakirə ediləcək başlıca məsələlər aşağıdakılardır:

- İştirakçılar ədalət mühakiməsinin həyata keçirilməsi zamanı uşaqlar və yetkinlik yaşına çatmayan şəxslərlə bağlı hansı problemlərlə üzləşiblər və bu problemləri həll etmək üçün hansı səylər göstəriblər;
- Qarşıya çıxan problemləri həll etmək üçün onlar beynəlxalq hüquqi qaydalara, məsələn, Uşaq Hüquqları haqqında Konvensiyaya istinad ediblərmi;
- İştirakçıların çalışdığı ölkələrdə Uşaq Hüquqları haqqında Konvensiyanın hüquqi statusu və Konvensiyanın hüquqi təsiri;
- İştirakçıların çalışdığı ölkələrdə uşağın "ən üstün maraqları" anlayışı mövcuddurmu və əgər mövcuddursa, bu nə deməkdir və bu necə tətbiq edilir;
- İştirakçıların çalışdığı ölkələrdə uşağın onunla bağlı qərarlar zamanı iştirakının icazə verilən həddi; cinayət, ayrılma və övladlığa götürmə prosesləri aspektlərində vəziyyət araşdırılmalıdır;
- İştirakçıların çalışdığı ölkələrdə cinayət məsuliyyətinə cəlb etmək üçün yaş həddi;
- İştirakçıların çalışdığı ölkələrdə 18 yaşdan aşağı şəxslər həbs oluna bilərmi; uşaqlar və ya yetkinlik yaşına çatmayan şəxslər tərəfindən törədilən pozuntulara görə həbslə bağlı olmayan qətimkan tədbirlərinin tətbiqi imkanlarını müzakirə edin;
- Yetkinlik yaşına çatmayan şəxslər tərəfindən törədilən pozuntulara cavab olaraq cinayət ədalət prosedurlarından ictimai işlərə və ya qeyri-müdaxiləyə keçidin mümkünlüyü;
- Yetkinlik yaşına çatmayan hüquq pozucularının işlərini apararkən sosial yenidəntəhsil və psixoloji qayğı tədbirlərinin səmərəliliyi; çalışın ki, iştirakçılar əsas mövcud problemləri və potensial həll yollarını müəyyən etsinlər;
- İştirakçıların çalışdıqları ölkələrdə uşağın öz valideynindən ayrılmasının qanuni əsasları;
- İştirakçıların çalışdıqları ölkələrdə milli və ya ölkələrarası övladlığa götürməyə icazə verilirmi; əgər icazə verilirsə, övladlığa götürülməsinin arzuolunanlığı məsələsində uşağın öz fikrini bildirmək hüququnu, eləcə də sui-istifadələrdən qorunmaq üçün mövcud prosedur təminatları müzakirə edin;
- İştirakçıların çalışdığı ölkələrdə hüquq peşələrini Uşaq Hüquqları haqqında Konvensiya və digər müvafiq hüquqi mexanizmlərdə əks edilən hüquqi prinsiplərlə tanış etmək üçün həyata keçirilməli olan tədbirlər.

# V. 10-CU FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ

| Başlıca məqamlar/fəaliyyət | Metod | Media | Zaman |
|---|---|---|---|
| 1. 10-cu fəslin məqsədləri | Təqdimat | Kompüter slaydları, kağız lövhə | 5 dəqiqə |
| 2. Kursun təqdimatı: Vəsaitin 10-cu fəsli, eləcə də yuxarıdakı III və IV bölmədəki məsələlər əsasında komanda aşağıdakılarla bağlı əsas məqamları hazırlayır:<br>a. uşağın anlayışı;<br>b. ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri;<br>c. yuvenal ədliyyənin məqsədləri və yuvenal ədliyyə sistemi yaratmaq vəzifəsi;<br>d. təqsirləndirilən uşaq və ədalət mühakiməsinin həyata keçirilməsi;<br>e. uşaq və azadlıqdan məhrumetmə. | İnteraktiv təqdimatlar | Kompüter slaydları, kağız lövhə, özüyapışan kağız, standart və prinsipləri özündə əks etdirən paylama materialları | 40 dəqiqə |
| 3. Dincəliş | | | 5 dəqiqə |
| 4. Təqdimatlar davam edir:<br>f. cinayət sanksiyaları və tərbiyəvi xarakterli tədbirlər;<br>g. uşaq qurban və şahid qismində;<br>h. uşaq və valideynlərindən ayrılma;<br>i. uşaq hüquqları və övladlığa götürmə prosesi. | İnteraktiv təqdimatlar | Kompüter slaydları və paylama materialları (yuxarıdakı kimi) | 35 dəqiqə |
| 5. Qruplara bölünmə; kazus və ya digər çalışmanın izahı və təqdimat proseduru, kazusun paylanılması | | Kazusla iş və ya digər çalışma | 10 dəqiqə |
| 6. Nahar fasiləsi | | | 60 dəqiqə |
| 7. Kazus və ya digər çalışma üzərində qrup işi | | kağız lövhə, özüyapışan kağız (zərurət olarsa) | 45 dəqiqə |
| 8. Dincəliş | | | 5 dəqiqə |

| | | | |
|---|---|---|---|
| 9. Təqdimat | Qruplar kazus və ya digər çalışma ilə bağlı təqdimat edirlər. Təqdimat komandaları çalışmalıdır ki, əsas məqamlar anlaşılsın. | Kağız lövhə və s. (zərurət olarsa) | 35 dəqiqə |
| | | | Ümumi iş vaxtı:<br>3 saat |

# VI. TƏLİM MATERİALLARI

## A. Kompüter slaydları (CD-ROM-a baxın)

1. Öyrənmə məqsədləri
2. Suallar I
3. Suallar II
4. Suallar III
5. Suallar IV
6. Müvafiq hüquqi mexanizmlər I: Universal mexanizmlər (1)
7. Müvafiq hüquqi mexanizmlər II: Universal mexanizmlər (2)
8. Müvafiq hüquqi mexanizmlər III: Regional mexanizmlər
9. Uşağın anlayışı
10. Mülki-hüquqi və cinayət-hüquqi məsuliyyət üçün yaş həddi I
11. Mülki-hüquqi və cinayət-hüquqi məsuliyyət üçün yaş həddi II
12. Əsas prinsip № 1: Qeyri-ayrıseçkilik
13. Əsas prinsip № 2: Uşağın ən üstün maraqları
14. Əsas prinsip № 3: Uşağın yaşamaq, sağ qalmaq və inkişaf etmək hüququ
15. Əsas prinsip № 4: Uşağın dinlənilmək hüququ
16. Əsas prinsiplər: İcmal
17. Yuvenal ədliyyənin məqsədləri
18. Yuvenal ədliyyə sisteminin yaradılması vəzifəsi
19. Təqsirləndirilən uşaq və ədalət mühakiməsinin həyata keçirilməsi I: İşgəncədən azad olunmaq hüququ
20. Təqsirləndirilən uşaq və ədalət mühakiməsinin həyata keçirilməsi II: Uşaqla ümumi rəftar

21. Təqsirləndirilən uşaq və ədalət mühakiməsinin həyata keçirilməsi III: Bir sıra əsas prosedur hüquqlar (1)

22. Təqsirləndirilən uşaq və ədalət mühakiməsinin həyata keçirilməsi IV: Bir sıra əsas prosedur hüquqlar (2)

23. Təqsirləndirilən uşaq və ədalət mühakiməsinin həyata keçirilməsi V: Bir sıra əsas prosedur hüquqlar (3)

24. Uşaq və azadlıqdan məhrumetmə: Bu nə deməkdir

25. Uşaq və azadlıqdan məhrumetmə: Bir sıra əsas prinsiplər I

26. Uşaq və azadlıqdan məhrumetmə: Bir sıra əsas prinsiplər II

27. Uşaq və azadlıqdan məhrumetmə: Bir sıra əsas prinsiplər III

28. Uşaq və azadlıqdan məhrumetmə: Bir sıra əsas prinsiplər IV

29. Uşaq hüquqları və cinayət sanksiyaları

30. Təqsirləndirilən uşaq və cinayət məsuliyyətinin əvəzlənməsi məsələsi: Dövlətlərin vəzifələri

31. Cinayət məsuiyyətini əvəzləyən tərbiyəvi xarakterli məcburi tədbirlər: Üç əsas qayda

32. Uşaq qurban şəxs və/və ya şahid qismində I

33. Uşaq qurban və/və ya şahid qismində II

34. Uşaq qurban və/və ya şahid qismində III

35. Uşaq-valideyn ayrılığı: Əsas qaydalar I

36. Uşaq-valideyn ayrılığı: Əsas qaydalar II

37. Uşaq hüquqları və övladlığa götürmə prosesi: Əsas qaydalar I

38. Uşaq hüquqları və övladlığa götürmə prosesi: Əsas qaydalar II

39. Uşaq hüquqları və ölkədaxili övladlığa götürmələr

## B. Çalışma

Fərdi, yaxud 4-6 nəfərdən ibarət qruplara bölməklə iştirakçılara təxminən 20-30 dəqiqə zaman ayırın və 10-cu fəsildə müzakirə edilən sual və məsələləri uşaq hüquqları və onların müvafiq milli hüquq sistemlərində ədalət mühakiməsinin həyata keçirilməsi çərçivəsində analiz etmələrini təmin edin. İştirakçılar 3 və ya 4-dən çox olmayan önəmli məsələ seçməli və bu mövzuların onların ölkələrində hansı narahatlıq və/və ya problem doğura biləcəyini müəyyən etməlidirlər. Onlar çalışdıqları müvafiq ölkələrdə ədalət mühakiməsinin həyata keçirilməsində uşaqlarla və yetkinlik yaşına çatmayan şəxslərlə rəftarın yaxşılaşdırılması üçün ideyalar hazırlamaqla öz işlərini tamamlamalıdırlar. İştirakçılar öz ölkələrində olan vəziyyəti ***cinayət, ayrılma*** və ya ***övladlığa götürmə*** icraatları baxımdan analiz etməlidirlər.

## C. Müzakirə mövzusu[15]

Aşağıdakı mövzu barədə dəyirmi stol, ümumi və kiçik qruplarda müzakirə təşkil edin:

**Psixoloji yardım, təhsil və sosial yenidən təhsil: Yetkinlik yaşına çatmayan hüquq pozucuları üçün universal vasitə?**

Debat zamanı müxtəlif suallarla yanaşı aşağıdakı sualları nəzərdən keçirin:

- Hüquq pozuntusu törədən yetkinlik yaşına çatmayan şəxslərin hamısına və ya hətta əksəriyyətinə psixi yardım, təhsil və ya peşə təhsili verməklə yardım etmək olarmı?
- Cinayət əməli ayrıca olaraq konkret cinayətkarın tarixçəsinə əsasən başa düşülə bilərmi?
- Hakim bildirdi: "cinayətsiz cəmiyyət bədbəxtliyi olmayan cəmiyyət yox, dəyərləri olmayan cəmiyyət olardı". Şərh edin.
- (Yetkinlik yaşına çatmayan şəxslərin işləri üzrə) Ədalət mühakiməsinin həyata keçirilməsi geniş yayılan işsizlik də daxil olmaqla, sosial bəlanın dağıntılarını "təmir" edə bilərmi?
- Sanksiyaların/cəzaların (reparasiya, qarşısını alma, ödəmə) məqsədini müzakirə edin.
- Peşə vəzifələrindən irəli gələ bilən məhdudiyyətləri nəzərə alaraq, yuvenal ədliyyə sistemində hakimin, prokurorun və vəkilin rollarını müzakirə edin.

## D. Rol oyunu

Annın 14 yaşı var və Stadtounda Baş Aptekdə silahlı soyğunçuluq üstündə hadisə yerində tutulur. Onun 18 yaşlı iki yoldaşı olan George və Con polis tərəfindən üstlərində silah və xeyli miqdarda pul yaxalanırlar. Onlar uzun zamandır ki, polisə çətin azyaşlı cinayətkarlar kimi məlum idilər. Ann Stadtoun Baş Polis İdarəsinə aparılır və dostları ilə birlikdə 2 gün müddətinə həbs edilir. Onların yerinin valideylərinə bildirilməsi istiqamətində faktiki olaraq hər hansı ciddi səylər göstərilmir və 48 saat ərzində Annın öz evinə zəng etməsinə icazə verilmir. George, Con və Ann Stadtoun Həbsxanasına salınırlar və orada Ann narkotik və digər şəxsə qarşı zorakılıqda məhkum olunan üç qadınla bir həbsxanada saxlanılır. Həbsdə saxlanılma yerinə çatanda Ann həyəcan keçirir və valideynləri ilə görüşmək istəyini bildirir. Hər bir halda o, bu hüquqdan həftədə yarım saat yararlana bilər. Ann hər hansı yardım, eləcə də vəkil yardımı ilə təmin edilmir.

[15] Bu çalışma Fransanın araşdırmaçı magistratı Eva Jolynin təcrübəsindən onun kitabındakı təsvirə uyğun olaraq hazırlanıb. *Notre affaire à tous* (Paris, Éditions les Arènes, 2000), xüsusilə 71–81-ci bəndlər.

Qeyd edək ki, Annın bu yaxınlarda məktəbdən qaçmaqla bağlı tarixçəsi olsa da, məhkumluğu yoxdur. Ekslandda cinayət məsuliyyəti yaradan yaş həddi 14-dür.

1. Siz Annın ***vəkilisiniz***:

   - Annın valideynləri ilə ünsiyyət yaratmaq və əlaqə saxlamaq hüququ ilə bağlı arqument irəli sürün;
   - Annın Stadtoun Həbsxanasında həbsi kontekstində onun hüquqları barədə arqument irəli sürün;
   - Yuvenal məhkəmədə ona qarşı məhkəmə icraatı başlamaq əleyhinə arqument irəli sürün.

   Müvafiq beynəlxalq standartlara istinad edin.

2. Siz bu işin istintaqını aparan ***prokurorsunuz:***

   - Siz Stadtounda yetkinlik yaşına çatmayanlar tərəfindən artmaqda olan cinayətkarlığa son qoymaqda və gənc insanları qanunla problem yaşamaqlarından uzaqlaşdırmaqda iddialısınız; öz işinizi və bu iş üzrə sədrlik edən hakimə çatdırmaq istədiyiniz təklifi mübahisələndirin. Beynəlxalq standartlara istinad edin.

3. Siz işə baxan ***hakimsiniz***:

   - Bu işdən meydana çıxan müxtəlif məsələlərə yanaşmanızdan asılı olaraq, beynəlxalq standartlara istinad etməklə öz fikrinizi/qərarlarınızı/mühakimənizi əsaslandırın.

   Bu rol oyununda müzakirə edilməli məsələlər arasında aşağıdakıları göstərmək olar:

   - Uşağın ən üstün maraqları anlayışı;
   - Pozuntunun ağırlıgı və Annın pozuntuda iştirakı (əgər varsa);
   - Valideynlərin rolu;
   - Məhkəməyədək həbsdən uzaq durmaq;
   - Həbs- ən son mümkün vasitə kimi;
   - Həbsin şərtləri və ayrıca məkanlarda həbs;
   - Tutulma və həbs zamanı ətrafa çatımlılıq;
   - Cəzanın tərbiyəvi xarakterli məcburi tədbirlərlə əvəz edilməsi;
   - Qəbul edilən hər hansı yekun qərarın müxtəlif məqsədləri.

## E. Kazusla iş[16]

Bu kazus gənc uşaqların məhkəməsindən və azadlıqdan məhrum edilməsindən bəhs edir və beynəlxalq monitorinq orqanı tərəfindən baxılmış iki işin seçmə faktlarına əsaslanır. Ölkənin, ərizəçilərin və müvafiq hakimiyyət orqanlarının adları uydurmadır.

16 **Fasilitatora məsləhət:** İştirakçıların suallara cavab verməsinə yetərincə zaman ayırmaq üçün bu kazusun onlara xeyli qabaqcadan paylanılması arzuolunandır. Əgər təlim regional insan hüquqları müqavilələrindən hər hansı birini ratifikasiya edən ölkədə keçirilirsə, iştirakçılar kazusu həmin mexanizm çərçivəsində də analiz etməlidirlər.

## I HİSSƏ: FAKTLAR

1. Erik və Conun 10 yaşları var və bir gün dərsdən qaçmaq qərarına gəlirlər. Həmin gün onlar 2 yaşlı oğlan usağını qaçırdırlar və ölüncəyə qədər döyürlər.

2. Ruritaniyada cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddi 10-dur. Erik və Co 14 il müddətinə azadlıqdan məhrum etmə və ya məhkumluq olarsa, daha yüksək cəza nəzərdə tutan adam öldürməyə görə ittiham olunduqlarından, ixtisaslaşmış Gənclər Məhkəməsi qarşısında yox, hakim və Rayon Məhkəməsində andlı iclasçılar qarşısında böyüklər kimi mühakimə olunurlar. Azyaşlı olmalarına baxmayaraq, məhkəmə prosesi böyüklər üçün nəzərdə tutulan rəsmiyyətdə keçirilir. Hakim və vəkil xüsusi papaq və mantiya geyirlər. Bununla belə, proses təqsirləndirilən şəxslərin yaşlarına müəyyən qədər uyğunlaşdırılır. Məsələn, Erik və Co sosial işçilərin yanında xüsusi olaraq hazırlanan yerdə otururlar, yaxınlıqda isə onların valideynləri və vəkilləri əyləşirlər. Məhkəmə iclası da dərs saatlarına uyğun olaraq hər saatda 10 dəqiqə fasilə etməklə qısaldılır. Fasilələr zamanı təqsirləndirilən şəxslərə öz valideynləri və sosial işçilərlə vaxt keçirməyə icazə verilir. Hakim bildirir ki, sosial işçilər və vəkillər təqsirləndirilən şəxslərin hər hansı birinin yorğun və ya gərgin olduğunu xəbər verdiyi təqdirdə fasilə elan edəcək. Bu, bir dəfə baş verir.

3. Məhkəmə iclası milli və beynəlxalq səviyyədə ictimai diqqətlə müşayiət olunur. Cinayət icraatının gedişində təqsirləndirilən şəxslərin gəlişi kütlənin qəzəbi ilə qarşılanır və bəzi hallarda onları məhkəməyə gətirən nəqliyyat vasitələrinə hücuma cəhd edilir. Məhkəmə zalında mətbuat və ictimaiyyət nümayəndələri üçün nəzərdə tutulan yerlər tam dolu olur.

3. Qanunun tələb etdiyi kimi, hakim oğlanları azadlıqdan məhrumetmə cəzasına məhkum edir və tövsiyə edir ki, cəzanın islah etmə və yeni cinayət törədilməsinin qarşısını alma məqsədlərini təmin etmək üçün cəzanın müddəti hər üç dosta 8 il olmalıdır. Bununla belə, oğlanların həbsxanada keçirməli olduqları minimum müddət Ruritaniya Daxili İşlər Nazirliyi tərəfindən müəyyən edilməlidir. Nazir azadlığa buraxılmamaq şərtilə ömürlük azadlıqdan məhrumetmə cəzasını dəstəkləyən şikayətlərin, eləcə də öldürülən uşağın ailəsi və çoxsaylı insanlar tərəfindən imzalanan, eləcə də məşhur sarı mətbuat qəzeti olan və sərt cəzalara çağıran "*The Star News"* qəzetindəki 20,000 imzalı şikayətlərin ardınca cəzanın müddətini 15 il təyin edir.

5. Erik və Co hökmdən şikayət edirlər və Ruritaniya Ali Məhkəməsi Nazirin cəzanın minimum müddətinin 15 il müəyyən edilməsini qanunsuz elan edir. Beynəlxalq monitorinq orqanları işə baxarkən, hər hansı yeni minimum vaxt müəyyən edilmir.

6. Beynəlxalq icraat zamanı ***Erik*** psixiatrik və digər sübutlara əsaslanaraq sübut etməyə çalışır ki, o, məhkəmə prosesi vaxtı emosional baxımdan 8 və ya 9 yaşlı uşaqdan az yetkin idi və bu səbəbdən proseslərin hamısında iştirak etməyib, yaxud başa düşməyib, həmçinin hadisə ilə bağlı öz mövqeyini vəkllərinə və onu dindirən psixiatrına və ya məhkəməyə bildirmək üçün çox sarsıntılı və qorxmuş durumda olub. ***Co*** öz növbəsində tibbi rəyə əsaslanaraq post-travmatik əsəb pozuntusundan əziyyət çəkdiyini bildirir. Bu pozuntu ilə bağlı hadisədən sonra hər hansı müalicə aparılmır və nəticədə bu xəstəlik onun vəkillərini təlimatlandırmaq və öz müdafiəsi üçün ifadə vermək qabiliyyətini məhdudlaşdırır. Oğlanların hər ikisi cəzalarının müəyyən edilməməsi və həbsdə keçirməli olduqları müddət barədə qeyri-müəyyən duruma salınmaları faktından pərişan olurlar.

*II HİSSƏ: SUALLAR*

1. Ruritaniyada cinayət məsuliyyəti yaradan 10 yaş beynəlxalq hüquqa uyğun idi? Bu vəziyyəti Uşaq Hüquqları haqqında Konvensiya və digər müvafiq hüquqi sənədlər çərçivəsində təhlil edin.
2. 10 yaşlı Erik və Conun törətdikləri əmələ görə cinayət məsuliyyətinin müəyyən edilməsi özlüyündə beynəlxalq hüququn ziddinə olaraq qəddar, qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftar və ya cəzaya məruz qalmamaq hüququnun pozuntusu demək idimi?
3. Erik və Conun yetkinlik yaşına çatmayan şəxslərin işləri üzrə ixtisaslaşmış məhkəmə əvəzinə böyüklər kimi mühakimə edilməsi beynəlxalq hüquqi qaydalara uyğun idi? Bu vəziyyəti Uşaq Hüquqları haqqında Konvensiya və digər müvafiq hüquqi sənədlər çərçivəsində təhlil edin.
4. Məhkəmə boyunca Erik və Co medianın diqqət mərkəzində və ictimaiyyətin təzyiqi altında idilər. Anlaşılan olsa da, bu ictimai diqqət beynəlxalq insan hüquqları, məsələn, Mülki və Siyasi Hüquqlar haqqında Paktın 14 (1)-ci maddəsində müəyyən edilən ədalətli məhkəmə araşdırması hüququna təsir edə bilərdimi? Əgər bilərdisə, onların işində ədlətli məhkəmə araşdırmasını təmin etmək üçün nə etmək olardı? Müvafiq beynəlxalq hüquqi standartlara istinad edin.
5. Erik və Co tərəfindən təqdim edilən və onların məhkəmə prosesi zamanı adekvat müdafiə olunmaması arqumentini dəstəkləyən ekspert rəyi sübutu nəzərə alınarsa, bu, sizin düşüncənizdə ədalətli məhkəmə araşdırmasının qarşısını alan faktor sayıla bilərdimi? Bu kimi icraat zamanı uşağın yetkinlik səviyyəsi, intellektual və emosional qabiliyyəti nəzərə alınmalıdır? Ədalətli məhkəmə araşdırmasını təmin etmək məqsədilə müvafiq uşağın ixtisaslı və təcrübəli vəkillər tərəfindən təmsil edilməsi yetərli olardı? Öz baxış bucağınızı izah edin və əgər zəruridirsə, beynəlxalq hüquqi standartlar çərçivəsində vəziyyəti analiz edin.
6. Hökmə gəldikdə, Ruritaniya Ali Məhkəməsinin Nazirin azadlıqdan mərhumetmənin minimum müddətini 15 il müəyyən etməsi qərarını qanunsuz hesab etməsi üçün səbəbləri izah edin.
7. Cəzanın təyin edilməməsi beynəlxalq hüquqi standartları pozubmu? Əgər pozubsa, hansı standart(lar)ı?
8. Daxili İşlər Nazirliyi tərəfindən cəzanın müddətinin təyin edilməsi beynəlxalq hüquqi standartları pozubmu? Əgər pozubsa, hansı standartları?

# F. Paylama materialları (fasilitatorlar tərəfindən təmin edilməlidir)

1. Birləşmiş Millətlər Təşkilatının Azadlıqdan Məhrum edilən Yetkinlik Yaşına Çatmayanların Müdafiəsi üzrə Qaydaları, 1990. Baş Assambleyanın 45/113 qətnaməsinə baxın.

2. Birləşmiş Millətlər Təşkilatının Yetkinlik Yaşına Çatmayanlar tərəfindən törədilən Hüquq Pozuntularının qarşısının alınması barədə Rəhbər Qaydaları (Riyad Qaydaları), 1990. Baş Assambleyanın 45/112 qətnaməsinə baxın.

3. Birləşmiş Millətlər Təşkilatının Yetkinlik Yaşına Çatmayanların Ədalət Mühakiməsinin həyata keçirilməsi barədə Standart Minimum Davranış Qaydaları (Pekin Qaydaları), 1985. Baş Assambleyanın 40/33 Qətnaməsinə baxın.

4. Cinayət Mühakimə İcraatında Uşaqlarla bağlı Fəaliyyət barədə Rəhbər Müddəalar (Vyana Qaydaları), 1997. İqtisadi və Sosial Şuranın 1997/30 Qətnaməsinə baxın.

# 11-ci fəsil
# ƏDALƏT MÜHAKİMƏSİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ QADIN HÜQUQLARI

## Mündəricat


I. FASİLİTATORLAR ÜÇÜN QEYD....................................106

II. ƏSAS HÜQUQİ MƏNBƏLƏR......................................106

A. Universal mexanizmlər ..............................................106

B. Regional mexanizmlər.................................................107

III. FƏSLİN/SESSİYANIN MƏQSƏDLƏRİ…………..........................108

IV. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR.......................................108

V. 11-Cİ FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ………………………………………………….................109

VI. TƏLİM MATERİALLARI..................................................110

A. Kompüter slaydları.........................................................110

B. Çalışmalar.......................................................................113

C. Müzakirə mövzusu…......................................................114

D. Rol oyunu.........................................................................115

E. Paylama materialları.......................................................115

# I. FASİLİTATORLAR ÜÇÜN QEYD

Vəsaitin 11-ci fəsli ilk öncə onu vurğulayır ki, beynəlxalq insan hüquqları hüququ tam formada qadınlara şamil edilir. Daha sonra qadınların insan hüquqlarını həyata keçirməsi zamanı qarşılaşdıqları çoxsaylı problemlərin icmalı verilir. Bu problemlər müxtəlif səbəblərdən, məsələn, hüquq sahələrində hüquqi müdafiənin olmaması, yaxud adət-ənənə, yoxsulluq və s. faktiki faktorlardan yarana bilər.

Bu fəsil qadınların hüquq qabiliyyəti və ikinci, qadınların qanun qarşısında bərabərlik və qanunun bərabər müdafiəsi hüququnu ümumən təsvir edir. Üçüncü, burada qadınların həyatlarına, fiziki və psixi toxunulmazlığına hörmət hüququndan, daha sonra qadınların köləlikdən, kölə ticarətindən, məcburi əməkdən, eləcə də insan alverindən azad olmaq hüquqlarından bəhs edilir. Bu fəsil dövlət siyasətində iştirakla bağlı hüquqların bərabərliyi məsələsindən öncə nikah və mülki məsələlərdə bərabərlik hüququna fokuslanır. Genderlə bağlı ayrıseçkiliyin müntəzəm baş verdiyi digər müxtəlif hüquq sahələrini qısa olaraq nəzərdən keçirdikdən sonra qadınların məhkəməyə çatımlılıq da daxil olmaqla səmərəli vasitələr hüququnun qısa təsviri verilir. Ən sonda, qadın hüquqlarının təbliğ edilməsində və qorunmasında hüquq peşələrinin rolu vurğulanır və bu fəsil yekun qeydlərlə tamamlanır.

Bu fəsildə nəzərdə tutulan təlim materialına gəldikdə, iştirakçıların gündəlik işlərində qarşılaşdıqları spesifik problemləri nəzərə alaraq, fasilitatorlar bu materialları təlimin keçirildiyi müvafiq ölkəyə uyğunlaşdırmalı və iştirakçıların ehtiyaclarını daha yaxşı ödəyən yeni çalışmalardan və rol oyunlarından istifadə etməlidirlər.

# II. ƏSAS HÜQUQİ MƏNBƏLƏR

11-ci fəsil aşağıdakı hüquqi sənədlərə əsaslanır:

## A. Universal mexanizmlər

- Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi, 1945
- Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, 1966
- İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt, 1966
- İnsan Alveri və Üçüncü Şəxslər tərəfindən Cinsi İstismara Qarşı Konvensiya, 1949
- Qadınların Siyasi Hüquqları haqqında Konvensiya, 1953
- Ərli Qadının Milliyyəti haqqında Konvensiya, 1957

- Nikaha Razılıq, Nikah üçün Minimum Yaş və Nikahların Qeydiyyatı haqqında Konvensiya, 1962
- Uşaq Hüquqları haqqında Konvensiya, 1989
- Uşaq Ticarəti, Uşaq Fahişəliyi və Uşaq Pornoqrafiyası barədə Uşaq Hüquqları Konvensiyasına Əlavə Protokol, 2000
- Qadınlara Qarşı Ayrıseçkiliyin Bütün Formalarının Ləğv Edilməsi haqqında Konvensiya, 1979
- Qadınlara Qarşı Ayrıseçkiliyin Bütün Formalarının Ləğv Edilməsi haqqında Konvensiyaya Əlavə Protokol, 1999
- Təhsildə Ayriseçkiliyə qarşı Konvensiya, 1960
- Beynəlxalq Cinayət Məhkəməsinin Roma Nizamnaməsi, 1998
- Transmilli Mütəşəkkil Cinayətlığa qarşı Birləşmiş Millətlər Təşkilatının Konvensiyası, 2000
- Birləşmiş Millətlər Təşkilatının Transmilli Mütəşəkkil Cinayətkarlığa qarşı Konvensiyasına Əlavə olan İnsan Alverinin, xüsusilə də Qadın və Uşaq Alverinin Qarşısının Alınması, Qadağan edilməsi və Cəzalandırılması Protokolu, 2000

*****

- İnsan Hüquqlarına dair Ümumi Bəyannamə, 1948
- Qadınlara Qarşı Zorakılığın Ləğv edilməsi haqqında Bəyannamə, 1993
- Vyana Bəyannaməsi və Fəaliyyət Proqramı, 1993
- Pekin Bəyannaməsi və Fəaliyyət Platforması, 1995

## B. Regional mexanizmlər

- İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyası, 1981
- Uşaq Hüquqları və Rifahı haqqında Afrika Xartiyası, 1990
- Amerika İnsan Hüquqları Konvensiyası, 1969
- Qadınlara qarşı Zorakılığın Qarşısının Alınması, Cəzalandırılması və Aradan Qaldırılması haqqında İnter-Amerika Konvensiyası, 1994
- Avropa İnsan Hüquqları Konvensiyası, 1950

# III. FƏSLİN/SESSİYANIN MƏQSƏDLƏRİ

11-ci fəslin məqsədləri aşağıdakılardır:

- İştirakçıları həyatın müxtəlif sahələrində qadınların rastlaşdıqları spesifik insan hüquqları problemləri ilə məlumatlandırmaq;
- İştirakçıları qadın hüquqlarının müdafiəsi üzrə mövcud beynəlxalq hüquq qaydaları ilə tanış etmək;
- Qadın hüquqlarının müdafiəsini gücləndirmək üçün iştirakçıların hakim, prokuror və vəkil kimi potensialları barədə bilgilərini artırmaq.

# IV. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR

11-ci fəsildə müəyyən edilən beynəlxalq hüquqi qaydalar çərçivəsində toxunulacaq əsas məqamlar və iştirakçılarla müzakirə ediləcək başlıca məsələlər aşağıdakılardır:

- İştirakçıların çalışdığı ölkələrin qanunvericiliyində qadın hüquqları necə müdafiə edilir;
- İştirakçılar bu qanunvericiliyin səmərəli icra edilməsini hesab edirlərmi;
- İştirakçıların çalışdığı ölkələrdə qadınların üzləşdiyi spesifik problemlər;
- Bu problemlər qadınların hüquqi müdafiə edilməsi zamanı çatışmazlıqlardan, yoxsa mövcud hüquqi qaydaların icra olunmamasından yaranır;
- İştirakçıların çalışdıqları ölkədə qadınların üzləşdiyi problemləri izah edə biləcək hər hansı başqa səbəb varmı;
- Əgər varsa, iştirakçılar bu problemlərin nədən ibarət olduğunu izah etməyə çalışmalıdırlar;
- İştirakçıların çalışdıqları ölkələrdə qızlar hər hansı spesifik problemlərlə qarşılaşırlarmı;
- Əgər qarşılaşırlarsa, bu problemlər nədir və onların əsas səbəb(lər)i nə ola bilər;
- Qanun qızların spesifik problemlərini necə və hansı həddədək həll edir;
- İştirakçılar hakim, prokuror və vəkil olaraq çalışdıqları ölkələrdə qadın hüquqlarının qorunmasını gücləndirmək üçün nə edə bilərlər.

# V. 11-Cİ FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ

| Başlıca məqamlar/fəaliyyət | Metod | Media | Zaman |
|---|---|---|---|
| 1. 11-ci fəslin məqsədləri | Təqdimat | Kompüter slaydları, kağız lövhə | 10 dəqiqə |
| 2. Kursun təqdimatı: Vəsaitin 11-ci fəslinə və yuxarıdakı III və IV bölmələrdəki əsas məqamlara əsasən, komanda təqdim edir:<br>a. müvafiq hüquqi mexanizmlər;<br>b. qadınların hüquq qabiliyyəti, eləcə də qanun qarşısında bərabərlik və qanundan bərabər müdafiə hüququ;<br>c. qadınların həyatlarına, eləcə də fiziki və psixi toxunulmazlıq hüququna hörmət hüququ;<br>d. qadınların köləlikdən, kölə ticarətindən, məcburi əmək və insan alverindən azad olmaq hüququ. | İnteraktiv təqdimatlar (iştirakçıların calışdıqları ölkələrdə qadınların üzləşdikləri xüsusi problemlərə fokuslanmalıdır) | Kompüter slaydları, kağız lövhə, özüyapışan kağız, standart və prinsipləri özündə əks etdirən paylama materialları | 40 dəqiqə |
| 3. Dincəliş | | | 5 dəqiqə |
| 4. Təqdimatlar davam edir:<br>e. nikahla bağlı bərabərlik hüququ;<br>f. mülki məsələlərdə bərabər hüquq qabiliyyəti;<br>g. seçkilər də daxil olmaqla, dövlət siyasətində bərabər iştirak hüququ;<br>h. qadınların digər insan hüquqlarını bərabər həyata keçirmək hüququ;<br>i. məhkəmələrə çatımlılıq və prosessual təminatlar da daxil olmaqla, qadınların səmərəli vasitələr hüququ;<br>j. qruplarda işin izahı (çalışma və ya rol oyunu); qruplara bölünmə. | İnteraktiv təqdimatlar (iştirakçıların calışdıqları ölkələrdə qadınların üzləşdikləri xüsusi problemlərə fokuslanmalıdır) | Kompüter slaydları, kağız lövhə, özüyapışan kağız, standart və prinsipləri özündə əks etdirən paylama materialları | 45 dəqiqə |
| 5. Fasilə | | | 20 dəqiqə |
| 6. Çalışma üzərində qrup işi və ya rol oyunu | | Kağız lövhə və s. (zərurət olarsa) | 55 dəqiqə |
| 7. Dincəliş | | | 5 dəqiqə |
| 8. Təqdimat | Qruplar kazus, rol oyunu və ya digər çalışma ilə bağlı hesabat verir | Kağız lövhə və s. (zərurət olarsa) | 60 dəqiqə |
| | | | **Ümumi vaxt: 4 saat** |

**Fasilitatora məsləhət:** Bu sessiyanın planlaşdırılması cədvəli təbii ki sadəcə təklifdir və hər bir təlim sessiyasının xüsusi ehtiyaclarına uyğunlaşdırılmalıdır. Bu fəsil yetərincə geniş materialı əhatə edir və onu tam bitirmək üçün daha çox vaxt lazım ola bilər. Bu səbəbdən, hər bir iş üzrə iştirakçıların ehtiyac və maraqlarını dəyərləndirmək və kursu 11-ci fəsildə əks edilən müvafiq materiala əsasən uyğunlaşdırmaq fasilitatorun üzərinə düşür.

# VI. TƏLİM MATERİALLARI

## A. Kompüter slaydları (CD-ROM-a baxın)

1. Öyrənmə məqsədləri
2. Suallar I
3. Suallar II
4. Suallar III
5. Müvafiq hüquqi mexanizmlər I: Universal mexanizmlər (1)
6. Müvafiq hüquqi mexanizmlər II: Universal mexanizmlər (2)
7. Müvafiq hüquqi mexanizmlər III: Universal mexanizmlər (3)
8. Müvafiq hüquqi mexanizmlər IV: Universal mexanizmlər (4)
9. Müvafiq hüquqi mexanizmlər V: Regional mexanizmlər
10. Qadınların hüquq qabiliyyəti: Əsas hüquqi müddəalar
11. Qadınların hüquq qabiliyyəti: Bu nə deməkdir
12. Qadınların qanun qarşısında bərabərlik və qanun tərəfindən bərabər müdafiə hüququ: Əsas hüquqi müddəalar I – universal səviyyə (1)
13. Qadınların qanun qarşısında bərabərlik və qanun tərəfindən bərabər müdafiə hüququ: Əsas hüquqi müddəalar II – universal səviyyə (2)
14. Qadınların qanun qarşısında bərabərlik və qanun tərəfindən bərabər müdafiə hüququ: Əsas hüquqi müddəalar III – regional səviyyə
15. Bərabərlik və qeyri-ayrıseçkiliyin ümumi mənası I
16. Bərabərlik və qeyri-ayrıseçkiliyin ümumi mənası II
17. 1993-cü il Vyana Bəyannməsi və Fəaliyyət Proqramı
18. 1995-ci il Pekin Bəyannaməsi və Fəaliyyət Platforması
19. Qadın və kişilər arasında bərabərliyin anlayışı I

20. Qadın və kişilər arasında bərabərliyin anlayışı II

21. Qadınların öz həyatlarına, eləcə də fiziki və psixi toxunulmazlığına hörmət hüququ I: Əsas hüquqi müddəalar (1)

22. Qadınların öz həyatlarına, eləcə də fiziki və psixi toxunulmazlığına hörmət hüququ II: Əsas hüquqi müddəalar (2)

23. Qadınların öz həyatlarına, eləcə də fiziki və psixi toxunulmazlığına hörmət hüququ III: Bu nə deməkdir (1)

24. Qadınların öz həyatlarına, eləcə də fiziki və psixi toxunulmazlığına hörmət hüququ IV: Bu nə deməkdir (2)

25. Qadınların öz həyatlarına, eləcə də fiziki və psixi toxunulmazlığına hörmət hüququ V: Bu nə deməkdir (3)

26. Qadınların öz həyatlarına, eləcə də fiziki və psixi toxunulmazlığına hörmət hüququ VI: Bu nə deməkdir (4)

27. Qadınların öz həyatlarına, eləcə də fiziki və psixi toxunulmazlığına hörmət hüququ VII: Bu nə deməkdir (5)

28. Qadınların öz həyatlarına, eləcə də fiziki və psixi toxunulmazlığına hörmət hüququ VIII: Bu nə deməkdir (6)

29. Qadınların öz həyatlarına, eləcə də fiziki və psixi toxunulmazlığına hörmət hüququ IX: Bu nə deməkdir (7)

30. Qadınların öz həyatlarına, eləcə də fiziki və psixi toxunulmazlığına hörmət hüququ X: Bu nə deməkdir (8)

31. Qadınların köləlikdən, kölə ticarətindən, məcburi əmək, eləcə də insan alverindən azad olmaq hüququ I: Əsas hüquqi müddəalar (1)

32. Qadınların köləlikdən, kölə ticarətindən, məcburi əmək, eləcə də insan alverindən azad olmaq hüququ II: Əsas hüquqi müddəalar (2)

33. Qadınların köləlikdən, kölə ticarətindən, məcburi əmək, eləcə də insan alverindən azad olmaq hüququ III: Əsas hüquqi müddəalar (3)

34. Qadınların köləlikdən, kölə ticarətindən, məcburi əmək, eləcə də insan alverindən azad olmaq hüququ IV: Bu nə deməkdir (1)

35. Qadınların köləlikdən, kölə ticarətindən, məcburi əmək, eləcə də insan alverindən azad olmaq hüququ V: Bu nə deməkdir (2)

36. Qadınların köləlikdən, kölə ticarətindən, məcburi əmək, eləcə də insan alverindən azad olmaq hüququ VI: Bu nə deməkdir (3)

37. Nikah məsələsində bərabərlik hüququ I: Əsas hüquqi müddəalar

38. Nikah məsələsində bərabərlik hüququ II: Bu nə deməkdir (1)

39. Nikah məsələsində bərabərlik hüququ III: Bu nə deməkdir (2)

40. Nikah məsələsində bərabərlik hüququ IV: Bu nə deməkdir (3)

41. Nikah məsələsində bərabərlik hüququ V: Bu nə deməkdir (4)

42. Nikah məsələsində bərabərlik hüququ VI: Bu nə deməkdir (5)

43. Vətəndaşlıq və ad seçimi məsələlərində hüquq bərabərliyi

44. Nikah üzrə cütlüklərin bərabər hüquq və vəzifələri I: Əsas hüquqi müddəalar

45. Nikah üzrə cütlüklərin bərabər hüquq və vəzifələri II: Bu nə deməkdir (1)

46. Nikah üzrə cütlüklərin bərabər hüquq və vəzifələri III: Bu nə deməkdir (2)

47. Nikah üzrə cütlüklərin bərabər hüquq və vəzifələri IV: Bu nə deməkdir (3)

48. Mülki məsələlərdə qadınların bərabər hüquq bərabərliyi hüququ I

49. Mülki məsələlərdə qadınların bərabər hüquq bərabərliyi hüququ II

50. Qadınların seçkilər də daxil olmaqla dövlət idarəçiliyində bərabər iştirak hüququ I: Əsas hüquqi müddəalar

51. Qadınların seçkilər də daxil olmaqla dövlət idarəçiliyində bərabər iştirak hüququ II: Bu nə deməkdir (1)

52. Qadınların seçkilər də daxil olmaqla dövlət idarəçiliyində bərabər iştirak hüququ III: Bu nə deməkdir (2)

53. Qadınların seçkilər də daxil olmaqla dövlət idarəçiliyində bərabər iştirak hüququ IV: Bu nə deməkdir (3)

54. Qadınların seçkilər də daxil olmaqla dövlət idarəçiliyində bərabər iştirak hüququ V: Bu nə deməkdir (4)

55. Qadınların digər insan hüquqlarından bərabər istifadə hüququ I: Hərəkət və yaşayış yerini seçmə azadlığı hüququ

56. Qadınların digər insan hüquqlarından bərabər istifadə hüququ II: Özəl həyat hüququ

57. Qadınların digər insan hüquqlarından bərabər istifadə hüququ III: Digər önəmli azadlıqlar

58. Qadınların bərabər təhsil hüququ I: Əsas hüquqi müddəalar

59. Qadınların bərabər təhsil hüququ II: Bu nə deməkdir (1)

60. Qadınların bərabər təhsil hüququ III: Bu nə deməkdir (2)

61. Qadınların məhkəməyə çatımlılıq və ədalət mühakiməsi də daxil olmaqla səmərəli hüquqi vasitələr hüququ I: Əsas hüquqi müddəalar

62. Qadınların məhkəməyə çatımlılıq və ədalət mühakiməsi də daxil olmaqla səmərəli hüquqi vasitələr hüququ II: Bu nə deməkdir (1)

63. Qadınların məhkəməyə çatımlılıq və ədalət mühakiməsi də daxil olmaqla səmərəli hüquqi vasitələr hüququ III: Bu nə deməkdir (2)

## B. Çalışmalar

### d *Çalışma 1*

Fərdi, yaxud 4-6 nəfərdən ibarət qruplara bölməklə iştirakçılara təxminən 30 dəqiqə zaman ayırın və 11-ci fəsildə müzakirə edilən sualları onların müvafiq milli hüquq sistemləri baxımından analiz etmələrini təmin edin. İştirakçılar 3 və ya 4-dən çox olmayan önəmli məsələ seçməli və bu mövzuların onların ölkələrində qadınlar və qızların insan hüquqlarının səmərəli həyata keçirməsi zamanı hansı narahatlıq və/və ya problem doğura biləcəyini müəyyən etməlidirlər.
İştirakçılar öz ölkəsində və ya ölkələrində qadın və qızların insan hüquqlarının təmininin artırılması istiqamətində ideyalar hazırlamaqla öz işlərini tamamlamalıdırlar.

Bu çalışma ilə əlaqədar aşağıdakı məsələlər və suallardan nümunə kimi istifadə edilə bilər:

- Dövlət tərəfindən maliyyələşdirilən, institusional, icma və ya qadınlara qarşı məişət zorakılığının mümkün mövcudluğu- onun mənbəyi və fəaliyyət üçün təkliflər;
- Nigah və boşanma məsələlərində kişilərlə müqayisədə qadınların hüquq və vəzifələri; əgər fərqlər mövcuddursa, onların mənbəyi nədir və onlarla bağlı nə edilə bilər;
- Digər mülki məsələlərdə kişilərlə müqayisədə qadınların hüquqları, məsələn, əmək hüququ, müqavilə bağlamaq hüququ, bank hesabı açmaq hüququ və ya biznes qurmaq hüququ, vərəsəlik hüququ və s.
- Kişilərlə müqayisədə qadınların səsvermə və ya seçkilərdə namizəd olmaq, dövlət vəzifəsi tutmaq və s. yollarla ölkələrinin ictimai həyatında fəal iştirak etmək hüquqları;
- Kişilərlə müqayisədə qadınların digər azadlıqları- düşüncə, vicdan, etiqad, din, fikir, ifadə, birləşmək və toplaşmaq azadlıqlarını səmərəli həyata keçirmək hüquqları;
- İnsan hüquq və əsas azadlıqlarını mübahisələndirməyə ehtiyac duyan qadınlar üçün hüquqi vasitələrin mövcudluğu;
- Kişilərlə müqayisədə qadınlara prosessual və məhkəmə təminatlarının tətbiqedilənliyi;
- Kişilərlə müqayisədə qadınların normal səhiyyə və qida, yaxud hər hansı digər iqtisadi sosial və mədəni hüquqlara çatımlılıq əldə etməsində hər hansı mövcud çətinlik.

### Çalışma 2[17]

Serena, Mariana və Anna Ekslanddakı evlərindən valideynlərinin Vətəni olan Qotlanda səyahət edən zaman valideynləri tərəfindən aldadılan üç bacıdırlar. Gənc xanımlar Eksland vətəndaşlarıdır və bütün həyatları boyu Ekslandda yaşayıblar. Onlar eyni zamanda Qotland vətəndaşlarıdır. Qotlanda çatan zaman aydın olur ki, onlar heç bir zaman görmədikləri və barələrində eşitmədikləri kişilərlə ailə quracaqlar. Onlar qurulan bu plandan təşvişə düşürlər və valideynlərinin bu barədə xəbərdarlıqlarını xatırlayırlar. Səyahət zamanı ciddi nəzarət altında olmalarına baxmayaraq, onlar gizlənməyə nail olurlar, Qotlandın paytaxtına gedərək, Eksland Səfirliyinə qaçqın kimi tanınmaq üçün müraciət edirlər. Bacılar qaçdıqdan sonra ölüm təhdidləri alırlar, amma valideynlərinin yanına və qeyri-müəyyən həyata qayıdacaqları qorxusundan bu təhdidlər barədə polisə şikayət edə bilmirlər.

Bu kimi vəziyyətdə yaranan hüquqi problemləri və Serena, Mariana və Annanın insan hüquqlarına hörmət etməklə onların mümkün həll yollarını müzakirə edin. Eksland Hökuməti və Məhkəməsi, eləcə də Qotland Hökuməti və Məhkəməsi mövqeyindən çıxış edərək problemləri analiz etməyə çalışın. Həmçinin gənc xanımlar və onların valideynləri baxımdan vəziyyəti təhlil edin. Əgər Serena, Mariana və Anna 18 yaşından çox və ya az olsaydılar, sizin əsaslandırmanız fərqli olardımı?

## C. Müzakirə mövzusu

Bu mövzudan xüsusilə qadın və qızların insan hüquqlarını səmərəli həyata keçirmələri üçün mövcud imkanlara maneələr olduğu ölkələrdə müzakirə obyekti kimi istifadə etmək olar:

**İnsan hüquqları dini və mədəni inanclara və adətlərə qarşı:**
**Ənənəvilik zamanı qadın hüquqlarını reallığa çevirmək olarmı?**

Moderator beynəlxalq hüquqi prinsiplər çərçivəsində sözügedən ölkə ilə bağlı müzakirəni milli səviyyədəki mövcud duruma fokuslanmış formada aparmağa çalışmalıdır. O, bütün ölkələr tərəfindən qəbul edilən ***dəyərlərin universallığını*** vurğulamalıdır. Onu qeyd etmək vacibdir ki, bu universallıq eynilik demək deyil. Bundan başqa, dövlətlər beynəlxalq öhdəliklərin icra yollarını seçməkdə sərbəstdirlər.

Diqqət edilməli olan əsas məqam qadınlar da daxil olmaqla, hər kəsin sərbəst surətdə ***həyat yoldaşı seçmək və yalnız azad və tam iradə ifadəsi ilə nigaha daxil olmaq, dini etiqad, fikir və ifadə azadlığı hüququnun olması faktıdır***. Vurğulanmalı olan digər önəmli məsələ Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 23-cü maddəsidir: "Heç bir nikah onu bağlayanların sərbəst şəkildə və tam razılığı olmadan bağlana bilməz". Müzakirənin digər istiqaməti insan hüquqlarını qadınlara münasibətdə reallığa çevirmək məqsədilə hökumətlərin müvafiq qanunvericilik və digər tədbirlər həyata keçirmək üçün laqeyd olmasının səbəblərini müəyyən etmək ola bilər. Debatın gedişində qadınların insan hüquqlarını həyata keçirməsinə maneələr müəyyən olunduğu zaman, iştirakçıların həmin maneələri aşmasına yardım edən ideyalara fokuslaşmasına yardım edin.

17 **Fasilitator üçün məlumat:** Bu çalışma "*The Economist*"in 10 noyabr 2011-ci il buraxılışındakı hadisə ilə bağlıdır. *(səh. 37)*. Bu, rol oyununa çevrilə bilər.

## D. Rol oyunu[18]

Roseanna Ekslandda yaşayan gənc qızdır və Eksland vətəndaşıdır. O, əslən qadın sünnətinin geniş yayıldığı Eritaniyadandır. Ekslandda 2010-cu ildə Qadın Sünnətinin Qadağan edilməsi Aktının qəbulundan sonra bu təcrübə cinayət sayılmağa başlayır. Bu akta əsasən, azyaşlı qız üzərində "bilərəkdən" sünnətin müxtəlif formalarını həyata keçirmək cərimə və ya ən çoxu 7 ilə qədər azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Ekslandın Uşaq Ombudsmanı Ekslanddakı müxtəlif qurumların 18 yaşından aşağı uşaqların hüquqlarını qorumasına məsuldur. Eləcə də, Ombudsman qadın sünnəti barədə polisə məlumat verməkdə səlahiyyətlidir.

Roseannanın valideynləri Eksland qanununun qadın sünnətini qadağan etdiyini bilirdilər, amma bu köhnə adətin qızlarına tətbiqində israrlı idilər. Onlar 1 ay müddətinə Etitaniyaya qayıtmağa və həmin müddət ərzində Roseannanın sünnət olunacağına qərar verirlər. Onlar Ekslanda qayıdırlar və burada Roseanna bu təcrübənin həyata keçirildiyi yeganə qız deyil. Onun bəzi tanışları da eyni ağır sınaqdan keçiblər. Bütün bunlar barədə bir anonim mənbə Ombudsmana xəbər verir. Amma Ombudsman hər hansı tədbir görməməyə qərar verir və bildirir ki, sözügedən uşaqların hazırda əzab çəkmələri ilə bağlı hər hansı sübut yoxdur. Beləliklə, nə sosial hakimiyyət orqanları, nə də polis bir sıra Eksland qızlarının qanunun ziddinə olaraq sünnət olunmaları faktı barədə məlumatlandırılırlar. Bununla belə, ən sonda bu məsələ polisə çatdırılır.

Eksland Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktı, Qadınlara Qarşı Ayriseçkiliyin Bütün Formalarının Ləğv edilməsi haqqında Konvensiyanı və Uşaq Hüquqları haqqında Konvensiyanı ratifikasiya edib.

1. Siz yeni ***Uşaq Ombudsmanısınız***:

   - Siz öz yeni işinizə uyğunlaşmağa çalışırsınız və ona görə də sələfinizin sənədlərini nəzərdən keçirirsiniz və sünnət olunmuş Eritaniya əsilli Eksland qızlarının işləri üzrə "hərəkətsizlik barədə qərar"a rast gəlirsiniz. Siz sələfinizin gəldiyi nəticədən təlaşa düşürsünüz. Siz nə edərdiz?

2. Siz ***Dövlət adından işin istintaqına məsul şəxssiniz***:

   - Siz işin istintaqını aparmağa çalışırsınız, amma baş vermiş hadisə barədə sübut tapmaqda çətinlik çəkirsiniz. Siz nə edərdiniz?

3. Siz ***hakimsiniz*** :

   - Nəhayət ki, iş sizin masanızın üzərindədir və Roseannanın valideynlərinin mühakiməsi üçün vaxt təyin edilib.

     Siz çətin durumdasınız: əsaslı şübhə olmadan təqsir sübut olunarsa, siz Roseannanın valideynlərini həbsxanaya göndərməli və onu faktiki olaraq kimsəsizə çevirməlisiniz. İşi Roseannanın valideynlərinin vəziyyəti, eləcə də çox ziyanlı təcrübənin ümumən qarşısının alınmasının önəmi baxımından mübahisələndirin..

## E. Paylama materialları (CD-ROM-a baxın)

1. Qadınların və qızların iqtisadi, sosial və mədəni hüquqlarının müdafiəsi üzrə seçmə hüquqi mexanizmlər
2. Qadınların və qızların məsələləri üzrə seçmə kitablar, hesabatlar və internet səhifələri

[18] **Fasilitator üçün məlumat:** Bu rol oyunu valideynləri tərəfindən Somaliyə sünnət üçün aparılmış Somali əsilli İsveç qızlarının həyatından götürülüb. Buraya başqa ölkələrdən məlumat da qatılıb.

# 12-ci fəsil

## DİGƏR ƏSAS HÜQUQLAR: DÜŞÜNCƏ, VİCDAN, DİN, FİKİR, İFADƏ, BİRLƏŞMƏK VƏ TOPLAŞMAQ AZADLIĞI

## Mündəricat


I. FASİLİTATORLAR ÜÇÜN QEYD......................................118

II. ƏSAS HÜQUQİ MƏNBƏLƏR.......................................118

A. Universal mexanizmlər ........................................................118

B. Regional mexanizmlər .........................................................119

III. FƏSİL/SESSİYANIN MƏQSƏDLƏRİ…………. ..........................119

IV. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR.........................................120

V. 12-Cİ FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ………………….......121

A. Düşuncə, vicdan və din azadlığı üçün sessiyanın planlaşdırılması cədvəli……………….............................................................121

B. Fikir və ifadə azadlığı üçün sessiyanın planlaşdırılması cədvəli……............................................................................122

C. Birləşmək və toplaşmaq azadlığı üçün sessiyanın planlaşdırılması cədvəli….........................................................................123

VI. TƏLİM MATERİALLARI.................................................124

A. Kompüter slaydları ..............................................................124

B. Çalışmalar....................................................................130

C. Müzakirə mövzusu..........................................................132

D. Kazusla iş .................................................................132

E. Rol oyunu...................................................................134

# I. FASİLİTATORLAR ÜÇÜN QEYD

Vəsaitin 12-ci fəsli həm hər bir şəxs üçün, həm də bütövlükdə demokratik cəmiyyətin fəaliyyət göstərməsi üçün əhəmiyyət daşıyan düşüncə, vicdan, din, fikir, ifadə, birləşmə və toplaşmaq azadlıqlarından bəhs edir. Bu fəslin bəzi əvvəlki fəsillərdən fərqi odur ki, o, hüquq tətbiqi prosesində şəxsin müdafiəsini deyil, gündəlik həyatın hər bir sahəsində şəxsin həyata keçirməli olduğu azadlıqları hədəfləyir.

Bu fəsil ilk öncə, əsas beynəlxalq insan hüquqları mexanizmləri ilə qorunan düşüncə, vicdan və din azadlığı hüquqları, ikinci, fikir və ifadə azadlıqları və ən sonda, birləşmək və toplaşmaq azadlıqlarından bəhs edir.

Fasilitatorlar hər zaman olduğu kimi kursun istiqamətini və təlim materiallarını iştirakçıların xüsusi ehtiyaclarına uyğunlaşdırmalıdır. Buna görə də, fasilitatorların işini rahatlaşdırmaq üçün bu fəslin V bölməsi hərəsi bir azadlıqlar qrupundan olmaqla üç sessiyanın planlaşdırılması cədvəlindən ibarətdir. Bununla belə, hansı azadlıqlar qrupuna üstünlük verilməsindən asılı olmayaraq, bütün bu azadlıqlar arasında mövcud əlaqəni və onların insan hüquqlarına və əsas azadlıqlarına sayqı duyan demokratik cəmiyyətin qurulmasında, qorunmasında və/və ya möhkəmləndirilməsində oynadıqları vacib rolu vurğulamaq önəmlidir.

# II. ƏSAS HÜQUQİ MƏNBƏLƏR

12-ci fəsil, əsasən, aşağıdakı hüquqi sənədlərə əsaslanır:

## A. Universal mexanizmlər

- Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, 1966
- İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt, 1966
- İrqi Ayrıseçkiliyin bütün Formalarının Ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya, 1965
- Qadınlara qarşı Ayrıseçkiliyin Bütün Formalarının Ləğv edilməsi Konvensiyası, 1979
- Uşaq Hüquqları haqqında Konvensiya, 1989
- Beynəlxalq Əmək Təşkilatının Birləşmək Azadlığı və Təşkilat hüququnun Müdafiəsi Konvensiyası, 1948
- Beynəlxalq Əmək Təşkilatının Təşkilat Hüququ və Kollektiv Müqavilə Konvensiyası, 1949

*****

- İnsan Hüquqlarına dair Ümumi Bəyannamə, 1948
- Fərdlərin, Qrupların və Cəmiyyət üzvlərinin Ümumqəbuledilən İnsan Hüquqları və Əsas Azadlıqlarının Təbliğatı və Müdafiəsi ilə bağlı Hüquq və Vəzifələri Bəyannaməsi, 1999
- Din və ya Etiqad əsasında Dözümsüzlüyün və Ayrıseçkiliyin Bütün Formalarının Ləğv Edilməsi haqqında Bəyannamə, 1981
- Milli və ya Etnik, Dini və Linqvistik Azlıqlara mənsub Şəxslərin Hüquqları haqqında Bəyannamə, 1992

## B. Regional mexanizmlər

- İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyası, 1981
- Amerika İnsan Hüquqları Konvensiyası, 1969
- Qadınlara qarşı Zorakılığın Qarşısının Alınması, Cəzalandırılması və Aradan Qaldırılması haqqında İnter-Amerika Konvensiyası, 1994
- Avropa İnsan Hüquqları Konvensiyası, 1950
- Avropa Sosial Xartiyası, 1962 və Avropa Sosial Xartiyası (yenilənmiş), 1996

# III. FƏSİL/SESSİYANIN MƏQSƏDLƏRİ

12-ci fəslin məqsədləri aşağıdakılardır:

- İştirakçıları düşüncə, vicdan, din, fikir, ifadə, birləşmək və toplaşmaq azadlıqları və insan hüquqlarına sayqı duyan cəmiyyətdə onların önəmi barədə bilgiləndirmək;
- Bu azadlıqların, eləcə də onların böyük əksəriyyətinin təcrübədə beynəlxalq monitorinq orqanları tərəfindən necə tətbiq edilməsini aydınlaşdırmaq;
- Bu fəsildə nəzərdən keçirilən azadlıqların təmin edilməsində hakimlərin, prokurorların və vəkillərin rollarını izah etmək.

## IV. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR

12-ci fəsildə müəyyən edilən beynəlxalq hüquqi qaydalar çərçivəsində toxunulacaq əsas məqamlar və iştirakçılarla müzakirə ediləcək başlıca məsələlər aşağıdakılardır:

- İştirakçıların çalışdıqları ölkələrdə aşağıdakı azadlıqlar necə müdafiə edilir:
  - Düşüncə, vicdan və din azadlıqları;
  - Fikir və ifadə azadlıqları; və
  - Birləşmək və toplaşmaq azadlıqları;
- İştirakçıların çalışdıqları ölkələrdə bu azadlıqların səmərəli tətbiqi ilə bağlı hər hansı xüsusi narahatçılıq varmı;
- İştirakçıların çalışdıqları ölkələrdə bu azadlıqlardan biri və ya bir neçəsinin pozulması ilə üzləşən hər hansı həssas qrup varmı;
- Əgər varsa, iştirakçılar bu qrupların nə olduğunu və onların azadlıqlarının necə pozula biləcəyini izah etməlidirlər;
- İştirakçıların çalışdıqları ölkələrdə özlərini bu azadlıqların pozulmasının qurbanı hesab edən şəxslər üçün hansı məhkəmə və ya inzibati vasitələr mövcuddur;
- İştirakçıların düşüncəsində qeyd edilən azadlıqlar demokratik və insan hüquqlarına sayqı duyan cəmiyyətin qurulmasında, qorunmasında və/və ya gücləndirilməsində hansı rol oynayır:
  - Düşüncə, vicdan və din azadlıqları;
  - Fikir və ifadə azadlıqları; və
  - Birləşmək və toplaşmaq azadlıqları;
- Həyata keçirilməsi məhdudlaşdırıla bilən bu azadlıqlarla bağlı: fərdin bu azadlıqları həyata keçirmək hüququ ilə müqayisədə cəmiyyətin, məsələn, milli təhlükəsizlik, ictimai qayda, təhlükəsizlik, sağlamlıq, əxlaq və ya digər şəxslərin hüquq və azadlıqlarının qorunmasında ümumi maraqları ilə müqayisədə gözlənilməli olan balans nədir;
- İştirakçılar hakim, prokuror və ya vəkil olaraq hər kəsin düşüncə, vicdan, din, fikir, ifadə, birləşmək və toplaşmaq azadlıqlarını qorumaq üçün nə edə bilərlər.

# V. 12-Cİ FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLLƏRİ

## A. Düşüncə, vicdan və din azadlıqları üçün sessiyanın planlaşdırlması cədvəli

| Başlıca məqamlar/fəaliyyət | Metod | Media | Zaman |
|---|---|---|---|
| 1. 12-ci fəslin məqsədləri | Təqdimat | Kompüter slaydları, kağız lövhə | 5 dəqiqə |
| 2. Kursun təqdimatı:<br>Vəsaitin 12-ci fəslinə və yuxarıdakı III and IV bölmələrdə müəyyən edilən əsas məqamlara əsaslanmaqla, komanda aşağıdakılar da daxil olmaqla müvafiq hüquqi mexanizmlər və onların tətbiqi ilə bağlı təqdimat edir:<br>a. şəxsin seçdiyi dinə malik olmaq, qəbul etmək və ya dəyişdirmək hüququ;<br>b. şəxsin mənsub olduğu dini və ya etiqadını ifadə etmək hüququ;<br>c. şəxsin mənsub olduğu dini və ya etiqadını ifadə etmək hüququna məhdudiyyətlər;<br>d. şəxsin mənsub olduğu dini və ya etiqadını ifadə etmək hüququna qadağalar;<br>e. din azadlığı və dövlət məktəbinin təlimatı;<br>f. Dövlət dini və dini azlıqlar;<br>g. dini əsaslarla vicdanlı etiraz.<br>Qruplarda işin izahı | İnteraktiv təqdimatlar | Kompüter slaydları, kağız lövhə, özüyapışan kağız, standart və prinsipləri özündə əks etdirən paylama materialları | 45 dəqiqə |
| 3. Dincəliş və qruplara bölünmə | | | 5 dəqiqə |
| 4. Kazus, rol oyunu və ya digər çalışma üzərində qruplarda iş | | Kağız lövhə və s. (zərurət olarsa) | 30 dəqiqə |
| 5. Kofe-çay fasiləsi | | | 20 dəqiqə |
| 6. Təqdimat | Qruplar kazus, rol oyunu və ya çalışma ilə bağlı hesabat verir | Kağız lövhə və s. (zərurət olarsa) | 45 dəqiqə |
| | | | **Ümumi vaxt: 2 saat 30 dəq.** |

## B. Fikir və ifadə azadlıqları üçün sessiyanın planlaşdırılması cədvəli

| Başlıca məqamlar/fəaliyyət | Metod | Media | Zaman |
|---|---|---|---|
| 1. 12-ci fəslin məqsədləri | Təqdimat | Kompüter slaydları, kağız lövhə | 5 dəqiqə |
| 2. Kursun təqdimatı: Vəsaitin 12-ci fəslinə və yuxarıdakı III and IV bölmələrdəki əsas məqamlara əsaslanmaqla, komanda aşağıdakı **seçmə məsələlərin təqdimatını** edir:<br>a. Müvafiq hüquqi mexanizmlərin və onların tətbiqinin ümumi təqdimatı;<br>b. Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 19-cu maddəsi:<br>– defamasiya və yanlış məlumatın yayılması;<br>– insanlıq əleyhinə cinayətlərin inkarı və nifrətin təbliğatı;<br>– milli təhlükəsizlik və ictimai qaydaya hədələr;<br>– mətbuat azadlığı;<br>– insan hüquqları müdafiəçiləri.<br>c. İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyasının 9-cu maddəsi<br>d. Amerika İnsan Hüquqları Konvensiyasının 13-cü maddəsi:<br>– kütləvi informasiya vasitələrinin rolu da daxil olmaqla, ifadə azadlığının fərdi və kollektiv ölçüləri;<br>– ifadə azadlığı və demokratik cəmiyyətdə ictimai qayda anlayışı;<br>– "təmin etmənin zəruriliyi" ifadəsinin anlayışı<br>– 13-cü maddənin mümkün pozuntuları.<br>e. Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsi:<br>– sadə izahlı yanaşma;<br>– mətbuat azadlığı;<br>– peşə birliklərinin seçilmiş üzvlərinin və seçilmiş siyasətçilərin ifadə azadlığı;<br>– bədii özünüifadə azadlığı.<br>Qruplarda işin izahı | İnteraktiv təqdimat | Kompüter slaydları, kağız lövhə, özüyapışan kağız, standart və prinsipləri özündə əks etdirən paylama materialları | 45 dəqiqə |
| 3. Dincəliş və qruplara bölünmə | | | 5 dəqiqə |
| 4. Kazus, rol oyunu və ya başqa çalışma üzərində qruplarda iş | | Kağız lövhə və s. (zərurət olarsa) | 30 dəqiqə |
| 5. Çay-kofe fasiləsi | | | 20 dəqiqə |
| 6. Təqdimat | Qruplar kazus, rol oyunu və ya digər çalışma ilə bağlı hesabat verir | Kağız lövhə və s. (zərurət olarsa) | 45 dəqiqə |
| | | | **Ümumi vaxt: 2 saat 30 dəq.** |

# C. Birləşmək və toplaşmaq azadlığı üçün sessiyanın planlaşdırılması cədvəli

| Başlıca məqamlar/fəaliyyət | Metod | Media | Zaman |
|---|---|---|---|
| 1. 12-ci fəslin məqsədləri | Təqdimat | Kompüter slaydları, kağız lövhə | 5 dəqiqə |
| 2. Kursun təqdimatı:<br>Vəsaitin 12-ci fəslinə və yuxarıdakı III və IV bölmələrdə əsas məqamlara əsaslanmaqla, komanda müvafiq hüquqi müddəaları təqdim edir:<br>a. Mülki və Siyasi Hüquqlar haqqında Paktın 21 və 22-ci maddələri<br>– "demokratik cəmiyyət" konsepsiyasının mənşəyi və anlayışı;<br>– birləşmək azadlığı;<br>– toplaşmaq azadlığı;<br>b. İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyasının 10-11-ci maddələri;<br>c. Amerika İnsan Hüquqları Konvensiyasının 15 və 16-cı maddələri;<br>d. Avropa İnsan Hüquqları Konvensiyasının 11-ci maddəsi<br>– birləşmək azadlığı, həmkarlar ittifaqları və "bağlı sex" sistemi;<br>– həmkarlar ittifaqı və kollektiv sazişlər;<br>– birləşmək azadlığı və siyasi partiyalar;<br>– vəkilin toplaşmaq azadlığı hüququ.<br>Qruplarda işin izahı | Interaktiv təqdimat | Kompüter slaydları, kağız lövhə, özüyapışan kağız, standart və prinsipləri əks etdirən paylama materialları | 45 dəqiqə |
| 3. Dincəliş və qruplara bölünmə | | | 5 dəqiqə |
| 4. Kazus üzərində qruplarda iş, rol oyunu və ya digər çalışma | | Kağız lövhə və s. (zərurət olarsa) | 30 dəqiqə |
| 5. Kofe-çay fasiləsi | | | 20 dəqiqə |
| 6. Təqdimat | Qruplar kazus, rol oyunu və ya digər çalışma ilə bağlı hesabat verir | Kağız lövhə və s. (zərurət olarsa) | 45 dəqiqə |
| | | | **Ümumi vaxt: 2 saat 30 dəq.** |

## *Fasilitatorlara məsləhət*

- Kursun gedişi zamanı Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın müddəaları və presedent hüququ, yaxud regional mexanizmlərdən hər hansı biri üzərində müzakirə imkanına baxmayaraq, iştirakçıların 12-ci fəsildə sadalanan digər müqavilələr əsasında formalaşan presedent hüququnun bəzi aspektləri barədə məlumatlandırılması faydalı olardı;
- Fasilitatorlar bu Bələdçidə təklif edilən sessiyanın planlaşdırılması cədvəlinə əməl etməli deyillər, amma iştirakçılar qrupuna uyğun gələn müvafiq azadlıqlarla bağlı sessiya təşkil etməsi arzuolunandır; bir-biri ilə sıx əlaqədə olan bütün müvafiq azadlıqlara diqqəti yönəltmək üçün sessiyanın vaxtı uzadıla bilər.

# VI. TƏLİM MATERİALLARI

## A. Kompüter slaydları (CD-ROM-a baxın)

1. Öyrənmə məqsədləri
2. Suallar I
3. Suallar II
4. Suallar III
5. Suallar IV
6. Müvafiq hüquqi mexanizmlər I: Universal mexanizmlər (1)
7. Müvafiq hüquqi mexanizmlər II: Universal mexanizmlər (2)
8. Müvafiq hüquqi mexanizmlər III: Regional mexanizmlər (1)
9. Müvafiq hüquqi mexanizmlər IV: Regional mexanizmlər (2)
10. Düşüncə, vicdan və din azadlığı hüququ: Əsas hüquqi sənədlər I
11. Düşüncə, vicdan və din azadlığı hüququ: Əsas hüquqi sənədlər II
12. Düşüncə, vicdan və din azadlığı hüququ: Əsas hüquqi sənədlər III
13. Düşüncə, vicdan və din azadlığı hüququ: Əsas hüquqi sənədlər IV
14. Düşüncə, vicdan və din azadlığı hüququ: Əsas hüquqi sənədlər V
15. Düşüncə, vicdan və din azadlığı hüququ: Əsas hüquqi sənədlər VI
16. Düşüncə, vicdan və din azadlığı hüququ: Bu nə deməkdir I
17. Düşüncə, vicdan və din azadlığı hüququ: Bu nə deməkdir II
18. Düşüncə, vicdan və din azadlığı hüququ: Bu nə deməkdir III
19. Düşüncə, vicdan və din azadlığı hüququ: Bu nə deməkdir IV
20. Şəxsin öz dini və ya etiqadını ifadə etmək hüququ

**21.** Şəxsin öz dini və ya etiqadını ifadə etmək hüququna qanuni məhdudiyyətlər

**22.** Din azadlığı və dövlət məktəbinin təlimatı I

**23.** Din azadlığı və dövlət məktəbinin təlimatı II

**24.** Dövlətin dinləri və dini azlıqlar

**25.** Hərbi xidmətə vicdanlı etiraz I

**26.** Hərbi xidmətə vicdanlı etiraz II

**27.** Fikir və ifadə azadlığı hüququ: Əsas hüquqi sənədlər I

**28.** Fikir və ifadə azadlığı hüququ: Əsas hüquqi sənədlər II

**29.** Fikir və ifadə azadlığı hüququ: Əsas hüquqi sənədlər III

**30.** Fikir və ifadə azadlığı hüququ: Əsas hüquqi sənədlər IV

**31.** Fikir və ifadə azadlığı hüququ: Əsas hüquqi sənədlər V

**32.** Fikir və ifadə azadlığı hüququ: Əsas hüquqi sənədlər VI

**33.** Fikir və ifadə azadlığı hüququ: Əsas hüquqi sənədlər VII

**34.** Fikir və ifadə azadlığı hüququ: Əsas hüquqi sənədlər VIII

**35.** Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 19 (1)-ci maddəsinə əsasən, fikir azadlığı

**36.** Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 19 (2) və (3)-cü maddələrinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir I

**37.** Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 19 (2) və (3)-cü maddələrinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir II

**38.** Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 19 (2) və (3)-cü maddələrinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir III

**39.** Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 19 (2) və (3)-cü maddələrinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir IV

**40.** Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 19 (2) və (3)-cü maddələrinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir V

**41.** Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 19 (2) və (3)-cü maddələrinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir VI

**42.** Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 19 (2) və (3)-cü maddələrinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir VII

**43.** Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 19 (2) və (3)-cü maddələrinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir VIII

**44.** Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 19 (2) və (3)-cü maddələrinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir IX

**45.** Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 19 (2) və (3)-cü maddələrinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir X

**46.** Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 19 (2) və (3)-cü maddələrinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir XI

**47.** Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 19 (2) və (3)-cü maddələrinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir XII

**48.** Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 19 (2) və (3)-cü maddələrinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir XIII

**49.** İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyasının 9-cu maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir I

**50.** İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyasının 9-cu maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir II

**51.** İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyasının 9-cu maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir III

**52.** Amerika İnsan Hüquqları Konvensiyasının 13-cü maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir I

**53.** Amerika İnsan Hüquqları Konvensiyasının 13-cü maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir II

**54.** Amerika İnsan Hüquqları Konvensiyasının 14-cü maddəsinə əsasən, cavab vermək hüququ

**55.** Amerika İnsan Hüquqları Konvensiyasının 13-cü maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir III

**56.** Amerika İnsan Hüquqları Konvensiyasının 13-cü maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir IV

**57.** Amerika İnsan Hüquqları Konvensiyasının 13-cü maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir V

**58.** Amerika İnsan Hüquqları Konvensiyasının 13-cü maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir VI

59. Amerika İnsan Hüquqları Konvensiyasının 13-cü maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir VII

60. Amerika İnsan Hüquqları Konvensiyasının 13-cü maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir VIII

61. Amerika İnsan Hüquqları Konvensiyasının 13-cü maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir IX

62. Amerika İnsan Hüquqları Konvensiyasının 13-cü maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir X

63. Amerika İnsan Hüquqları Konvensiyasının 13-cü maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir XI

64. Amerika İnsan Hüquqları Konvensiyasının 13-cü maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir XII

65. Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir I

66. Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir II

67. Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir III

68. Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir IV

69. Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir V

70. Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir VI

71. Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir VII

72. Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir VIII

73. Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir IX

74. Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir X

**75.** Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir XI

**76.** Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir XII

**77.** Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir XIII

**78.** Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir XIV

**79.** Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir XV

**80.** Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir XVI

**81.** Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir XVII

**82.** Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir XVIII

**83.** Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinə əsasən, ifadə azadlığı: Bu nə deməkdir XIX

**84.** Birləşmək azadlığı: Əsas hüquqi sənədlər I

**85.** Birləşmək azadlığı: Əsas hüquqi sənədlər II

**86.** Dinc toplaşmaq azadlığı: Əsas hüquqi sənədlər I

**87.** Birləşmək və toplaşmaq azadlıqları: Əsas hüquqi sənədlər I

**88.** Birləşmək və toplaşmaq azadlıqları: Əsas hüquqi sənədlər II

**89.** Birləşmək azadlığı: Əsas hüquqi sənədlər III

**90.** Dinc toplaşmaq azadlığı: Əsas hüquqi sənədlər II

**91.** Birləşmək və toplaşmaq azadlıqları: Əsas hüquqi sənədlər III

**92.** Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 22 və 21-ci maddələrinə əsasən, birləşmək və toplaşmaq azadlıqları: Bu azadlıqlar nə deməkdir I

**93.** Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 22 və 21-ci maddələrinə əsasən, birləşmək və toplaşmaq azadlıqları: Bu azadlıqlar nə deməkdir II

**94.** Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 22 və 21-ci maddələrinə əsasən, birləşmək və toplaşmaq azadlıqları: Bu azadlıqlar nə deməkdir III

**95.** Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 22 və 21-ci maddələrinə əsasən, birləşmək və toplaşmaq azadlıqları: Bu azadlıqlar nə deməkdir IV

**96.** İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyasının 10-cu maddəsinə əsasən, birləşmək azadlıqları: Bu nə deməkdir I

**97.** İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyasının 10-cu maddəsinə əsasən, birləşmək azadlıqları: Bu nə deməkdir II

**98.** İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyasının 10-cu maddəsinə əsasən, birləşmək azadlıqları: Bu nə deməkdir III

**99.** Avropa İnsan Hüquqları Konvensiyasının 11-ci maddəsinə əsasən, birləşmək və toplaşmaq azadlıqları: Bunlar nə deməkdir I

**100.** Avropa İnsan Hüquqları Konvensiyasının 11-ci maddəsinə əsasən, birləşmək və toplaşmaq azadlıqları: Bunlar nə deməkdir II

**101.** Avropa İnsan Hüquqları Konvensiyasının 11-ci maddəsinə əsasən, birləşmək və toplaşmaq azadlıqları: Bunlar nə deməkdir III

**102.** Avropa İnsan Hüquqları Konvensiyasının 11-ci maddəsinə əsasən, birləşmək və toplaşmaq azadlıqları: Bunlar nə deməkdir IV

**103.** Avropa İnsan Hüquqları Konvensiyasının 11-ci maddəsinə əsasən, birləşmək və toplaşmaq azadlıqları: Bunlar nə deməkdir V

**104.** Avropa İnsan Hüquqları Konvensiyasının 11-ci maddəsinə əsasən, birləşmək və toplaşmaq azadlıqları: Bunlar nə deməkdir VI

**105.** Avropa İnsan Hüquqları Konvensiyasının 11-ci maddəsinə əsasən, birləşmək və toplaşmaq azadlıqları: Bunlar nə deməkdir VII

**106.** Avropa İnsan Hüquqları Konvensiyasının 11-ci maddəsinə əsasən, birləşmək və toplaşmaq azadlıqları: Bunlar nə deməkdir VIII

**107.** Avropa İnsan Hüquqları Konvensiyasının 11-ci maddəsinə əsasən, birləşmək və toplaşmaq azadlıqları: Bunlar nə deməkdir IX

**108.** Avropa İnsan Hüquqları Konvensiyasının 11-ci maddəsinə əsasən, birləşmək və toplaşmaq azadlıqları: Bunlar nə deməkdir X

**109.** Avropa İnsan Hüquqları Konvensiyasının 11-ci maddəsinə əsasən, birləşmək və toplaşmaq azadlıqları: Bunlar nə deməkdir XI

110. Avropa İnsan Hüquqları Konvensiyasının 11-ci maddəsinə əsasən, birləşmək və toplaşmaq azadlıqları: Bunlar nə deməkdir XII

111. Avropa İnsan Hüquqları Konvensiyasının 11-ci maddəsinə əsasən, birləşmək və toplaşmaq azadlıqları: Bunlar nə deməkdir XIII

112. Avropa İnsan Hüquqları Konvensiyasının 11-ci maddəsinə əsasən, birləşmək və toplaşmaq azadlıqları: Bunlar nə deməkdir XIV

113. Avropa İnsan Hüquqları Konvensiyasının 11-ci maddəsinə əsasən, birləşmək və toplaşmaq azadlıqları: Bunlar nə deməkdir XV

114. Avropa İnsan Hüquqları Konvensiyasının 11-ci maddəsinə əsasən, birləşmək və toplaşmaq azadlıqları: Bunlar nə deməkdir XVI

## B. Çalışmalar

### d*Çalışma 1*

Fərdi, yaxud 4-5 nəfərdən ibarət qruplara bölməklə iştirakçılara təxminən 30 dəqiqə zaman ayırın və 12-ci fəsildə müzakirə edilən sualları **düşüncə, din və vicdan azadlıqlarına** aid hissədə analiz etmələrini təmin edin. Bu məsələlər iştirakçıların çalışdıqları ölkənin hüquqi və faktiki vəziyyəti çərçivəsində təhlil edilməlidir. İştirakçılar 3 və ya 4-dən çox olmayan məsələ seçməli və bu mövzuların onların ölkələrində düşüncə, vicdan və din azadlıqlarının səmərəli müdafiəsi zamanı hansı problem doğura biləcəyini müəyyən etməlidirlər. Müvafiq ölkədəki durumdan asılı olaraq, analiz bu məsələləri əhatə edə bilər:

- Qanun və təcrübə əsasında sərbəst şəkildə dinə malik olmaq, qəbul etmək və dəyişdirmək hüququ;
- Din və etiqad sahəsində məcburiyyət problemi;
- Şəxsin dini ifadə etmək hüququ;
- Şəxsin dini ifadə etmək hüququna məhdudiyyətlər;
- Valideynlərin dini və mənəvi görüşləri dövlət məktəblərində məcburi tədris planına qarşı;
- Ölkədə müxtəlif dinlərin birgə mövcudluğu və dini azlıqlara qarşı mümkün ayrıseçkilik məsələsi;
- Vicdanlı etirazçıların mövcudluğu;
- Din azadlığının müvafiq ölkədə rolu.

d ***Çalışma 2***

Fərdi, yaxud 4-5 nəfərdən ibarət qruplara bölməklə iştirakçılara təxminən 30 dəqiqə zaman ayırın və 12-ci fəsildə müzakirə edilən sualları **fikir və ifadə azadlıqları hüququna** aid hissədə analiz etmələrini təmin edin. Bu məsələlər iştirakçıların çalışdıqları ölkənin hüquqi və faktiki vəziyyəti çərçivəsində təhlil edilməlidir. İştirakçılar 3 və ya 4-dən çox olmayan məsələ seçməli və bu mövzuların onların ölkələrində fikir və ifadə azadlıqlarının səmərəli müdafiəsi zamanı hansı problem doğura biləcəyini müəyyən etməlidirlər. Müvafiq ölkədəki durumdan asılı olaraq, analiz bu məsələləri əhatə edə bilər:

- İctimai həyatda, o cümlədən siyasi və mədəni həyat məsələlərində özünü sərbəst ifadə etmək hüququ;
- İfadə azadlığının həyata keçirilməsinə məhdudiyyətlərin qoyulmasının mümkünlüyü və milli təhlükəsizlik və ictimai qayda, terrorizmin qarşısının alınması və s. məhdudiyyətlərə haqq qazandıra bilən səbəblər;
- Mətbuat azadlığı; qəzetlərin, radio stansiyaların və televiziya xəbər kanallarının çoxluğu;
- İfadə azadlığına məhdudiyyətləri mübahisələndirmək üçün səmərəli vasitələrin mövcudluğu;
- Ölkədə ifadə azadlığının oynadığı rol.

d ***Çalışma 3***

Fərdi, yaxud 4-5 nəfərdən ibarət qruplara bölməklə iştirakçılara təxminən 30 dəqiqə zaman ayırın və 12-ci fəsildə müzakirə edilən sualları **birləşmək və toplaşmaq azadlıqları hüququna** aid hissədə analiz etmələrini təmin edin. Bu məsələlər iştirakçıların çalışdıqları ölkənin hüquqi və faktiki vəziyyəti çərçivəsində təhlil edilməlidir. İştirakçılar 3 və ya 4-dən çox olmayan məsələ seçməli və bu mövzuların onların ölkələrində birləşmək və toplaşmaq azadlıqlarının səmərəli müdafiəsi zamanı hansı problem doğura biləcəyini müəyyən etməlidirlər. Müvafiq ölkədəki durumdan asılı olaraq, analiz bu məsələləri əhatə edə bilər:

- Həmkarlar ittifaqları və onların kollektiv təşkilatlanmaq və danışıqlar aparmaq və dövlətlə sazişlər bağlamaq azadlığı;
- “Bağlı sex” sistemlərinin mövcudluğu;
- Dövlət qulluqçuları, polis və s. üçün birləşmək azadlığı;
- Qeyri-hökumət təşkilatlarının, məsələn, insan hüquqlarının təbliğatı və müdafiəsi məqsədilə yaradılması;
- Siyasi partiyaların yaradılması və siyasi partiyaların çoxluğu, yaxud çoxluğun yoxluğu;
- Hökumət tərəfindən qəbul edilən ictimai-siyasi qərarlara qarşı və ya hər hansı digər səbəbdən sərbəst və dinc yolla toplaşmaq hüququ.

## C. Müzakirə mövzusu

Vəsaitin 14-cü fəslində mülki və siyasi hüquqlarla iqtisadi, sosial və mədəni hüquqların qarşılıqlı təsiri məsələsi müzakirə edilir. 12-ci fəsil din, fikir, ifadə, birləşmək və toplaşmaq azadlıqları və demokratik cəmiyyətdə bu azadlıqların oynadığı əsas rol, eləcə də insan hüquqlarına və əsas azadlıqlarına hörmət edən cəmiyyət arasında sıx əlaqədən söhbət açır. Bu səbəbdən, dövlətin iqtisadi və sosial ölçülərini əhatə etmək üçün müzakirəni genişləndirmək maraqlı olardı. İştirakçılar, məsələn, bu mövzunu müzakirə edə bilərlər:

### *İfadə azadlığı və inkişaf:*

**Sosial və iqtisadi hüquqların təbliğində azad mətbuatın rolu**

Fasilitator çalışmalıdır ki, iştirakçılar azad mətbuatın dövlətin iqtisadi və sosial qaydalarına, məsələn, aşağıdakı yollarla təsirinə diqqət etsinlər:

- Dövlət qərarvericilərinin öz hərəkət və hərəkətsizliklərinə görə cavab vermələrinə nail olmaq;
- Pozitiv və neqativ aspektləri göstərməklə hökumətlər tərəfindən sosial və iqtisadi sahələrdə qəbul edilən qərarları mübahisələndirmək;
- Quraqlıq, aclıq, toksik zəhərlənmələr və s. ekoloji fəlakətlərlə bağlı problemləri yüngülləşdirmək, qarşısını almaq və ya həll etməkdə "ictimai keşikçi köpək" kimi çıxış etmək;
- Səmərəli iqtisadi inkişafa mane olan faktorların- korrupsiya, yanlış idarəetmə problemlərinin qarşısını almaq və ya həll etmək məqsədilə "ictimai keşikçi köpək" kimi çıxış etmək.

## D. Kazusla iş

**I. Din azadlığı:**[19] Corc və Mark dostdurlar və hər ikisi Eksland hava qüvvələrinin zabitidir. Onların mənsub olduğu Xristian Kilsəsinin baxışı belədir ki, bütün dindarlar yevangelist təriqətini yaymağa borcludurlar. Dini inanclarına ciddi yanaşaraq Corc və Mark hərbi hissədə tabeçiliklərində olanlardan bəziləri ilə söhbətlər aparmağa başlayırlar, hava ekipajının üzvü olan həmkarlarını dini müzakirələrə, İncili oxumağa cəlb edir, onları öz Kilsələrinin inancını qəbul etməyə həvəsləndirirlər. Corc və Mark boş vaxtlarında Kilsədə xüsusilə fəaldırlar və özəlliklə, Seta adlı bir qadının Kilsəyə qoşulmasına nail olurlar. Setanın əri də qoşulmaq qərarı verir, ancaq bu, nəticədə ailədə parçalanmaya gətirir. Seta çox kədərlidir, psixoloji problemləri yaranır və sonda Corc, Mark və Kilsə ilə bütün əlaqələri kəsir.

Corc və Mark dini təbliğatda ittiham olunurlar: Eksland Hava Qüvvələri Məhkəməsinin qərarına əsasən, onlar hərbi hissədə digər hərbçilərin "dini inancına müdaxilə və onu dəyişdirmək məqsədilə" fəaliyyət göstəriblər və beləliklə də, iyerarxiya ilə özlərinə tabe həmkarlarının inamından sui-istifadə ediblər. Onlar, həmçinin, Seta ilə münasibətdə dini təbliğatda ittiham olunurlar, onun təcrübəsizliyindən və intellektual zəifliyindən "məharətlə yararlandıqları" bildirilir. Mark və Corc 5 ay azadlıqdan məhrumetmə cəzası alırlar. Eksland Məhkəmələri Hərbi Apelyasiya Məhkəməsi cəzanı şərti pul cəriməsi ilə əvəzləyir. Ancaq Corc və Mark 3 il ərzində pozuntunu təkrarlamayacaqları təqdirdə, cərimələr icra edilməyəcək. Corc və Mark bu ittihamlardan məyusdurlar. Onlar inanırlar ki, sadəcə Eksland Konstitusiyasının 19-cu maddəsində təsbit olunan din azadlığı hüquqlarından yararlanıblar.

**II. İfadə azadlığı:**[20] *The New Exland Times*-ın redaktoru Donald Kruiz "Dövlət sirləri"ni açan uzun və detallı bir məqalə dərc etdiyinə görə məhkəməyə verilir. Eyni zamanda ölkədə rüşvətxorluq və korrupsiya məqsədi daşıyan gizli hökumət vəsaitlərinin açıqlanması ilə bağlı ciddi siyasi çaxnaşma yaranır. Prokurorlar dərhal *The New Exland Times*-ın ofisindən axtarışa və gündəlik

qəzetin minlərlə nüsxəsinin müsadirəsinə order verirlər.

Ölkənin aparıcı və çox populyar qəzetinə qarşı bu cinayət işi hökumətin Ekslandın milli təhlükəsizliyini qorumaq marağı ilə bu yaxınlarda demokratik konstitusiya qəbul etmiş ölkədə mətbuat azadlığının önəmi arasında müvafiq balansa dair qızğın debatlar yaradır. Hökumət *The New Exland Times*-ı vəsaitlərin xərclənməsi üzrə detalları açıqlamaqla ölkənin təhlükəsizliyinə ziyan vurmaqda təqsirləndirilir. Hökumət bu vəsaitlərin kəşfiyyat fəaliyyətinə, qeyri-rəsmi diplomatiyaya və konfidensial araşdırmalara sərf olunduğunu bildirir. Hökumət qəzeti özəlliklə "tam məxfi" qrifli sənədlərin fotolarını dərc etdiyi üçün tənqid atəşinə tutur. *The New Exland Times*-dan Donald Kruiz isə hər hansı səhvin olmadığını deyərək bildirir ki, gizli vəsaitlərin detallarını açıqlayan məqalə hökumətin qeyri-qanuni və qeyri-etik fəaliyyətini hədəfləyib və onun dərci tamamilə ictimaiyyətin marağında olan məsələdir.
İştirakçılar bu kazusu 12-ci fəsildə göstərilmiş prinsiplərə uyğun mübahisələndirsinlər.

**III. İfadə azadlığı:**[21] Ceyn Olsen hüquqşünasdır və Eksland Parlamentinin üzvüdür. O, Ekslandın şimal hissəsi üçün müstəqillik tərəfdarı olan siyasi partiyanın siyahısından seçilib. Misk Dairəsində, əsasən, Ekslandın bir neçə milli azlıq qrupundan biri yaşayır. Həftəlik *Exland Magazine*-də dərc olunmuş "Azğın cəzasızlıq" başlıqlı məqalədə o, Misk Dairəsində əhali arasında bir neçə qətlin təşkilatçılarının tapılmamasına görə hakimiyyəti sərt sözlərlə pisləyib. O, məqalədə yazır: "qətllərdən, Misk Dairəsində törədilən, bitməyən sayda faşist qətllərin heç birində hakimiyyət bircə dəfə də olsun aydınlıq nişanəsi göstərməyib"; o, həmçinin bildirir ki, "bu qədər cinayətin təşkilatçılarının tapılması və cəzalandırılması üçün hakimiyyətdə olan sağ qanadın sərəncamında bütün imkanlar var", daha sonra əlavə edir "narahat olmayın, sağlar özlərini ələ verməzlər". Onun fikrincə, "qətllərə görə məsuliyyət daşıyan faşist birləşmələri hökumət aparatından kənarda mövcud deyil", ona görə də hökumət "qətllər üçün tam məsuliyyət daşıyır".

Ceynə qarşı Cinayət Məcəlləsinin 120-ci maddəsinin əksinə olaraq hökuməti təhqir etməyə görə cinayət işi açılır. Parlament işlə məşğul olan Eksland Ali Məhkəməsinin xahişi ilə Ceynin parlament toxunulmazlığını alır. Ali Məhkəmənin Cinayət Bölməsi Ceynə "Hökumət əleyhinə təhqirlər yaydığına" görə, 1 il azadlıqdan məhrumetmə cəzası verir. Əlavə cərimə kimi, ona hər hansı dövlət vəzifəsi tutmaq, yaxud hər hansı fəaliyyətlə məşğul olmaq qadağan edilir, eləcə də xərcləri ödəmək əmr olunur. Bütün şikayətlər rədd olunsa da, cərimələrin qüvvəyə minməsi 2 il təxirə salınır. Onu da qeyd etmək lazımdır ki, Ali Məhkəmə hesab edir ki, parlament imtiyazı sərt şərh edilməlidir, çünki əks halda bu, digərlərinin hüquqlarının pozulması üçün bir alətə çevrilər. Bu baxımdan, bu imtiyaz o zaman ləğv olunur ki, sahibi, hətta siyasətçi vəzifəsində belə, vətəndaş kimi hərəkət edir. Məhkəmə müdafiə tərəfin Ceynin bəyanatlarının həqiqiliyinə dair sübut təqdim etməsindən imtina edir.

[20] **Fasilitator üçün məlumat:** Bu kazus 25 mart 2002-ci ildə *The Financial Times*-da dərc olunmuş "Tayvanda redaktor ittihamlarla üz-üzə" məqaləsinə əsaslanır.

[21] **Fasilitatora məsləhət**: Bu kazus *Eur. Court HR, Case of Castells* v. *Spain, Judgement of 23 April 1992, Series A, No. 236*-dan götürülüb; Məhkəmə yekdilliklə qərar qəbul edib ki, bu işdə 10-cu maddə pozulub.

Ceyn iddia edir ki, məqaləsinin məqsədi yalnız siyasi tənqid olub, hökumət, yaxud onun üzvlərinə qarşı təhqir və ya təhdid niyyəti güdməyib. O, ifadə azadlığının pozulduğunu əsas gətirərək, İnsan Hüquqları Komitəsinə (regional hüquqi orqan) şikayət etmək istəyir.

12-ci Bölmədəki prinsiplərə əsaslanaraq, Ceynin kazusunu müzakirə edin və bu suallara cavab verin:

1 Ceynin ifadə azadlığına müdaxilə olubmu?

1 Əgər olubsa, müdaxilə qanuni olubmu?

1 Ceynin ifadə azadlığına məhdudiyyət qoyulmasına hansı hüquqi məqsəd və məqsədlərlə haqq qazandırmaq olar?

1 Hər hansı qanuni məqsəd üçün müdaxilə vacib sayıla bilərdimi? Müəyyən məqsədlərin qorunmasında ümumi maraqla fərdin öz azadlığından maksimum yararlanma marağı arasında qorunacaq balansı izah edin.

1 Bəyanatlar qəzetdə deyil, Parlamentdə verilsəydi, bunun fərqi olacaqdımı?

1 Demokratik cəmiyyətdə parlament üzvləri və digər seçilmiş təmsilçilərinin rolunu və onların geniş anlamda ifadə azadlığından yararlanmasının təhlükələrini, yaxud faydalarını müzakirə edin.

1 Ən sonda, bir şəxs, yaxud qəzetin ifadə azadlığının həyata keçirilməsində vəzifə və məsuliyyətini nəzərdən keçirin.

## E. Rol oyunu

*I HİSSƏ: FAKTLAR*

### Ümumi məlumat

**Birləşmək və toplaşmaq azadlıqları:**[22] Birləşmiş Ruritaniyalılar Təşkilatı (BRT) 10 fevral 1995-ci ildə yaradılır. Əsasnamə və proqramında deyilir ki, məqsədi "Ekslandda bütün Ruritaniyalıları regional və mədəniyyət əsasında birləşdirmək" və "Ekslandda Ruritaniya azadlığının tanınmasına" nail olmaqdır. Nizamnamənin 10-cu bölməsində deyilir ki, BRT Ekslandın ərazi bütövlüyünə təhlükə yaratmayacaq, yaxud onu pozmayacaq və məqsədinə çatmaq üçün "zorakı, qəddar, qeyri-insani, yaxud qanunsuz vasitələrdən istifadə etməyəcək". Qurumun əsas fəaliyyəti Ekslanddakı Ruritaniyalılar üçün önəmli tarixi hadisələrin anım tədbirlərinin təşkilidir.

[22] Fasilitatora məsləhət: *Eur. Court HR, Case of Stankov and the United Macedonian Organization Ilinden* v. *Bulgaria,* 2 oktyabr 2001-ci il qərarından götürülüb; Məhkəmə qərar verib ki, bu kazusda Avropa Konvensiyasının 11-ci maddəsinin təmin etdiyi toplaşmaq azadlığı pozulub. Ancaq bu rol oyunu elə hazırlanıb ki, sanki İnsan Hüquqları Komitəsinə təqdim olunub. Bu çalışma təlimin keçirildiyi yerdən asılı olaraq dəyişdirilə bilər; əgər müvafiq ölkə Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktı ratifikasiya etməyibsə, regional insan hüquqları müqaviləsini götürə bilər. Bu halda, sonuncu saziş rol oyunu üçün hüquqi istinad olmalıdır. Qeyd etmək lazımdır ki, Paktın Əlavə Protokolunun 1-ci maddəsinə əsasən, ancaq "fərdlər" İnsan Hüquqları Komitəsinə kommunikasiyalar təqdim edə bilərlər. Bu rol oyununu hazırlamaq üçün iştirakçılara yetərli vaxt verilməlidir.

BRT qeydiyyat üçün müraciət edir, ancaq Stadtoun Dairə Məhkəməsi müraciəti rədd edir. Məhkəmə araşdırır ki, qurumun nizamnamə və proqramının məqsədləri “millətin birliyinə qarşı yönəlib”. Məhkəmə müəyyən edir ki, təqdim olunan material BRT-nin “Eksland əhalisi arasında, xüsusilə konkret bir coğrafi ərazidə Ruritaniyalıların ideyalarını yaymağa” çalışdığını göstərir. Bu ideyalar “Eksland əhalisinin demilliləşdirilməsini və Ruritaniya əhalisinə çevrilməsini” nəzərdə tutur. Daha sonra deyilir ki, qurum “millətin birliyinə qarşı yönəlib” və ona görə də “Eksland Konstitusiyasının 54-cü maddəsi ilə qadağan olunur”.

Bundan sonra BRT iki görüş keçirə bilir. Bu görüşlər kiçik bir dağ kəndində keçirilir və iştirakçılar həmin iclaslar zamanı azlıq kimi sadalanan hüquqlarını vurğulayan bəyannamələr qəbul edirlər:

(1) beynəlxalq müqavilələrə uyğun olaraq özlərinin insan hüquqlarının qorunması;

(2) Ekslandın Ruritaniya hissəsində bütün məktəblərdə Ruritaniya dilinin tədrisinə başlanması;

(3) Ruritaniya dilində radio və televiziya yayımları;

(4) Ruritaniya dilində çap; və

(5) assimilyasiya prosesinə və Ruritaniya mədəniyyətinin dağılmasına son qoyulacağına dair təminat əldə edilməsi.

BRT qeydiyyatdan keçmədiyi və nəticədə “qanuni təşkilat” olmadığı üçün, xüsusi hadisələri və ya milli qəhrəmanların doğum günlərini anmaq üçün planlanan üç tədbirə icazə verilmir. Digər iki halda isə üzvlərə qəhrəmanın qəbrini ziyarətə icazə verilir, ancaq polis onların əraziyə plakat, bayraq, yaxud musiqi alətləri gətirməsinə mane olur. Polis məzar üstündə çıxışlara da icazə vermir. Hakimiyyət BRT-nin digər anım görüşlərinə də icazə vermir, çünki onlar “ictimai asayişə təhlükə yarada” bilərdilər.

BRT Stadtoun Dairə Məhkəməsinin qərarından şikayət verir və iş hazırda Eksland Ali Məhkəməsində baxılmasını gözləyir.

*I BÖLMƏ: SUALLAR VƏ ARQUMENTLƏR*

1. Siz BRT-ni Eksland Ali Məhkəməsində təmsil edən ***vəkilsiniz***. Aşağıda sadalanan məsələlərə dair mümkün qədər çox arqumentlər gətirin və Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın müvafiq maddələrinə əsaslanın:

   (a) Stadtoun Dairə Məhkəməsinin BRT-ni qurum olaraq qeydiyyatdan keçirməkdən imtinasının Paktın 22-ci maddəsinə əsasən qanuniliyi;

   bu sualları cavablandırmalısınız:

   (i) Addımın qanuniliyi;

   (ii) Qeydiyyatdan imtinanın məqsədi; və

   (iii) demokratik cəmiyyətdə bu tədbirə olan ehtiyac.

   (b) Müştərinizin dinc toplaşmaq hüququna müdaxilənin Paktın 21-ci maddəsinə uyğun olaraq qanuniliyi; bu suallara cavab verməlisiniz (a) (i)–(iii); bundan başqa, arqumentlərinizi bu hüquqa müdaxilənin iddia olunan səbəblərinə uyğunlaşdırın:

   (i) BRT “hüquqi təşkilat” olmayıb”;

   (ii) Polisin maneələri;

   (iii) “İctimai qayda”nın səbəbləri.

   (c) Eksland Ali Məhkəməsi qarşısında qaldırmağı məqsədəuyğun saydığınız digər arqumentlər və məsələlər.

2. Siz bu işlə bağlı Eksland Ali Məhkəməsində hökuməti təmsil edən ***vəkilsiniz*** və hökumətin potensial zorakı və təxribatçı separatçı saydığı qrupla bağlı gördüyü tədbirləri müdafiə edirsiniz. Siz hökumətin gördüyü tədbirləri əsaslandırmağa və BRT-nin ***vəkilinin*** 1-ci bənd (a)–(c)-yə uyğun olaraq gətirdiyi arqumentləri təkzib etməyə çalışmalısınız.

3. Eksland Ali Məhkəməsinin ***Hakimisiniz***. Bu kazusdan doğan hüquqi məsələləri necə həll edərdiniz? Bir-bir mübahisələndirin və qərar verin, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın müvafiq müddəalarına əsaslanın, kursda öyrəndiyiniz qaydaları tətbiq edin.

# 13-cü fəsil
# ƏDALƏT MÜHAKİMƏSİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ BƏRABƏRLİK VƏ QEYRİ-AYRISEÇKİLİK HÜQUQU

## Mündəricat


I. FASİLİTATORLAR ÜÇÜN QEYD........................................138

II. ƏSAS HÜQUQİ MƏNBƏLƏR........................................138

A. Universal mexanizmlər ........................................................138

B. Regional mexanizmlər ..........................................................139

III. FƏSLİN/SESSİYANIN MƏQSƏDLƏRİ………….. ........................140

IV. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR..........................................140

V. 13-CÜ FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ……………………………………………….................141

VI. TƏLİM MATERİALLARI ......................................................142

A. Kompüter slaydları..............................................................142

B. Çalışma .....................................................................144

C. Müzakirə mövzusu........................................................144

D. Rol oyunu.....................................................................145

E. Kazusla iş .................................................................146

F. Paylama materialı.........................................................147

# I. FASİLİTATORLAR ÜÇÜN QEYD

Bu Vəsaitin 13-cü fəsli 3-cü minilliyin başlanğıcında dünyanın üzləşdiyi çoxsaylı ciddi ayrıseçkilik problemlərinə qısa və ümumi giriş verir. Burada fərdləri və fərdlər qrupunu ayrıseçkilik aktları və təcrübəsinə qarşı müdafiə edən hüquqi standartların icrası ilə bağlı müxtəlif hüquq peşələrinin oynadığı əhəmiyyətli rolu vurğulanır. Bu fəsildə, həmçinin, Millətlər Liqasının Paktı ilə irqi bərabərlik prinsipinin olmaması barədə qısa danışılır.

Daha sonra bərabərlik hüququ və ayrıseçkiliyin qadağan edilməsi ilə bağlı əsas universal və regional hüquqi standartlar təsvir edilir.

Beynəlxalq hüququn mövcud presedent hüququna əsasən, azlıqların hüquqları da daxil olmaqla bərabərlik və ayrıseçkilik prinsipləri barədə beynəlxalq məhkəmə təcrübəsi üzrə müxtəlif nümunələr vermək üçün bərabərlik və qeyri-ayrıseçkilik anlayışları bu fəsildə ümumən müzakirə edilir.

Bu nümunələrin bəziləri nisbətən az əhəmiyyətli görünə bilər, çünki bir qrup fərdlər və fərdlər qrupu işlərinə beynəlxalq monitorinq orqanlarında baxılmış bəzilərindən daha çox ayrıseçkilikdən əziyyət çəkiblər. Bununla belə, presedent hüququ digər, daha çətin durumlarda gedilməli olan yolu açıqca göstərir, belə ki, həm qanunyaradıcılarının, həm də hüquq peşələrinin bərabərlik və ayrıseçkiliyin qadağan olunması hüququnun müəyyən edilməsində və icrasında rəhbər tuta biləcəyi və ya tutmalı olduğu universal hüquqi meyarı müəyyən edir.

# II. ƏSAS HÜQUQİ MƏNBƏLƏR

13-cü fəsil aşağıdakı hüquqi sənədlərə əsaslanır:[23]

## A. Universal mexanizmlər

- Birləşmiş Millətlər Təşkilatının Nizamnaması, 1945
- Soyqırım Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması haqqında Konvensiya, 1948
- Mülki və Siyasi Hüquqlar barədə Beynəlxalq Pakt, 1966
- İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt, 1966
- İrqi Ayrıseçkiliyin bütün Formalarının Ləğvi haqqında Beynəlxalq Konvensiya, 1965
- Qadınlara qarşı Ayrıseçkiliyin Bütün Formalarının Ləğv edilməsi haqqında Konvensiya,1979
- Uşaq Hüquqları haqqında Konvensiya, 1989
- Bütün Miqrant İşçilərin və onların Ailə Üzvlərinin Hüquqlarının Müdafiəsi haqqında Beynəlxalq Konvensiya, 1990

[23] Ayrıseçkiliklə bağlı daha çox beynəlxalq hüquqi mexanizmlər üçün paylama materialı № 13.1-ə baxın (CD-ROM).

- Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiya, 2006
- Beynəlxalq Cinayət Məhkəməsinin Roma Nizamnaməsi, 1998
- Keçmiş Yuqoslaviya üçün Beynəlxalq Cinayət Tribunalının Nizamnaməsi, 1993
- Rvanda üçün Beynəlxalq Cinayət Tribunalının Nizamnaməsi, 1994
- 12 August 1949-cu il tarixli 4 Cenevrə Konvensiyası
- 12 avqust 1949-cu Cenevrə Konvensiyalarına 1977-ci il Əlavə Protokolları

*****

- İnsan Hüquqlarına dair Ümumi Bəyannamə, 1948
- Din və ya Etiqad əsasında Dözümsüzlüyün və Ayrıseçkiliyin Bütün Formalarının Ləğv edilməsi haqqında Bəyannamə, 1981
- Milli və ya Etnik, Dini və Linqvistik Azlıqlara mənsub Şəxslərin Hüquqları haqqında Bəyannamə, 1992

## B. Regional mexanizmlər

- İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyası, 1981
- Uşaq Hüquqları və Rifahı haqqında Afrika Xartiyası, 1990
- Amerika İnsan Hüquqları Konvensiyası, 1969
- Qadınlara qarşı Zorakılığın Qarşısının Alınması, Cəzalandırılması və Aradan Qaldırılması haqqında İnter-Amerika Konvensiyası, 1994
- Əlilliyi olan Şəxslərə Qarşı Ayrıseçkiliyin Bütün Formalarının Ləğv edilməsi haqqında İnter-Amerika Konvensiyası, 1999
- Avropa İnsan Hüquqları Konvensiyası, 1950
- Avropa Sosial Xartiyası, 1961 və Avropa Sosial Xartiyası (Yenilənmiş), 1996
- Azlıqların Müdafiəsi üzrə Çərçivə Konvensiyası, 1995

# III. FƏSLİN/SESSİYANIN MƏQSƏDLƏRİ

13-cü fəslin məqsədləri aşağıdakılardır:

- İştirakçıları beynəlxalq insan hüquqları hüququnun müəyyən etdiyi mənada qanun qarşısında bərabərlik və qeyri-ayriseçkilik anlayışları ilə tanış etmək;
- Bu prinsiplərin təcrübədə universal və regional səviyyələrdə necə tətbiq edilməsini aydınlaşdırmaq;
- Diskriminativ davranışa xüsusilə həssas ola bilən bəzi qrupları müəyyən etmək;
- Qanun qarşısında bərabərlik və qeyri-ayrıseçkiliyi təmin etmək üçün hakimlər, prokurorlar və vəkillər tərəfindən həyata keçirilməli olan hüquqi addımları, tədbirləri və/və ya hərəkətləri izah etmək.

# IV. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR

13-cü fəsildə müzakirə edilən beynəlxalq hüquqi qaydalar çərçivəsində toxunulacaq əsas məqamlar və iştirakçılarla müzakirə ediləcək başlıca məsələlər aşağıdakılardır:

- İştirakçılar davranış zamanı "ayrıseçkilik" və/və ya "bərabərsizlik" anlayışlarını necə müəyyən edirlər;
- İştirakçıların çalışdıqları ölkələrdə qanun qarşısında bərabərlik və qeyri-ayrıseçkilik prinsipləri necə qorunur;
- İştirakçılar öz peşə həyatlarında ayrıseçkilik halları ilə qarşılaşıblarmı;
- İştirakçıların çalışdıqları ölkədə xüsusilə həssas olan qruplar varmı;
- Əgər varsa, qurbanlar kimlərdir və onlar ayrıseçkiliyə necə məruz qalırlar;
- İştirakçıların çalışdıqları ölkədə gender əsaslı hər hansı xüsusi ayrıseçkilik problemi varmı;
- Əgər varsa, bunlar hansılardır;
- İştirakçılar hüquq peşəkarları olaraq hər kəsin qanun qarşısında bərabərlik hüququnun qorunması və hər kəsin və şəxslər qrupunun ayrıseçkiliyə məruz qalmamaq hüquqlarının təmini üçün hansı tədbirləri həyata keçirməlidirlər?

# V. 13-CÜ FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ

| Başlıca məqamlar/Fəaliyyət | Metod | Media | Zaman |
|---|---|---|---|
| 1. 13-cü fəslin məqsədləri | Təqdimat | Kompüter slaydları, kağız lövhə | 5 dəqiqə |
| 2. Kursun təqdimatı:<br>Vəsaitin 13-cü fəslinə və yuxarıdakı III və IV fəsillərdəki əsas məqamlara əsaslanaraq, komanda bunlarla bağlı təqdimat edir:<br>a. beynəlxalq insan hüquqları hüququnda qanun qarşısında bərabərlik və qeyri-ayrıseçkilik prinsiplərinin anlayışı;<br>b. beynəlxalq monitorinq orqanları tərəfindən bu hüquqi prinsiplərin tətbiqi;<br>c. həssas qrupların müəyyən edilməsi;<br>d. hüquq peşələri üçün fəaliyyət istiqaməti.<br>Qruplarda işin izahı (kazus və ya digər çalışma üzərində iş) | Interaktiv təqdimatlar | Kompüter slaydları, k ağız lövhə, özüyapışan kağız, standart və prinsipləri cəmləşdirən paylama materialları | 30 dəqiqə |
| 3. Dincəliş və qruplara bölünmə | | | 5 dəqiqə |
| 4. Kazus və ya digər çalışma üzərində qruplarda iş | | Kağız lövhə və s. (zərurət olarsa) | 25 dəqiqə |
| 5. Dincəliş | | | 5 dəqiqə |
| 6. Təqdimat | Qruplar kazus və ya digər çalışma üzrə hesabat verirlər | Kağız lövhə və s. ( zərurət olarsa) | 30 dəqiqə |
| | | | **Ümumi vaxt: 1 saat 40 dəq.** |

# VI. TƏLİM MATERİALLARI

## A. Kompüter slaydları (CD-ROM-a baxın)

1. Öyrənmə məqsədləri
2. Suallar I
3. Suallar II
4. Müvafiq hüquqi mexanizmlər I: Universal mexanizmlər (1)
5. Müvafiq hüquqi mexanizmlər II: Universal mexanizmlər (2)
6. Müvafiq hüquqi mexanizmlər III: Universal mexanizmlər (3)
7. Müvafiq hüquqi mexanizmlər IV: Regional mexanizmlər (1)
8. Müvafiq hüquqi mexanizmlər V: Regional mexanizmlər (2)
9. Əsas hüquqi sənədlər I: Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi (1)
10. Əsas hüquqi sənədlər II: Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi (2)
11. Əsas hüquqi sənədlər III: İnsan Hüquqlarına dair Ümumi Bəyannamə
12. Əsas hüquqi sənədlər IV: Soyqırım Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması haqqında Konvensiya
13. Əsas hüquqi sənədlər V: Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt (1)
14. Əsas hüquqi sənədlər VI: Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt (2)
15. Əsas hüquqi sənədlər VII: İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt
16. Əsas hüquqi sənədlər VIII: İrqi Ayrıseçkiliyin Bütün Formalarının Ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya
17. Əsas hüquqi sənədlər IX: Uşaq Hüquqları haqqında Konvensiya (1)
18. Əsas hüquqi sənədlər X: Uşaq Hüquqları haqqında Konvensiya (2)
19. Əsas hüquqi sənədlər XI: Qadınlara qarşı Ayrıseçkiliyin Bütün Formalarının Ləğv edilməsi haqqında Konvensiya

**20.** Əsas hüquqi sənədlər XII: İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyası

**21.** Əsas hüquqi sənədlər XIII: Uşaq Hüquqları və Rifahı haqqında Afrika Xartiyası

**22.** Əsas hüquqi sənədlər XIV: Amerika İnsan Hüquqları Konvensiyası (1)

**23.** Əsas hüquqi sənədlər XV: Amerika İnsan Hüquqları Konvensiyası (2) – İqtisadi, Sosial və Mədəni Hüquqlar sahəsində Əlavə Protokol, "San Salvador Protokolu"

**24.** Əsas hüquqi sənədlər XVI: Qadınlara qarşı Zorakılığın Qarşısının Alınması, Cəzalandırılması və Aradan Qaldırılması haqqında İnter-Amerika Konvensiyası, "Belém do Pará Konvensiyası"

**25.** Əsas hüquqi sənədlər XVII: Əlilliyi olan Şəxslərə qarşı Ayrıseçkiliyin Bütün Formalarının Ləğv edilməsi haqqında İnter-Amerika Konvensiyası (1)

**26.** Əsas hüquqi sənədlər XVIII: Əlilliyi olan Şəxslərə qarşı Ayrıseçkiliyin Bütün Formalarının Ləğv edilməsi haqqında İnter-Amerika Konvensiyası (2)

**27.** Əsas hüquqi sənədlər XIX: Avropa İnsan Hüquqları Konvensiyası (1)

**28.** Əsas hüquqi sənədlər XX: Avropa İnsan Hüquqları Konvensiyası (2)

**29.** Əsas hüquqi sənədlər XXI: Avropa Sosial Xartiyası, 1961

**30.** Əsas hüquqi sənədlər XXII: Avropa Sosial Xartiyası (Yenilənmiş), 1996

**31.** Əsas hüquqi sənədlər XXIII: Azlıqların Müdafiəsi üzrə Çərçivə Konvensiyası, 1995

**32.** Bərabərlik hüququ və qeyri-ayrıseçkilik prinsipi: Beynəlxalq insan hüquqları hüququnun sütunu

**33.** Fövqəladə vəziyyətlərdə bərabərlik hüququ və qeyri-ayrıseçkilik prinsipi

**34.** Bərabərlik və qeyri-ayrıseçkilik anlayışları

## B. Çalışma

d *Çalışma 1*

Fərdi, yaxud 4-5 nəfərdən ibarət qruplara bölməklə iştirakçılara təxminən 30 dəqiqə zaman ayırın və 13-cü fəsildə müzakirə edilən sualların və məsələlərin müvafiq yerli hüquq sistemləri çərçivəsində analiz edilməsini təmin edin. İştirakçılar tənqidi yanaşmaqla aşağıdakılara çalışmalıdırlar:

1 Öz ölkələrində bərabərsizlik və ayrıseçkiliyin **mövcudluğunu** müəyyən etmək;

1 Bərabərsizlik və ayrıseçkiliyin qurbanlarının **kim** olduğunu təsvir etmək; bu mənada iştirakçılar digər əsaslarla yanaşı, hər hansı mövcud **gender əsaslı** ayrıseçkiliyi müəyyənləşdirməyə səy göstərməlidirlər.

1 Bərabərsizlik və ayrıseçkiliyin **nədə** ifadə olunduqlarını izah etmək;

1 Bərabərsizlik və ayrıseçkiliyin baş vermə **əsaslarını** və bunun **nə üçün** belə olduğunu analiz etmək;

1 Qanun qarşısında bərabərsizlik və ayrıseçkiliyin ləğv edilməsi üçün təkcə **hüquqi** deyil, həm də **faktiki həll yollarını təklif etmək.**

## C. Müzakirə mövzusu

Bu mövzu ətrafında dəyirmi stol, ümumi və ya kiçik qrup müzakirələri təşkil edin:

**Ədalət mühakiməsinin həyata keçirilməsində qeyri-bərabərlik və ayrıseçkilik: Hər kəs üçün bərabərlik və qeyri-ayrıseçkilik prinsiplərinin təminində hüquq peşələrinin yolları və vasitələri**

Debat zamanı digər suallarla yanaşı, aşağıdakı suallar nəzərdən keçirilə bilər:

1 Ədalət mühakiməsinin həyata keçirilməsində ayrıseçkiliyin mövcudluğunu və mümkündürsə, hətta nümunələrini necə aşkar etmək olar;

1 Bu fəslin giriş hissəsində təsvir edilən həssas qrupların müəyyən edilməsi;

1 Ayrıseçkiliyin belə formalarına ən səmərəli şəkildə necə cavab vermək olar;

1 Əcnəbi mənşəli və ya onların fikirləri ilə ümumən razılaşmayan şəxslərə qarşı zorakılıq tətbiq edə bilən irqçi və ya ksenofob qruplarla necə mübarizə aparmaq olar;

1 Milli qanunvericiliyin qeyri-bərabərlik və ayrıseçkiliyə son qoymasının səmərəliliyi;

1 Beynəlxalq müqavilələrin və qurumların qanun qarşısında bərabərlik və ayrıseçkiliyin qadağan edilməsi prinsiplərinin təminində səmərəliliyi;

1 Hakimlərin, prokurorların və vəkillərin bərabərlik və qeyri-ayrıseçkilik hüquqlarını təmin edən hüquqi müddəaları konkret işlərdə reallığa çevirməsində rolu;

1 Bütün insanların bərabər dəyərli olması prinsipinə sayqı duyulmasının təbliğatında dövlət orqanlarının və siyasi partiyaların, eləcə də təhsil qurumlarının, mətbuatın və qeyri-hökumət təşkilatlarının rolu.

# D. Rol oyunu

Peter Ekslandın Stadtoun şəhərində 17 yaşında olarkən baş verən soyğunçuluqla bağlı taksi sürücüsünü öldürməkdə ittiham olunan 19 yaşlı oğlandır. Peter Ekslandda etnik, mədəni və linqvistik xüsusiyyətləri olan və müxtəlif formalarda ayrıseçkilikdən əziyyət çəkən azlıqda olan qrup üzvüdür. Peter iddia edir ki, o, bu cinayəti törətməyib və cinayət təqibi saxta sübuta əsaslanır. Məhkum olunacağı təqdirdə ölüm cəzasının tətbiqi mütləqdir. Peteri müdafiə etmək üçün dövlət hesabına vəkil təyin olunur, amma vəkili ilə yola getmədiyindən Peter hiss edir ki, Ekslandın çoxluqda olan qrupunu təmsil edən vəkili ona həqiqətən də etibar etmir və dediklərinə inanmır. O, bu haldan çox narahatdır və tam etibar edə biləcəyi vəkil təyin edilməsini tələb edir. Bu tələb müvafiq məhkəmə tərəfindən rədd edilir.

Peter yetərincə sadə ailədəndir və ehtimal edilən cinayət hadisəsi zamanı yaşına görə xeyli uşaq idi. O, məktəbi yenicə bitirib, əvvəllər məhkum edilməyib, eləcə də hər hansı cinayət tarixçəsi yoxdur.

Peterə qarşı ittihamlar əsas etibarilə həmin cinayətin iştirakçısı olan bir təqsirlənləndirilən şəxsin verdiyi ifadəyə əsaslanır. Həmin şəxs özünü məsuliyyətdən kənarlaşdırmaqdan ötrü Peteri polis müstəntiqlərinə ən xoşagəlməz sözlərlə təsvir edir. O, hətta belə etməsini öz həbs yoldaşına etiraf edir və həmin şəxs həbsxana işçilərinə bu barədə məlumat verir. Buna baxmayaraq, belə önəmli məlumatın cinayət təqibi orqanlarına ötürülməsi ilə bağlı hər hansı tədbir görülmür. Peterə gəldikdə, bu ağır sınaq onu getdikcə yetkinləşdirir və cinayət təqibi orqanları və vəkili ilə münasibətlərində özünəəminlik qazanır. Hər bir halda onun başqa seçimi yoxdur: ittiham hökmündən və ölüm cəzasından yaxa qurtarmaq üçün bacardığı hər şeyi etməlidir.

Peter yüksək instansiyalarla mübarizədədir. O, prokurorun məhkəmə çıxışında yalanlar vasitəsilə ittihamdan qaçmağa çalışan "heyvan", etibarsız, qəddar qətldən sonra vicdan sərgiləməyən, cəzasının yüngülləşdirilməsinə layiq olmayan çox təhlükəli adam adlandırıldıqdan sonra andlı iclasçılar tərəfindən təqsirli hesab edilir. Prokuror yaxşı oratordır və odur ki, andlılar Peterin təqsirliliyinə inanırlar. Hakimin təqsirləndirilən şəxsə məcburi ölüm cəzası hökmü çıxarmaqdan başqa seçimi qalmır.

Peter tamamilə sarsılmış durumdadır. Amma o, tezliklə yenidən güc toplayır və ittiham hökmü və cəzadan şikayət etmək qərarına gəlir. Həyatda qalmaq üçün bu, onun son şansıdır. Nəhayət ki, Peter öz seçimi ilə vəkil tutur. Vəkil Peteri müdafiəyə hazırdır, amma vəkil yaxşı anlayır ki, göstərdiyi hüquqi yardıma görə ödəniş heç vaxt baş tutmaya bilər.

Xatırladaq ki, Eksland qanunvericiliyinin tərkib hissəsi sayılan Mülki və Siyası Hüquqlar haqqında Beynəlxalq Paktı ratifikasiya edib.

1. Siz ***Peterin vəkilisiniz***:

   - Apellyasiya Məhkəməsinə Peterin müdafiəsini hazırlayın; birinci instansiya məhkəməsinin ittiham hökmü və ölüm cəzasının tətbiqi ilə bağlı qərarına qarşı arqumentlər irəli sürün; polis istintaqının, prokurorun çıxışının və hakimin davranışının çatışmazlıqlarını göstərin;

   - Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın müvafiq müddəalarına istinad edin.

2. Siz ***prokurorsunuz***:

   - Siz ittiham hökmünün və cəzanın qüvvədə saxlanmasında və gənclər arasında artmaqda olan cinayətkarlıqla mübarizədə qətiyyətlisiniz; Peterin apellyasiya şikayətinin əsaslarına cavabınızı hazırlayın; faktlara və həm milli, lazımdırsa, həm də beynəlxalq hüquqa istinad etməklə mövqeyinizi mübahisələndirin.

3. Siz ***hakimsiniz***:

   - Peterin vəkilinin və prokurorun məhkəmə çıxışlarını necə qiymətləndirmənizdən

asılı olaraq, əsaslandırılmış qərar çıxarın.

# E. Kazusla iş

Bu kazus əsas etibarilə beynəlxalq monitorinq orqanlarından biri tərəfindən baxılmış şikayətə əsaslanır. Ölkənin, eləcə də şikayətçilərin adları uydurmadır.[24]

## I HİSSƏ: FAKTLAR

1. Anna qüvvədə olan immiqrasiya qaydalarına uyğun olaraq qanuni surətdə daimi yaşamaq məqsədilə Ekslandda məskunlaşır. Amma Annanın yoldaşına onunla Ekslandda qalmasına icazə verilmir. Anna aşağıdakı insan hüquqlarının pozuntularının qurbanı olmasını iddia edərək, beynəlxalq nəzarət orqanına müraciət edir: insan ləyaqətini alçaldan rəftara məruz qalmamaq hüququ, ailə həyatına hörmət hüququ, cinsi və irqi ayrıseçkiliyə məruz qalmamaq hüququ

2. Anna əslən Asiyalı olsa da, Afrika ölkələrindən birində anadan olub. O, vətəndaşlığı olmayan şəxsdir və Ekslandda qeyri-müəyyən müddətə qalması üçün icazəsi var. İki il sonra Anna Ekslanda 6 ay müddətinə turist kimi gəlməyə icazəsi olan əcnəbi kişi ilə ailə həyatı qurur. Annanın həyat yoldaşının onunla daimi olaraq Ekslandda qalmasına icazə verilməsi barədə ərizəsi rədd edilir və səbəb olaraq bildirilir ki, Anna Eksland vətəndaşı deyil və onun valideynlərindən heç biri bu ölkədə doğulmayıb.

4. Annanın həyat yoldaşı restoranda işləməyə başlayır və daha sonra cütlüyün bir usağı olur. Eksland hakimiyyət orqanları onun ölkədən getməsində israr etməyə başlayırlar və könüllü surətdə Ekslandı tərk etməyəcəyi təqdirdə, onu məcburi çıxaracaqları ilə hədələyirlər. O isə imtina edərək bildirir ki, yoldaşı Anna onun ölkəsində yaşaya bilməz, çünki Anna öz ailəsinə çox bağlıdır və onun doğma dilini bilmir. Gərginlik getdikcə daha da artır. Eksland hökuməti çox sərt mövqedədir və Annanın yoldaşının ölkəsinə onunla birlikdə getməsini daha da israrla istəyir. Anna Eksland qanunvericiyindən qəzəblidir və belə hesab edir ki, bu halın yaranmasının səbəbi etnik azlığa mənsub immiqrantların sayını azaltmaqdır.

5. Eksland hökuməti əmindir ki, yüksək işsizlik zamanı yerli əmək bazarını qorumaq üçün sərt immiqrasiya qanunlarına ehtiyac var. Hökumətə görə, kişi immiqrantların qadın immiqrantlara nisbətən yerli əmək bazarına təsiri daha çox olduğundan, kişilərin qadınlara nisbətən daha çox iş axtarması vacib statistik faktdır. Yeni immiqrasiya qanunvericiliyinin qəbulundan sonra kişi immiqrasiyasında azalma bu faktın əhəmiyyətini bir daha sübut edir. Hökumətə əsasən, il ərzində yaşamağa icazə verilən ərlərin sayı 5700 nəfər azalıb. Annaya tətbiq edildiyi kimi, immiqrasiya qaydalarının ikinci məqsədi ictimai rəyin nəzərə alınmasıdır.

[24] **Fasilitator üçün məlumat**: Annanın şikayətləri həm Avropa Komissiyası, həm də Avropa İnsan Hüquqları Məhkəməsi tərəfindən baxılan işin bir hissəsidir, *bax Eur. Court HR, Case of Abdulaziz, Cabales and Balkandali* v. *the United Kingdom, Judgement of 28 May 1985, Series A, No. 94*; Anna əslində Abdulazizdir, amma bu məlumat iştirakçılara işlərini və kazus üzərində müzakirələri tamamlayana qədər yayılmamalıdır.

## *II HİSSƏ: SUALLAR*

1. Annanın vəziyyəti **"ailə həyatı"**nın pozuntusunu yarada və bu yolla beynəlxalq insan hüquqları hüququ tərəfindən qoruna bilərdi? Ümumiyyətlə, Anna qeyri-müəyyən hüquqi vəziyyətdə olan kişi ilə ailə qurmaqla riskə girmişdi? Siz beynəlxalq monitorinq orqanı qarşısında işi aparırsınız. Zəhmət olmasa, arqumentlərinizi aşağıdakı istiqamətlərdən qurun:

   (a) **Annanın** mövqeyi

   (b) **Hökumətin** mövqeyi

   Müvafiq beynəlxalq hüquqi standartlara və mümkündürsə, presedent hüququna istinad edin.

2. Bu işdə Annanın məruz qaldığı rəftar **cinsi ayrıseçkilik** yaradır? Siz də beynəlxalq monitorinq orqanı qarşısında bu mövqedən çıxış edirsiniz. Zəhmət olmasa, arqumentlərinizi aşağıdakı istiqamətlərdən qurun:

   (a) **Annanın** mövqeyi

   (b) **Hökumətin** mövqeyi

   Müvafiq hüquqi standartlara istinad edin və arqumentlərinizi mümkün olduğu qədər beynəlxalq presedent hüququ ilə müdafiə edin.

3. Annanın məruz qaldığı rəftar **irqi ayrıseçkilik** yarada bilərdi? Əsaslandırmaq üçün arqumentlər tapın:

   (a) **Annanın** mövqeyi

   (b) **Hökumətin** mövqeyi

4. Annanın məruz qaldığı şərtlər beynəlxalq insan hüquqları hüququnun müəyyən etdiyi mənada **insan ləyaqətini alçaldan rəftar** sayılması üçün ciddidir? Eksland hökumətinin Annaya hörmət etmədiyini, yaxud yerli qanunvericiliyin icrasına nail olmaq üçün onu alçaltdığını söyləmək mümkündür? Zəhmət olmasa, müvafiq hüquqi müddəalara və mümkündürsə, presedent hüququna istinad edin.

# F. Paylama materialı (CD-ROM-a baxın)

1. İnsan hüquqları və ayrıseçkiliyin qadağan edilməsi

# 14-cü fəsil
# İQTİSADİ, SOSİAL VƏ MƏDƏNİ HÜQUQLARIN QORUNMASINDA MƏHKƏMƏLƏRİN ROLU

## Mündəricat


I. FASİLİTATORLAR ÜÇÜN QEYD....................................150

II. ƏSAS HÜQUQİ MƏNBƏLƏR.......................................150

A. Universal mexanizmlər.....................................................150

B. Regional mexanizmlər.................................................150

III. FƏSLİN/SESSİYANIN MƏQSƏDLƏRİ........... .........................151

IV. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR........................................151

V. 14-CÜ FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ .............................................................152

VI. TƏLİM MATERİALLARI..................................................153

A. Kompüter slaydları...........................................................153

B. Çalışmalar.....................................................................155

C. Müzakirə mövzusu.........................................................157

D. Rol oyunu.......................................................................158

E. Paylama materialları ..........................................................159

# I. FASİLİTATORLAR ÜÇÜN QEYD

Bu vəsaitin 14-cü fəsli beynəlxalq hüquqla təmin edilən iqtisadi, sosial və mədəni hüquqların bəzi önəmli aspektləri barədə ümumi məlumat verir. Burada, birinci, iki beynəlxalq insan hüquqları paktının olmasının səbəbləri, ikinci, insan hüquqlarının qarşılıqlı əlaqəsi və bölünməzliyi anlayışları izah edilir.

Üçüncü, bu sahədə aparıcı beynəlxalq müqavilələrlə təmin edilən hüquqların icmalı verilir və iqtisadi, sosial və mədəni hüquqların qorunmasında dövlətlərin hüquqi öhdəlikləri analiz edilir.

İqtisadi, sosial və mədəni hüquqların məhkəmə qaydasında mübahisələndirilən hüquqlar olub-olmaması sualını qısaca müzakirə etdikdən sonra fəsildə iki seçmə hüquq- **normal mənzil şəraiti hüququ** və **sağlamlıq hüququ** bir qədər detallı şəkildə araşdırılır. Bu mənada xüsusi diqqət İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsinə və müvafiq yerli məhkəmə təcrübəsinə ayrılır.

Nəhayət, iqtisadi, sosial və mədəni hüquqların qorunmasında hüquq peşələrinin rolu ilə bağlı xülasə edilir və fəsil yekun qeydlərlə tamamlanır.

# II. ƏSAS HÜQUQİ MƏNBƏLƏR

14-cü fəsil aşağıdakı hüquqi sənədlərə əsaslanır:

## A. Universal mexanizmlər

- İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt, 1966
- İnsan Hüquqlarına dair Ümumi Bəyannamə, 1948

## B. Regional mexanizmlər

- İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyası, 1981
- Amerika İnsan Hüquqları Konvensiyası, 1969
- Amerika İnsan Hüquqları Konvensiyasına İqtisadi, Sosial və Mədəni Hüquqlar Sahəsində Əlavə Protokol, 1988
- Avropa Sosial Xartiyası, 1961 və Avropa Sosial Xartiyası (yenilənmiş), 1996

# III. FƏSLİN/SESSİYANIN MƏQSƏDLƏRİ

14-cü fəslin məqsədləri aşağıdakılardır:

- İştirakçıları iqtisadi, sosial və mədəni hüquqları müdafiə edən əsas beynəlxalq hüquqi mexanizmlərlə tanış etmək;
- İştirakçılara bir tərəfdən iqtisadi, sosial və mədəni hüquqlar, digər tərəfdən mülki və siyasi hüquqlar arasında təbii münasibətləri izah etmək;
- İştirakçıları iqtisadi, sosial və mədəni hüquqların tətbiqi ilə bağlı üzv dövlətlərin hüquqi öhdəliklərinin təbiəti ilə tanış etmək;
- İştirakçılara bir sıra iqtisadi, sosial və mədəni hüquqların məzmunu barədə məlumat vermək;
- İqtisadi, sosial və mədəni hüquqların məhkəmə qaydasında mübahisələndirilməsi sualını iştirakçılarla müzakirə etmək;
- İştirakçıları iqtisadi, sosial və mədəni hüquqların müdafiəsində yerli məhkəmələrin önəmli rolu barədə tanış etmək;
- İqtisadi, sosial və mədəni hüquqların yerli səviyyədə tətbiqinə qatqıvermədə iştirakçıların hakim, prokuror və vəkil qismində potensialları barədə məlumatlılığını artırmaq.

# IV. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR

14-cü fəsildə müzakirə edilən beynəlxalq hüquqi qaydalar çərçivəsində toxunulacaq əsas məqamlar və iştirakçilarla müzakirə ediləcək başlıca məsələlər aşağıdakılardır:

- İştirakçıların çalışdıqları ölkədə iqtisadi, sosial və mədəni hüquqlar necə qorunur və həyata keçirilir;
- Bu hüquqların həyata keçirilməsində məhkəmələr hansı rolu oynayır;
- İştirakçıların çalışdıqları ölkədə iqtisadi, sosial və mədəni hüquqları təbliğ etmək və/və ya həyata keçirmək üçün məhkəmə müdafiəsindən başqa hansı mexanizmlər mövcuddur;
- İştirakçıların çalışdıqları ölkədə iqtisadi, sosial və mədəni hüquqların hansı aspektləri xüsusilə lazımlıdır;
- İştirakçıların çalışdıqları ölkədə iqtisadi, sosial və mədəni hüquqlar sahəsində hüquqi müdafiəyə xüsusilə ehtiyacı olan həssas qruplar varmı?
- Əgər varsa, onlar kimlərdir və onların hansı mənada xüsusi müdafiəyə ehtiyacları var;
- Bu müdafiə necə təmin edilib və səmərəlidirmi;
- İştirakçılar şəxsin iqtisadi, sosial və mədəni hüquqlarının səmərəli müdafiə edilməsində yerli vasitəni necə görürlər.

# V. 14-CÜ FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ

| Başlıca məsələlər/fəaliyyət | Metod | Media | Zaman |
|---|---|---|---|
| 1. 14-cü fəslin məqsədləri | Təqdimat | Kompüter slaydları, kağız lövhə | 5 dəqiqə |
| 2. Kursun təqdimatı.<br>Vəsatin 14-cü fəslinə və yuxarıda III və IV bölmələrə əsasən, komanda aşağıdakı əsas məsələləri təqdim edir:<br>a. nə üçün insan hüquqları üzrə iki beynəlxalq pakt var;<br>b. insan hüquqlarının qarşılıqlı əlaqəsi və bölünməzliyi;<br>c. universal və regional insan huquqları mexanizmləri ilə təmin olunan hüquqlar. | İnteraktiv təqdimatlar | Kompüter slaydları, kağız lövhə, özüyapışan kağız, standart və prinsipləri cəmləşdirən paylama materialları | 40 dəqiqə |
| 3. Dincəliş | | | 5 dəqiqə |
| 4. 14-cü fəslin təqdimatı davam edir:<br>d. iqtisadi, sosial və mədəni hüquqların məhkəmə qaydasında mübahisələndirilməsi məsələsi;<br>e. normal mənzil şəraiti hüququ;<br>f. sağlamlıq hüququ.<br>Qruplarda işin (çalışma və ya rol oyunu) izahı və qruplara bölünmə | İnteraktiv təqdimatlar | Kompüter slaydları, kağız lövhə, özüyapışan kağız, standart və prinsipləri cəmləşdirən paylama materialları | 40 dəqiqə |
| 5. Fasilə | | | 20 dəqiqə |
| 6. Çalışma və ya rol oyunu üzərində qruplarda iş | | kağız lövhə və s. (zərurət olarsa) | 60 dəqiqə |
| 7. Dincəliş | | | 10 dəqiqə |
| 8. Təqdimat | Qruplar çalışma və ya rol oyunu ilə bağlı hesabat verirlər | kağız lövhə və s (zərurət olarsa) | 60 dəqiqə |
| | | | **Ümumi vaxt: 4 saat** |

# VI. TƏLİM MATERİALLARI

## A. Kompüter slaydları (CD-ROM-a baxın)

1. Öyrənmə məqsədləri I
2. Öyrənmə məqsədləri II
3. Suallar I
4. Suallar II
5. Əsas hüquqi mexanizmlər
6. Nə üçün insan huquqları üzrə iki beynəlxalq pakt var I
7. Nə üçün insan huquqları üzrə iki beynəlxalq pakt var II
8. İnsan hüquqlarının qarşılıqlı əlaqəsi və bölünməzliyi
9. Təmin olunan hüquqlar I: İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt (1)
10. Təmin olunan hüquqlar II: İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt (2)
11. Təmin olunan hüquqlar III: İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt (3)
12. Təmin olunan hüquqlar IV: Uşaq Hüquqları və Rifahı haqqında Afrika Xartiyası (1)
13. Təmin olunan hüquqlar V: Uşaq Hüquqları və Rifahı haqqında Afrika Xartiyası (2)
14. Təmin olunan hüquqlar VI: Amerika İnsan Hüquqları Konvensiyası
15. Təmin olunan hüquqlar VII: İqtisadi, Sosial və Mədəni Hüquqlar sahəsində Amerika Konvensiyasına Əlavə Protokol (1)
16. Təmin olunan hüquqlar VIII: İqtisadi, Sosial və Mədəni Hüquqlar sahəsində Amerika Konvensiyasına Əlavə Protokol (2)
17. Təmin olunan hüquqlar IX: İqtisadi, Sosial və Mədəni Hüquqlar sahəsində Amerika Konvensiyasına Əlavə Protokol (3)

18. Təmin olunan hüquqlar X: İqtisadi, Sosial və Mədəni Hüquqlar sahəsində Amerika Konvensiyasına Əlavə Protokol (4)

19. Təmin olunan hüquqlar XI: İqtisadi, Sosial və Mədəni Hüquqlar sahəsində Amerika Konvensiyasına Əlavə Protokol (5)

20. Təmin olunan hüquqlar XII: Avropa Sosial Xartiyası, 1961 (1)

21. Təmin olunan hüquqlar XIII: Avropa Sosial Xartiyası, 1961 (2)

22. Təmin olunan hüquqlar XIV: Avropa Sosial Xartiyası, 1961 (3)

23. Təmin olunan hüquqlar XV: Avropa Sosial Xartiyası, 1961 (4)

24. Təmin olunan hüquqlar XVI: Avropa Sosial Xartiyası (Yenilənmiş), 1996 (1)

25. Təmin olunan hüquqlar XVII: Avropa Sosial Xartiyası (Yenilənmiş), 1996 (2)

26. Təmin olunan hüquqlar XVIII: Yekunlaşdırma

27. İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakta əsasən, dövlətlərin hüquqi öhdəlikləri I

28. İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakta əsasən, dövlətlərin hüquqi öhdəlikləri II

29. İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakta əsasən, dövlətlərin hüquqi öhdəlikləri III

30. Avropa Sosial Xartiyalarına əsasən, dövlətlərin hüquqi öhdəlikləri

31. İqtisadi, sosial və mədəni hüquqların məhkəmə qaydasında mübahisələndirilməsi I

32. İqtisadi, sosial və mədəni hüquqların məhkəmə qaydasında mübahisələndirilməsi II

33. Normal mənzil şəraiti hüququ I: Bu nə deməkdir (1)

34. Normal mənzil şəraiti hüququ II: Bu nə deməkdir (2)

35. Normal mənzil şəraiti hüququ III: Hüquqi öhdəliklər (1)

36. Normal mənzil şəraiti hüququ IV: Hüquqi öhdəliklər (2)

37. Normal mənzil şəraiti hüququ V: Məcburi çıxarmalar (1)

38. Normal mənzil şəraiti hüququ VI: Məcburi çıxarmalar (2)

39. Normal mənzil şəraiti hüququ VII: Çıxarılan nəticələr (1)

40. Normal mənzil şəraiti hüququ VIII: Çıxarılan nəticələr (2)

41. Normal mənzil şəraiti hüququ IX: Çıxarılan nəticələr (3)

42. Sağlamlıq hüququ I: Bu nə deməkdir (1)

43. Sağlamlıq hüququ II: Bu nə deməkdir (2)

44. Sağlamlıq hüququ III: Hüquqi öhdəliklər (1)

45. Sağlamlıq hüququ IV: Hüquqi öhdəliklər (2)

46. Sağlamlıq hüququ V: Milli presedent hüququndan çıxarılan nəticələr

## B. Çalışmalar

### d *Çalışma 1*

Fərdi, yaxud 4-6 nəfərdən ibarət qruplara bölməklə iştirakçılara təxminən 30 dəqiqə zaman ayırın və 14-cü fəsildə müzakirə edilən sualların müvafiq yerli hüquq sistemləri çərçivəsində analiz edilməsini təmin edin. Onlar 3 və ya 4-dən çox olmayan önəmli məsələ seçməlidirlər və bu mövzuların onların ölkəsində və ya ölkələrində hansı narahatlıq və/və ya problem doğura biləcəyini müəyyən etməlidirlər. Onlar iqtisadi, sosial və mədəni hüquqların tətbiqini necə yaxşılaşdırmağa dair ideyalar hazırlamaqla işlərini tamamlamalıdırlar.

Bu çalışma ilə əlaqədar toxunulası misallar aşağıdakılar ola bilər:

- İştirakçıların çalışdıqları ölkədə iqtisadi, sosial və mədəni hüquqların hüquqi qorunma dərəcəsi, əgər varsa;
- Ümumi, yaxud inzibati məhkəmələr iqtisadi, sosial və mədəni hüquqların ehtimal edilən pozuntularına baxa bilirmi;
- Bütün bu hüquqların ehtimal edilən pozuntuları üçün hər hansı başqa səmərəli həll varmı;
- İqtisadi, sosial və mədəni hüquqların tətbiqinin ümumi problemləri, xüsusilə də xəstələr, HİV/QİÇS-li şəxslər kimi həssas qruplar, özəlliklə hamilə qadınlar, yaxud körpə uşaqların anaları, qocalar, əlilliyi olan şəxslər, yerli əhali, müxtəlif siniflərdən olan adamlar, uşaqlar, qadınlar, sığınacaq axtaranlar, əcnəbi vətəndaşlar və s.-yə münasibətdə.

## *Çalışma 2*
### *İqtisadi, sosial və mədəni hüquqlarla mülki və siyasi hüquqların oxşar, fərqli cəhətləri və əlaqələri*

Bu çalışma fərdi, qrup, yaxud plenar iş üçün əlverişlidir. İştirakçıların iqtisadi, sosial və mədəni hüquqlarla mülki və siyasi hüquqların ***oxşar, fərqli cəhətləri*** və ***əlaqələrinin*** siyahısını hazırlamasını təmin edin. Onlar fikirlərini əsaslandırmaq üçün misallar da çəkməlidirlər.
Çalışma zamanı iştirakçılar bir faktı nəzərə almalıdırlar ki, bu fərqlər tez-tez özlərinin mahiyyətcə fərqli təbiəti ilə izah olunur. Bu o deməkdir ki, iqtisadi, sosial və mədəni hüquqların yerinə yetirilməsi üçün dövlət tərəfindən məcburi pozitiv hərəkət tələb olunursa, mülki və siyasi hüquqlar dövlətdən yalnız müdaxilə etməməyi tələb edir. Bu fərq hələ də doğruluğunu saxlayırmı? Bu, qeyd edilən hüquqların təbiətinin reallığını düzgün əks etdirirmi? İştirakçılar cavablarını əsaslandırmalıdırlar və bunun üçün faktlara və/və ya presedent hüququna istinadları arzu olunur.

Hüquqlar arasında əlaqələrə gəldikdə, iştirakçılar iqtisadi, sosial və mədəni hüquqlarla mülki və siyasi hüquqlar arasındakı qarşılıqlı asılılığa dair nümunələr göstərməyə həvəsləndirilməlidirlər. Fikirlərinin əsaslandırılması üçün gündəlik həyatları və presedent hüququndan nümunələr təqdim olunmalıdır.[25]

*Airey* kazusu bir İrland qadınla bağlıdır. Bu qadın ona hücuma görə məhkum olunmuş ərindən məhkəmə yolu ilə ayrılmaq üçün Ali Məhkəməyə müraciət etməyə vəkil tuta bilmir. (*Eur. Court HR, Airey Case* v. *Ireland, Judgement of 9 October 1979, Series A, No. 32*). Bundan əlavə, dövlət hesabına hüquqi yardım da ala bilmir. Bu halda, Avropa İnsan Hüquqları Məhkəməsi Avropa İnsan Hüquqları Konvensiyasının 6(1) və 8-ci maddələrinin pozulduğunu müəyyən edir. 6 (1)-ci maddə ilə məhkəməyə çatımlılıq hüququnu nəzərə alaraq, Məhkəmə qərara alır:

Məhkəmə sosial və iqtisadi hüquqların gələcək reallaşmasının sözügedən dövlətdə mövcud durumdan – xüsusilə də maddi durumdan xeyli dərəcədə asılı olduğunu bilir. Digər tərəfdən, Konvensiya müasir şərtlərə [...] uyğun olaraq şərh olunmalıdır və o, fərdi əhatə etdiyi [...] sahələr üzrə real və təcrübi yolla qorumaq üçün hazırlanıb. Konvensiya mülki və siyasi hüquqların nədən ibarət olmasını müəyyənləşdirdiyi üçün onların çoxunun sosial və iqtisadi xarakterli nəticələri olur. Buna görə də Məhkəmə nəzərə alır ki, ..., Konvensiyanın təfsirinin sosial və iqtisadi hüquqlar sahəsinə qədər genişləndirilə bilməsi faktı belə bir şərhin əleyhinə həlledici faktor sayıla bilməz; bu sahəni Konvensiyanın əhatə etdiyi sahədən (ibid., səh 14–15, 26-cı bənd) ayıran tam aydın bir fərq mövcud deyil.

Konvensiyanın şəxsin özəl və ailə həyatına hörmət hüququna zəmanət verən 8-ci maddəsinə uyğun olaraq, Məhkəmə önəmli şəkildə qərara alır ki:

Məhkəmə hesab etmir ki, İrlandiyanın xanım Aireyin özəl, yaxud ailə həyatına "müdaxilə" etdiyini söyləmək olar: onun şikayətinin mahiyyəti o deyil ki, dövlət hərəkət edib, odur ki, dövlət hərəkət etməyib. Buna baxmayaraq, 8-ci maddənin əsas məqsədi fərdi dövlət orqanlarının özbaşına müdaxiləsindən qorumaq olsa da, o, dövləti belə bir müdaxilədən çəkinməyə yalnız məcbur etmir: bu, ilkin neqativ öhdəliyə əlavə olaraq, özəl və ya ailə həyatına səmərəli hörmət üçün xarakterik pozitiv öhdəliklər də ola bilər (ibid., səh. 17, 32-ci bənd).

25 **Fasilitatora məsləhət:** *Airey* işi mülki və siyasi hüquqların həyata keçirilməsi üçün də dövlətin pozitiv hərəkətlərinin zəruri olduğunu və mülki və siyasi hüquqlarla iqtisadi və sosial hüquqlar arasında aydın fərq olmadığını göstərən yaxşı nümunədir.

Mülki hüquqlara əməl olunması üçün məcburi dövlət hərəkətinə ehtiyacı göstərən daha bir nümunə, məsələn, ***işgəncənin qadağan olunmasıdır***. Bir çox ölkədə işgəncəni qadağan edən qanunvericilik var, ancaq əksər hallarda hökumət bunun kökünü kəsmək üçün pozitiv addım atmadığına görə, işgəncə sistematik olur və geniş yayılır.

d ***Çalışma 3***

*İqtisadi, sosial və mədəni hüquqlara münasibətdə əsas öhdəliklər anlayışı*

İştirakçıların hüquqi minimum və ya əsas öhdəliklər anlayışını müzakirə etmələri üçün 4-6 nəfərlik qruplarda çalışmasını və aşağıdakı suallar əsasında belə bir hüquqi anlayışın üstünlük və çatışmazlıqlarını araşdırmasını təmin edin:

- Beynəlxalq insan hüquqları hüququnun özlüyündə dövlətlərin fərdləri qorumaq üçün əməl etməli olduğu minimum hüquqi öhdəliklərdən ibarət olmasına baxmayaraq, minimum, yaxud əsas öhdəliklər anlayışı bu hüquqa uyğun sayıla bilərmi?
- Müxtəlif iqtisadi, sosial və mədəni hüquqların minimum səviyyəsini təmin edəcək əsas öhdəlikləri obyektiv necə müəyyənləşdirmək olar? Belə bir tətbiq hansı çətinliklər yaradar? Əsas öhdəliklərin normativ məzmununu kim müəyyənləşdirməlidir? Bir məhkəmənin ilk növbədə bir hüququn minimum əsas mahiyyətini müəyyənləşdirməsi nə dərəcədə məqsədəuyğun olardı? Əgər olmazdısa, nə üçün məqsədəuyğun olmazdı?
- İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsi qərara alıb ki, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktın nəzərdə tutduğu minimum əsas öhdəliklər elə öhdəliklərdir ki, onlara əməl olunmamasına heç bir halda bəraət gətirilə bilməz, çünki onlar "geri çəkilməyən"dir. Bu mənada, "geri çəkilməyən" terminindən istifadə necə izah oluna, yaxud ona haqq qazandırıla bilər? Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın (4-cü maddə) əksinə olaraq, İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktda müqavilə öhdəliklərindən **geri çəkilməyə** icazə verən hər hansı bir maddə yoxdur, yalnız bir ümumi **məhdudlaşdırıcı** müddəa (4-cü maddə) mövcuddur. Komitənin əsas öhdəliklərin mütləq hüquqi təbiətini izah etmək üçün "geri çəkilməyən" terminindən istifadəsi hüquqi baxımdan düzgündürmü? Bu, faydalıdırmı?

## C. Müzakirə mövzusu

Yuxarıda **çalışma 2** üçün seçilmiş mövzu müzakirə mövzusu kimi istifadə oluna bilər:

**İqtisadi, sosial və mədəni hüquqlarla mülki və siyasi hüquqların oxşarlıqları, fərqləri və əlaqələri: Yanlış təsəvvürlər və reallıq**

Müzakirə yuxarıda izah olunan eyni aspektlərə fokuslanmalıdır.

# D. Rol oyunu[26]

Bu kazus QİÇS-lə yaşayan 3 şəxsə – Pablo, Maria və Annaya aiddir. Anna 3 uşağını təkbaşına böyüdən dul qadındır. Onlar "Müsbət Yaşayış" təşkilatının irəli sürdüyü məhkəmə iddiasında təmsil olunurlar. Bu təşkilatın bütün üzvləri HİV xəstəsidir. Məhkəmə iddiasını qaldıran digər tərəf Ekslandda Stadtoun Universitetinin İctimai Maraqlar naminə Hərəkətlər Klinikasıdır.

İddiaçılardan heç birinin xəstəliyin simptomlarını önləmək və potensial ölümcül xəstəliyin inkişafının qarşısını almaq üçün bahalı dərmanlar almağa imkanı yoxdur. Üstəlik, Eksland səhiyyə rəsmiləri QİÇS-in nəticələrinin müalicəsi üçün onların xərclədiyi vəsaitin kompensasiyasından imtina edib. Onların hüquqları məhdudlaşdırılıb. Zəruri və bahalı tibbi müalicə ala bilmirlər, səhhətləri isə davamlı və amansız şəkildə pisləşir. Ancaq bir ümid yeri ola bilər: Pablo, Maria və Anna inanırlar ki, səhiyyə rəsmiləri haqsız olaraq onların pulsuz tibbi müalicəsini rədd ediblər. 21 mart 2010-cu il tarixli, 263 saylı Ali Qərar əsasında, Eksland Səhiyyə Nazirliyi qərar verib ki, bütün cinsi yolla keçən xəstəliklərin diaqnoz və müalicəsi pulsuz olmalıdır. Qərarın 2-ci maddəsində aydın bildirilir ki, bu qayda, həmçinin, QİÇS-ə aiddir. Təcrübədə bu qaydaya HİV və QİÇS *istisna olmaqla* bütün hallarda əməl olunur.

Klinika və Müsbət Yaşayış 2009-cu ildə digər oxşar iddialar da qaldırıblar, məhkəmə onları qəbuledilməz sayıb, 2010-cu ildə başqa iddialar qaldırılıb, onlar "qəbuledilən" elan olunsa da, mahiyyət üzrə rədd edilib. Eyni vaxtda, tibbi müalicə gözləyən iddiaçılardan 1/3-i vəfat edib. Bu müalicə onların həyatının keyfiyyətini yaxşılaşdıra və ömürlərini uzada bilərdi.

Eksland Konstitusiyası yaşamaq hüququnu təmin edir. Səhiyyə Nazirliyinin vəkilinə görə, məhkəmələr pulsuz dərmanlar məsələsində qərar vermək səlahiyyətində deyil.

1. Siz Pablo, Maria və Annanın ***vəkilisiniz***:

   - Apelyasiya Məhkəməsi qarşısında gətirmək istədiyiniz arqumentləri hazırlayın; əvvəlki işlərdə iddiaçılar uduzub, Məhkəmə təcrübəsinin dəyişməsinə nail olmaq üçün inandırıcı olmalısınız; arqumentlərinizi yaşamaq hüququ və səmərəli müdafiə vasitələri hüququ üzərində qurun;
   - Arqumentlərinizi əsaslandırmaq üçün həm yerli, həm də beynəlxalq hüququn müvafiq müddəalarına, beynəlxalq hüquqa, beynəlxalq presedent hüququna və/və ya hüquqi şərhlərə istinad edin.

2. Siz Eksland Səhiyyə Nazirliyinin ***vəkilisiniz***:

   - HİV və QİÇS-li şəxslərin pulsuz tibbi müalicəsindən imtinaya haqq qazandıran hökumətin mövqeyini müdafiə edən arqumentlərinizi hazırlayın. İddiaçıların vəkilinin yaşamaq hüququ, səmərəli müdafiə vasitələri hüququ və beynəlxalq insan hüquqları hüququna və məhkəmə təcrübəsinə istinadına dair arqumentlərinə cavabınızı hazırlayın.

26 **Fasilitatora məsləhət:** Bu rol oyunu güclü şəkildə 28 avqust 2001-ci ildə Santiago (Çili) Apellyasiya Məhkəməsində baxılmış işdən götürülüb. Səhiyyə Nazirliyinə göstəriş verilib ki, HİV-li şəxsləri pulsuz tibbi müalicə ilə təmin etsin. HİV-li qadınların müalicəsinin idarəçiliyi Cənubi Afrika məhkəmələrində müzakirə olunan məsələ olub. Məsələn, Cənubi Afrika Konstitusiya Məhkəməsinin 4 aprel 2002-ci ildə Case CCT 9/02, *Minister of Health and Others* v. *Treatment Action Campaign and Others* üzrə verdiyi qərara baxın; Qərarı www.concourt.gov.za saytında tapmaq olar. Bu Qərar müvəqqəti olsa da və iş üzrə əsas prosedurların son nəticəsini gözləsə də, bu, o demək idi ki, Hökumət dərhal "Nevirapine-i dövlət səhiyyə müəssisələrində çatımlı etməyə" məcbur idi. "Klinika, yaxud xəstəxananın tibbi rəhbərliyi ilə məsləhətləşən müalicə həkimlərinin fikrincə, o, tibbi baxımdan tələb olunur və reseptlə yazılması üçün ilkin şərtlər mövcuddur" (4 aprel 2002-ci il tarixli Qərarın 8-ci bəndi). Əlavə informasiya üçün yuxarıdakı internet səhifəsinə baxın.

3. Siz bu iş üzrə məhkəmə iclasında sədrlik edən **hakimsiniz**. Siz Apellyasiya Məhkəməsinin adından yekun qərarı yazacaqsınız:

   1 İddiaçıların və cavabdehin adından arqumentləri qiymətləndirin və əsaslandırılmış məhkəmə qərarını hazırlayın.

## E. Paylama materialları (CD-ROM-a baxın)

1. Beynəlxalq Əmək Təşkilatı tərəfindən qəbul edilən seçmə konvensiyalar
2. İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Konvensiyanın şərhi barədə İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsi tərəfindən qəbul edilən ümumi şərhlər
3. Mənzil hüququnu təmin edən seçmə beynəlxalq hüquqi müddəalar
4. Sağlamlıq hüququnu təmin edən seçmə beynəlxalq hüquqi müddəalar

# 15-ci fəsil

# CİNAYƏT VƏ İNSAN HÜQUQLARI POZUNTULARININ QURBANLARININ MÜDAFİƏSİ VƏ DƏYMİŞ ZİYANIN ÖDƏNİLMƏSİ

## Mündəricat


I. FASİLİTATORLAR ÜÇÜN QEYD........................................162

II. ƏSAS HÜQUQİ MƏNBƏLƏR........................................162

A. Universal mexanizmlər....................................................162

B. Regional mexanizmlər ..........................................................163

III. FƏSLİN/SESSİYANIN MƏQSƏDLƏRİ......................................164

IV. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR..........................................164

V. 15-Cİ FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ..........................................................................166

VI. TƏLİM MATERİALLARI...................................................168

A. Kompüter slaydları..............................................................168

B. Çalışmalar.......................................................................171

C. Müzakirə mövzuları ........................................................172

D. Rol oyunu/kazusla iş..........................................................173

E. Paylama materialları..............................................................175

# I. FASİLİTATORLAR ÜÇÜN QEYD

Vəsaitin 15-ci fəsli cinayət qurbanlarının müdafiəsi və onlara dəymiş ziyanın ödənilməsinin ümumi təsvirini, eləcə də dövlətlərin qorumalı olduğu spesifik hüquqi öhdəliklərin və insan hüquqları pozuntularının qurbanlarına əvəzin ödənilməsinin daha detallı analizini verir.

Cinayət qurbanlarının müdafiəsi və əvəzin ödənilməsini nizamlayan hər hansı universal məcburedici müqavilə olmadığına görə, bu fəslin 1-ci hissəsi Birləşmiş Millətlər Təşkilatının 1985-ci il Cinayət və Hakimiyyətdən Sui-istifadə Qurbanları üçün Ədalət Mühakiməsinin Əsas Prinsipləri Bəyannaməsinə, eləcə də 1983-cü il Zorakı Cinayət Qurbanlarının Kompensasiyası haqqında Avropa Konvensiyasına və Avropa Şurası Nazirlər Komitəsinin Üzv Dövlətlərə Cinayət Hüququ və Prosesi Çərçivəsində Qurbanların Mövqeyi barədə R (85) 11 saylı Tövsiyələrinə əsaslanır. Fəslin bu bölməsinin əsas məqsədi cinayət məhkəmə icraatı boyunca adi cinayət qurbanlarının ehtiyaclarına, problemlərinə və maraqlarına lazımi diqqət ayırmağın əhəmiyyəti barədə məlumatlılığı artırmaqdır.

Fəslin ikinci hissəsi dövlətlərin öz yurizdiksiyaları altında olan bütün şəxslərin insan hüquqlarının və əsas azadlıqlarının səmərəli müdafiəsini təmin etmək vəzifələrinin analizindən bəhs edir. Mövcud universal və regional müqavilələrə, eləcə də səlahiyyətli monitorinq orqanlarının təcrübəsinə əsasən, bu fəsildə dövlətlərin insan hüquqları pozuntularının **qarşısının alınması, istintaqı, ittihamın aparılması, cəzalandırılması və dəymiş ziyanın ödənilməsi** vəzifələri təsvir edilir. Bu fəsilə həm hüquqi, həm də barışmaya şərait yaradılması cəhdləri baxımdan **cəzasızlıq** məsələsi ilə bağlı qısa bölmə də daxildir.

# II. ƏSAS HÜQUQİ MƏNBƏLƏR

15-ci fəsil aşağıdakı hüquqi sənədlərə əsaslanır:

## A. Universal mexanizmlər

- Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, 1966
- İrqi Ayrıseçkiliyin Bütün Formalarının Ləğvi haqqında Beynəlxalq Konvensiya, 1965
- Qadınlara qarşı Ayrıseçkiliyin Bütün Formalarının Ləğv edilməsi haqqında Konvensiya, 1979
- İşgəncə və digər Qəddar, Qeyri-insani və ya Ləyaqəti Alçaldan Rəftar və ya Cəza əleyhinə Konvensiya, 1984
- Birləşmiş Millətlər Təşkilatının Transmilli Mütəşəkkil Cinayətkarlığa qarşı Konvensiyasına Əlavə olan İnsan Alverinin, xüsusilə də Qadın və Uşaq Alverinin Qarşısının Alınması, Qadağan edilməsi və Cəzalandırılması Protokolu, 2000
- Uşaq Hüquqları haqqında Konvensiya, 1989
- Uşaq Hüquqları haqqında Konvensiyaya Uşaq Ticarəti, Uşaq Fahişəliyi və Uşaq Pornoqrafiyası barədə Əlavə Protokol, 2000

- Uşaq Hüquqları haqqında Konvensiyaya Uşaqların Silahlı Münaqişələrə Cəlb Edilməsi barədə Əlavə Protokol, 2000

*****

- İnsan Hüquqlarına dair Ümumi Bəyannamə, 1948
- Cinayət və Hakimiyyətdən Sui-istifadə Qurbanları üçün Ədalət Mühakiməsinin Əsas Prinsipləri Bəyannaməsi, 1985
- Vyana Bəyannaməsi və Fəaliyyət Proqramı, 1993
- Beynəlxalq İnsan Hüquqları Hüququnun Kobud Pozuntuları və Beynəlxalq Humanitar Hüququn Ciddi Pozuntuları Qurbanlarına Əvəzin Ödənilməsi və Reparasiyası üzrə Əsas Prinsiplər və Rəhbər Qaydalar , 2005
- Cəzasızlıqla Mübarizə Fəaliyyəti vasitəsilə İnsan Hüquqlarının Müdafiəsi və Təbliğatı üçün Yenilənmiş Prinsiplər, 2005
- Qanunsuz, Özbaşına və Kütləvi Edam cəzasının Səmərəli şəkildə Qarşısının Alınması və İstintaqı haqqında Prinsiplər, 1989
- Bütün İnsanların Məcburi Yoxaçıxmadan Müdafiəsi haqqında Bəyannamə, 1992
- Bütün İnsanların Məcburi Yoxaçıxmadan Müdafiəsi haqqında Beynəlxalq Konvensiya, 2006
- İşgəncə və digər Qəddar, Qeyri-insani və ya İnsan Ləyaqətini Alçaldan Rəftarın Səmərəli İstintaqı və Sənədləşdirilməsi Prinsipləri, 2000

# B. Regional mexanizmlər

- Uşaq Hüquqları və Rifahı haqqında Afrika Xartiyası, 1981
- Amerika İnsan Hüquqları Konvensiyası, 1969
- İnsanların Məcburi Yoxaçıxmaları haqqında İnter-Amerika Konvensiyası, 1994
- İşgəncənin Qarşısının Alınması və Cəzalandırılması haqqında İnter-Amerika Konvensiyası, 1985
- Qadınlara qarşı Zorakılığın Qarşısının Alınması, Cəzalandırılması və Aradan Qaldırılması haqqında İnter-Amerika Konvensiyası, 1994
- Avropa İnsan Hüquqları Konvensiyası, 1950
- Zorakı Cinayət Qurbanlarının Kompensasiyası haqqında Avropa Konvensiyası, 1983

*****

- Avropa Şurası Nazirlər Komitəsinin Üzv Dövlətlərə Cinayət Hüququ və Prosesi Çərçivəsində Qurbanların Mövqeyi barədə R (85) 11 saylı Tövsiyələri, 1985

# III. FƏSLİN/SESSİYANIN MƏQSƏDLƏRİ

15-ci fəslin məqsədləri aşağıdakılardır:

- İştirakçıları cinayət və insan hüquqları pozuntularının qurbanlara təsiri barədə məlumatlandırmaq;
- İştirakçıları cinayət və insan hüquqları pozuntularının qurbanlarının müdafiəsi və dəymiş ziyanın ödənilməsi sahəsində mövcud beynəlxalq hüquqi qaydalarla tanış etmək;
- Cinayət və insan hüquqları pozuntularının qurbanlarının müdafiəsi və onlara dəymiş ziyanın ödənilməsi üçün dövlətlərin atmalı olduqları addımları müəyyənləşdirmək;
- İştirakçıların hakim, prokuror və vəkil olaraq cinayət və insan hüquqları pozuntularının qurbanlarının müdafiəsində potensialları barədə məlumatlılığını artırmaq.

# IV. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR

15-ci fəsildə müzakirə edilən beynəlxalq hüquqi qaydalar çərçivəsində toxunulacaq əsas məqamlar və iştirakçılarla müzakirə ediləcək başlıca məsələlər aşağıdakılardır:

- Adi cinayət qurbanlarının ehtiyac, problem və maraqlarını iştirakçılar necə görürlər;
- İştirakçıların çalışdıqları ölkədə **adi cinayət qurbanlarının** hüquqi müdafiəsinin və/və ya onlara dəymiş ziyanın ödənilməsinin növləri; iştirakçılardan xahiş edilir ki, ümumi cinayətkarlar tərəfindən zorakılıq və ya pis rəftara məruz qalma ilə bağlı misallar çəksinlər;
- İştirakçıların öz peşə öhdəliklərini yerinə yetirdikləri ölkədə cinayət qurbanları hər hansı spesifik problemlə üzləşirlərmi;
- Əgər üzləşirlərsə, iştirakçılar bu problemlərin nədən ibarət olduğunu və onları həll etmək üçün nə edildiyini izah etməlidirlər;
- İştirakçıların çalışdıqları ölkədə hər hansı həssas qurbanlar qrupu, məsələn, zorakılığa məruz qalan qadınlar və ya uşaqlar varmı;
- Əgər varsa, iştirakçılar zorakılığı törədən şəxslər barədə polisə məlumat verəndə, onları qorumaq üçün hansı tədbirlər görüldüyünü izah etməlidirlər;
- İştirakçıların çalışdıqları ölkədə ifadə verdikdən sonra həyatları təhlükədə olan şahidlərin qorunması üçün hər hansı tədbirlər görülürmü;
- İştirakçıların çalışdıqları ölkədə **insan hüquqlarının pozuntuları** üçün digər şəxslərlə yanaşı, aşağıdakı şəxslər kateqoriyası üçün hansı hüquqi müdafiə və/və ya əvəzin ödənilməsi üsulları var:
  - Qanunsuz həbs olunduqlarını iddia edən həbsdə olan şəxslər;
  - Pis rəftara məruz qalan həbsdə olan şəxslər, o cümlədən qadınlar və uşaqlar;
  - Ünsiyyət və yazışma hüququndan məhrum edilməklə incommunicado həbs olunan şəxslər;

- Adam oğurluğu, məcburi yoxaçıxma və ya işgəncə, yaxud məhkəmədənkənar edam zamanı qurbanlar və ya onların himayəsində olan şəxslər;
- Adi prosessual təminatlara əməl edilmədən mühakimə olunan təqsirləndirilən şəxslər;
- Dövlət, icma və ya məişət zorakılığına və ya belə zorakılıq hədəsinə məruz qalan qadınlar və uşaqlar;
- Gender, irqi və ya ayrıseçkiliyin başqa formasına məruz qalan şəxslər;

- İştirakçıların peşə vəzifələrini yerinə yetirdikləri ölkədə insan hüquqları pozuntularının qurbanları hər hansı spesifik problemlərlə üzləşirlərmi;
- Əgər üzləşirlərsə, iştirakçılar bu problemlərin nədən ibarət olduğunu və bu vəziyyətin aradan qaldırılması üçün nə edildiyini izah etməlidirlər;
- Bu mənada, iştirakçıların çalışdıqları ölkədə hər hansı spesifik həssas qrup varmı;
- Əgər varsa, iştirakçılar bu qrupların kim olduğunu, onların hansı problemlərinin olduğunu və onlara kömək etmək üçün nə edildiyini izah etməlidirlər;
- İştirakçılar insan hüquqları pozuntularının qurbanlarının səmərəli müdafiəsi və onlara dəymiş ziyanın ödənilməsində hakim, prokuror və/və ya vəkil kimi rollarını necə qəbul edirlər;
- İştirakçılar amnistiya və ya cəzasızlıq qanunları (cinayət və insan hüquqları pozuntularını törədənlər qanunsuz hərəkətlərinə görə təqib olunmayacaqlar və ya cəzalandırılmayacaqlar) barədə nə düşünürlər;
- İştirakçıların düşüncəsində, hansı hallarda kobud insan hüquqları pozuntuları üçün amnistiya və ya əfv tətbiq edilə bilər;
- Belə hallarda iştirakçılar qurbanların ədalət hüquqları ilə bağlı nə edərdilər.

# V. 15-Cİ FƏSİL ÜÇÜN SESSİYANIN PIANLAŞDIRILMASI CƏDVƏLİ

| Əsas məsələlər/fəaliyyət | Metod | Media | Zaman |
|---|---|---|---|
| 1. 15-ci fəslin məqsədləri | Təqdimat | Kompüter slaydları, kağız lövhə | 5 dəqiqə |
| 2. Kursun təqdimatı I: Vəsaitin 15-ci fəslinə və yuxarıdakı III and IV bölmələrə əsasən, komanda **cinayət qurbanlarının müdafiəsi və dəymiş ziyanın ödənilməsi** barədə əsas məsələləri təqdim edir:<br>a. cinayət qurbanı anlayışı;<br>b. ədalət mühakiməsinin həyata keçirilməsində qurbanlarla rəftar: polis, prokurorluq və məhkəmələr;<br>c. qurbanların özəl həyat və təhlükəsizliyinin qorunması hüququ;<br>d. cinayət qurbanlarına restitusiya, kompensasiya və yardım.<br>Qruplarda işin izahı (kazusla iş və ya digər çalışma) | İnteraktiv təqdimatlar | Kompüter slaydları, kağız lövhə, özüyapışan kağız, standart və prinsipləri cəmləyən paylama materialları | 30 dəqiqə |
| 3. Dincəlış və qruplara bölünmə | | | 5 dəqiqə |
| 4. Kazus və ya digər çalışma üzərində qruplarda iş | | Kağız lövhə və s. (zərurət olarsa) | 25 dəqiqə |
| 5. Dincəliş | | | 5 dəqiqə |
| 6. Təqdimat | Qruplar kazus və ya digər çalışma ilə bağlı hesabat verirlər | Kağız lövhə və s. (zərurət olarsa) | 30 dəqiqə |
| 7. Çay-kofe | | | 20 dəqiqə |
| | | | **I hissə üçün ümumi vaxt: 2 saat** |

| Başlıca məsələlər/fəaliyyət | Metod | Media | Zaman |
|---|---|---|---|
| 8. Kursun təqdimatı II: Vəsaitin 15-ci fəslinə və yuxarıdakı III bölməyə əsasən, komanda **insan hüquqları pozuntularının qurbanlarının müdafiəsi və onlara dəymiş ziyanın ödənilməsi** ilə bağlı əsas məsələləri təqdim edir:<br>a. insan hüquqları pozuntusunun qurbanı anlayışı;<br>b. Dövlətlərin insan hüquqlarının səmərəli müdafiəsini təmin etməklə bağlı ümumi öhdəliyi;<br>c. qarşısını almaq öhdəliyi;<br>d. yerli vasitələrlə təmin etmə öhdəliyi;<br>e. istintaq aparmaq, ittiham irəli sürmək və cəzalandırmaq öhdəliyi;<br>f. istitaq və məhkəmə icraatı zamanı qubanların rolu;<br>g. insan hüquqları pozuntularına görə dəymiş ziyanın ödənilməsi öhdəliyi;<br>h. insan hüquqları pozuntularına görə cəzasızlıq problemi.<br>Qruplarda işin izahı (kazus və ya digər çalışma) | Interaktiv təqdimatlar | Kompüter slaydları, kağız lövhə, özüyapışan kağız, standart və prinsipləri cəmləyən paylama materialları | 45 dəqiqə |
| 9. Dincəliş və qruplara bölünmə | | | 5 dəqiqə |
| 10. Kazus və ya digər çalışma üzərində qruplarda iş | | Kağız lövhə və s. (zərurət olarsa) | 40 dəqiqə |
| 11. Dincəliş | | | 5 dəqiqə |
| 12. Kazus və ya digər çalışma üzərində qruplarda iş | | Kağız lövhə və s. (zərurət olarsa) | 25 dəqiqə |
| | | | **II hissə üçün ümumi vaxt: 2 saat** |
| | | | **15-ci fəsil ücün ümumi vaxt: 4 saat** |

# VI. TƏLİM MATERİALLARI

## A. Kompüter slaydları (CD-ROM-a baxın)

1. Öyrənmə məqsədləri
2. Suallar I
3. Suallar II
4. Suallar III
5. Suallar IV
6. Suallar V
7. Müvafiq hüquqi mexanizmlər I: Cinayət qurbanlarının müdafiəsi və onlara dəymiş ziyanın ödənilməsi ilə bağlı hüquqi mexanizmlər
8. Müvafiq hüquqi mexanizmlər II: Cinayət qurbanlarının müdafiəsi və onlara dəymiş ziyanın ödənilməsi ilə bağlı universal mexanizmlər (1)
9. Müvafiq hüquqi mexanizmlər III: Cinayət qurbanlarının müdafiəsi və onlara dəymiş ziyanın ödənilməsi ilə bağlı universal mexanizmlər (2)
10. Müvafiq hüquqi mexanizmlər IV: Cinayət qurbanlarının müdafiəsi və onlara dəymiş ziyanın ödənilməsi ilə bağlı universal mexanizmlər (3)
11. Müvafiq hüquqi mexanizmlər V: Cinayət qurbanlarının müdafiəsi və onlara dəymiş ziyanın ödənilməsi ilə bağlı regional mexanizmlər
12. Əsas hüquqi sənədlər I: Cinayət qurbanı anlayışı (1)
13. Əsas hüquqi sənədlər II: Cinayət qurbanı anlayışı (2)
14. Əsas hüquqi sənədlər III: Cinayət qurbanı anlayışı (3)
15. Cinayət qurbanları I: Polisin davranışı (1)
16. Cinayət qurbanları II: Polisin davranışı(2)
17. Cinayət qurbanları III: Prokurorun davranışı (1)
18. Cinayət qurbanları IV: Prokurorun davranışı (2)

19. Cinayət qurbanları V: Cinayət prosesi zamanı dindirmə

20. Cinayət qurbanları VI: Cinayət qurbanları və cinayət mühakimə icraatı

21. Cinayət qurbanları VII: Özəl həyat və təhlükəsizliyin qorunması hüququ

22. Cinayət qurbanlarına dəymiş ziyanın ödənilməsi I: Restitusiya

23. Cinayət qurbanlarına dəymiş ziyanın ödənilməsi II: Kompensasiya (1)

24. Cinayət qurbanlarına dəymiş ziyanın ödənilməsi III: Kompensasiya (2)

25. Cinayət qurbanlarına dəymiş ziyanın ödənilməsi IV: Yardım

26. İnsan hüquqları pozuntuları I: Qurban anlayışı (1)

27. İnsan hüquqları pozuntuları II: Qurban anlayışı (2)

28. Dövlətlərin insan hüquqlarının səmərəli müdafiəsini təmin etməklə bağlı ümumi öhdəliyi I: Əsas hüquqi sənədlər (1)

29. Dövlətlərin insan hüquqlarının səmərəli müdafiəsini təmin etməklə bağlı ümumi öhdəliyi II: Əsas hüquqi sənədlər (2)

30. Dövlətlərin insan hüquqlarının səmərəli müdafiəsini təmin etməklə bağlı ümumi öhdəliyi III: Əsas hüquqi sənədlər (3)

31. Dövlətlərin insan hüquqlarının səmərəli müdafiəsini təmin etməklə bağlı ümumi öhdəliyi IV: Əsas hüquqi sənədlər (4)

32. Dövlətlərin insan hüquqlarının səmərəli müdafiəsini təmin etməklə bağlı ümumi öhdəliyi V: Bu nə deməkdir

33. Dövlətlərin insan hüquqları pozuntularının qarşısını almaq öhdəliyi: Bu nə deməkdir

34. Dövlətlərin yerli vasitələrlə təmin etmə öhdəliyi I: Əsas hüquqi müddəalar (1)

35. Dövlətlərin yerli vasitələrlə təmin etmə öhdəliyi II: Əsas hüquqi müddəalar (2)

36. Dövlətlərin yerli vasitələrlə təmin etmə öhdəliyi III: Əsas hüquqi müddəalar (3)

37. Dövlətlərin yerli vasitələrlə təmin etmə öhdəliyi IV: Əsas hüquqi müddəalar (4)

38. Dövlətlərin yerli vasitələrlə təmin etmə öhdəliyi V: Əsas hüquqi müddəalar (5)

39. Dövlətlərin yerli vasitələrlə təmin etmə öhdəliyi VI: Əsas hüquqi müddəalar (6)

40. Dövlətlərin yerli vasitələrlə təmin etmə öhdəliyi VII: Əsas hüquqi müddəalar (7)

41. Dövlətlərin yerli vasitələrlə təmin etmə öhdəliyi VIII: Əsas hüquqi müddəalar (8)

42. Dövlətlərin yerli vasitələrlə təmin etmə öhdəliyi IX: Bu nə deməkdir (1)

43. Dövlətlərin yerli vasitələrlə təmin etmə öhdəliyi X: Bu nə deməkdir (2)

44. Dövlətlərin yerli vasitələrlə təmin etmə öhdəliyi XI: Bu nə deməkdir (3)

45. Dövlətlərin yerli vasitələrlə təmin etmə öhdəliyi XII: Bu nə deməkdir (4)

46. Dövlətlərin yerli vasitələrlə təmin etmə öhdəliyi XIII: Bu nə deməkdir (5)

47. Dövlətlərin yerli vasitələrlə təmin etmə öhdəliyi XIV: Hüquq peşələrinin rolu

48. Dövlətlərin istintaq aparmaq, ittiham irəli sürmək və cəzalandırmaq öhdəliyi I: Bu nə deməkdir (1)

49. Dövlətlərin istintaq aparmaq, ittiham irəli sürmək və cəzalandırmaq öhdəliyi II: Bu nə deməkdir (2)

50. Dövlətlərin istintaq aparmaq, ittiham irəli sürmək və cəzalandırmaq öhdəliyi III: Bu nə deməkdir (3)

51. Dövlətlərin istintaq aparmaq, ittiham irəli sürmək və cəzalandırmaq öhdəliyi IV: Bu nə deməkdir (4)

52. Dövlətlərin istintaq aparmaq, ittiham irəli sürmək və cəzalandırmaq öhdəliyi V: Bu nə deməkdir (5)

53. Dövlətlərin istintaq aparmaq, ittiham irəli sürmək və cəzalandırmaq öhdəliyi VI: Qurbanın rolu

54. Dövlətlərin istintaq aparmaq, ittiham irəli sürmək və cəzalandırmaq öhdəliyi VII: Hüquq peşələrinin xüsusi məsuliyyəti

55. Dövlətlərin istintaq aparmaq, ittiham irəli sürmək və cəzalandırmaq öhdəliyi VIII: İstintaqın aparılmamasının nəticələri

56. İnsan hüquqları pozuntularına görə dəymiş ziyanın ödənilməsi ilə bağlı dövlətlərin öhdəlikləri

57. İnsan hüquqları pozuntularına görə cəzasızlıq I: Hüquqi perspektiv

58. İnsan hüquqları pozuntularına görə cəzasızlıq II: Ədalət, cəzasızlıq və barışma

## B. Çalışmalar

### dÇalışma 1

*Cinayət qurbanları*

Fərdi, yaxud 4-5 nəfərdən ibarət qruplara bölməklə iştirakçılara təxminən 30 dəqiqə zaman ayırın və onların çalışdığı ölkədə cinayət qurbanlarının müdafiəsi və onlara dəymiş ziyanın ödənilməsi ilə bağlı 15-ci fəsildə müzakirə edilən sualların və məsələlərin analiz edilməsini təmin edin. Onlar cinayət qurbanlarının hüquqi vəziyyətinə və onlarla davranışa aşağıdakı istiqamətlərdən fokuslanmağa çalışmalıdırlar:

- Polis;
- Dövlət ittihamı;
- Məhkəmələr;
- Qurbanın polis, prokuror və hakim tərəfindən dindirilməsi;
- İcra mərhələsi;
- İstintaq və icra mərhələlərində xüsusi müdafiə tədbirlərinin mövcudluğu;
- Törədilən cinayətin nəticələrinin aradan qaldırılması üçün kompensasiya və reparasiyanın digər formalarının mövcudluğu;
- Mübahisənin həlli sxeminin mümkün mövcudluğu;
- Cinayət mühakimə icraatının həyata keçirilməsində qurbanların vəziyyətinin və törədilən pozuntunun aradan qaldırılması üçün mövcud vasitələrin yaxşılaşdırılması üzrə təkliflər;
- Cinayət qurbanları ilə davranışın səviyyəsini artırmaq üçün hüquq peşələrinin üzvləri tərəfindən qəbul edilə bilən sadə tədbirlər.

Bu çalışmanın məqsədi iştirakçıların ölkələrində mövcud olan və cinayət mühakimə icraatında cinayət qurbanları ilə davranışla bağlı 3 və ya 4 qaçılmaz problemi, eləcə də bu problemləri aradan qaldırmaq üçün görülə biləcək və ya görülməli olan 3 və ya 4 tədbiri sadalamalarını təmin etməkdən ibarətdir.

d **Çalışma 2**

*İnsan hüquqları pozuntularının qurbanları*

Fərdi, yaxud 4-5 nəfərdən ibarət qruplara bölməklə iştirakçılara təxminən 30 dəqiqə zaman ayırın və 15-ci fəsildə müzakirə edilən insan hüquqları pozuntularının qurbanları ilə bağlı sualların və məsələlərin analiz edilməsini təmin edin. Ölkələrindəki vəziyyətdən asılı olaraq, iştirakçılar analizlərini aşağıdakılara istiqamətləndirə bilərlər:

- İnsan hüquqlarının ehtimal edilən pozuntuları üçün səmərəli yerli vasitələrin, o cümlədən məhkəmə vasitələrinin mövcudluğu;
- Polis, prokurorluq və məhkəmələrin insan hüquqlarının ehtimal edilən pozuntularını (məhkəmədənkənar edam, işgəncə və pis rəftarın başqa formaları, irqçilik və ya ayrıseçkiliyin digər formaları və gender əsaslı ayrıseçkilik, o cümlədən məişət zorakılığı, seksual qısnama və s.) araşdırmalarının səmərəliliyi və ya səmərəliliyinin olmaması
- Azadlıqdan məhrum edilən şəxslər üçün müstəqil və qərəzsiz şikayət prosedurunun mövcudluğu;
- İnsan hüquqları pozuntularının qurbanları üçün əvəzin ödənilməsi vasitələrinin- restitusiya, kompensasiya və reabilitasiyanın, eləcə də reparasiya və yardımin digər formalarının mövcudluğu;
- Cəzasızlığın mövcudluğu ;
- Bu məsələlərin yaxşılaşdırılması üçün bu və ya digər təkliflər.

Bu çalışmanın məqsədi iştirakçıların insan hüquqlarının səmərəli müdafiəsi ilə bağlı ölkədə mövcud olan 3 və ya 4 problem müəyyən etmələrini təmin etməkdən və bu problemləri həll etmək üçün görülə biləcək və ya görülməli olan tədbirlər təklif etməkdən ibarətdir.

## C. Müzakirə mövzuları

### 1. *Cinayət qurbanları*[27]

Aşağıdakı mövzular ətrafında dəyirmi masa, ümumi və ya kiçik qruplarda müzakirələr təşkil edin:

**Cinayət nəticəsində dəymiş ziyanın aradan qaldırılması necə həyata keçirilr:**

**Cinayəti törədən şəxslə qurban arasında mediasiya/arbitraj və/və ya reparasiyanın həyata keçirilməsi cinayətin nəticələrinin aradan qaldırılması üçün real yoldur?**

Debat zamanı aşağıdakı bu və ya digər məsələlər nəzərdən keçirilə bilər:

- Mediasiya və arbitrajın ənənəvi cəzalandırıcı hökmlərlə müqayisədə mümkün müsbət və mənfi cəhətləri;
- Cinayət mühakimə icraatı üzrə son qərarın çıxarılmasında mediasiya/abitraj və ya reparasiya nəzərə alınmalıdırmı; iştirakçılar öz fikirlərini izah etməyə çalışmalıdırlar;
- Mediasiya/arbitraj təqsirkara tətbiq edilən cəzaya təsir edirsə, bu, baş verən hadisəylə bağlı təqsirkarlıq duyan və bu yolla təqsirkarın təklifini təqsir olmadan qəbul etməyə məcbur olan qurbana münasibətdə ədalətli sayıla bilərmi;

27 **Fasilitator üçün məlumat:** Müzakirə üçün təklif edilən mövzu buradan götürülüb: Martin WRIGHT, *Justice for Victims and Offenders: A Restorative Response to Crime,* 2. ed. (Winchester, Waterside Press, 1996).

- Mediasiya/arbitraj və ya reparasiya nəzərə alınmırsa, bu hal təqsirkarları pozuntunu aradan qaldırmaqdan yayındıra bilərmi;
- Təqsirkarla qurban arasında mediasiya/arbitraj və ya reparasiyanın təqsirsizlik prezumpsiyası prinsipinə təsiri.

### *2. İnsan hüquqları pozuntularının qurbanları*

Aşağıdakı mövzu ətrafında dəyirmi masa, ümumi və ya kiçik qruplarda müzakirələr təşkil edin:

**Dövlətlərin insan hüquqlarının pozuntularının qarşısının alınması, istintaqı, ittiham edilməsi, cəzalandırılması və aradan qaldırılması vəzifəsi: Hakimlərin, prokurorların və vəkillərin rolu**

Debat zamanı aşağıdakı bu və ya digər məsələlər nəzərdən keçirilə bilər:

- Hüquq peşələrinə işin istintaqı, ittihamın həyata keçirilməsi və ya qurbanın təmsil edilməsi və s. müvafiq vəzifələri həyata keçirməsinə mane olan və ya onu çətinləşdirən spesifik problemlərin müəyyən edilməsi;
- Hər hansı xüsusi qanunvericiliyə ehtiyac olmadan öz vəzifələrinə əməl etmək üçün hüquq peşələri tərəfindən dərhal həyata keçirilə bilən xüsusi tədbirlər;
- Məhkəmə prosesi zamanı insan hüquqları pozuntularının qurbanının mövqeyinin yaxşılaşdırılması üçün görülə biləcək tədbirlərin müəyyən edilməsi;
- Qurbanı qorxu, intiqam və ya zorakılıqdan qorumaq və istintaq zamanı insan hüquqları pozuntularının qurbanına yardım etmək üçün görülə biləcək tədbirlərin müəyyən edilməsi;
- Prosessual təminatlardan, o cümlədən təqsirsizlik prezumpsiyası hüququndan hər zaman faydalanmalı olan təqsirkarın mövqeyini gücləndirmək üçün görülə bilən tədbirlərin müəyyən edilməsi.

## D. Kazusla iş/rol oyunu[28]

### *I HİSSƏ: FAKTLAR*

**Ümumi məlumat**

Ekslandda azlıqda olan qruplardan biri üçün çətin dövrdür. Qrupun bəzi üzvləri öz xalqlarının özünəməxsus dili, adətləri və mədəniyyətinə daha çox hörmət qazanmaq məqsədilə hökumətlə silahlı qarşıdurmaya gedirlər. Bu azlıqda olan qrupun üzvlərinə siyasi partiya yaratmağa, məktəbdə öz dillərini öyrənməyə, yaxud bu dildən rəsmi istifadə etməyə icazə verilmir. Onlar öz dillərində kitablar da nəşr edə bilmirlər. Hökumət onların dilinin və mədəniyyətinin rəsmi tanınması tələblərinə qəti müqavimət göstərir, belə ki, bunun bütünlükdə ölkənin təhlükəsizliyinə və milli birliyinə təhlükə yaradacağından qorxur. O, terrorçu saydığı hərəkatı məhv etməkdə qərarlıdır, ordu və xüsusi təhlükəsizlik qüvvələri qanunsuz elan olunmuş bu qrupa qarşı mübarizəyə cəlb olunurlar. Münaqişə nəticəsində hər iki tərəfdən minlərlə adam ölür və ya yaralanır.

[28] Bu kazus Avropa İnsan Hüquqları Məhkəməsinin qərar verdiyi ərizədən götürülüb: *Case of Aksoy v. Turkey, Judgement of 18 December 1996, Reports 1996-VI*, p. 2260. Təlimin keçirildiyi ölkədən asılı olaraq, bu çalışmanın ikinci hissəsində mübahisələndirilən saziş Amerika, yaxud Avropa İnsan Hüquqları Konvensiyası, ya da İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyasi ilə əvəz oluna bilər. Bu kazusla iş/rol oyunu yerli hüquq, yaxud beynəlxalq insan hüquqları hüququ, yaxud hər ikisinin tətbiqində çalışma kimi istifadə oluna bilər. İştirakçılar aidiyyatı olan məsələləri müzakirə edərkən, yaxud aşağıda göstərilmiş rollarını mübahisələndirərkən 15-ci fəsildə qazandıqları bilikdən yararlanmalıdırlar. Fasilitator iştirakçıların kazusla iş/rol oyunu üzərində təlim axşamı çalışmalarına icazə verə, eləcə də onların plenar qrupda kazusu mübahisələndirməsi üçün əlavə vaxt verə bilər.

**Zetinin işi ilə bağlı faktlar**

Zeti 15 dekabr 2009-cu ildə saxlanılır. Hans adlı bir şəxsin müşayiət etdiyi 15-ə yaxın polis onun evinə gəlir və Zetinin qadağan olunmuş hərəkatın üzvü olduğunu bildirir. Zeti Hansı tanımadığını və heç vaxt görmədiyini bildirir. 2 gün sonra Zeti terrorçu hərəkatın adından vərəqələr yaymaqla hərəkata yardım və dəstək vermək ittihamı ilə tutulur.

Zeti Stadtoun Antiterror Qərargahına köçürülür, orada işgəncə hədəsi altında Hansı tanıyıb-tanımamasına dair dindirilir. Antiterror Qərargahında saxlanan şübhəlilərə qarşı işgəncədən tez-tez istifadə olunması barədə məlumat əksəriyyətə bəlli idi. Zeti Hans barədə heç nə bilmədiyini israrla desə də, müstəntiqlər onun etiraf etməsi üçün təzyiqləri artırırlar. Sonrakı 2 gün ərzində Zetiyə hər 2 saatdan bir işgəncə verilir. İşgəncə nəticəsində o, qol və əl hərəkətini itirir. İlkin olaraq onun həkimlə görüşünə icazə verilmir. Ancaq bir neçə gün sonra Stadtoun Dairəsinin tibbi xidmətinin bir həkimi ona baş çəkir. Həkim qısa tibbi rəyində Zetinin üzərində hər hansı bir zorakılıq izinin olmadığını bildirir. O, Zetidən qollarının necə zədələndiyini soruşur, ancaq polis zabiti həkimə Zetinin qəzaya düşdüyünü deyir. Həkim isə gülərək qeyd edir ki, deyəsən təcridxanada hər kəs qəzaya düşür.

Zeti 2 həftə saxlanıldıqdan sonra 3 yanvar 2000-ci ildə azad edilir. O, azad edilməzdən həmən öncə Stadtoun Dövlət Prokurorunun yanına gətirilir, ancaq intiqam alınacağından qorxduğuna görə şikayət etməyə cürəti çatmır. Onun fiziki durumunun dözülməzliyi artıq aydın görünür. Zeti xəstəxanaya qəbul edilir, ona mil sümüyünün ikitərəfli iflici diaqnozu qoyulur, bu, yuxarı ətrafların sinir zədələnməsi nəticəsində hər iki qolun iflicidir. Dövlət prokuroru Zetiyə qarşı cinayət ittihamının irəli sürülməsi üçün yetərli sübut olmadığından işə xitam verir.

## *II HİSSƏ: SUALLAR*

Bu çalışmanın məqsədi baxımından Ekslandda işgəncənin qadağan olunduğu və ölkənin Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktı ratifikasiya etdiyi fərz olunur.

**Yerli səviyyə**

1. Siz Zetinin ***vəkilisiniz***: İddia olunan cinayətin aydınlaşdırılması, təqsirkarın ittiham olunması və cəzalandırılması və Zetiyə dəymiş ziyanın ödənilməsi üçün kazusun spesifik hallarında hansı addımları atardınız? Kazusu həm yerli, həm də beynəlxalq hüquq baxımından mübahisələndirin. Arqumentlərinizdə Zetinin müxtəlif maraqlarını nəzərə alın.

2. Siz Zetinin azad edilməsi qərarını verməzdən öncə onu görmüş ***prokurorsunuz***. Zetinin qollarını və əllərini tərpədə bilmədiyini görəndə hansı addımları atardınız? Kazusu həm yerli, həm də beynəlxalq hüquq baxımından mübahisələndirin, qiyamçı hərəkatın ölkəniz üçün doğurduğu ciddi təhlükəyə səmərəli reaksiya vermək üçün üzərinizdəki təzyiqi də nəzərə alın.

3. Siz Zetinin vəkilindən şikayət almış ***polis zabitisiniz***: Bu şikayəti araşdırmaq üçün hansı addımları atardınız? Kazusu həm yerli, həm də beynəlxalq hüquq baxımından mübahisələndirin, aldığınız çoxsaylı işgəncə iddialarını və terrorçuluq hədəsi ilə səmərəli mübarizə aparmağınız üçün polis rəisinin təzyiqini nəzərə alın.

4. Siz polis istintaqının nəticəsini qəbul etmiş ***prokurorsunuz*** və Stadtoun Antiterror Qərargahındakı təhlükəsizlik zabitlərinə qarşı cinayət təqibinə başlamağa qərar verməlisiniz. Nə edəcəksiniz? Faktlar aydındır, durum isə çətindir və siz Dövlət Təhlükəsizlik Qüvvələrinin işini zərbə altında qoymaq istəmirsiniz. Hər halda, onlar terror əleyhinə mübarizədə bəzi irəliləyiş əldə ediblər. Ancaq siz buraxılmazdan qabaq Zetini görmüş prokuror həmkarınızın həmin anda müdaxilə etmək üçün lazımi tədbir görməməsindən qəzəblənmisiniz.

Siz onun tədbir görməməsinə dair nə edə bilərsiniz və etməlisiniz?

5. Siz, nəhayət, bu iş üzrə qərar verəcək ***hakimsiniz***: Nə edəcəksiniz? Hüquq aydındır və Zetinin işinə dair faktlar da aydın görünür. Ancaq müəyyənləşdirilmiş təqsirəndirilən şəxslər danışmaqdan, yaxud istintaq ilə hər hansı formada əməkdaşlıqdan imtina edirlər. Bu işi araşdıracağınız halda həyatınıza hədələr də almısınız. Qərarlarınızı yerli və beynəlxalq hüquq baxımından mübahisələndirin.

**Beynəlxalq səviyyə**

Çalışmanın bu hissəsinin məqsədi üçün fərz edilir ki, yerli səviyyədə bütün araşdırmalar tükənib və Ekslandda işgəncənin aydın şəkildə qadağan olunmasına baxmayaraq, cinayət prosesi uğursuzluğa uğrayıb. Zeti işləməsini mümkünsüz edən zədələri üçün yardım istəyir. O, vəkilinin İnsan Hüquqları Komitəsinə şikayət verməsi ilə razılaşır. Ancaq o, ölüm hədələri alır və prosesin gedişində güllələnir və ölür. Atası kədərlidir və işi davam etdirmək qərarına gəlir. O, işgəncə məsələsinin aydınlaşdırılması və cinayətkarın cəzalandırılmasını, oğlunu kimin öldürdüyünü bilmək istəyir.

1. Siz bu işi həm mərhum qurban, həm də onun atası adından mübahisələndirən ***vəkilsiniz***: Aşağıdakı məsələlərə dair mümkün qədər çox arqumentlər gətirin:

   (a) Müxtəlif pozuntuların aradan qaldırılmasında yerli hüququn səmərəsizliyi;

   (b) Beynəlxalq hüququn əsas müddəaları (yaşamaq hüququ, işgəncəyə məruz qalmamaq hüququ);

   (c) 15-ci fəsildə analiz edildiyi kimi dövlətin hüquq öhdəlikləri;

   (d) Zetinin atasına iddia etdiyi hüquq pozuntusuna görə kompensasiya ödənilməsi.

2. Siz yerli səviyyədə atılmış addımları müdafiə etməyə çalışan ***Hökumət*** vəkilisiniz. Müvafiq yerli və beynəlxalq hüquqa istinad etməklə nə baş verdiyini əsaslandırmağa çalışın. Aşağıdakı məqamları mübahisələndirməlisiniz:

   (a) Zetinin tutulma zamanı məruz qaldığı ehtimal edilən davranış;

   (b) İşgəncənin araşdırılması üçün yerli cinayət məhkəmə prosesinin iddia olunan uğursuzluğu; arqumentlərinizi 15-ci fəsildə izah olunmuş hüquqi öhdəliklərlə əlaqələndirin;

   (c) Zetinin qətlində Hökumətinizin iddia olunan məsuliyyəti;

   (d) Zetinin atasına kompensasiya ödənilməsi məsələsi.

## E. Paylama materialları (CD-ROM-a baxın)

1. Cinayət qurbanları və insan hüquqları pozuntuları üçün seçmə kitablar, hesabatlar və internet səhifələri

2. Birləşmiş Millətlər Təşkilatının Transmilli Mütəşəkkil Cinayətkarlığa qarşı Konvensiyası, 2000: İnsan Alverinin, xüsusilə də Qadın və Uşaq Alverinin Qarşısının Alınması, Qadağan edilməsi və Cəzalandırılması Protokolunun 6-cı maddəsi

3. Cinayət və Hakimiyyətdən Sui-istifadə Qurbanları üçün Ədalət Mühakiməsinin Əsas Prinsipləri Bəyannaməsi, 1985 (9-cu fəslə, 9.2 paylama materialına baxın- fasilitator tərəfindən təmin ediləcək)

4. Zorakı Cinayət Qurbanlarının Kompensasiyası haqqında Avropa Konvensiyası və Avropa Şurası Nazirlər Komitəsinin Üzv Dövlətlərə Cinayət Hüququ və Prosesi Çərçivəsində Qurbanların Mövqeyi barədə R (85) 11 saylı Tövsiyələri (fasilitator tərəfindən təmin ediləcək)

# 16-cı fəsil
# FÖVQƏLADƏ VƏZİYYƏT ZAMANI ƏDALƏT MÜHAKİMƏSİNİN HƏYATA KEÇİRİLMƏSİ

## Mündəricat


I. FASİLİTATORLAR ÜÇÜN QEYD......................................178

II. ƏSAS HÜQUQİ MƏNBƏLƏR......................................178

A. Universal mexanizmlər........................................................178

B. Regional mexanizmlər..................................................179

III. FƏSLİN/SESSİYANIN MƏQSƏDLƏRİ....................................179

IV. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR........................................180

V. 16-CI FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ............................................................181

VI. TƏLİM MATERİALLARI..................................................182

A. Kompüter slaydları...............................................................182

B. Çalışmalar.........................................................................186

C. Müzakirə mövzuları…......................................................187

D. Kazusla iş ........................................................................188

E. Rol oyunu..........................................................................189

# I. FASİLİTATORLAR ÜÇÜN QEYD

Vəsaitin 16-cı fəsli dövlətlərin insan hüquqları sahəsində hüquqi öhdəliklərindən geri çəkilmələrini şərtləndirən tədbirləri həyata keçirməsi ilə bağlı beynəlxalq hüququn əsas hüquqi prinsipləri barədə ümumi məlumat verir. Fəsildə Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın tərtibatçılarının üzləşdikləri dilemma barədə qısa arayış və sui-istifadəcil istifadənin mümkünlüyü ilə bağlı narazılıqlardan sonra sonda geri çəkilmə ilə bağlı müddəanın 4-cü maddənin mətninə salınması da daxil olmaqla, beynəlxalq insan hüquqları hüququnda fövqəladə vəziyyət anlayışı təsvir edilir. İnsan hüquqları öhdəliklərindən "geri çəkilmə" terminindən Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktda, Avropa İnsan Hüquqları Konvensiyasında və Amerika İnsan Hüquqları Konvensiyasında istifadə edilsə də, Amerika Konvensiyası İnsan hüquqları üzrə İnter Amerika Məhkəməsi kimi "təxirəsalma" və "təminatların təxirə salınması" terminlərindən də istifadə edir. Beləliklə, bu terminlər regional hüquq sistemi və Amerika regional insan hüquqları mexanizmində istifadə edilən terminologiya nəzərə alınmaqla oxşar anlamlarda tətbiq edilir.

İkinci, dövlətlərin üzləşdiyi fövqəladə vəziyyətin ağırlığından asılı olmayaraq, geri çəkilməsinə heç bir halda icazə verilməyən hüquq və vəzifələr bu fəsildə bir qədər detallı izah edilir. Üçüncü, insan hüquqları öhdəliklərindən geri çəkilən tədbirlər "vəziyyətin ciddi şəkildə tələb etdiyi" prinsipindən kənara çıxmamalıdır. Dördüncü, bu fəsildə insan hüquqları öhdəliklərindən qanuni geriçəkilmələr üçün qalan şərtlər qısaca təsvir edilir: digər beynəlxalq hüquqi öhdəliklərlə uyğunluq şərti, ayrıseçkiliyin qadağan edilməsi və beynəlxalq xəbərdarlıq şərti.

Ən sonda bu fəsil fövqəladə vəziyyətlərdə insan hüquqlarının səmərəli müdafiəsinin təmin edilməsində hüquq peşələrinin rolu barədə qısa bölmədən ibarətdir və bəzi yekun qeydlərlə tamamlanır.

# II. ƏSAS HÜQUQİ MƏNBƏLƏR

16-cı fəsil aşağıdakı hüquqi sənədlərə əsaslanır:

## A. Universal mexanizmlər

- Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, 1966
- İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt, 1966
- İrqi Ayrıseçkiliyin bütün Formalarının Ləğvi haqqında Beynəlxalq Konvensiya, 1965
- İşgəncə və digər Qəddar, Qeyri-insani və ya Ləyaqəti Alçaldan Rəftar və ya Cəza əleyhinə Konvensiya, 1984
- Qadınlara Qarşı Ayrıseçkiliyin bütün Formalarının Ləğv edilməsi haqqında Konvensiya, 1979

- Uşaq Hüquqları haqqında Konvensiya, 1989
- Bütün İnsanların Məcburi Yoxaçıxmadan Müdafiəsi haqqında Bəyannamə, 1992
- Bütün İnsanların Məcburi Yoxaçıxmadan Müdafiəsi haqqında Beynəlxalq Konvensiya, 2006

## B. Regional mexanizmlər

- Uşaq Hüquqları və Rifahı haqqında Afrika Xartiyası, 1981
- Amerika İnsan Hüquqları Konvensiyası, 1969
- İşgəncənin Qarşısının Alınması və Cəzalandırılması haqqında İnter-Amerika Konvensiyası, 1985
- İnsanların Məcburi Yoxaçıxmaları haqqında İnter-Amerika Konvensiyası, 1994
- Avropa İnsan Hüquqları Konvensiyası, 1950
- Avropa Sosial Xartiyası, 1961 və Avropa Sosial Xartiyası (Yenilənmiş), 1996

# III. FƏSLİN/SESSİYANIN MƏQSƏDLƏRİ

16-cı fəslin məqsədləri aşağıdakılardır:

- Dövlətlərin beynəlxalq insan hüquqları öhdəliklərindən geri çəkilmələrini şərtləndirən spesifik hüquqi qaydalarla kurs iştirakçılarını tanış etmək;
- Geri çəkilməyən hüquq və vəzifələr barədə dəqiq məlumat vermək;
- İştirakçıları insan hüquqlarından geri çəkilməni şərtləndirən əsas prinsiplərlə tanış etmək ;
- İştirakçı hakimlər, prokurorlar və vəkillər arasında hüququn aliliyinin təminində, eləcə də fövqəladə vəziyyət də daxil olmaqla, insan hüquqlarının müdafiəsində önəmli rolları barədə məlumatlandırma yaratmaq;
- Mübahisənin həllinin alternativ yolları barədə müzakirələri və məlumatlılığı stimullaşdırmaq.

# IV. TOXUNULACAQ ƏSAS MƏQAMLAR VƏ MÜZAKİRƏ EDİLƏCƏK BAŞLICA MƏSƏLƏLƏR

16-cı fəsildə müzakirə edilən və fövqəladə vəziyyətlərlə bağlı beynəlxalq hüquqi qaydalar çərçivəsində toxunulacaq əsas məqamlar və iştirakçılarla müzakirə ediləcək başlıca məsələlər aşağıdakılardır:

- İştirakçıların fəaliyyət göstərdikləri hüquq sistemi çərçivəsində insan hüquqlarının və əsas azadlıqlarının tam təminindən geriçəkilmələr mümkündürmü?;
- Əgər mümkündürsə, iştirakçılar aşağıdakıları izah etməlidirlər:
  - Bunun həyata keçirilmə şərtləri;
  - Qərar verən orqan;
  - Hüquqların tam təminindən geriçəkilmə və ya təxirə salınma qərarı hansı hüquqlara təsir edə bilər;
- İştirakçıların çalışdıqları ölkələrdə fövqəladə vəziyyət elan olunarsa, hansı vasitələr var:
  - Fövqəladə vəziyyətin elan edilməsi barədə qərarı mübahisələndirmək;
  - Spesifik insan hüquqlarının tam təminindən geriçəkilmə barədə qərarı mübahisələndirmək;
  - Geri çəkilməyən hüquqların tam təminini araşdırmaq;
  - Spesifik işdə tətbiq olunduğu kimi, fövqəladə tədbirə zərurəti mübahisələndirmək (məsələn, şübhəli terrorçunun məhkəmədənkənar azadlıqdan məhrum edilməsi);
- Fövqəladə vəziyyət elan edilmənin və insan hüquqları öhdəliklərindən geriçəkilmənin məqsədi;
- "Fövqəladə vəziyyət" termini nə deməkdir. Əgər yaranan nəticə insan hüquqları öhdəliklərindən geriçəkilmələri tətbiq etməkdirsə, bu anlayışın hərbi hüququn, mühasirə, müstəsna və ya hərbi hazırlıq vəziyyətinin elanını əhatə edib-etməməsini müəyyən edin.
- Fövqəladə vəziyyətlə mübarizə aparmaq üçün insan hüquqlarının və əsas azadlıqlarının tam həyata keçirilməsindən geriçəkilmə nə üçün vacib ola bilər;
- Ağır böhranla mübarizə zamanı bəzi insan hüquqlarının tam həyata keçirilməsindən geri çəkilməyin hökumət üçün əks nəticə doğurmasının hansı səbəbi ola bilər;
- İştirakçıların düşüncəsində fövqəladə vəziyyətlərdə xüsusilə həssas sayıla bilən hər hansı insan hüquqları varmı;
- İştirakçıların fikrincə, dövlətlərin millətin həyatını hədələyən fövqəladə vəziyyətə konstruktiv yanaşması üçün insan hüquqları öhdəliklərindən geriçəkilməyə alternativ hər hansı vasitəsi ola bilərdimi.

# V. 16-CI FƏSİL ÜÇÜN SESSİYANIN PLANLAŞDIRILMASI CƏDVƏLİ

| Əsas məqamlar/fəaliyyət | Metod | Media | Zaman |
|---|---|---|---|
| 1. 16-cı fəslin məqsədləri | Təqdimat | Kompüter slaydları, kağız lövhə | 5 dəqiqə |
| 2. Kursun təqdimatı: Vəsaitin 16-cı fəslinə və yuxarıdakı III və IV bölmələrdəki əsas məqamlara əsasən, komanda aşağıdakı məsələlərlə bağlı təqdimat edir:<br>a. beynəlxalq insan hüquqları hüququnda fövqəladə vəziyyət anlayışı;<br>b. beynəlxalq insan hüquqları hüququnda geri çəkilməyən hüquqlar və vəzifələr. | İnteraktiv təqdimatlar | Kompüter slaydları, kağız lövhə, özüyapışan kağız | 40 dəqiqə |
| 3. Dincəliş | | | 5 dəqiqə |
| 4. 16-cı fəslin təqdimatı davam edir:<br>c. mütləq zərurətin şərtləri;<br>d. digər beynəlxalq hüquqi öhdəliklərlə uyğunluq şərti;<br>e. ayrıseçkiliyin qadağan edilməsi;<br>f. beynəlxalq xəbərdarlıq vəziyyəti. | İnteraktiv təqdimatlar | Kompüter slaydları, kağız lövhə, özüyapışan kağız | 40 dəqiqə |
| 5. Fasilə | | | 20 dəqiqə |
| 6. Çalışma və ya rol oyunu üzərində qruplarda iş | | Kağız lövhə və s. zərurət olarsa | 60 dəqiqə |
| 7. Dincəliş | | | 10 dəqiqə |
| 8. Təqdimat | Qruplar çalışma və ya rol oyunu ilə bağlı hesabat verirlər | | 60 dəqiqə |
| | | | **Ümumi vaxt: 4 saat** |

# VI. TƏLİM MATERİALLARI

## A. Kompüter slaydları (CD-ROM-a baxın)

1. Öyrənmə məqsədləri I
2. Öyrənmə məqsədləri II
3. Suallar I
4. Suallar II
5. Suallar III
6. Suallar IV
7. Əsas hüquqi mexanizmlər I: Universal mexanizmlər
8. Əsas hüquqi mexanizmlər II: Regional mexanizmlər
9. Əsas hüquqi sənədlər I: Fövqəladə vəziyyət anlayışı/müstəsna hədə anlayışı (1)
10. Əsas hüquqi sənədlər II: Fövqəladə vəziyyət anlayışı/müstəsna hədə anlayışı (2)
11. Əsas hüquqi sənədlər III: Fövqəladə vəziyyət anlayışı/müstəsna hədə anlayışı (3)
12. Əsas hüquqi sənədlər IV: Fövqəladə vəziyyət anlayışı/müstəsna hədə anlayışı (4)
13. Beynəlxalq insan hüquqları müqavilələrindən geriçəkilmələr: İşin hazırlıq mərhələsi (*travaux préparatoires*), çıxarılan nəticələr I
14. Beynəlxalq insan hüquqları müqavilələrindən geriçəkilmələr: İşin hazırlıq mərhələsi (*travaux préparatoires*), çıxarılan nəticələr II
15. Fövqəladə vəziyyət anlayışı/müstəsna hədə anlayışı I
16. Fövqəladə vəziyyət anlayışı/müstəsna hədə anlayışı II
17. Fövqəladə vəziyyət anlayışı/müstəsna hədə anlayışı III
18. Fövqəladə vəziyyət anlayışı/müstəsna hədə anlayışı IV

19. Geri çəkilməyən hüquq və vəzifələr I: Əsas hüquqi sənədlər (1)

20. Geri çəkilməyən hüquq və vəzifələr II: Əsas hüquqi sənədlər (2)

21. Geri çəkilməyən hüquq və vəzifələr III: Əsas hüquqi sənədlər (3)

22. Geri çəkilməyən hüquq və vəzifələr IV: Yaşamaq hüququ

23. Geri çəkilməyən hüquq və vəzifələr V: İşgəncənin, Qeyri-insani və ya Ləyaqəti Alçaldan Rəftar və ya Cəzanın Qadağan Edilməsi (1)

24. Geri çəkilməyən hüquq və vəzifələr VI: İşgəncənin, Qeyri-insani və ya Ləyaqəti Alçaldan Rəftar və ya Cəzanın Qadağan Edilməsi (2)

25. Geri çəkilməyən hüquq və vəzifələr VII: İnsani rəftar hüququ

26. Geri çəkilməyən hüquq və vəzifələr VIII: Köləlikdən azad olunmaq hüququ

27. Geri çəkilməyən hüquq və vəzifələr IX: Geriyə qüvvəsi olan qanundan azadlıq hüququ (1)

28. Geri çəkilməyən hüquq və vəzifələr X: Geriyə qüvvəsi olan qanundan azadlıq hüququ (2)

29. Geri çəkilməyən hüquq və vəzifələr XI: *ne bis in idem*prinsipi

30. Geri çəkilməyən hüquq və vəzifələr XII: Hüquqi şəxs kimi tanınma hüququ

31. Geri çəkilməyən hüquq və vəzifələr XIII: Düşüncə, vicdan və din azadlığı hüququ

32. Geri çəkilməyən hüquq və vəzifələr XIV: Yalnız müqavilə öhdəliyini yerinə yetirməmə əsasına görə, azadlıqdan məhrum edilməmək hüququ

33. Geri çəkilməyən hüquq və vəzifələr XV: Ailənin hüquqları

34. Geri çəkilməyən hüquq və vəzifələr XVI: Ad hüququ

35. Geri çəkilməyən hüquq və vəzifələr XVII: Uşaq hüquqları

36. Geri çəkilməyən hüquq və vəzifələr XVIII: Vətəndaşlıq hüququ

37. Geri çəkilməyən hüquq və vəzifələr XIX: Dövlət idarəetməsində iştirak hüququ

38. Geri çəkilməyən hüquqlar, səmərəli prosedur və məhkəmə müdafiəsi hüququ I

39. Geri çəkilməyən hüquqlar, səmərəli prosedur və məhkəmə müdafiəsi hüququ II

**40.** Geri çəkilməyən hüquqlar, səmərəli prosedur və məhkəmə müdafiəsi hüququ III

**41.** Geri çəkilməyən hüquqlar, səmərəli prosedur və məhkəmə müdafiəsi hüququ IV

**42.** İnsan hüquqlarından geriçəkilmələr: mütləq zərurət vəziyyəti I: Ümumi şərh yanaşması (1)

**43.** İnsan hüquqlarından geriçəkilmələr: mütləq zərurət vəziyyəti II: Ümumi şərh yanaşması (2)

**44.** İnsan hüquqlarından geriçəkilmələr: mütləq zərurət vəziyyəti III: Səmərəli vasitələr hüququ

**45.** Mütləq zərurət vəziyyəti, azadlıq hüququ, tutulma və həbslə bağlı xüsusi səlahiyyət I

**46.** Mütləq zərurət vəziyyəti, azadlıq hüququ, tutulma və həbslə bağlı xüsusi səlahiyyət II

**47.** Mütləq zərurət vəziyyəti, azadlıq hüququ, tutulma və həbslə bağlı xüsusi səlahiyyət III

**48.** Mütləq zərurət vəziyyəti, azadlıq hüququ, tutulma və həbslə bağlı xüsusi səlahiyyət IV

**49.** Mütləq zərurət vəziyyəti, azadlıq hüququ, tutulma və həbslə bağlı xüsusi səlahiyyət V

**50.** Mütləq zərurət vəziyyəti, azadlıq hüququ, tutulma və həbslə bağlı xüsusi səlahiyyət VI

**51.** Mütləq zərurət vəziyyəti, azadlıq hüququ, tutulma və həbslə bağlı xüsusi səlahiyyət VII

**52.** Mütləq zərurət vəziyyəti, azadlıq hüququ, tutulma və həbslə bağlı xüsusi səlahiyyət VIII

**53.** Mütləq zərurət vəziyyəti, ədalətli məhkəmə araşdırması hüququ və xüsusi tribunallar I

**54.** Mütləq zərurət vəziyyəti, ədalətli məhkəmə araşdırması hüququ və xüsusi tribunallar II

**55.** Mütləq zərurət vəziyyəti, ədalətli məhkəmə araşdırması hüququ və xüsusi tribunallar III

**56.** Mütləq zərurət vəziyyəti, ədalətli məhkəmə araşdırması hüququ və xüsusi tribunallar IV

**57.** Mütləq zərurət vəziyyəti, ədalətli məhkəmə araşdırması hüququ və xüsusi tribunallar V

**58.** Digər beynəlxalq öhdəliklərlə uyğunluq vəziyyəti

59. Qeyri-ayrıseçkilik vəziyyəti I

60. Qeyri-ayrıseçkilik vəziyyəti II

61. Beynəlxalq xəbərdarlıq vəziyyəti I

62. Beynəlxalq xəbərdarlıq vəziyyəti II

# B. Çalışmalar[29]

d *Çalışma 1*

Fərdi, yaxud 4-5 nəfərdən ibarət kiçik qruplara bölməklə iştirakçılara təxminən 30 dəqiqə zaman ayırın və 16-cı fəsildə müzakirə edilən məsələlərin onların çalışdıqları ölkənin yerli hüquq sistemlərinə uyğun analiz edilməsini təmin edin. İştirakçılar 3 və ya 4-dən çox olmayan önəmli məsələ seçməlidirlər və bu mövzuların müvafiq ölkədə fövqəladə hallarda insan hüquqlarının səmərəli müdafiəsi baxımından hansı narahatlıq və/və ya problem doğura biləcəyini müəyyən etməlidirlər.

Əgər onların yerli hüququnda insan hüquqlarının qorunması 16-cı fəsildə təsvir olunmuş müvafiq beynəlxalq standartlardan geri qalırsa, iştirakçılar bu çatışmazlıqların qanunvericilik və təcrübədə necə müdafiə oluna bilməsinə dair öz təkliflərini hazırlamağa çalışmalıdırlar.

Bu çalışmada toxunulası məsələlərə aşağıdakıları göstərmək olar:

- Dövlət fövqəladə vəziyyət anlayışı (müstəsna vəziyyət, fövqəladə vəziyyət, mühasirə vəziyyəti, hərbi hazırlıq vəziyyəti, hərbi vəziyyət və s. terminlərlə ifadə oluna bilər) Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 4 (1), Amerika İnsan Hüquqları Konvensiyasının 27 (1) və/və ya Avropa İnsan Hüquqları Konvensiyasının 15 (1)-ci maddələrində əks olunan fövqəladə anlayışlarına uyğundurmu və nə dərəcədə uyğundur;
- Beynəlxalq insan hüquqları hüququ ilə geri çəkilməyən (məhdudlaşdırıla bilməyən və ya mütləq) hüquq və vəzifələr yerli hüquqla geri çəkilməyən edilibmi və nə dərəcədə edilib;
- Yerli hüquqdakı geri çəkilməyən hüquqların **təcrübədə** yerinə yetirilməsində hər hansı problemlər mövcud ola bilərmi:
- Beynəlxalq hüquqa əsasən, insan hüquqları öhdəliklərindən geriçəkilmələr üçün digər şərtlər müvafiq yerli hüquqda əks olunubmu – kəskin zərurət şərti; dövlətin digər beynəlxalq öhdəlikləri ilə uyğunluq şərti və ayrıseçkiliyin qadağan olunması;
- Fövqəladə tədbirlərin qanunsuz həyata keçirilməsinin qarşısını almaq üçün məhkəmə və ya inzibati vasitələrin və təminatların mövcudluğu.

[29] **Fasilitator üçün məlumat:** Bu fəsildəki çalışmalar və müzakirə mövzularının, eləcə də kazusla işin **ilk** məqsədi iştirakçıların 16-cı fəsildəki təlim sessiyası zamanı öyrəndikləri önəmli məlumatı tətbiq etməsidir. **İkinci** məqsəd iştirakçıları fövqəladə vəziyyətin kökündəki problemlər barədə düşünməyə və bu problemlərin insan hüquqları öhdəliklərindən geri çəkilmədən necə həll edilə bilməsinin müzakirəsinə həvəsləndirməkdir. Belə bir fikir ifadə olunub ki, "bəzi durumlarda onların faydalı və vacib olmasına" baxmayaraq, belə geriçəkilmələrin "münaqişəli vəziyyətlərdə bir həll variantı kimi qəbul edilməməsi" "vacibdir"; təcrübə göstərib ki, insan hüquqları öhdəliklərinin məhdudlaşdırılması "bütün hallarda sülh və asayişin bərpası üçün ən azından uzun müddətə ən yaxşı vasitə ola bilməz" və "ona görə də insan hüquqlarından istifadəyə" qeyri-adi "məhdudiyyətlər yalnız bir neçə münaqişə həlli alətindən biri hesab olunmalıdır, buraya cəmiyyətin müxtəlif səviyyələrində siyasi, sosial, iqtisadi və mədəni təşəbbüs və tədbirləri də daxil ola bilər" (Anna-Lena Svensson-McCarthy, *The International Law of Human Rights and States of Exception,* s. 723).

d **Çalışma 2**

Bu çalışmanın hədəfi hazırda fövqəladə vəziyyətdə olan, yaxud millətin həyatına təhlükə yaradacaq tam fövqəladə vəziyyətə çevrilmə potensiallı gizli böhran yaşayan ölkədə çalışan iştirakçılardır. İştirakçıların 4-5 nəfərlik kiçik qruplarda, yaxud da mümkünsə fərdi şəkildə təxminən 30 dəqiqə ərzində bunları tənqidi təhlil etmələrini təmin edin:

1 Cəmiyyəti ümumilikdə qanunsuz, yaxud əsassız olaraq fövqəladə vəziyyətin elan olunmasından və eləcə də, fərdləri fövqəladə tədbirlərin yanlış və sui-istifadəcil tətbiqindən qorumaq üçün hakimlər, prokurorlar və/və ya vəkillər kimi bacarıqları; və

1 Mümkün alternativ metodlar- hazırkı və potensial fövqəladə vəziyyətlərə əsaslanan münaqişələrin həlli məqsədi daşıyan, insan hüquqlarının həyata keçirilməsinə müdaxiləni istisna edən metodlar.

# C. Müzakirə mövzusu

Aşağıdakı mövzulardan biri xüsusilə cəmiyyətdəki münaqişələrin fövqəladə vəziyyətin elan olunmasına və seçmə insan hüquqlarının məhdudlaşdırılmasına aparacağı mümkün görünən ölkələrdə müzakirə mövzusu kimi istifadə oluna bilər:

**A Böhranda olan dövlət: İnsan hüquqlarının tam qorunması sülh və təhlükəsizliyə qayıdışa maneə ola bilərmi?**

yaxu
d

**Böhran zamanında insan hüquqları öhdəliklərindən geriçəkilmələr**
**Onların istifadəsinin faydaları və məhdudiyyətləri**

Hər iki halda moderator iştirakçıların aşağıda sadalanmış məsələlərə ciddi və konstruktiv tərzdə istiqamətlənməsinii təmin etməlidir. Moderator mövzunu vaxtından əvvəl diqqətlə hazırlamalı və müzakirəyə bələdçilik etmək üçün konkret fövqəladə halları hüquqi baxımdan təsvir edəcək, real, yaxud xəyali kazuslar təqdim edə bilməlidir. İştirakçıların tanış olduğu fövqəladə halı nümunə seçmək debatı stimullaşdırmağa daha çox yardım edə bilər. Müzakirədə əhatə olunmalı məsələlər bunlardır:

*Fövqəladə vəziyyətin mənşəyi, yaxud başqa sözlə, fövqəladə vəziyyətin mümkün səbəbi və səbəbləri.* Hökumətin özünü hakimiyyətdə həmişəlik saxlamaq və ona sərfəli olmayan müxalifəti susdurmaq məqsədilə, insan hüquqlarından geriçəkilmə vasitəsilə yaratdığı saxta fövqəladə vəziyyətlərin müzakirəsi bir qədər tez yekunlaşdırılmalıdır. Bu cür fövqəladə vəziyyət beynəlxalq insan hüquqları öhdəliklərindən geriçəkilmələrə bəraət qazandıra bilməz. Bunun əksinə olaraq, iştirakçılar millətin həyatına (Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, Avropa İnsan Hüquqları Konvensiyası), yaxud dövlətin müstəqilliyi və təhlükəsizliyinə (Amerika İnsan Hüquqları Konvensiyası) təhlükə yaradan əsl fövqəladə vəziyyətə fokuslanmağa çalışmalıdırlar. Fövqəladə vəziyyətin mənşəyini müəyyənləşdirmək iştirakçılara həll yolları tapmaqda yardım etmiş olar.

*Fövqəladə vəziyyəti həll etmək üçün insan hüquqları öhdəliklərindən geriçəkilmə prosesindən dövlətin qazanacağı üstünlüklər, yaxud faydalar.* Bu baxımdan, iştirakçıların fövqəladə vəziyyətin elan olunmasının və geriçəkilmə tədbirlərindən istifadənin **məqsədini** müəyyənləşdirməsini təmin edin. Moderator aydın izah etməlidir ki, geriçəkilmələrin son məqsədi insan hüquqlarının yenidən tam qoruna biləcəyi konstitusion qaydanın bərpasıdır.

***Spesifik hüquqlardan** geriçəkilmə normal vəziyyətin bərpasına **faydalı** olarmı və olarsa, bunun səbəbini izah edin.* Mümkündürsə, misallar göstərilməlidir.

***Spesifik hüquqlardan** geriçəkilmə faktiki olaraq normal vəziyyətə qayıdışa **əngəl** yarada bilərmi və əgər bilərsə, bunun səbəbini izah edin.* Mümkündürsə, misallar göstərilməlidir.

***Mübahisənin həllinin alternativ yolları** insan hüquqlarını yenidən təmin edəcək konstitusion qaydanın bərpasını hədəfləyir.* Müzakirə hüquqi, siyasi, sosial, iqtisadi və mədəni sahələr çərçivəsində və cəmiyyətin milli, regional və yerli səviyyələrində lazımi mümkün tədbirləri əhatə etməlidir.

## D. Kazusla iş[30]

**Ümumi məlumat**

Ekslandda azlıqda olan qruplardan biri üçün çətin dövrdür. Qrupun bəzi üzvləri öz xalqlarının spesifik dili, adətləri və mədəniyyətinə daha çox hörmət qazanmaq məqsədilə hökumətlə silahlı qarşıdurmaya gedirlər. Bu azlıqda olan qrupun üzvlərinə siyasi partiya yaratmağa, məktəbdə öz dillərini öyrənməyə, yaxud bu dili rəsmi istifadə etməyə icazə verilmir. Onlar öz dillərində kitablar da nəşr edə bilmirlər. Eksland hökumətinin siyasətinə qarşı çıxan silahlı qrup digər ölkələrdəki eyni etnik mənşəli xalqları da bu yolda mübarizəyə yardım etməyə həvəsləndirir.

Hökumət onların dilinin və mədəniyyətinin rəsmi tanınması tələblərinə sərt müqavimət göstərir, belə ki, hökumət qorxur ki, bu, bütünlükdə ölkənin təhlükəsizliyinə və milli birliyinə təhlükə yaradar. O, terrorçu saydığı hərəkatı məhv etməkdə qərarlıdır, ordu və xüsusi təhlükəsizlik qüvvələri qanunsuz elan olunmuş bu qrupa qarşı mübarizəyə cəlb olunurlar. Münaqişə nəticəsində hər iki tərəfdən minlərlə adam ölür, yaxud yaralanır.

Vəziyyəti düzəltmək və Ekslandda vətəndaşların çoxunun gündəlik həyatına çevrilmiş zorakılığa son qoymaq üçün hökumət fövqəladə vəziyyət elan edir və bu zaman 2008-ci il Terrorçuluq Aktına əsasən, məhkəmədənkənar tutulma, həbs və saxlama tədbirlərinin həyata keçirilməsinə yol verilib. İfadə azadlığı hüququ, eləcə də hərəkət azadlığı hüququ təxirə salınıb. Hökumət, həmçinin, həbsdə olan şəxslərin istintaq zamanı danışmağa məcbur edilməsi üçün işgəncənin tətbiqini də nəzərdən keçirir.

**Tutulma və həbs:** Polis və təhlükəsizlik qüvvələri insanları ordersiz tuta və məhkəməyə çatımlılıq olmadan 30 gün həbsdə saxlaya bilərlər. Bu müddətdən sonra azad edilən bir çox şəxs daha 30 günlüyə təkrar həbs olunub. Saxlananların ilk 7 gün ərzində vəkillə görüşmək hüququ yoxdur, bundan sonra yalnız həftədə bir dəfə polis nəzarətçisinin yanında görüşə bilərlər. Həmin 7 günlük müddətdə saxlananlar ailə və ya dostlarına azadlıqdan məhrumedilmələri barədə məlumat verə bilməzlər.

- **Saxlama**: 2008-ci il Terrorçuluq Aktı millətin təhlükəsizliyinə və bütövlüyünə təhlükə yaradan hərəkətlərdə şübhəli sayılan, ancaq onların cinayət təqibi üçün hakimiyyətin yetərli sübutunun olmadığı şəxslərin qeyri-müəyyən müddətə saxlanmasına icazə verir. Xeyli sayda şübhəli şəxs bu qanun əsasında 4 ilədək həbs olunub. Ümumi məhkəmələrə heç bir şikayət vermək hüququ yoxdur, ancaq inzibati müdafiə vasitəsi təqdim olunub ki, onun da qərarları məsləhətçi xarakter daşıyır və bu səbəbdən, hökumət üçün məcburi deyil.
- **İfadə azadlığı**: Medianın qadağan olunmuş terrorçu qrupun üzvlərinin, yaxud ona rəğbət bəsləyənlərin hər hansı bəyanatını dərc etməsi qadağandır. Eləcə də, onların hökumətin terrorçu

[30] **Fasilitatora məsləhət:** Bu kazusdakı əsas faktlar 15-ci fəsildəki kazusla iş/rol oyunu ilə eynidir. Yeni faktlar fövqəladə vəziyyətin elanına görə əlavə olunub.

fəaliyyəti sıxışdırmaq hərəkətlərinə təhlükə yaradacaq hər hansı informasiyanı açıqlaması qadağandır. Bu sərt qanuna əməl etməyən bir televiziya kanalı və üç qəzet artıq bağlanıb.

- **Hərəkət azadlığı hüququ**: Zorakılığı məhdudlaşdırmaq üçün hökumət şərq vilayətindəki əhalinin ölkənin digər hissələrinə sərbəst getməsini yasaqlayıb. Vilayətdən kənarda işləyənlərin xüsusi icazələri var, ancaq bu icazə də müstəsna hallarda, terrorçu keçmişə dair şübhələr olmayanda verilir.
- **İşgəncə**: Hökumət hüquq-mühafizə orqanlarını məlumatlandırıb ki, terrorçuluqla səmərəli mübarizə üçün zəruri olan istənilən dindirmə vasitəsini tətbiq etməyə səlahiyyətləri var.

**Müzakirə üçün suallar**

İştirakçılar aşağıdakıları müzakirə etməlidir:

- Kazusdan asılı olaraq bütün bu müxtəlif tədbirlərin Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyası, Amerika İnsan Hüquqları Konvensiyası və ya Avropa İnsan Hüquqları Konvensiyasına uyğun olaraq **qanuniliyi**;
- Ekslandın üzləşdiyi fövqəladə vəziyyətlə mübarizədə bu fövqəladə vəziyyət tədbirlərinin **faydası, yaxud potensial səmərəsi**;

və nəhayət,

- Ekslanddakı münaqişənin bitməsinə və ölkənin normal hala qayıtmasına yardım edən **mübahisənin həllinin** digər **metodlarını** və ya **vasitələrini** təklif etməyə çalışın.

## E. Rol oyunu[31]

### *I HİSSƏ: FAKTLAR*

**Ümumi məlumat**

Ekslandda azlıqda olan qruplardan biri üçün çətin dövrdür. Qrupun bəzi üzvləri öz xalqlarının spesifik dili, adətləri və mədəniyyətinə daha çox hörmət qazanmaq üçün hökumətlə silahlı qarşıdurmaya gedirlər. Bu azlıqda olan qrupun üzvlərinə siyasi partiya yaratmağa, məktəbdə öz dillərini öyrənməyə, yaxud bu dili rəsmi istifadə etməyə icazə verilmir. Onlar öz dillərində kitablar da nəşr edə bilmirlər. Hökumət onların dilinin və mədəniyyətinin rəsmi tanınması tələblərinə qəti müqavimət göstərir, çünki qorxur ki, bu, bütünlükdə ölkənin təhlükəsizliyinə və milli birliyinə təhlükə yaradar. O, terrorçu saydığı hərəkatı məhv etməkdə qərarlıdır, ordu və xüsusi təhlükəsizlik qüvvələri qanunsuz elan olunmuş bu qrupa qarşı mübarizəyə cəlb olunurlar. Münaqişə nəticəsində hər iki tərəfdən minlərlə adam həlak olur, yaxud yaralanır. Böyük miqyasda mülkiyyətə ziyan dəyir.

.

[31] **Fasilitatora məsləhət:** Əsas faktlar əvvəlki kazusda olduğu kimidir, ancaq beynəlxalq monitorinq orqanına təqdim olunmuş fərdi işlərə uyğunlaşdırılmaq üçün bir qədər inkişaf etdirilib. Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakta istinad təlimin keçirildiyi regiondan və iştirakçıların çalışdığı ölkənin müqavilə öhdəliklərindən asılı olaraq, İnsan və Xalqların Hüquqları haqqında Afrika Xartiyası, Amerika İnsan Hüquqları Konvensiyası, yaxud Avropa İnsan Hüquqları Konvensiyası ilə əvəzlənə bilər. Bu rol oyununa hazırlaşmaq lazımdır və maksimum faydalanmaq üçün planlaşdırıldığından 1 gün əvvəl iştirakçılara paylanmalıdır.

Vəziyyəti düzəltmək və Ekslandda vətəndaşların çoxunun gündəlik həyatına çevrilmiş zorakılığa son qoymaq üçün hökumət fövqəladə vəziyyət elan edir və bu zaman 2008-ci il Terrorçuluq Aktına əsasən, məhkəmədənkənar tutulma, həbs və saxlama tədbirləri müəyyən edilir. Terrorçuluq fəaliyyətinə dair bütün mövzularla bağlı ifadə azadlığı hüququ da təxirə salınır.

**Şerlok və Nelsonun işi üzrə faktlar**

Şerlok və Nelson 15 oktyabr 2008-ci ildə Eksland Parlamenti qarşısında bomba partlayışı zamanı qaçmağa cəhd göstərərkən tutulurlar. Partlayışda xeyli adam həlak olur, xeyli vətəndaş yaralanır və bu, terrorçuluğa qarşı mübarizəni gücləndirən hökumətə növbəti zərbə olur. İctimai binalarda və müxtəlif digər ictimai yerlərdə gizli kameralar daxil olmaqla, güclü təhlükəsizlik tədbirlərinə baxmayaraq, bir və ya daha çox şəxs Parlament qarşısında saxlanmış bir maşına bomba yerləşdirə bilir. 5 polisdən ibarət bir qrup dərhal Şerlok və Nelsonu aşkarlayır və 2008-ci il Terrorçuluq Aktına uyğun olaraq ordersiz tutur. Polis onların qəribə davrandığını düşünür. Şerlok və Nelson tutulandan sonra 7 gün ərzində vəkillə əlaqə yarada bilmirlər, bundan sonra isə vəkilləri ilə yalnız həftədə yarım saat 2 təhlükəsizlik işçisinin nəzarəti altında görüşə bilirlər. Onlar yalnız 48 saatdan sonra ailə üzvlərinə azadlıqdan məhrumedilmələri barədə məlumat verə bilirlər.

Şerlok və Nelson həbslərinin qanuniliyini mübahisələndirmək üçün məhkəməyə şikayət verirlər. Ancaq hakim səlahiyyətinin olmaması səbəbindən şikayəti rədd edir, belə ki, tutulma və həbs Terrorçuluq Aktına əsasən, İcra hakimiyyətinin səlahiyyəti çərçivəsindədir.

28 oktyabr 2008-ci ildə Eksland Daxili İşlər Naziri Şerlok və Nelsonun qeyri-müəyyən müddətə saxlanılmalarına qərar verir, çünki onlar qanunsuz terrorçu fəaliyyətə qoşulmaqda şübhəli sayılırlar. Bundan başqa, onlara qarşı cinayət təqibini davam etdirməməyə qərar verilir, çünki ittiham hökmü üçün yetərli sübut yoxdur və hakimiyyət şübhəli şəxslərin bəraət alması ilə bağlı riskə getmək istəmir. Çünki, belə olan təqdirdə Şerlok və Nelson məhkəməyə üstünlük verərək, təqsirsizliklərini sübut edə biləcəklər.

Onlar artıq 3 ildir ki, həbsdə saxlanılırlar və bu müddət ərzində saxlamanın qanuniliyini ümumi məhkəmədə mübahisələndirmək imkanları olmayıb. Saxlanan şəxslərin şikayətləri ilə məşğul olmaq üçün yaradılmış inzibati orqan ancaq məsləhətçi rolunu oynayır. Bundan əlavə, həbsdə saxlanılma şəraiti çox ağırdır və Şerlok və Nelson ilk gündən təcrid olunmuş kiçik, qaranlıq kameralarda saxlanılır və onların hətta digər məhkumlarla birgə idman etməsinə belə icazə verilmir. Həbs və saxlanılmalarının ilk həftələri ərzində onlar mütəmadi olaraq ağır dindirməyə məruz qalırlar və ifadələri alınarkən başları örtülür. Danışmağa məcbur edilmək üçün onları döyür və təhqir edirlər. Pis rəftara dair şikayətlərə müvafiq qurumlar tərəfindən baxılmır.

Şerlok həbsxanada bir məqalə yaza bilir. O, məqalədə fövqəladə tədbirləri aşırı adlandırır və özünün və Nelsonun təqsirsiz olmasında israr edir. Amma fövqəladə vəziyyət olduğuna görə bir qəzet istisna olmaqla, digər bütün qəzetlər bu məqalənin dərcindən imtina edirlər. Məqaləni dərc etməyə qərar verən qəzet müsadirə olunur və üzərinə ağır cərimə qoyulur. Şerlok və qəzetin baş redaktoru olan George fövqəladə qaydaları pozduqlarına görə, 6 ay azadlıqdan məhrumetmə cəzası alırlar.

## I HISSƏ: SUALLAR VƏ ARQUMENTLƏR

Şerlok və Nelson sonda fövqəladə tədbirlərin müxtəlif aspektləri, xüsusilə tutulmaları, həbsi və Şerlokun məhkumuğu barədə İnsan Hüquqları Komitəsinə şikayət etmək qərarına gəlirlər. Gözlənildiyi kimi, baş redaktor George azadlıqdan məhrum edilməsindən məyusdur və Şerlok və Nelsonun şikayətinə qoşulmağa qərar verir:

1. Siz ***Şerlok, Nelson və George adından*** işi İnsan Hüquqları Komitəsinə təqdim edən hüquqşünassınız. Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın müvafiq maddələrinə, o cümlədən 4-cü maddəsinə əsaslanmaqla, aşağıda sadalanan məsələlərlə bağlı bacardığınız qədər arqumentlər irəli sürün:

   (a) Müstəqil və qərəzsiz məhkəmə mühakiməsinin təmin olunmaması da daxil olmaqla, Şerlok və Nelsonun tutulma və saxlanılmalarının qanuniliyi;

   (b) Onların həbsinin və iddia etdikləri pis rəftarın şəraiti;

   (c) (a) və (b) ilə bağlı yerli vasitələrin olmaması;

   (d) Şerlokun məqaləsinin nəşr olunması nəticəsində fövqəladə tədbirləri pozduğuna görə Şerlok və Georgenin azadlıqdan məhrum olunmaları;

   (e) Bu məsələləri Paktın 4-cü maddəsində nəzərdə tutulan geriyəçəkilmə şərtləri çərçivəsində mübahisələndirin.

2. Siz ***Dövlət*** tərəfi təmsil edən və terrorçu fəaliyyətlə mübarizə tədbirlərini müdafiə edən hüquqşünassınız.: Siz Dövlət tərəfindən həyata keçirilən tədbirlərə bəraət qazandırmalı və Şerlok, Nelson və Georgenin adından təqdim edilən arqumentlərə 1(a)dan (e)-yə əsasən qarşı çıxmalısınız. Bütün arqumentlərinizi Paktın müvafiq müddəaları ilə əlaqələndirin.

6. Siz ***Insan Hüquqları Komitəsinin*** üzvlərisiniz: 1 (a)-dan (e)-yə qədər meydana çıxan hüquqi məsələlər üzrə necə qərar verərdiniz. Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın müvafiq müddəalarına və təlim zamanı öyrəndiyiniz insan hüquqları mexanizmlərinə ən geniş formada istinad edərək, bu məsələləri mümkün qədər ehtiyatla mübahisələndirin.